Əla Həssun

# ŞİƏ MƏZHƏBİNDƏ TÖVHİD

313news

**Əla Həssun**

# ŞİƏ MƏZHƏBİNDƏ TÖVHİD

**313news.net**

**Layihə rəhbəri : 313news.net**

## Müəllifin müqəddiməsi

İnsan Tövhid məsələlərini daha dərindən bildikcə dünyagörüşünü genişləndirəcək, fikir və maarif müstəvisində dini səviyyəsi bir o qədər yüksələcək və həqiqi dini əqidəyə sahib olacaqdır. Məhz bu səbədən bu kitab qələmə alınmışdır. Bu kitab Əhli-Beyt (ə) məzhəbinin ardıcıllarının dinin birinci əqidə prinsipi olan tövhid əqidəsini bəyan etmək məqsədini daşıyır.

Bu tədqiqatda tövhid əqidəsilə əlaqəsi olan ideoloji məlumatları geniş surətdə, yarımbaşlıqlar formasında və izahlı bölgülərlə bəyan etməyə çalışdım. Məqsəd oxucunun qaydalar əsasında elmi prinsiplərə əsaslanan tövhid əqidəsinə sahib olmasıdır.

Bu müqəddimədə işarə etmək istədiyim əhəmiyyətli məsələlərdən biri də budur ki, tövhid əqidəsinə aid olan həqiqətləri dərk etməyə olan ehtiyac hissi, insanı bu həqiqətlər barədə araşdırma aparmağa təşviq edir. Amma bilgisini artırmaq istəməyən, xüsusilə də, sahib olduğu əqidə mirası ilə kifayətlənən insan bu həqiqətləri araşdırmağa ehtiyac hissi duymur. Bu həqiqətlərə qarşı təşviq və cazibə hiss etmir.

Qeyd etmək istədiyim digər bir məsələ isə budur ki, bu kitab oxucuya tövhidlə bağlı həqiqətlərdən xəbərdar olmaq və onları dərk etmək imkanı verir. Bilgi bəsirət əldə etmək üçün tam səbəb deyil, səbəbin müəyyən hissəsidir. Həmin səbəbin digər hissəsi isə qəlbdəki maneələri aradan aparmaqdır.

Bu maneələrin ən bariz nümunəsi zahiri və batini günahların qəlbdə yaratdığı azğınlıq, mənəvi çirkinlik kimi ifadə olunan mənfi təsirlərdir.

Qəlblə elm arasında olan maneələrin təsir dərəcəsindən asılı olaraq insan elmin nurundan istifadə edə bilmir.

Buna əsasən də elə insanlara rast gəlirik ki, Allahın varlığı və sifətləri barəsində elmə sahib olsa da, əməl cəhətindən onlarla Allah-taalanın

varlığını inkar edənlər arasında heç bir fərq yoxdur. Hətta elə insanlara rast gəlirik ki, elm nurundan bir şölə əldə edərək başqalarının yolunu işıqlandırırlar, lakin özləri heç vaxt bu nurdan faydalanmırlar. Çünki qəlbləri həvayi-nəfsin hicablarının əsarətində qalması və mənəvi çirkinliklərə bulaşması nəticəsində züləmətə qərq olmuşdur. Bu çirkinlikləri və hicabları aradan qaldırmağın yolu əməli yolla nəfsi islah etmək və həyatın şirinikləndirici amilləri qarşısında onun cilovunu əldə saxlamaqdır. Ümumiyyətlə, elm özlüyündə məqsəd deyil. Elm yalnız insanın həqiqi kamilliyinə çatması üçün bir vasitədir.

Bu cür müsbət təsir yaratmayan elm insanın bu dünyada əzbərlədiyi məfhumlardan başqa bir şey deyil. Axirətdə isə bu elm onun üçün bəla və əleyhinə olacaq dəlilə çevriləcək.

Əslində həqiqi hədəf bəsirət səviyyəsinə çatmaq, Allah-taalaya mütləq iman çeşməsindən sirab olmaq, təqva dolu bir həyat yaşamaqla ömrü başa vurmaqdır.

Əla Həssun

# MÜNDƏRİCAT


Birinci fəsil: Allah-taalanın varlığı ..... 1

Allah-taalanın varlığı məsələsinin xüsusiyyətləri ..... 2

Fitrət yolu ilə Allahın varlığının isbatı ..... 3

Nizam dəlili ..... 7

Hudus dəlili ..... 11

İmkan dəlili ..... 24

İkinci fəsil: Allahı tanıma ..... 28

Allah-taalanı tanımanın vacibliyi ..... 29

Hiss üzvlərinin Allah-taalanı tanımada aciz olması ..... 30

Allah-taalanı tanımağın yolu ..... 36

Üçüncü fəsil: Allah-taalanın sifətləri ..... 38

Sifətləri vasitəsilə Allahı tanımaq ..... 39

Allah-taalanın sifətlərinin toxunulmaz olması ..... 42

Allah-taalanın sifətlərinin qisimləri ..... 44

Allah-taalanın tənzihi (naqisliklərdən uzaq tutan) sifətlərinin xüsusiyyətləri. ..... 45

Allahın sübuti sifətlərinin xüsusiyyətləri ..... 46

Allahın zati sifətləri zatı ilə eynidir, yoxsa zata əlavə edilmişdir? ..... 48

Dördüncü fəsil: Allah-taalanı naqisliklərdən uca olmasını bildirən sifətləri ..... 60

İttihad ..... 61

Ehtiyac ..... 62

Mürəkkəblik ..... 64

Cismanilik ..... 65

Cəhət ..... 67

Cövhər və ərəz ..... 70

Məhdudluq ..... 70

Hərəkət və sükunət ..... 71

Hulul ..... 72

Hadis olanlar ..... 73

Görmək ..... 74

Zaman ..... 74
Bənzərlik ..... 75
Şərik ..... 75
Zidd ..... 77
Hiss olunan keyfiyyətlər. ..... 78
Ləzzət və acı çəkmə. ..... 79
Misl – Oxşar ..... 81
Məkan ..... 83
Beşinci fəsil: Allah-taalanı gözlə görmək ..... 87
Allahı gözlə görməyin mənası ..... 88
Şiə və əhli-sünnənin Allahı görmək barədə əqidəsi ..... 89
Allahı gözlə görməyin qeyri-mümkün olmasının dəlilləri ..... 90
Allahı gözlə görməyin mümkün olmasını deyənlərin dəlilləri və həmin dəlillərin müzakirəsi ..... 94
Altıncı fəsil: Allah-taalanın vəhdaniyyəti (vahidliyi) ..... 104
Allahın əhədiyyəti və vəhdaniyyətinin mənası ..... 105
Qurani-kərimdə Allahın əhədiyyəti və vəhdaniyyəti ..... 106
Allah-taalanın əhədiyyəti və vəhdaniyyəti ..... 108
İki ilaha inananlar ..... 113
Üçlüyə etiqad edənlər ..... 115
Allah-taala və övlad seçmək ..... 118
Bütlərə ibadət ..... 120
Allahın vəhdaniyyətinin qisimləri ..... 122
Yeddinci fəsil: Allah-taalanın həyatı ..... 124
Həyatın mənası ..... 125
İlahi zatın həyat sifətinin sübutunun dəlilləri ..... 127
Allah-taalanın həyatının xüsusiyyətləri ..... 128
Qurani-kərim və Əhli-Beyt(ə) hədislərində Allahın həyat sifəti ..... 129
Səkkizinci fəsil: Allah-taalanı elm sifəti ..... 131
Elmin mənası ..... 132
Elmin növləri ..... 133
Allah-taalanın elminin xüsusiyyətləri ..... 135

Allah-taalanın elminin keyfiyyəti ..... 138
Allah-taalanın elminin qisimləri ..... 139
Allahın zati elmi ..... 140
Allahın zatına olan elmi ..... 142
Varlıqları yaratmadan əvvəl Allahın elmi ..... 144
Allah-taala varlıq aləmini yaratdıqdan sonra ona olan elmi (feli elm) ..... 149
Allah-taalanın elminin sonsuzluğu ..... 152
Doqquzuncu fəsil: Allah-taalanın dərk etməsi ..... 155
İdrakın mənası (lüğəti və terminoloji mənası) ..... 156
İdrakın elmlə əlaqəsi ..... 157
İdrakın həyatla bağlılığı ..... 159
Allah-taalanın idrak sifətinin xüsusiyyətləri ..... 160
Onuncu fəsil: Allah-taalanın eşitməsi və görməsi ..... 161
Allah-taalanı eşidən və görən sifətləri ilə vəsf etməyin həqiqəti ..... 162
Görmə və eşitmənin elmlə əlaqəsi ..... 164
Allah-taalanın eşidən və görən olmasının əqli dəlilləri ..... 167
On birinci fəsil: Allah-taalanın qüdrəti ..... 171
Qüdrətin mənası (lüğəti və terminoloji mənası) ..... 172
Qüdrətin qisimləri ..... 177
Allah-taalanın qüdrətinin isbatı ..... 179
Allah-taalanın qüdrətinin xüsusiyyətləri ..... 180
Allah-taalanın qüdrətinin sonsuzluğu ..... 183
Allah-taalanın qüdrətinin dəlilləri ..... 187
On ikinci fəsil: Allah-taalanın məşiyyət və iradəsi ..... 197
Allah-taalanın fellərinin keçdiyi mərhələlər ..... 198
Allah-taalanın məşiyyətinin məna və qisimləri ..... 200
Allah-taalanın məşiyyətinin xüsusiyyətləri ..... 201
İradənin lüğəti və terminoloji mənası ..... 203
Allah-taalanın iradəsinin qisimləri ..... 205
Allahın iradəsi zati sifətdir, yoxsa feli sifətdir? ..... 215
Allah-taalanın iradəsinin xüsusiyyətləri ..... 217

İradənin pis və yaxşı olması ..... 218
İnsanların pis fellərinə Allahın iradəsinin şamil olmaması ..... 219
Allahın bəzi əməlləri bəyənməməsi ..... 222
Onüçüncü fəsil: Bəda ..... 224
Bəda məsələsinin xüsusiyyətləri ..... 225
Bədaya etiqad etməyin əhəmiyyəti ..... 226
Bədanın mənası ..... 227
Allahın fellərində bədanın baş vermə keyfiyyəti və səbəbləri ..... 229
Bəda adlanmasının səbəbi ..... 232
Allah-taala üçün aşkar olmanın mənası ..... 234
Bəda və lövhul-məhvi vəl-isbat ..... 239
Allah-taala üçün bədanın baş verməsinin nümunələri ..... 241
Bəda əqidəsinin əhəmiyyəti ..... 247
Bəda və yəhudilərin əqidəsinə rəddiyyə cavabı ..... 249
Bəda və peyğəmbərlərin qeyb barədə xəbər verdiklərinin baş verməməsi ..... 251
Bədada istisna olunan hallar ..... 254
Bəda ilə nəsx arasındakı oxşarlıq və fərq ..... 256
On dördüncü fəsil: Allah-taalanın kəlamı ..... 260
Allah-taalanın kəlamı məsələsinin xüsusiyyətləri ..... 261
Kəlam və mutəkəllimin mənası, kəlamın növləri ..... 262
Allahın mütəkəllim sifəti ilə vəsf olunması ..... 264
Allah-taalanın kəlamının həqiqəti ..... 265
Allah-taalanın kəlamım qədim və ya hadis olması ..... 270
Allah-taalanın kəlamının doğruluğu ..... 285
On beşinci fəsil: Allah-taalanın xəbəri sifətləri ..... 286
Allah-taalanın xəbəri sifətlərinin tərifi ..... 287
Allahın xəbəri sifətlərinin izahı barədə ən əsas rəylər ..... 290
Xəbəri sifətlərin ifadə etdiyi mənaların bəyanı ..... 296
On altıncı fəsil: Allah-taalanın adları ..... 315
Adın mənası və qisimləri ..... 316
Allah-taalanın adlarının məqsədi ..... 318

Əsmaul-husna (gözəl adlar) ..... 319
Allah-taalanın adlarının sayı ..... 320
Allah-taalanın adlarının xüsusiyyətləri ..... 322
Allah-taalanın adlarının toxunulmaz olması ..... 325
Allahın adlarının bəyanı və mənalarının izahı ..... 328
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..... 415

## Birinci fəsil: Allah-taalanın varlığı

### Allah-taalanın varlığı məsələsinin xüsusiyyətləri

### Fitrət yolu ilə Allahın varlığının isbatı

### Nəzm dəlili

### Hudus dəlili

### İmkan dəlili

## Birinci mövzu

## Allah-taalanın varlığı məsələsinin xüsusiyyətləri

Qurani-kərim tövhid mövzusunu Allahın vəhdaniyyəti, üluhiyyəti (ilahlığı), rübubiyyəti və tövhidin digər mərhələləri baxımından izah edir.

Qurani-kərimdə Allah-taalanın varlığının sübutu barədə aşkar dəlil qeyd olunmamışdır, çünki Qurani-Kərim Allahın varlığı məsələsini sübuta yetirilmiş bir məsələ kimi təqdim edir. Sanki bu məsələ isbat və dəlilə ehtiyacı olmayan bədihi bir məsələdir.

Məhz buna əsasən də, Allah-taala belə buyurur: **"*Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?!*"**[1]

**Qeyd:** Əsrlər boyu bəşəriyyətin qarşılaşdığı əsas problem Allahın varlığı məsələsi deyil, Allahın vəhdaniyyəti və rübubiyyəti məsələsi olmuşdur.

Buna əsasən də, Allahın varlığının tövhidi (təkliyi) dinin əqidə prinsipləri arasında birinci prinsip olmuşdu. Allahın varlığının isbatı məsələləsi isə, dinin əqidə prinsiplərinin birincisi olmamışdır.

**Allahın varlığının isbatının ən əsas yolları:**

**Birinci:** Fitrət yolu. Növbəti mövzuda bu yolu müfəssəl surətdə izah edəcəyik.

**İkinci:** Deduksiya, yəni "hudus və imakan" dəlili kimi əqli nəticələrlə dəlil gətirmək. Növbəti mövzularda bu dəlilləri müfəssəl (təfsilatlı) şəkildə izah edəcəyik.

[1] İbrahim, 10

## İkinci mövzu

## Fitrət yolu ilə Allahın varlığının isbatı

### Fitrət

Fitrət insanın batinində uca başlanğıca (Allaha) doğru cazibə olan gizli bir xəzinədir. Bu mənbə (duyğu) insanı, onun dərinliklərində olan gizli həqiqətlərə yönəldir, dini və mənəvi baxımdan ruhi susuzluğunu sirab etməyə təşviq edir.

### Fitri məsələlərin xüsusiyyətləri:

1. Hər bir insanın batinində, içində mövcuddur;
2. Təlim və təlqinə ehtiyac olmadan, daxili ilham nəticəsində oyanır;
3. Kənar amillərin təsirinə tabe olmur;[2]
4. Aktiv və passiv halda ola bilir, lakin sabitdir və onun tamamilə aradan getməsi mümkün deyildir.

### Fitrət və Allahın varlığına iman

### Allahın varlığına iman gətirmək fitri məsələdir

Dəlil: əsrlər boyu müxtəlif xalqlardan ibarət olan bəşər övladının daxilində pərəstiş və ibadət etmək duyğusunun olması, bizə bu duyğunun fitri olmasını deməyə vadar edir. Əgər bu duyğu:

1. Bəzi insanlarda olsaydı və digərlərində olmasaydı;
2. Təlimə və öyrənməyə ehtiyac olsaydı;
3. Kənar amillərə və vəziyyətlərə tabe olsaydı;
4. Bəşər övladının batinində sabit olmasaydı;

Əgər qeyd olunanlar kimi olsaydı, bu pərəstiş etmə duyğusu yalnız qeyd olunan şərtləri özündə cəm edənlərdə yaranardı. Həmçinin, bu

[2] Coğrafi, siyasi, iqtisadi və bu kimi amillərin təsirinə tabe olmur.

duyğu bəzi insanlarda, yaxud bəzi təbəqələrdə, yaxud da bəzi xalqlarda olardı, lakin reallıq tamamilə bunun əksini üzə çıxarır. Biz görürük ki, bu ibadət duyğusu hər bir insanın daxilində baş qaldırır. Hər bir insan həyatının bir anında, xüsusilə də, bəla və müsibət anlarında bu duyğunu hiss edir.

Bununla da sübuta yetir ki, ibadət etmək duyğusu insan daxilində olan fitri bir məsələdir. Bu duyğu yuxarıda qeyd etdiyimiz fitri məsələlərin bütün xüsusiyyətlərini ehtiva edir.

**Qeyd:**

1. Allah tanıma xüsusunda fitri məsələlər iki qismə bölünür:

1) Allahı fitri tanıma kimi fitri olaraq dərk olunanlar. Buna əsasən də təlimə ehtiyacı olmadan Allah tanıma fitri tanıma adlanır.

İkinci: Allaha fitri olaraq ibadət etmək kimi fitri rəğbətlər və meyillər. Buna əsasən də hər bir insanın daxilində Allahın varlığını duymaq və Ona ibadət etmək fitri olaraq Allaha ibadət etmək və ya fitri dindarlıq adlanır.[3]

2) İnsan özünü sevmək, xeyri sevmək, şöhrət və mənsəb sevmək kimi məsələlərə fitri olaraq meyilli olduğu kimi fitri olaraq Allaha ibadət etməyə meyl edir.

3) Fitrət Allahın varlığına iman gətirmək üçün ilkin amil hesab olunur. Sonra isə bu iman ağıl vasitəsilə kamilləşir.

Başqa sözlə desək:

Fitrət insanda Allah-taalaya doğru üz tutmaq və meyl yaradır. Allah-taalaya gedən yol isə ağıldır. Peyğəmbərlərin vəzifəsi ağıla müraciət edib dəlil və sübutla onu qane etməkdir.

[3] Bax; Məhəmməd Təqi Misbah Yəzdi, “Durusun fil-əqidətil-islamiyyəti”. Beşinci dərs, s. 31.

4. Allahın varlığına inanmağa müxalif olan ideoloji cərəyanlar insanın imana doğru fitri duyğusunu zəiflədə bilər. Lakin bu cərəyanlar bu duyğunu tamamilə aradan aparıb onu birdəfəlik yox edə bilməz.

5. Peyğəmbərlərin ən bariz vəzifələri insanları bütlər, günəş, ay və digər ibadətə ləyaqəti olmayanların, yəni yaranmışların ibadətindən çəkindirməkdir. Bununlada insanların ibadətə olan fitri meyillərinin yalançı ilahlara yönəlməsinin qarşısını almış olurlar.

**Əhli-Beyt (ə) hədislərində fitrət**

1. Rəsulullah (s) buyurub: "Dünyaya gələn hər kəs fitrət üzrə (Allah tanıma üzrə) doğulur.[4] Yəni yaradanı olan Allah-taalanı tanıma üzərində dünyaya gəlir.

2. ***"(Ey Peyğəmbər!) haqqa tapınaraq qəlbini bu dinə sarı döndər. Allah həmin fitri din əsasında insanları yaratmışdır..."***[5] ayəsinin təfsirində Əhli-Beyt imamları (ə) belə buyurmuşlar:

İmam Məhəmməd bin Əli əl-Baqir (ə) buyurub: "Bu, insanların fitri din əsasında yaranmasıdır. Allah varlığı Onu tanıma əsasında yaratmışdır".[6]

Həmçinin buyurub: "(Allah) onları Özünü tanıtma əsasında, onların Rəbbi olmasını tanıma əsasında yaratmışdır. Əgər belə olsaydı onlardan "Rəbbiniz kimdir?" və ya "Ruzi verəniniz kimdir?" - deyə soruşulduqda cavab tapa bilməzdilər".[7]

İmam Cəfər bin Məhəmməd Sadiq (ə) buyurub: "(Allah) insanları tövhid əsasında xəlq etmişdir".[8]

---

[4] Şeyx Kuleyni – "əl-Kafi", cild 2, kitabul-iman, bab fitrətil-xəlq, s. 13, hədis 3.

[5] Rum, 30

[6] Əbu Cəfər Bərqi – "əl-Məhasin", cild 1, bab cəvamiu minət-tövhid, s. 375, hədis 834

[7] Həmin mənbə, cild 1, s. 375, hədis 835.

[8] Şeyx Səduq – "ət-Tövhid", bab fitrətullah, s. 321, hədis 5.

3. İmam Cəfər Sadiqdən (ə) **"*(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: "Biz bundan qafil idik"***[9] ayəsi barədə soruşdular. Belə buyuyrdu: "Mərifət (Allah tanıma) qəlblərində sabit oldu. Lakin bu hadisəni unutdular. Bir gün bunu xatırlacayaqlar. Əgər bu baş verməsəydi heç kim yaradanının və ruzi verəninin kim olduğunu bilməzdi".[10]

[9] Əraf, 172

[10] Əbu Cəfər Bərqi, "əl-Məhasin", cild 1, bab cəvamiu minət-tövhid, s. 378, hədis 836; Əllamə Məclisi - "Biharul-ənvar", cild 3, s. 280, hədis 16

## Üçüncü mövzu

## Nizam dəlili

**Nizamın mənası:**

Burada nizam müəyyən bir vəzifənin icrası üçün varlıqlar arasında mövcud olan uyğunluq və bağlılıqdır. Məsələn:

1. Bu səhifədə gördüyün sözlər elə tərtib olunmuşdur ki, müəyyən bir məqsədi başa düşə biləsən. Məhz buna əsasən də bu kəlmələrin nizamlı olduğu deyilir. Əgər bu sözlər kortəbii şəklidə yazılsaydı nəzərdə tutulan məqsəd hasil olmazdı.

2. Binanın tikilməsi üçün lazım olan inşaat materialları mühəndis tərəfindən nizamlı istifadə olunub öz yerində işlədilərsə, yaşayış evi formasında tərtib olunarsa, nəticə nizamlı bir iş adlanacaq.

3. Radio ixtira edən bu cihazın detallarını elə tərtib edib quraşdırmışdır ki, radiostansiyaların göndərdiyi səs dalğalarını tuta bilsin. Bu halda həmin detalların nizamlı formada tərtib edildiyi deyilir. Lakin həmin detallar nizamlı formada quraşdırılmadan bir qutunun içərisinə yerləşdirilərsə, stansiyalardan yayılan səs dalğalarını qəbul edə bilməyəcək. Bu halda ona nizamsız bir iş deyiləcək.

**Nizam dəlilinin izahı:**

İnsan göylərə, yerə və onların arasında olan varlıqlara nəzər salaraq diqqətlə düşünərsə, bu varlıqların ən gözəl nizamda və biçimdə yaradıldığını görəcəkdir. İnsan ağlı buna əsasən belə hökm edir:

Bu nizamı tərtib edən hikmətli birinin olması labüddür.

Bu quruluşun, sistemin elmli bir yaradıcısının olması labüddür.

Nəticədə varlıq aləminin hikmətli və elmli bir yaradıcısının olması sübuta yetir.

İmam Cəfər Sadiq (ə) buyurub: “Allahın bəndələrindən gizli olmasını iddia edən bir məxluq çox təəccüblüdür! Halbuki o, öz valığında ağlını heyrətdə qoyan yaradılışın izini və iddiasını puç edən nizamı görür”.[11]

**Qeyd:**

Nizam dəlili aləmdəki nizamı yaradan bir yaradıcının olmasına dəlalət edir. Həmin nizamı yaradan Allah-taala və ya başqa birisinin olmasından daha geniş anlam daşıyır.

Bu sahədə Allahın varlığını və vəhdaniyyətini sübuta yetirən başqa dəlillər də vardır. Həmin dəlilləri növbəti səhifələrdə izah edəcəyik.

## Nizamın yaranması barədə materialistlərin rəyinin müzakirəsi

Bəzi materialistlər aləmin ardıcıl səbəblər silsiləsi nəticəsində yarandığı rəyindədirlər. Bu aləmdə hər bir şeyin səbəbi vardır. Həmin səbəbin də səbəbi vardır. Beləcə sonsuzluğadək səbəblər silsiləsi davam edir. Bu səbəblər silsiləsi özlüyündə iradəsiz olaraq nizamı meydana çıxartmış və bu aləmdə bir-birilə əlaqəli, nizamlı silsiləni təşkil etmişdir.

Başqa sözlə desək: Aləmdəki nizamın yaradıcısı bu aləmin yaranmasını meydana çıxardan səbəblərdən ibarətdir. Nizam aləmdə mövcud olan səbəblərdən başqa bir şey deyildir. Hətta nizam aləmə hakim olan səbəblərin arasındakı bağlılıq və uyğunluqdan ibarətdir.

**Cavab:**

1. Sonsuz səbəblər silsiləsinin – qeyd edəcəyimiz kimi – mövcud olması batil iddiadır. Əgər aləmdəki hər bir səbəbin bir səbəbi vardırsa, bu səbəblər silsiləsin təşkil edən və heç bir səbəbin nəticəsi olmayan, varlığı özündən olan bir səbəbin olması labüddür.

2. İdrak və şüura malik olmayan səbəblər kortəbii surətdə müəyyən hədəfə doğrudur. Buna əsasən də bu səbəblərin ümumi bir mərkəzdən

[11] Əllamə Məclisi - “Biharul-ənvar”, cild 3, kitabut-tovhid, bab 5, s. 152.

idarə olunması labüddür. Bu səbəblər və nəticələr nizamını yaradan və idarə edən idrak və şüura sahib olan ali qüdrətin olması lazımdır. Hər bir səbəbdə onu tələb olunan hədəfinə doğru aparacaq stimul yaratmışdır. Məsələn, yazıçının əli hərəkətə gətirən qüdrəti yazını həyata keçirir. Lakin yazan şəxsin ən gözəl sözləri seçərək məqsədini qarşı tərəfə bildirmək üçün idrak və şüuru olmazsa, həmin yazı anlaşılmaz.

### Təsadüf və aləmin yaradılması

**Təsadüfün mənası:** Təsadüf plan, hesab və nizamlama olmadan hadisələrin nizamlı surətdə baş verməsidir.

**Qeyd:** Aşağıdakılar təsadüf hesab olunmur:

Hadisə onu yaradacaq səbəb olmadan özünü yaratmışdır. Kənar səbəb olmadan hər hansı bir təzahürün öz-özünə baş verməsi. Çünki kimsə bunu deməmişdir. Həmçinin bu səbəb-nəticə qanunu ilə ziddiyyət təşkil edir.

Təsadüfdən məqsəd budur ki, arxasında şüur və idrak sahibi olmadan hər hansı bir nizamlı hadisə baş versin.

### Aləmin təsadüf nəticəsində yaranmasını deyən materialistlərin rəyinin müzakirəsi

Bəzi materialistlər idrak və şüura sahibi olan birinin tərəfindən aləmin yaradılışında planlaşdırma, tənzimlənmə olmasını və aləmin işlərinin tənzimləməsini inkar etmişlər. Onlar deyirlər ki, varlıq aləmi əvvəlcədən olan plan və nizamlama əsasında yaradılmamışdır. Varlıq aləmi uzun reaksiyalar və hərəkətlər silsiləsi nəticəsində meydana çıxmışdır. Bu səbəblər silsiləsinin arxasında hər hansı plan və tənzimləmə olmamışdır.

**Cavab:**

1. Müxtəlif elm sahələrində alimlərin təqdim etdikləri elmi tədqiqatlar nəticəsində sübuta yetmişdir ki, aləmdə olan hər bir şey dəqiq hesablamalara dayanan nizamla yaradılmışdır. Belə ki, şüur və idraka sahib olmayan kor və lal materiyanın bu nizamın meydana çıxmasının səbəbi olması qeyri-mümkündür.

2. Kimsə varlıq aləmində təsadüfün olmasını inkar etmir. Çünki mütləq deyil, nisbi məfhum anlamında təsadüf mövcuddur. Lakin məlumdur ki, təsadüf kortəbiidir, idrak və şüura sahib deyil, hər hansı qanun və hesaba tabe deyil. Buna əsasən də hər hansı bir varlığın nizamlı quruluşu nə qədər mürəkkəb olarsa, onun baş verməsində təsadüfün rol oynaması ehtimalı bir o qədər zəifdir. Məsələn, əgər bir uşaq qələmi əlinə alıb vərəq üzərində iki hərf yazarsa, uşağın bu iki hərfi yazmasında təsadüfün olması ehtimalını qəbul edə bilərik. Lakin bu uşaq gözəl mənalı bir məktub yazarsa, biz qəti şəkildə deyirik ki, bu təsadüfən baş verə bilməz. Əksinə bizə sübut olur ki, həmin uşaq oxuma və yazma bilir.

3. Əgər bu aləmin yaradılmasında təsadüfün əhəmiyyətli rol oynadığını qəbul etsək də, biz təsadüfün heç bir şeydən bir şey yaratmasını qəbul etmirik. Təsadüfün edə biləcəyi iş sadəcə olaraq mövcud şeylərdən yeni bir şeyin əmələ gəlməsindən ibarət ola bilər. Buna əsasən də təsadüf nəzəriyyəsi varlıq aləminin ilkin zərrələrinin yaranmasını izah etməkdə acizdir.

4. Təsadüfün edə biləcəyi iş əşyaların şüuri olmayaraq başqa əşyalara təsirindən ibarətdir. Lakin bu varlıq aləmini araşdırırıb tədqiq etdikdə varlıq aləmində baş verən təzahürlər və hadisələr arasında uyğunluğun və bağlılığın olduğunu görərik.

Məhz buna əsasən də varlıq aləmində mövcud olan səbəblər və nəticələrin arxasında tənzimləyicinin və yaradanın olması sübuta yetirilir.

## Dördüncü mövzu

## Hudus dəlili

**Müqəddimə:**

**Hudusun mənası:** Hər hansı bir şeyin hadis olması həmin şeyin əvvəlcədən deyil sonradan olması mənasındadır. Yəni "yox" idi, sonradan mövcud oldu.[12]

**Qədim (əzəli) məfhumunun mənası:** Bu qədimdir dedikdə həmin şeyin əzəldən olması və başlanğıcının olmamasını nəzərdə tuturuq. Qədim varlığından əvvəl yoxluq olmayan mövcuddur.[13]

**Hudus dəlili[14]**

Birinci müqəddimə: Varlıq aləmi[15] hadisdir.

İkinci müqəddimə: Hər bir hadisin onu icad edənə ehtiyacı vardır.

Nəticə: Varlıq aləminin onu icad edənə ehtiyacı vardır.

**Birinci müqəddimənin izahı:** Varlıq aləmi hadisdir.

Varlıq aləminin (cisimlərin) hadis olmasının dəlilləri:

---

[12] Bax; Şeyx Səduq – "ət-Tövhid", s. 296; Şeyx Müfid – "ən-Nukət əl-Etiqadiyyə", s. 16; Nəsirəddin Tusi – "Təlxisul-Muhəssəl", s. 242; Meysəm Bəhrani – "Qəvaidul-Məram", əl-qaidə ər-rabiə, s. 67; Əllamə Hilli – "Kəşful-Murad", s. 82.

[13] Şeyx Səduq, ət-Tövhid, bab 43, isbatu hudusil-aləm, s. 296; Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 16; Şeyx Tusi, ər-Rəsailul-əşərə, s. 93; Əllamə Hilli, Kəşful-murad, s. 82.

[14] Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-muəllimi, s. 43; əl-Muhəqqiq Hilli, əl-Məsləkfi usuliddin, s. 39, 40; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 46; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 67; Əllamə hilli, Kəşful-murad, s. 392; Əllamə Hilli, Mənahicul-yəqin, s. 158.

[15] Allah-təaladan başqa var olan hər bir şey aləm adlanır. Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 39; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 59; Əllamə Hilli, Kəşful-murad, s. 133.

**Birinci dəlil:**

Hər bir cism hadis olan xüsusiyyətlərdən xali deyildir.

Hadis xüsusiyyətlərdən xali olmayan hər bir şey hadisdir.

Deməli, hər bir cism hadisdir.[16]

**Bu dəlil üç hökmün sübuta yetirilməsinə əsaslanır:**

Birinci: Hadis varlıqların olması.

İkinci: Hər bir cism hadis xüsusiyyətlərdən xali deyildir.

Üçüncü: Hadis xüsusiyyətlərdən xali olmayan hər bir şey hadisdir.

**Birinci hökm:**

**Hadis varlıqların olmasının isbatı[17]**

Hadis varlığın xüsusiyyətləri bunlardır:

1. Hərəkət.
2. Sükunət.
3. Birləşmə.
4. Ayrılma.

Bu xüsusiyyətlərin cismlərdə olması bədihi bir məsələ olduğu üçün isbata ehtiyac duyulmur.

**Qeyd etdiklərimizin tərifi[18]**

**1. Hərəkət:** Cismin bir məkanda olduqdan sonra başqa məkanda olmasıdır.

**2. Sükunət:** Cismin bir məkanda olmasından sonra yenə həmin məkanda olmasıdır.

---

[16] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, 39; Əllamə Hilli, Kəşful-murad, s. 135.

[17] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, 39; Əllamə Hilli, Kəşful-murad, s. 135.

[18] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 296; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 40.

**3. Birləşmə:** İki cismin aralarında məsafə və boşluq olmadan iki məkanda olmasıdır.

**4. Ayrılma:** İki cismin aralarında məsafə və boşluq olduğu halda iki fərqli məkanda olmasıdır.

**İkinci hökm:**

**Cisimlərin hadis xüsusiyyətlərindən xali olmamasının isbatı**

Cisimlər hadis xüsusiyyətlərdən xali deyildir. Yəni cisim hərəkət, sükunət, birləşmə və ayrılmadan xali deyildir.

Qeyd olunanların izahı:

Hər bir cismin bir məkanda olması labüddür. Cismin məkanda olmamamsı qeyri-mümkündür.

Cismin məkanda olmasının mənası budur ki, cisim sükunət və hərəkətdən xali deyildir. Yəni:

1. Cisim məkanında qərar tutarsa, sükunətdə olar.

2. Cisim bir məkandan başqasına keçdikdə isə hərəkətdə olur.

Bir cismin başqası ilə əlaqəsi birləşmə və ayrılmadan xali deyildir. Yəni:

1. İki cismin arasında başqa bir şey qərar tutmur. Bu baxımdan onlar birləşmədə olurlar.

2. İki cismin arasında hər hansı bir şey qərar tutduqda isə onlar ayrılmada olurlar.

Nəticədə isə budur: Cisimlər hadis olan xüsusiyyətlərdən xali deyildir.[19]

[19] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 40; Əllamə Hilli, Kəşful-murad, 137.

**Üçüncü hökm:**

**Hadis olan xüsusiyyətlərdən xali olmayan hadisdir**

Cismlərə kənar hallar müdaxilə edir. Həmin hallar bunlardır:

1. Hərəkət.

2. Sükunət.

3. Birləşmə.

4. Ayrılma.

Bütün bu halların mahiyyəti sonradan var olmaya dəlalət edən dəyişikliklərdir.[20] Yəni yoxluqdan sonra var olmaya dəlalət edir. Bununla da sübuta yetirilir ki, cisimlər hadisdir.

Şeyx Səduq belə deyir: "Cisimlərin hadis olmasına dəlalət edən dəlillərdən biri də budur: Cisimlər birləşmiş, ayrılmış, hərəkətli və ya sükunətli olmaqdan xali deyildir. Birləşmə, ayrılma, hərəkət və sükunət sonradan baş verən xüsusiyyətlərdir. Bununla da bilirik ki, cisimlər hadisdir. Çünki hadis olan xüsusiyyətlərdən xali deyildir".[21]

**Cisimlərin hadis olmasının ikinci dəlili[22]**

Cisimlərin əzəli olması mümkün deyildir. Çünki cisimlər əzəli olarsa, əzəldən ya hərəkətli ya da sükunətdə olmalıdır. Hər ikisi də qeyri-mümkündür.

**Cismlərin əzəldən hərəkətdə olmasının**
**qeyri-mümkün olmasının dəlili:**

Əzəlilik bir şeyin hər hansı bir şeydən sonra olmasını inkar edir.[23] Hərəkət hər hansı bir şeyin digərindən sonra olmasını tələb edir.[24]

---

[20] Bu dəyişiklik bəzi cisimlərin başqa cisimlərə çevrilməsi, cisimlərdə artıqlıq və naqisliyin baş verməsi və var olması üçün başqa cisimlərə ehtiyacının olmasında öz əksini tapır.

[21] Şeyx Səduq, bab isbat hudusil-aləm, s. 293, hədis 7.

[22] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 43, 44; Əllamə Hilli, s. 144.

Deməli, əzəlilik və hərəkət birlikdə ola bilməz. Bununla da sübuta yetir ki, cisimlərin əzəli olması qeyri-mümkündür.

## Əhli-Beyt (ə) hədislərində varlıq aləminin hadis olması

1. Rəsulullah (s) buyurub: "Aşkar haqq olan (hər şeyin) maliki Allahdan başqa ilah yoxdur. Sən hər şeydən əvvəlsən, hər şeyi yaradansan və və hər şeyi yoxdan icad edənsən".[25]

2. İmam Əli (ə) buyurub: "... Əşyaları əzəli, əvvəl və əbədi olan maddədən yaratmamışdır. Əksinə yaratdığını (heç bir şey olmadan) yaratmış, həddini təyin etmiş, surətini vermiş və hər şeyin surətini gözəl yaratmışdır".[26]

3. İmam Məhəmməd Baqir (ə) buyurub: "Allah vardı və ondan başqa bir şey yox idi..."[27]

4. İmam Məhəmməd Baqir (ə) buyurub: "Ey hər şeydən əvvəl olan! Sonra hər şeyi yaradan! Hər şey fəna olduqdan sonra qalan!..."[28]

5. İmam Məhəmməd Baqir (ə) buyurub: "Allah-taala valığı əvvəlcədən olan bir şeydən yaratmamışdır. Əgər varlığı əvvəlcədən olan bir şeydən yaratsaydı, heç vaxt varlığın arası kəsilməzdi. O zaman Allahla yanaşı bir şey olardı. Lakin Allah vardı heç nə yox idi. Hər şeyin mənşəyi olan şeyi yaratdı..."[29]

6. İmam Məhəmməd Baqir (ə) buyurub: "Allah-taala əzəldən alim və qədimdir. Varlığı əvvəlcədən bir şey olmadan yaratmışdır. Kim Allah-

---

[23] Çünki əzəli əvvəli olmayan deməkdir. Ondan əvvəl bir şey ola bilməz.

[24] Çünki hərəkət cismin hər hansı bir məkanda olmasından sonra başqa bir məkanda olmasıdır.

[25] Əllamə Məclisi, Biharul-ənvar, c. 57, s. 36, 37, hədis 9.

[26] Şərif Mutrəza, Nəhcül-bəlağə, 163-cü xütbə, s. 307.

[27] Əllamə Məclisi, Biharul-ənvar, c. 57, s. 141.

[28] Həmin mənbə, babut-tovhid və nəfyut-təşbih, c. 48, hədis 11.

[29] Şeyx Səduq, ət-Tövhid, s. 66, hədis 20.

taalanın varlığı bir şeydən yaratdığını iddia edərsə, küfr edər. Çünki varlq aləmini yaratdığı həmin şey Onunla əzəliliyi ilə yanaşı qədim olarsa, həmin şey də əzəli olmalıdır. Əksinə Allah-taala hər şeyi bir şey olmadan yaratmışdır...”[30]

7. İmam Cəfər Sadiq (ə) buyurub: “Həmd olsun Allah ki, var idi, amma onunla yanaşı bir şey olmamışdır. Hər şeyi istədiyi kimi yaratmışdır...”[31]

8. İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: “Cisimlərin sonradan yaranmasına dəlil nədir? (İmam) buyurdu: “Mən elə bir kiçik və ya böyük bir şeyə rast gəlmədim ki, onun kimisini ona əlavə etdikdə daha böyük olmasın. Bu isə birinci haldan başqa hala keçmək və dəyişilməkdir. Əgər qədim olsaydı, dəyişməzdi və bir haldan başqa hala keçməzdi. Çünki dəyişən, bir haldan başqa hala keçən bir şeyin var və puç olması mümkündür. Bununla da yoxluğundan sonra var olması onun hadis (sonradan var) olması deməkdir...”[32]

9. İmam Cəfər Sadiq (ə) buyurub: “Aləmlərin Rəbbindən başqa elə bir şey yoxdur ki, məhv olmasın, dəyişməsin və ya başqası ona müdaxilə etməsin və aradan getməsin. Yaxud da bir rəngdən başqa rəngə, bir formadan başqa formaya, bir sifətdən başqa sifətə, artıqlıqdan naqisliyə, naqislikdən artıqlığa keçməsin...”[33]

10. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: “O, özündən öncə bir şey olmayan əvvəl və özündən sonra bir şey olmayan axırdır. Qədim olan Odur. Ondan savayı hər bir şey məxluqdur və sonradan yaranmışdır. Allah yaratıqlarının sifətlərindən uca və böyükür”.[34]

---

[30] Şeyx Səduq, İləluş-şərai, c. 2, s. 607, hədis 81.

[31] Şeyx Səduq, ət-Tövhid, s. 73, hədis 290.

[32] Həmin mənbə, s. 290, hədis 6.

[33] Həmin mənbə, s. 307, hədis 2.

[34] Həmin mənbə, s. 74, hədis 32.

**Nəticə:** Allah-taala əzəli olmaqda yeganədir. Heç kimin Allah-taaladan başqa hər hansı bir varlığı qədimlik və əzəlilik ilə vəsf etməyə haqqı yoxdur.

**Qeyd:**

1. Aləmin hadis olmasını (sonradan yaranmasını) dedikdə Allahla ilk yaranmış varlıq arasında müddətin olması mənası anlamı daşımır. Çünki zaman da hadisdir. Əksinə məqsəd Allah-taalanın başqa varlıqlardan əvvəl olmasıdır.[35]

2. Allahın barəsində "idi" demək Onu zaman çərçivəsinə sığışdırmaq anlamında deyil. Əksinə məna İmam Əlinin (ə) buyurduğu kimi:

"Əgər **"idi"** deyilirsə, varlığının əzəliliyi anlamında yozulmalıdır. Əgər **"olmamışdır"** deyilərsə, yoxluğun inkar olunması anlamında yozulmalıdır".[36]

**Hudus dəlilinin ikinci müqəddiməsinin bəyanı:** Hər bir hadis olan (sonradan baş verən) onu var edən birinə ehtiyacı vardı.

Bu müqəddimənin doğru olması bədihidir. Buna əsasən də dəlilə və sübuta ehtiyac duyulmur. Bu müqəddimə səbəb-nəticə qanunu adlanır. Bu qanun ümumi xarekter daşıyır, elm və praktikada əsas qanun hesab olunur.

## Varlıq aləminin yaradıcısının olmasının isbatında səbəb-nəticə qanununun rolu

1. Şeyx Səduq deyir: "Əgər səbəb-nəticə qanunu qəbul olunmazsa, yazan olmadan yazının, bənna olmadan binanın, musəvvir (rəssam) olmadan əsrarəngiz rəsmin varlığı mümkün olardı. Bu, ağıl tərəfindən

[35] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 46.

[36] Şeyx Tusi, əl-İqtisad, s. 49.

qəbul edilməz. Bununla da varlıq aləminin yaradıcısının olması sübuta yetirilir”.[37]

2. Şeyx Tusi deyir: “Cisimlərin yaradıcısının olmasında dəlalət edən dəlillərdən biri də budur ki, müşahidəyə əsasən yazını yazanın olması, binanın bənnasının olması, xalçanı toxuyanın olması labüddür. Bütün sənət əsərləri də bu cürdür”.[38]

3. Sədiduddin Himsi deyir: “Cisimlərin hadis olması sübuta yetərsə, onu yaradanın olması labüddür. Çünki hər bir hadis olanın yaranmasında bir yaradıcının olmasına ehtiyac vardır. Məsələn, zərgərlik və yazı kimi. Bu yolla cisimlərin hadis olması sübuta yetmişdir. Onların yaradıcısının olması vacibdir”.[39]

**Qeyd:**

Bu sözlər İmam Əlidən (ə) nəql olunan hədisdən iqtibas edilmişdir. Həmin hədisdə İmam buyurur:

“Təqdir edəni inkar edənə və idarə edəni danana vay olsun! İddia edirlər ki, (varlıq aləmi) əkincisi olmayan bitki kimidir. Onların fərqli surətlərinin yaradıcısı yoxdur. İddia etdikləri məsələdə dəlilə əsaslanmadılar. Dərk etdiklərinin həqiqəti yoxdur. Bənna olmadan bina olarmı...?”[40]

### Əhli-Beyt (ə) hədislərində hudus dəlili

1. İmam Əli (ə) buyurub: “Həmd olsun Allaha ki, yaratdıqlarının sonradan yaranması Onun qədimliyinə dəlalət edir. Yaratdıqlarının hadis

[37] Həmin mənbə, s. 292. Hədis 6.

[38] Şeyx Tusi, əl-İqtisad, s. 49.

[39] İbn Zöhrə Hələbi ,Ğunyətun-nuzu, s. 26.

[40] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 26.

olması Onun varlığına dəlalət edir... Əşyaların sonradan var olması Onun əzəli olmasına şahiddir".[41]

2. İmam Əli (ə) buyurub: "Yaratdıqları ilə varlığına, yaratqığının hadis olması ilə əzəli olmasına dəlalət edən Allah həmd olsun!"[42]

3. İmam Əli (ə) buyurub: "Allahın yaratdıqları ilə Onun varlığına dəlil gətirilər. Yaratdıqlarını Özünə dəlil etmişdir..."[43]

4. İmam Cəfər Sadiqdən (ə) "Varlıq aləminin yaradıcısına dəlil nədir?" deyə soruşdular. İmam buyurdu: "Fellərin (baş verənlərin) varlığı onları yaradanın varlığına dəlalət edir. Görmürsənmi sən bir tikilmiş binaya baxdıqda onun bir bənnasının (burada tikənin) olmasını bilirsən. Hətta həmin bənnanı görməsəndə və onu müşahidə etməsən də belə!"[44]

5. İmam Əli bin Musa ər-Rzadan (ə) "Aləmin sonradan yaranmasına dəlil nədir?" –deyə soruşdular. (İmam) buyurdu: "Sən yox idin sonradan oldun. Bilirsən ki, sən özünü var etməmisən. Həmçinin sənin kimisi olan biri səni var etməmişdir".[45]

**Qeyd:** Hadis (sonradan var olan) varlıqların vasitəsilə Allahın varlığının isbat olunması orta səviyyədə dini anlayış sahibləri üçün dəlil hesab olunur. Amma dini anlayışı yüksək olan insanlar üçün Allahın varlığının isbatı bu dəlildən daha güclüdür. Buna əsasən də Əhli-beytdən (ə) belə nəql olunmuşdur:

1. İmam Əli (ə) buyurub: "Ey Öz zatı ilə varlığına dəlalət edən!"[46]

2. İmam Hüseyn (ə) buyurub: "Var olmasında Sənə möhtac olan biri ilə necə Sənin varlığına dəlil gətirmək olar? Səndən qeyrisi Səndən daha aşkar ola bilərmi ki, hətta səni aşkar etsin? Nə vaxt olmamısan ki, sənə

[41] Şərif Murtaza, Nəhcül-bəlağə, xütbə 185, s. 360.

[42] Həmin mənbə ,xütbə 152, s. 278.

[43] Şeyx Mufid, əl-İrşad, s. 223, 224.

[44] Şeyx Səduq ,ət-Tövhid, s. 239, hədis 1.

[45] Həmin mənbə, bab isbat hudusil-aləm, s. 286, hədis 3.

[46] Əllamə Məclisi, Biharul-ənvar, c. 78, s. 339.

dəlalət edən bir dəlilə möhtac olasan? Nə vaxt uzaqlaşmısan ki, hətta izlər Sənə aparıb çıxartsın? Səni üzərində nəzarətçi görməyən gözlər kordur".[47]

**İmkan dəlili**

**Birinci müqəddimə:** Dövrün batil olması.

**Dövrün mənası:** Dövr iki şeydən hər birinin digərindən asılı olmasıdır.[48]

Başqa sözlə desək, dövr bir şeyin varlığının ikinci bir şeyin varlığından asılı olması ilə yanaşı, ikincinin varlığı birincinin varlığından asılı olmasıdır.

**Dövrün batil olmasının dəlili:**

Birinci şeyin varlığının ikinci şeyin varlığından asılı olması ikincinin varlığının birincinin varlığından əvvəl olması deməkdir.

İkinci şeyin varlığının birinci şeyin varlığından asılı olması da ikinci şeyin varlığının birincinin varlığından sonra olmasını tələb edir.

Nəticədə bir şey eyni halda və bir şeyə nisbətdə həm əvvəldir, həm də əvvəl deyil, həm sonradır, həm də sonra deyildir. Bu isə ziddiyyətdir və batil olmasında heç bir şübhə yoxdur.

**Nəticə:** Dövrə əsaslanan hər hansı bir şey heç vaxt baş verməz. Məsələn, bir məkanda olan iki şəxsdən biri belə deyir: "İkinci şəxs bu məkandan çıxmayanadək mən bu məkandan çıxmayacam". Həmçinin ikinci şəxs belə deyir: "Birinci şəxs bu məkandan çıxmayanadək mən bu məkandan çıxmayacam". Onlardan hər biri öz sözünə əməl edərsə, onların hər hansı birinin həmin məkandan çıxması heç vaxt baş tutmayacaq. Çünki birinci şəxsin çıxışı ikinci şəxsin çıxışından asılıdır. Həmçinin ikinci şəxsin

[47] Həmin mənbə, c. 64, s. 142.

[48] Şeyx Mufid, ən-Nukət əl-Etiqadiyyə, s. 20, 21; Əllamə Hilli, əl-Bab əl-Hadi əşərə, şərhu Miqdad Səyyuri, əl-fəslul-əvvəl, s. 8.

çıxışı birinci şəxsin çıxışından asılıdır. Birinci şəxs çıxmayınca ikinci şəxs çıxmayacaq. İkinci şəxs çıxmayınca birinci şəxs də çıxmayacaq. Deməli, heç vaxt bu çıxış baş tutmayacaq. Çünki bu, dövrə əsaslanır.

**İkinci müqəddimə:** Təsəlsülün (səbəb və nətisələr silsiləsi) batil olması.

**Təsəlsülün mənası:** Hər bir nəticənin bir səbəbi vardır. Həmin səbəbin başqa bir səbəbi də vardır. Beləcə sonsuzluğadək hər bir səbəb başqa səbəbə ehtiyacı olduğu halda səbəblər silsiləsi davam edir.[49]

**Təsəlsülün batil olmasının dəlili**

Təsəlsüldə yer alan bütün səbəblər özlüyündə müstəqil varlığı yoxdur. Əksinə hər bir səbəb başqasına möhtacdır. Bu məqamda belə bir sual verilir:

Bu təsəlsülü (səbəb və nəticələr silsiləsini) yoxluqdan varlığa çıxaran səbəb nədir? Məhz bu sual təsəlsülü puç edir və onun batil olmasını sübuta yetirir.[50]

**Nəticə:** Ağıl səbəb və nəticələr silsiləsində heç bir səbəbə möhtac olmayan, varlığı öz zatından olan bir səbəbin olmasına hökm verir. Həmin səbəb bu təsəlsülü yoxluqdan varlığa çıxaran səbəbdir.[51]

**Məsələn:** Əgər fərz etsək ki, sonsuz sayda olan insanlar bir məkandadırlar. Onlardan biri belə deyir: İkinci şəxs bu məkandan çıxmayınca mən də bu məkandan çıxmayacam. İkinci şəxs belə deyir: Üçüncü şəxs bu məkandan çıxmayınca mən də bu məkandan çıxmayacam". "Üçüncü şəxs belə deyir: "Dördüncü şəxs bu məkandan çıxmayınca mən də bu məkandan çıxmayacam". Beləcə onlardan hər birinin həmin məkandan çıxması digərinin çıxmasından asılıdır. Nəticə isə aydındır. Yəni onlardan

[49] Bax; Şeyx Mufid, ən-Nukət əl-İtiqadiyyə, s. 21; Əllamə Hilli, əl-Bab əl-Hadi əşərə, s. 8, 9.

[50] Həmin mənbə.

[51] Həmin mənbə.

heç birinin həmin məkandan çıxması baş verməyəcəkdir. Buna əsasən də, bu məkandan çıxış baş verməsi üçün həmin şəxslərdən birinin başqasının çıxışından asılı olmayaraq müstəqil surətdə həmin məkandan çıxması lazımdır. Bundan sonra onların ardıcıl olaraq həmin məkandan çıxışları baş verəcəkdir.

**Üçüncü müqəddimə:** Vacib, mümkün və qeyri-mümkün varlıqların tərifi.

Ağlın təsəvvür etdiyi hər bir varlıq aşağıdakı üç vəsfin birindən xali deyildir:

1. Vacibul-vucud (varlığı vacib olan).
2. Mumtəniul-vucud (varlığı qeyri-mümkün olan).
3. Mümkünül-vucud (varlığı mümkün olan).

**Bu qisimlərin tərifi:**

Vaciblik bir şeyin elə xüsusiyyətidir ki, ağıl onun varlığının labüdlüyünə hökm edir. Vacibul-vucud (varlığı vacib olan) öz zatı ilə mövcud olan şeydir. O, öz varlığında başqasına möhtac deyildir və onun varlığı hər hansı bir şeyin varlığından asılı deyil.[52]

**Mumtəniul-vucud (varlığı qeyri-mümkün olan)**

Qeyri-mümkünlük bir şeyin elə xüsisiyyətidir ki, ağıl onun varlığının real olmasını qəbul etmir. Mumtəniul-vucud varlığının olmaması zəruridir. Onun yoxluqla vəsf olunması üçün hər hansı bir səbəbə ehtiyac yoxdur.

[52] Bax; Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 21; Şeyx Tusi, ər-Rəsailul-əşr, s. 93; Qeyd: Bir şeyin başqa bir şeydən aslı olmaması misallarından aşağıdakıları qeyd edə bilərik:

İşıqlanan bir şey öz işığını nurdan alır. Lakin nur öz işığını heç bir şeydən almır. O, öz zatı ilə işıqlıdır.

Şirin qida öz şirinliyini şəkərdən alır. Lakin şəkər öz şirinliyini heç bir şeydən almır. O, öz zatı ilə şirindir.

Buna misal olaraq deyirik: Səbəb olmadan nəticənin olması. Bir-birinə zidd iki şeyin eyni anda olması və ya hər ikisinin eyni anda olmaması. Allahın şərikinin olması və s.

### Mümkünül-vucud (varlığı mümkün olan)[53]

Mümkünlük bir şeyin elə xüsusiyyətidir ki, ağıl onun varlığına və ya yoxluğuna eyni dərəcədə hökm edir. Yəni varlıq və yoxluq ona nisbətdə bərabərdir. Olması və ya olmaması mümkündür.

**İzah:** Vacibul-vucud (varlığı vacib olan) varlıqla vəsf olunmaq üçün səbəbə ehtiyac yoxdur. Əksinə o, öz zatı ilə varlıqla vəsf olunur.

Mumtəniul-vucud (varlığı qeyri-mümkün olan) yoxluqla vəsf olunmaq üçün səbəbə ehtiyac yoxdur. Əksinə o, öz zatı ilə yoxluqla vəsf olunur. Lakin mümkünül-vucud (varlığı mümkün olan) varlıq və ya yoxluqla vəsf olunmaq üçün səbəbə ehtiyac vardır. Çünki o, varlıqla yoxluq arasında eyni nisbətdədir. Bu nisbətdən onu çıxaracaq səbəbə ehtiyac vardır. Həmin səbəb ya onu varlığa tərəf ya da yoxluğa tərəf aparır.

[53] Bax; Şeyx Mufid, ən-Nukət əli-etiqadiyyə, s. 21; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 242.

## Beşinci mövzu

## İmkan dəlili[54]

**Birinci müqəddimə:** Real varlığın olmasını qəbul etmək.

**İkinci müqəddimə:** Hər bir varlıq – zatına nisbətdə – aşağıdakı iki qisimdən birinə məxsusdur:

1. Vacibul-vucud (varlığı vacib olan).

2. Mümkünül-vucud (varlığı mümkün olan).

**Üçüncü müqəddimə:** Mümkünül-vucud öz zatı ilə mövcud olması qeyri-mümkündür. Əksinə o, var olmaq üçün başqasına möhtacdır. Bu, ağılın hökm etdiyi səbəb-nəticə qanunudur.

**Dördüncü müqəddimə:** Varlıq aləmini yaradan iki vəsfin hər hansı birindən xali deyildir.

1. Varlıq aləmini yaradan vacibul-vucuddur (varlığı vacib olandır).

2. Varlıq aləmini yaradan mümkünül-vucuddur (varlığı səbəbdən asılı olaraq var olandır).

Əgər varlıq aləmini yaradan vacibul-vucud olarsa, tələb olunan sübuta yetirilmişdir.

Əgər varlıq aləmini yaradan mümkünül-vucud olarsa, o, var olmaq üçün başqa bir yaradana möhtac olacaqdır. Sonra həmin yaradanın da barəsində deyirik; əgər o, vacibul-vucud olarsa, tələb olunan sübuta yetmişdir. Əgər o da mümkünül-vucud olarsa, o da həmçinin, var olmaq üçün başqa bir yaradana möhtac olacaqdır. Əgər həmin yaradan elə birinci yaradandırsa, burada dövr yaranır. Dövr isə qeyd etdiyimiz kimi batildir. Əgər yaradanların varlıqları sonsuzadək davam edərsə təsəlsül meydana çıxır. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi təsəlsül batildir.

[54] Bax; İbn Sina, əl-İşarat vət-tənbihat, c. 3, s. 18, 20.

Sonda varlığı öz zatından olan və başqasına möhtac olmayan yaradanın olmasını qəbul etməyə məcburuq. Həmin yaradanın varlığı vacibul-vucud olandır. İsbatı tələb olunan da məhz bu idi.[55]

**Nəticə:** Varlıq aləmi onu var edəcək varlığı vacib olan bir yaradıcıya möhtacdır. Həmin yaradıcı öz varlığında başqa bir səbəbə möhtac olmamalı və onun varlığı başqa bir varlıqdan asılı olmamalıdır.

**Vacibul-vucudun (varlığı vacib olanın) ən əsas xüsusiyyətləri:[56]**

1. Öz zatına əsaslanır, var olmasında başqa bir varlıqdan asılı olmur. Çünki başqasından asılı olarsa, onun aradan getməsilə, o da aradan gedər. Bununla da mümkünül-vucud olacaqdır.

2. Bəsitdir. Çünki mürəkkəb olarsa, hissə küll (bir, tək) olmadığı üçün tərkib hissələrinə möhtac olardı. Belə olduqda isə var olmasında başqasına möhtac olardı. Bununla da mümkünül-vucud olardı.

3. Cisim deyil. Çünki cisim hissələrdən tərkib tapdığı üçün mürəkkəbdir. Vacibul-vucud isə əvvəlki xüsusiyyətdə qeyd etdiyimiz kimi mürəkkəb ola bilməz.

4. Rəng, forma kimi ərəz (əlavə xüsusiyyət) olmamalıdır. Çünki ərəz olanlar var olmaq üçün cismə möhtacdır. Ehtiyac isə mümkünül-vucudun xüsusiyyətlərindəndir.

5. Heç vaxt dəyişiklik qəbul etmir. Çünki dəyişiklik bir şeyin zatında və ya xüsusiyyətlərində artıqlıq və ya naqislik baş verməsilə olur. Bütün bunlar isə dəyişən varlığın mürəkkəb olmasını tələb edir. İkinci xüsusiyyətdə qeyd etdiyimiz kimi vacibul-vucud mürəkkəb ola bilməz.

---

[55] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 245; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 46; Əllamə Hilli, Kəşful-murad fi şərhi təcridil-etiqad, s. 148, 149; Əllamə Hilli, Mənahicul-yəqin, s. 158; Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 7.

[56] Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 6.

6. Heç vaxt sayılma (çeşidlilik) qəbul etmir. Çünki sayılan hər bir şey mürəkkəbdir. İkinci xüsusiyyətdə qeyd etdiyimiz kimi vacibul-vucud mürəkkəb ola bilməz.

**Vacibul-vucud vahid olmalıdır**

Əgər varlığı vacib olan iki mövcud fərz etsək, onların hər biri varlıqlarının vacib olması baxımından müştərək, eyni zamanda müəyyən cəhətdən fərqli olmalıdırlar. Onların oxşar cəhəti ilə fərqli cəhəti eyni ola bilməz. Buna əsasən də onların hər biri oxşar və fərqli cəhəttən tərkib tapacaqdır. Hər bir mürəkkəb olan isə mümkünül-vucuddur. Çünki hər bir mürəkkəbin var olması üçün tərkib hissələrinə ehtiyac vardır. Başqasına möhtac olan isə vacibul-vucud ola bilməz. Nəticədə isə vacibul-vucud mümkünül-vucud olur. Bu isə əvvəldə qeyd etdiyimizə ziddir. Bununla da sabit olur ki, vacibul-vucud yalnız vahid olmalıdır.

**Qurani-kərimdə və sünnədə imkan dəlili:**

1. İmkan dəlili bu həqiqətə istinad edir. Belə ki, var olan hər bir şey iki qismə bölünür:

**Birinci:** Vacibul-vucud. Öz zatı ilə zəngin olan varlıq.

**İkinci:** Mümkünül-vucud. Öz zatı ilə möhtac olan varlıq.

Allah-taala Qurani-kərimdə Özünün zənginliyinə, insanın isə möhtac olmasına işarə edərək buyurur:

***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyəniləndir!)"***.[57]

***"Allah zəngin, siz isə yoxsulsunuz"***.[58]

[57] Fatir, 15

[58] Muhəmməd, 38

2. İmkan dəlilinə əsasən mümkünül-vucud səbəb olmadan yarana bilməz. Dövrün batil olmasına əsasən onun özü səbəb ola bilməz. Allah-taala Qurani-kərimdə bu həqiqətə işarə edərək belə buyurur:

**"Yoxsa onlar heç bir şeydən (xaliqsiz) yarandılar?! Yaxud onlar (öz-özlərini) yaradanlardır?!"**[59]

3. İmam Əli (ə) Allah-taalanı varlığının vacibliyinə işarə edərək belə buyurmuşdur: **"Hər bir şey Onunla var olmuşdur".**[60]

**Qeyd:** Hər bir mövcud səbəbə möhtacdır əqli nəticəsi, Allah səbəbə möhtac olmayan varlıqdır deyimimizlə ziddiyyət yaratmır. Çünki bu qayda yalnız mümkünül-vucud olan varlıqlara şamildir.

Ən doğrusu belə deməliyik: "Hər bir mümkünül-vucud səbəbə möhtacdır. Allah-taala isə vacibul-vucuddur. Bu əqli nəticə ona şamil deyil.

[59] Tur, 35

[60] Şərif Murtaza, Nəhcül-bəlağə, xütbə 109, s. 204

## İkinci fəsil: Allahı tanıma

**Allah-taalanı tanıma**

**Allah tanımanın vacib olması**

**Hiss üzvlərinin Allah-taalanı tanımada aciz olması**

**Ağılın Allah-taalanın zatını dərk etməkdə aciz olması**

**Allah-taalanı tanımanın yolu**

## Birinci mövzu

## Allah-taalanı tanımanın vacibliyi.

**Allah-taalanı tanımanın vacib olmasının dəlilləri:**[61]

**1. Zərərin dəf olunmasının vacibliyi**

Allah-taalanı tanıma əsrlər boyu peyğəmbərlərin bəyan etdiyi cəzaya layiq olma və savabdan məhrum olmaq kimi məqbul ediləcək dərəcədə ehtimal olunan qorxudan insanı xilas edir. Nəzərə alınacaq qorxunu aradan aparan hər bir ümid vacibdir. Bununla da Allah-taalanı tanımanın vacibliyi sübuta yetirilir.

**2. Nemət bəxş edənə şükr etməyin vacib olması**

Əsrlər boyu peyğəmbərlərin bəyan etdiyi kimi insan onu yoxluqdan varlıq aləminə gətirən və ona müxtəlif nemətlər bəxş edən yaradıcını axtarmışdır. Nemət bəxş edənə şükr etməyin vacib olduğu üçün insana nemətlər bəxş edəni tanımaq vacibdir. Çünki şükr yalnız nemət bəxş edəni tanıdıqdan sonra mümkündür.

**Qeyd:** Allah-tanıma fitri bir məsələdir. Yəni Allahı tanıma qeyri-şüuri olaraq insanda mövcuddur. İnsan varlığının daxilində onu Allah-taalanı tanımağa sövq edən bir cazibəyə sahibdir.

[61] Bax; Muhəqqiq Hilli, əl-Məsalik fi usuild-din, s. 97-98

## İkinci mövzu

## Hiss üzvlərinin Allah-taalanı tanımada aciz olması

**Birinci müqəddimə:** Hiss üzvləri və təcrübi lavazimatlar maddi aləm dairəsində olan varlıqları tanımağa məxsusdur.

**İkinci müqəddimə:** Sübut edəcəyimiz kimi Allah-taala maddi aləmdən (cismanilikdən) uca və pakdır.

**Nəticə:** Hiss üzvləri və təcrübi ləvazimatlar insanı Allah-taəalnı tanımağa çatdırmağa qadir deyildir.[62]

Hiss üzvlərinin Allah-taalanı tanımada aciz olması barəsində Əhli-beytdən (ə) nəql olunan hədislər:

1. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Hisslər Onu dərk etməkdə acizdir".[63]

2. İmam Hüseyn (ə) buyurub: "Hisslərlə dərk olunmaz... ayələrlə (nişanələrlə) tanınar, əlamətlərlə vəsf olunar".[64]

3. İmam Cəfər Sadiq (ə) Allah-taala barəsində buyurub: "Hisslərlə dərk olunmaz... Hiss üzvlərinin hiss etdiyi hər bir şey məxluqdur".[65]

4. İmam Cəfər Sadiqlə (ə) zindiqlərdən (dinsizlərdən) birinin arasında Allah-taalanın varlığının isbatı barədə belə dialoq baş vermişdir:

Zindiq dedi: "Mənim beş hiss üzvüm onu (yəni Allah-taalanı) hiss etmir. Hiss üzvlərimin dərk etmədiyi mənim nəzərimdə yoxdur".

---

[62] Qeyd: Hiss üzvləri Allah-taalanın varlığını birbaşa isbat etməkdə acizdir. Lakin bu sahədə birbaşa olmasa da hiss üzvlərindən istifadə etmək olar. Məsələn, varlıq aləmindəki nizamı dərk etmək üçün hiss üzvlərinə əsaslanırıq. Sonra ağıl vasitəsilə nəticə çıxarırıq ki, bu dəqiq nizamın arxasında hikmət sahibi olan bir nəzm verən vardır.

[63] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 138.

[64] Şeyx Səduq, ət-Tövhid, s. 78.

[65] Şeyx Səduq. ət-Tövhid, s. 59.

İmam Sadiq (ə) buyurdu: “Sənin hiss üzvlərin Onu dərk etməkdə aciz olduqda Onu inkar etdin. Mənim hiss üzvlərim Allah-taalanı dərk etməkdə aciz olduqda isə Onu təsdiqlədim”.

Sonra İmam Sadiq (ə) bəyan edir ki, hiss üzvləri yalnız mürəkkəb olan varlıqları dərk edir. Mürəkkəb varlıq isə öz tərkib hissələrinə möhtacdır. Allah-taala ehtiyaclı olmaqdan pak və uca olduğu üçün mürəkkəb deyildir. Buna əsasən də hiss üzvləri onu dərk edə bilməz”.[66]

**Qeyd:** Təcrübi bilgi ləvazimatlarını əsas gətirən şəxsin Allahın varlığını inkar etməyə haqqı yoxdur. Bəşəriyyətə məlum olmayan çoxlu varlıqlarla yanaşı, həmin şəxs bilmədiyini etiraf etməli, hiss üzvlərinin Allah-taalanın varlığını isbat etməkdə aciz olmasını deməlidir.

İmam Cəfər Sadiqlə (ə) zindiqlərdən biri arasında baş tutan dialoqda belə deyilir:

İmam Sadiq (ə) dedi: Yerin üst və altının olduğunu bilirsənmi?

Zindiq dedi: Bəli.

İmam (ə) dedi: Altına daxil olmusan?

Zindiq dedi: Yox.

İmam dedi: Onun altında olanı necə bilirsən?

Zindiq dedi: Bilmirəm. Amma güman edirəm ki, onun altında heç bir şey yoxdur.

İmam (ə) dedi: Güman əminlik olmadıqca acizlikdir.

Sonra İmam (ə) ondan belə soruşdu: Səmaya çıxmısan?

Zindiq dedi: Yox.

İmam (ə) dedi: Orada nə olduğunu bilirsən?

Zindiq dedi: Yox.

İmam (ə) dedi: Məğribə və məşriqə getmisənmi? Onların arxasında nə olduğuna baxmısanmı?

---

[66] Bax; Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 154.

Zindiq dedi: Yox.

İmam (ə) dedi: Sənə təəccüb edirəm. Nə məşriqə gedib çatmısan, nə də məğribə gedib çatmısan. Yerin altına daxil olmamısan, səmaya çıxmamısan. Oradan sənə xəbər verilməyib ki, onların arxasındakılardan xəbərdar olasan. Sən isə orada olanları inkar edirsən. Ağıl sahibi olan biri bilmədiyini inkar edərmi?

Zindiq dedi: Heç kim mənimlə bu cür söhbət etməmişdir.

İmam (ə) dedi: Sən bu məsələdə şəkdəsən. Bəlkə odur, bəlkə də o, deyil.

Zindiq dedi: Bəlkə də odur.

İmam (ə) dedi: Ey insan, bilməyənin bilən üzərində höccəti olmaz. Cahilin alim üzərində höccəti olmaz. Ey Misir əhlinin qardaşı, məni başa düşürsənmi? Biz heç vaxt Allahın varlığında şəkk etmirik. Günəş, ay, gecə, gündüzü görmürsənmi? Öz hərəkətlərində səhv etmədən davam etməkdə, gedib gəlməkdədir. Onlar bunu etməkdə məcburdurlar. Onların sahib olduqları məkandan başqa məkanları yoxdur. Əgər gedib gəlməmək iqtidarındadırlarsa, bəs nə üçün qayıdırlar? Əgər məcbur olmasalar, nə üçün gecə gündüz, gündüz isə gecə olur? Ey Misir əhlinin qardaşı, Allaha and olsun ki, onların hər ikisi bunu davam etdirməkdə məcburdurlar. Onları məcbur edən onlardan daha hikmətli və daha böyükdür.

Zindiq dedi: Doğru deyirsən.

İmam (ə) dedi: Ey Misir əhlinin qardaşı, sizin rəyiniz və güman etdiyiniz puçdur. Əgər zaman onları aparırsa, bəs niyə zaman onları geri qaytarmır? Əgər zaman qaytarırsa, bəs nə üçün onları aparmır? Onlar məcburdurlar. Ey Misir əhlinin qardaşı, səma ucalmış, yer döşənmişdir. Bəs nə üçün səma yerə düşmür? Bir-biri ilə birləşmirlər. Onların üstündə olan da onlara birləşmir.

Zindiq Allah-taalanın varlığına iman gətirdi və Allah-taalanı alim idarəçi olduğunu etiraf etdi.[67]

[67] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 286, 288.

## Üçüncü mövzu

## Allah-taalanı zatını tanımada ağlın aciz olması

**Dəlillər:**

1. Ağıl əşyaları hüdudları ilə tanıyır. Allah-taala hüdudlu (məhdud) olmaqdan münəzzəhdir (ucadır). Buna əsasən də ağlın Allah-taalanın zatını dərk etməsi qeyri-mümkündür.

2. Ağıl əşyaları başqa əşyalarla müqayisə edərək dərk edir. Allah-taala heç bir varlıqla müqayisə olunmaz. Çünki Ona bənzər və oxşar heç bir varlıq yoxdur. Buna əsasən də ağlın Allah-taalanı zatını dərk etməsi qeyri-mümkündür.[68]

3. Ağıl zehni məfhumlar vasitəsilə Allahı tanımaqda acizdir. Bu məfhumlar məhduddur. İlahi zat isə məhdud deyildir. Buna əsasən də ağıl İlahi zatı dərk etməkdə acizdir.[69]

**Qeyd:** Zehni məfhumlar ilahi zatı tamamilə izah etməkdə yetərsiz olmasına baxmayaraq, ümumi olaraq ilahi zatı izah etmək üçün kifayət edir. Məsələn, insan divarın arxasında hərəkət olduğunu hiss edir və həmin divarın arxasında hər hansı bir şeyin olduğuna hökm edir.

---

[68] Buna əsasən də İmam Əli (ə) belə buyurmuşdur: "Allahı Allahla (başqa vasitə olmadan, birbaşa) tanıyın". Şeyx Kuleyni, əl-Kafi, kitabut-tovhid, bab ənnəhu lurəfu illə bihi, hədis 1, s. 85. İmamın (ə) "Allahı Allahla tanıyın" sözündən məqsəd budur ki, Allah cisim və ruha bənzəməz. Bu iki bənzərlik, yəni cisimlərə bənzərlik və ruhlara bənzərlik inkar olunduqdan sonra Allah Allahla tanınır. Əgər Allah-taala ruha, cismə və ya nura bənzədilərsə, Allah Allahla tanınmamışdır. Bax; Yuxarıda qeyd etdiyimiz mənbəyə (müəyyən ixtisarla qeyd etdik), Şeyx Səduq, ət-Tövhid, s. 281.

[69] Daha artıq məlumat üçün bax; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 75, 76.

## Ağlın Allah-taalanın zatını dərk etməkdə aciz olması barədə Əhli-beytdən nəql olunan hədislər

1. İmam Əli (ə) buyurub: "...Fikirlər Onu əhatə edə bilməz, ağıllar onu müəyyənləşdirə bilməz və xəyyallar Ona çatmaz. Ağılın Onun barəsində təyin etdiyi və ya Ona bənzər tanıdığı hər bir şey məhduddur".[70]

2. İmam Həsən bin Əli (ə) buyurub: "Ağıllar və ağlın xəyalları, fikirlər və ağıla gələn düşüncələr, idrak və zehnə gələnlər Onun sifətini dərk edə bilməz".[71]

3. İmam Musa bin Cəfər Kazim (ə) buyurub: "Allah-taala ağılların Onu dərk etməsindən daha uca və daha böyükdür".[72]

4. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Zatını dərk etmək istəyən xəta etmişdir".[73]

## Allah-taalanın zatı barədə düşünməyin qadağan olunması

Ağıl Allah-taalanın zatını dərk etməkdə aciz olduğu üçün Əhli-Beyt imamları (ə) Allah-taalanın zatı barədə düşünməyi qadağan etmişlər. Bu məzmunda nəql olunan hədislərdən bəzilərini qeyd edirik:

1. İmam Məhəmməd Baqir (ə) buyurub: "İstədiyiniz qədər Allahın əzəməti barədə düşünün. Amma Allahın zatı barədə düşünməyin".[74]

2. İmam Məhəmməd Baqir (ə) buyurub: "Allahın yaratdıqları barədə danışın. Amma Allahın zatı barədə danışmayın. Allahın zatı barədə danışan heyrətdən başqa bir şey əldə etməz".[75]

---

[70] Şeyx Səduq, ət-Tövhid, s. 76, 77.

[71] Həmin mənbə, s. 46.

[72] Həmin mənbə, s. 73.

[73] Həmin mənbə, s. 38.

[74] Şeyx Səduq, ət-Tövhid, s. 441.

[75] Şeyx Kuleyni, əl-Kafi,c. 1, s. 92.

3. İmam Məhəmməd Baqir (ə) buyurub: “Allahın zatı barəsində danışmaqdan əl çəkin. Çünki Allahın zatı barədə danışmaq yalnız zəlalətə aparar”.[76]

4. İmam Məhəmməd Baqir (ə) buyurub: “Nəbadə Allahın zatı barədə düşünəsiniz. Lakin Allahın əzəmətinə baxmaq istəyirsinizsə, onun yaratdıqlarının əzəmətinə baxın”.[77]

5. İmam Cəfər Sadiq (ə) buyurub: “Kim Allahın necə olmasını düşünərsə, həlak olar”.[78]

[76] Şeyx Səduq, ət-Tövhid, s. 443.

[77] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 93.

[78] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 264.

## Dördüncü mövzu

## Allah-taalanı tanımağın yolu

Bəndələr Allah-taalanı tanımaları üçün Allah Özünə bəzi sifətlər və adlar qərar vermişdir. Həmçinin Allah-taala bəşər ağlına ümumi surətdə Onu tanımaq qüdrəti bəxş etmişdir. Bundan əlavə peyğəmbərlərin və övsiyaların bu xüsusda bəyan etdikləri Allahı tanımaq üçün yetərlidir.

**Allah-taalanı tanımanın mərhələləri:**

**Birinci mərhələ:** Zehin müstəvisində tanımaq

Bu mərhələdə insan Allah-taalanı istər əqli nəticələr vasitəsilə əldə etdiyi, istərsədə peyğəmbərlərin və vəsilərin öyrətdiyi zehni məfhumlarla (təsəvvür olunan mənalarla) tanıyır.

**İkinci mərhələ:** Qəlb yolu ilə tanıma.

Bu mərhələdə insan Allaha olan inam, haqq şəriətin təlimləri əsasında Onun yulunda cihadun-nəfs (özünütərbiyə, saflaşma) etdikdən sonra batini və qəlbi şühuda yetişərək heç bir zehni məfhumun vasitəçiliyi olmadan Allahı tanıyır.

Allah-taala buyurur: ***"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən (bir nur) verər..."***[79]

Yəni haqq və batili bir-birindən ayıra bilməniz üçün sizin qəlblərinizdə bir nur yaradar. Bu nurun vasitəsi ilə insan Rəbbini tanımağa yol tapır.

**Qeyd:** Zehin mərhələsində Allah tanıma yaratdıqları barədə düşünərək ağıl yolu ilə tanımadan ibarətdir. İmam Əli (ə) bu mərhələdə Allah tanımaya işarə edərək belə buyurur: "Xəlq etdikləri ilə yaratdıqlarına təcəlli edən Allaha həmd olsun".[80]

---

[79] Ənfal, 29

[80] Şərif Murtaza, Nəhcül-bəlağə, xütbə 108, s. 200

Lakin insan Allahı tanımada qəlb mərhələsinə yetişərsə zehni mərhələdə tanımaya ehtiyac yoxdur. Allahı tanımada qəlb yolu ilə tanıma əsas yol hesab olunur.

İmam Hüseyn (ə) Allahı tanımada bu uca mərhələyə işarə edərək belə buyurur: "Var olmasında Sənə möhtac olan biri ilə necə Sənin varlığına dəlil gətirmək olar? Səndən qeyrisi Səndən daha aşkar ola bilərmi ki, hətta səni aşkar etsin? Nə vaxt olmamısan ki, sənə dəlalət edən bir dəlilə möhtac olasan? Nə vaxt uzaqlaşmısan ki, hətta izlər Sənə apararıb çıxartsın? Səni üzərində daima nəzarətçi görməyən gözlər kordur".[81]

[81] Əllamə Məclisi, Biharul-ənvar, c. 67, s. 142

## Üçüncü fəsil: Allah-taalanın sifətləri

**Sifətləri vasitəsilə Allahı tanımaq**

**Allah-taalanın sifətlərinin toxunulmaz olması**

**Allah-taalanın sifətlərinin qisimləri**

**Allah-taalanın münəzzəh (naqisliklərdən uzaq tutan) sifətləri**

**Allah-taalanın sübutiyyə sifətləri (Allahda olan sifətlər)**

**Allah-taalanın zatı sifətləri zatı ilə eynidir yoxsa zatdan ayrıdır?**

## Birinci mövzu

## Sifətləri vasitəsilə Allahı tanımaq

Allahın sifətlərini tanımaqdan məqsəd Allahı tanımaqdır. Çünki sifətlər Allah-taala və müqəddəs zatı barədə bəyanın ifadə yoludur.

**Allah-taalanın sifətlərini tanımağın mümkün olmasının dəlilləri:**[82]

Allahın sifətləri Allahı tanımağın yoludur dedikdə belə başa düşülməməlidir ki, sifətlər Alllahın həqiqətini və zatını bəyan etmək üçün kifayət edir. Bu sifətlər bəndələri məhdud qüdrətləri çərçivəsində umumi surətdə Allahı tanımaq üçün yaradılmış məfhumlardır. Məhdud olan məhdud olmayanı tamamilə əhatə edə bilməz.

**Bu mövzuda Əhli-beytdən (ə) nəql olunan hədislər:**

1. İmam Məhəmməd bin Əli Cavad (ə) buyurub: "Adlar və sifətlər məxluqlardır".[83]

2. İmam Əli (ə) buyurub: "Heç bir sifət Onu əhatə edə bilməz".[84]

3. İmam Əli (ə) buyurub: "Vəsf edənlər Onun (vəsf olunduğu) sifətin həqiqətini dərk edə bilməzlər. Vəsf edənlər Onun əzəmət və cəlalına layiq olacaq dərəcədə deyil,öz qüdrətləri qədərincə vəsf edər. Allah-taala Onu vəsf edənlərin vəsfindən uca və böyükdür".[85]

4. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: "Allah sifətlərinin həqiqətinin dərk edilməsindən daha böyük, daha uca və daha əzəmətlidir".[86]

---

[82] Bax; Cəfər Subhani, Məfahimul-Quran, c. 6, s. 9.

[83] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

[84] Şeyx Səduq, ət-Tövhid, s. 69.

[85] Həmin mənbə, s. 233.

[86] Şeyx Kuleyni, c. 1, s. 100.

Bəzi görkəmli alimlər buradan çıxış edərək belə demişlər: “Sifətlərin Allaha nisbət verilməsi ilahi zatın həqiqətini dərk etmək anlamında deyildir. Çünki bunu dərk etmək mümkün deyil. Əksinə bu sifətlərin Allaha nisbət verilməsindən məqsəd Allah-taalanın bu sifətlərin əksi ilə vəsf olunmasından münəzzəh və pak olmasını anlamaqdır.

Məsələn, elm Allahın sifətlərindən biridir. İnsan bu sifətdən müəyyən məna başa düşür. Lakin insanın Allah elminin mənasının həqiqətini dərk etməsi qeyri mümkündür. Əgər Allahı vəsf etdiyiniz elm sifətinin həqiqəti nədir deyə biri soruşarsa doğru cavab belədir: Bu məqamda elmdən məqsəd onun ziddinin, yəni cəhalətin (bilməməyin) inkarıdır. Başqa sözlə desək: Elm məfhumu bizə Allah-taalanın zatının cəhalətdən münəzzəh və pak olmasını bizə bəyan edir. Əks təqdirdə bəşər ağlını Allah-taalanın elminin həqiqətini dərk etməsi mümkün deyildir.

**Bu mövzuda alimlərin rəyləri:**

1. Şeyx Səduq belə deyir: “Allah-taalanı zati sifətləri ilə vəsf etdikdə hər bir sifətin ziddinin Onda olmasının inkarını nəzərdə tuturuq”.[87]

2. Muhəqqiq Səyuri belə deyir: “Onun (Allah-taalanın) sifətlərindən dərk edə bildiklərimiz inkardır (yəni həmin sifətlərin ziddini inkar etməkdir)”.[88]

3. Əllamə Məclisi belə deyir: “Allah-taalanın zatının və sifətlərinin həqiqətinin dərk olunmasını inkar etmək vacibdir... Allah-taalanın elminin həqiqəti bizim üçün təsəvvür olunması qeyri-mümkün olduğu və özümüzdə rast gəldiyimiz cəhaləti naqislik hesab etdiyimiz üçün Onda (Allah-taalada) cəhalətin olmasını inkar edirik. Sanki biz Allah-taalanın elmi dedikdə cəhalətin olmamasını təsəvvür edirik. Allah-taala üçün elm

[87] Şeyx Səduq, əl-Etiqadat fi dinil-imamiyyə, s. 7.

[88] Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 49.

sifətini sabit etməyimiz Onda cahiliyin olmasına qayıdır. Çünki biz yalnız bu yolla Allah-taalanın elmini təsəvvür edə bilərik”.[89]

4. Seyid Abdullah Şubbər belə deyir: “Sübuti sifətlərdən məqsəd zidlərini inkar etməkdir. Çünki Allah-taalanın sifətlərinin keyfiyyəti və sifətləri dərk etməyin yolu yoxdur”.[90]

**Qeyd:** Allah-taalanın sübuti və kamal (kamillik) sifətlərinin təfsir edərkən həmin sifətlərin ziddini inkar etmək həmin (sübuti və kamal) sifətlərin Allah-taalada olmasını inkar etmək anlamında deyil. Sadəcə olaraq bu ilahi sifətlərin dərk olunması məsələsinə yönəlikdir.

[89] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 157.

[90] Abdullah Şubbər, Həqqul-yəqin, s. 41.

## İkinci mövzu

## Allah-taalanın sifətlərinin toxunulmaz olması

Allah-taalanı yalnız Qurani-kərimdə, peyğəmbərinin və ya peyğəmbərinin xəlifələri olan höccətlərinin dili ilə Özünü vəsf etdiyi kimi vəsf etmək icazəlidir. Bu barədə Muhəmməd (s) peyğəmbərin əhli-beytindən nəql olunan hədislər imamiyyə məzhəbində də nəql edilmişdir.[91]

### Allah-taalanın sifətlərinin toxunulmaz olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

1. İmam Əli (ə) buyurub: "Quranın sənə dəlalət etdiyi sifətlərlə (Allahı) vəsf et ki, səni Onu tanımağa çatdırsın, onun nurunun hidayəti ilə aydınlan... Şeytan səni Quranda sənə vacib edilməyən, Rəsulullahın sünnəsində və hidayət imamlarının yolnuda əlaməti olmayan bir şeyə yönəldərsə elmini Allah-taalaya həvalə et. Bu, Allahın sənin öhdəndə olan ən son haqqıdır".[92]

2. İmam Cəfər Sadiq (ə) buyurub: "Tövhid barəsində ən doğru yol Quranda nazil olan Allahın sifətləridir. Qurandan önə keçməyin ki, bəyandan sonra azmayasınız".[93]

3. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: "Allahı Özünü vəsf etdiyi kimi vəsf edin. Başqasından isə əl çəkin".[94]

4. İmam Musa bin Cəfər əl-Kazim (ə) səhabələrindən birinə belə buyurdu: "Tövhid (əqidəsində) Allahın Quranda buyurduqlarından kənara çıxma ki, həlak olarsan".[95]

---

[91] Bax; Şeyx Mufid, Əvailul-məqalat, s. 53.

[92] Şeyx Səduq, ət-Tövhid, s. 55.

[93] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 100.

[94] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 102.

5. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “Xaliq Özünü vəsf etdiyindən başqa cür vəsf olunmaz. Hiss üzvlərinin dərk etmədiyi, xəyalların çata bilmədiyi, düşüncələrin əhatə etməkdə aciz olduğu, gözlərin görmədiyi birini necə vəsf etmək olar? Vəsf edənlərin vəsfindən münəzzəhdir, pakdır! Mədh edənlərin mədhindən böyükdür!”[96]

6. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “(İlahi) Sən münəzzəhsən! Əgər Səni tanısaydılar Sən Özünü vəsf etdiyin kimi vəsf edərdilər. İlahi, mən Səni Özünü vəsf etdiyin kimi vəsf edirəm”.[97]

7. İmam Əli bin Musa ər-Rza (ə) səhabələrindən birinə Allah-taalanı vəsf etmək barədə belə dedi: “Quranda olanlardan kənara çıxma”.[98]

8. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “Kim Allahı Özünü vəsf etdiyinin əksinə vəsf edərsə, Allaha böyük böhtan atmış olar”.[99]

---

[95] Şeyx Səduq, ət-Tövhid, s. 74.

[96] Həmin mənbə, s. 60.

[97] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 101.

[98] Həmin mənbə, c. 1, s. 102.

[99] Əllamə Məclisi, c. 4, s. 53.

## Üçüncü mövzu

## Allah-taalanın sifətlərinin qisimləri

1. **Səlbi sifətlər.** (Həmçinin "cəlaliyyə" və "tənzihiyyə" sifətləri da adlanır).

Bu növ sifətlər Allah-taalaya nisbət verilməyən sifətlərdir. Çünki bu növ sifətlər naqis sifətlər olduğu üçün Allah-taalanın şəninə layiq deyil. Məsələn, ehtiyac, mürəkkəblik, cism və s.

2. **Sübuti sifətlər.** ( Həmçinin "camal" və "kamal" sifətləri də adlanır).

Bu növ sifətlər Allah-taalada olan sifətlərdir. Ümumiyyətlə, Allah-taalanın kamilliyi hesab olunacaq hər bir sifət Ona nisbət verilməlidir.

**Sübuti sifətlər iki qismə bölünür:**[100]

1. **Zati sifətlər.**

Zati sifətlər heç bir şey nəzərə alınmadan yalnız ilahi zata nisbətdə Allaha üçün sabit olan sifətlərdir. Məsələn, həyat, elm, qüdrət.

2. **Feli sifətlər.**

Feli sifətlər ilahi fellər nəzərə alınaraq Allah-taala üçün sabit olan sifətlərdir. Yəni Allah-taala etdiyi fellərə nisbətən həmin sifətlərlə vəsf olunur. Məsələn, Xaliq, Raziq (ruzi verən), Ğafir (bağışlayan).

**Allah-taalanın zati sifətləri iki qismə bölünür:**

1. **Sırf həqiqi olan sifətlər.** Bu növ zati sifətlərin Allah-taalaya nisbət verilməsi üçün başqa bir şey nəzərə alınmır. Məslən, həyat sifəti.

2. **Başqa varlığa nisbət verilən həqiqi sifətlər.** Bu növ sifətlərin də Allah-taalaya nisbət verilməsi üçün başqa bir şey nəzərə alınmır. Lakin həmin sifətin təsiri üçün başqa bir şey nəzərə alınır. Məsələn, qüdrət və elm sifətlərinin təsiri məlum olduqdan sonra mümkündür.

[100] Bax; Şeyx Mufid, Təshihul-etiqadatil-imamiyyə, s. 41.

## Dördüncü mövzu

## Allah-taalanın tənzihi (naqisliklərdən uzaq tutan) sifətlərinin xüsusiyyətləri.

**Səlbi sifətlərin xüsusiyyətləri:**

1. Bu sifətlərə "səlb" (inkar etmə, rədd etmə) adının verilməsi həmin sifətlərin ilahi zatda olmamasına bağlıdır. Həmin sifətləri inkar etmək vacibdir.

2. Tənzihi sifətlər nə qədər çox olsa da, onların hamısı bir məsələyə qayıdır. Həmin məsələ Allah-taalanın ehtiyac və naqislikdən pak və uca olmasıdır.

3. Tənzihi sifətlərin Allah-taala nisbət verilməsini rədd etməyin əsas səbəbi həmin sifətlərlə vəsf olunmasının qeyri-mümkünlüyüdür. Çünki Allah-taala kamildir və Onda heç bir naqislik ola bilməz. Buna əsasən də tənzihi sifətləri bir kəlmə ilə belə ifadə edə bilərik: "Allah-taalanın zatı hər cəhətdən naqisliklərdən pak və ucadır".

4. Tənzihi sifətlər iki qismə bölünür:

Birinci: Söz olaraq sabitdir, lakin məna olaraq inkar bildirir. Məsələn, Allah-taalanı "ğəni" (zəngin) sifəti ilə vəsf etdikdə bunun mənası Onun möhtac olmamasıdır. Allah-taalanı "vahid" sifəti ilə vəsf etdikdə mənası ikincisinin olmamasıdır.

İkinci: Söz və məna olaraq inkar olunan sifətlər. Məsələn, mürəkkəblik, cisimlilik, məkan və zaman nisbət vermək kimi Allah-taalanın vəsf olunmadığı sifətlər.[101]

[101] Bax; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 54, 56.

## Beşinci mövzu

## Allahın sübuti sifətlərinin xüsusiyyətləri

Bu fəslin üçüncü mövzusunda qeyd etdiyimiz kimi Allahın sübuti sifətləri zati və feli sifətlərə bölünür.

**Allahın zati sifətərinin xüsusiyyətləri:**

1. Bu sifətlərin varlığı məhz elə ilahi zatın varlığıdır. Bu sifətlər həqiqətləri və varlıqları baxımından yalnız məfhum və məna olaraq bir-birindən fərqlənir. Yəni bu sifətlər həqiqi mənada deyil, zehni mənada zata əlavə olunur.

2. Bu sifətlərin Allah-taalada olmaması qeyri-mümkündür. Buna əsasən də elm və ya qüdrət sifətini bütün hallarda Allah-taalada olmalıdır. Bu sifətləri inkar etmək heç vaxt düzgün deyildir.

**Allahın feli sifətlərinin xüsusiyyətləri:**

1. Bu sifətlərə aid olan fellər baş vermədən öncə həmin sifətlərlə Allah-taala vəsf olunmaz. Məsələn, Allah xəlq etmədən öncə Xaliq sifəti ilə vəsf olunmaz. Ruzi vermədən əvvəl Raziq sifətilə vəsf olunmaz.[102]

2. Bəzi hallarda bu sifətləri Allah-taalaya nisbət verməmək olar. Məsələn, "Allah-taala filan şeyi xəlq etmişdir, lakin filan şeyi xəlq etməmişdir", "Allah-taala filankəsə ruzi vermişdir, lakin filankəsə ruzi verməmişdir" demək doğrudur. [103]

3. Bu sifətlər Allahın zatının deyil, fellərinin sifətləri hesab olunur. İlahi zata aid olan sifətlər bütün hallarda Allahın qüdrətinin yetdiyi fellərdir.

4. Allahın feli sifətləri Allahın kamilliyi üçün şərt deyil. Çünki kamilliyin şərti olan sifətlər aşağıdakı xüsusiyyətləri ehtiva etməldir:

---

[102] Bax; Şeyx Mufid, Təshihi etiqadatil-imamiyyə, s. 41.

[103] Həmin mənbə.

**Birinci:** Varlığı olan həqiqət olmalıdır.

**İkinci:** İlahi zata əlavə olunmamalıdır.

Lakin feli sifətlər aşağıdakı xüsusiyyətlərdən ibarətdir:

**Birinci:** Şərti sifətlərdir. Fel baş verdikdə həmin sifət nisbət verilir.

**İkinci:** İlahi zat rütbəsindən sonradır.

Şərti olaraq, fel nəticəsində nisbət verilən və ilahi zat mərtəbəsindən sonra olan sifət zat üçün kamillik ola bilməz. Deməli, Allah-taalanı fel baş vermədən əvvəl feli sifətlərlə vəsf olunmaması ilahi zat üçün naqislik gətirmir. İlahi zat özlüyündə kamildir. Feli sifət ilahi zata heç bir kamillik gətirmir. Başqa sözlə desək: Allahın feli sifətləri ilahi zatın kamilliyindən mənşə götürür. Buna görə də feli sifətlər ilahi zata kamillik gətirmir.

**Zati və feli sifətlər arasındakı fərq:**

1. Zati sifətlər zata nisbətdə formalaşır və zat barəsində xəbər verir. Feli sifətlər isə feldən formalaşır və zatdan fərqlidir.

2. Zat qədim olduğu üçün zati sifətlər də qədimdir. Feli sifətlər isə ilahi fellərin (zata nisbətdə) sonradan baş verməsi baxımından qədim deyildir.

3. Zati sifətlərin Allah-taalanın zatından ayrı olması heç vaxt mümkün deyil. Buna əsasən də heç bir halda Allah-taala elmsiz və ya qüdrətsiz ola bilməz. Feli sifətlərə gəlincə, bu sifətlər bəzən Allah-taalaya nisbət verilməməsi mümkündür. Buna əsasən də Allah-taala barəsində yaradır, yaratmır, ruzi bəxş edir və ruzi bəxş etmir demək mümkündür.[104]

[104] Bax; Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 111; Şeyx Mufid, Təshihul-etiqadatil-imamiyyə, s. 41.

## Altıncı mövzu

### Allahın zati sifətləri zatı ilə eynidir, yoxsa zata əlavə edilmişdir?

Müsəlmanların Allahın sifətləri barədə ən əsas rəyləri bunlardan ibarətdir:

1. Mötəzilə alimlərinin bəzilərinin rəyi: **Zat sifətləri əvəz edir.**

2. Mötəzilə alimlərinin bəzilərinin rəyi: **Sifətlərin hal olması.**

3. Kərramiyyənin rəyi: **Sifətlərin zata əlavə olması və sonradan baş verməsi.**

4. Əşərilərin rəyi: **Sifətlər zata əlavə olunub və eyni zamanda qədimdir.**

5. İmamiyyənin rəyi: **Zat ilə sifətlərin eyni olması.**

**Birinci rəy: Zatın sifətləri əvəz etməsi.**

Bu rəydə olanlar ilahi zatın sifətlərlə vəsf olunmasını inkar etmişlər və zatın sifətləri əvəz etməsini söyləmişlər. Yəni Allah üçün sifət yoxdur. Onun zatı sifət məqamında olur. Onlar belə deyirlər: "O, elm, qüdrət və həyat ilə deyil, zatı ilə alimdir, zatı ilə qüdrətlidir, zatı ilə diridir". [105]

**Bu rəyin cavabı:**

1. Bu rəy Allahın zatının kamal sifətlərdən xali olmasını tələb edir. Bu isə batildir.[106]

2. Quran və sünnə Allah üçün sifətlər təyin etmişdir. Bu mətnləri zahiri mənasından başqa mənaya yozmaq üçün heç bir dəlil yoxdur.

---

[105] Bax; Qazi Əbdülcəbbar, Şərhul-usulil-xəmsə, s. 183; Şəhristani, əl-Miləl vən-nihəl, c. 1, s. 44.

[106] Meysəm Bəhrani, Qəvaidul-məram, s. 101.

**İkinci rəy: Sifətlərin hal olması.**[107]

Bu rəyi söyləyənlər varlıqla yoxluq arasında vasitənin olduğunu deyirlər. Həmin vasitə sabitdir. Onu hal adlandırmışlar və belə demişlər: "Allahın həqiqi sifətləri hallardan ibarətdir. Halların zatı olmur. Buna əsasən də nə mövcuddur, nə də ki, yoxdur. Əksinə haldır.

**Bu rəyin cavabı:**

Ağıl fərz olunan hər hansı bir şeyin varlıq və ya yoxluq vəsfindən başqa bir vəsfin və ya onların arasında hər hansı bir vasitənin olmamasına hökm edir.

**Üçüncü rəy: Sifətlərin zata əlavə olunması və sonradan baş verməsi.**[108]

Bu rəyin sahibləri Allahı həqiqi sifətlərinin sonradan baş verdiyini və zatda olduğunu deyirlər.

**Bu rəyin cavabı:**[109]

1. Əgər Allahın əzəli sifətləri sonradan olarsa aşağıdakı iki haldan biri olmalıdır:

**Birinci:** Sifətlər özünü yaratmışdır. Bu qeyri-mümkündür.

**İkinci:** Başqası bu sifətləri yaratmışdır. Həmin başqası da iki şeydən biri olmalıdır:

**a)** Həmin başqası Allah deyil. Onun Allaha dayanması labüddür. Əks təqdirdə təsəlsül baş verəcəkdir. Təsəlsül isə qeyd etdiyimiz kimi qeyri-mümkündür.

---

[107] Mötəzilədən Əbu Haşim Cubai bu rəydədir. Bax; Fəxrəddin Razi, Muhəssəlu əfkaril-mutəqəddiminə bəl-mutəəxxirinə minəl-uləmai vəl-hukəmai vəl-mutəkəllimin, s. 180.

[108] Bu rəy Məhəmməd bin Kərma Sicistaniyə nisbət verilir. Bax; Şəhristani, əl-Miləl vən-nihəl, c. 1, s. 108.

[109] Bax; Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 106.

**b)** Sifətləri yaradan Allah-taaladır. Bu isə özündə olmayan bir şeyi özünə verməkmənasındadır. Çünki bu rəyə əsasən bu sifətlər yaranmadan əvvəl Allah-taala bu sifətlərə sahib deyildi. Bu isə batildir.

2. Allahın sonradan yaranan sifətlərlə vəsf olunması Onun başqa bir şeyə möhtac olmasını tələb edir. Allah-taala isə bütün növ ehtiyacdan pak və ucadır.

**Dördüncü rəy: Sifətlər zata əlavə olunub və eyni zamanda qədimdir.**[110]

Fəzl bin Ruzbəhan belə deyir: "Əşərilərin rəyi budur ki, Allah-taalanın sifətləri vardır. Həmin sifətlər qədimdir və zata əlavə edilmişdir. O, elmlə alimdir, qüdrətlə qadirdir, iradə ilə müriddir..."[111]

Sonra "sifətlərin zata əlavə olunmasını" belə izah edir: "sifətlər nə zatın özüdür, nə də zatdan başqa bir şeydir".[112]

Əbulhəsən Əşəri belə deyir: "Allah-taala elmlə alimdir. Qüdrətlə qadirdir, həyatla diridir... bu sifətlər əzəlidir və Allahın zatı ilə mövcuddur. Nə zatın özüdür, nə də zatdan qeyri bir şeydir. "Nə odur" deyil, "nə də ondan qeyrisi" deyil!"[113]

**Bu rəyin cavabı:**

1. Əgər Allah-taalanı sifətləri zata əlavə olunarsa, sifətlər zatdan fərqli bir şey olacaqdır. Əgər Allah-taalanın sifətləri zatı ilə eyni olacaqsa, bu zaman sifətlər Allah-taalanın zatı ilə eyni olacaqdır. Amma Allahın sifətləri "nə zat ilə eynidir, nə də zatdan başqa bir şeydir" demək iki ziddin eyni anda aradan qalxmasıdır. Bu isə batildir.

---

[110] Bax; Əzududdin İyci, əl-Məvaqif, c. 3, s. 68; Səduddin Təftəzani, Şərhul-məqasid, c. 4, s. 69.

[111] Məhəmməd Həsən Muzəffər, Dəlailus-sidq, c. 2, s. 270.

[112] Həmin mənbə, c. 2, s. 273.

[113] Şəhristani, əl-Minəl vən-nihəl, s. 95.

2. Əşərilərin sözlərindən belə nəticə çıxır ki, Allah-taala ilə yanaşı sifətləri qədər qədimlər vardır. Bu isə qeyri-mümkündür.

Buna əsasən əşərilərin rəylərini tənqid edərkən Fəxri Razi belə deyir: "Xristianlar küfr etmişlər. Çünki onlar üç qədimin olduğuna etiqad etmişlər. Bizim əshabımız (əşəri alimlərini nəzərdə tutur) isə doqquz qədimə etiqad edirlər. Zat və səkkiz sifət!"[114]

3. Əgər Allah-taalanın baqi olması bəqa sifəti (varlığı davam edən) ilə olarsa, Allah-taala mümkün varlıq olar. Çünki "bəqa" davam edən varlıq mənasındadır. Əgər Allahın varlığının davamlığı zatından qeyri bir şeyə istinad edərsə, mümkünül-vucud (varlığı mümkün olan) olar".[115]

4. Əgər əşərilərin sifətlərin zata istinad edərək var olmasın deməkdə məqsədləri bu sifətlərin Allahda yaranmasıdırsa, bu, qeyri-mümkündür. Əgər məqsədləri bəzi mötəzilə alimlərinin dedikləri kimi sifətlərin hal olmasıdırsa, bu da, hamçinin, batildir".[116]

Deməli, əşərilərin sifətlərin zata əlavə olunmasını deməkdən başqa çıxış yolları yoxdur. Bu rəyin isə növbəti səhifələrdə batil olduğunu bəyan edəcəyik.

## Allahın sifətlərinin zata əlavə olunmasını batil olmasının dəlilləri

1. Əgər Allahın həqiqi sifətləri zata əlavə olunarsa, iki vəziyyətdən biri olmalıdır:[117]

**Birinci:** Həmin sifətlər qədim olmalıdır. Nəticədə qədim olanların sayı çox olur. Allahı vəhdaniyyətinin dəlilləri bu rəyi batil edir.

---

[114] Bax; Əllammə Hilli, ər-Risalə əs-sədiyyə, s. 51.

[115] Həmin mənbə.

[116] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 139, 140.

[117] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 217; Şeyx Tusi, ər-Rəsailul-əşərə, s. 96: Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, s. 139; Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 208.

**İkinci:** Həmin sifətlər sonradan baş vermişdir. Deməli, sifətlər olmadığı halda ilahi zatda heç bir sifət olmamışdır. Həmçinin həmin sifətləri kim icad etmişdir sualı ilə qarşılaşırıq. Kərramiyyənin rəyinə cavab verərkən bu rəyin batil olmasını sübuta yetirmişik.

2. Sifətlərin zata əlavə olunması rəyindən belə nəticə alınır ki, Allah-taala zat mərtəbəsində elm və qüdrətdən xalidir. Deməli, Allah-taalanın zatında naqis olması deməkdir. Bu isə ilahi zatın şəninə layiq deyil. Bununla da Allahın sifətlərinin zata əlavə olunması rəyinin batil olması sübuta yetir.

3. Sifətlərin zata əlavə olunması rəyindən başqasına ehtiyac mənası yaranır. Çünki sifətlərin zata əlavə olunması rəyindən aşağıdakı nəticələr çıxır:

Allah-taala zatından ayrı olan həyatla diridir.

Allah-taala zatdan ayrı olan elmlə alimdir.

Allah-taala zatdan ayrı olan qüdrətlə qadirdir.

Bütün bu hallarda isə Allah-taala öz zatı ilə zəngin deyildir. Əksinə başqa bir şeyə möhtacdır. Lakin Allah-taala ehtiyaclı olmaqdan münəzzəh və ucadır. Bununla da Allahın sifətlərinin zata əlavə olunması rəyinin batil olması sübuta yetirilir.[118]

4. Sifətlərin zata əlavə olunması rəyinə əsasən Allah-taala zat və qədim sifətlərdən ibarətdir, mürəkkəbdir. Lakin Allah-taalanın mürəkkəb olması qeyri-mümkündür. Çünki mürəkkəb olan hər bir şey tərkib hissələrinə möhtacdır. Hər bir möhtac olan isə mümkünül-vucuddur (varlığı mümkün olan və var olması üçün səbəbə ehtiyacı olandır).[119]

[118] Bax; Əllamə Hilli, ər-Risalətus-sədiyyə, s. 410; Miqdad Səyyuri, İrşadut-talibin, s. 217.

[119] Əllamə Hilli, Kəşful-fəvaid, s. 197.

**Sifətlərin əlavə və qədim olması rəyi barədə Əhli-beytin (ə) mövqeyi.**

1. Əban bin Osman Əhmər belə nəql edir: Cəfər bin Məhəmməd Sadiq (ə)-a dedim: "Bir şəxs siz əhli-beytin vilayətinə mənsubdur. O, belə deyir: "Allah-taala eşitmək sifətilə eşidir, görmə ilə görür, elmlə bilir və qüdrətlə qadirdir" (İmam) qəzəbləndi və belə dedi: "Kim belə deyib etiqad edərsə, müşrikdir. Bizim vilayətimizdə deyildir. Allah-taalanın zatı alim, eşidən, görən və qüdrətlidir".[120]

2. Hüseyn bin Xalid belə nəql edir: "Əli bin Musa ər-Rzanın (ə) belə dediyini eşitdim: "Allah-taala əzəldən alim, qüdrətli, diri, qədim, eşidən və görəndir". Mən dedim: "Ey Peyğəmbər övladı, bəzilər belə deyir: "Allah-taala elmlə alimdir, qüdrətlə qadirdir, həyatla diridir, qədimliklə qədimdir, eşitmə ilə eşidəndir, görmə ilə görəndir". (İmam) buyurdu: "Kim belə deyərsə və dediyinə etiqad edərsə. Allahla yanaşı başqa ilah qəbul etmişdir. O, bizim vilayətdə deyil..."[121]

3. İmam Əli (ə) Allah-taala barəsində belə buyurmuşdur: "Ona qarşı ixlaslı olmağın kamilliyi sifətləri (əlavə sifətləri) ondan uzaq tutmaqdır. Çünki hər bir sifət vəsf olunandan fərqli olduğuna, həmçinin, hər bir vəsf olunanın sifətdən fərqli olduğuna dəlalət edir. Kim Allah-taalanı vəsf edərsə (yəni zatına əlavə olunan sifətlə vəsf edərsə), Onu tay tutmuşdur (yəni zatını başqa bir şeyə tay tutmuşdur). Onu başqasına tay tutan iki bilmişdir (yəni kim Allahı əlavə olunmuş sifətlərlə vəsf edərsə, iki şey nəzərdə tutmuş olur: zat və sifət). Kim Onu iki bilərsə, hissələrə bölmüş olar. Kim Onu hissələrə bölmüş olarsa, Onu tanımamışdır".[122]

**Qeyd:** İmam Əli (ə) "Ona qarşı ixlaslı olmağın kamilliyi sifətlərin inkar olunmasıdır" buyurduqda Allah-taalanın bütün sifətlətinin mütləq

---

[120] Şeyx Səduq, ət-Tövhid, s. 139.

[121] Həmin mənbə ,s. 139.

[122] Şərif Rəzi, Nəhcul-bəlağə, birinci xütbə, s. 14.

inkarını nəzərdə tutmur. Əks təqdirdə Allah-taalanı elm və qüdrət kimi kamal sifətləri ilə vəsf etməməliyik. Çünki İmam (ə) bu xütbənin əvvəlində Allah-taalanın sifətlərinin olmasını qeyd etmiş və Allah-taala barəsində belə buyurmuşdur: "Sifətinin məhdud həddi yoxdur". Bununla da nəticə çıxarırıq ki, İmamın (ə) sifətlərin inkar olunmasından məqsədi məhdud sifətlərin inkar olunmasıdır. Yəni zata əlavə olunan sifətlərin inkar olunması. Xütbənin davamında isə İmam (ə) bunun səbəblərini sadalamışdır.

**Beşinci rəy: Allah-taalanın sifətləri ilə zatı eynidir.**[123]

Bu rəyi söyləyənlər Allahın həqiqi sifətləri ilə zatının eyni olmasını deyirlər. Yəni bu sifətlərin zatdan ayrı varlığı yoxdur. Sifətlər məfhum baxımından zehində və şərti olaraq fərqlidir. Lakin reallıqda bütün sifətlərin vahid varlığı vardır. Həmin vahid varlıq ilahi zatdır.[124]

**Bu rəyin dəlili:** Sifətlərin zata əlavə olunmasının batil olmasına dəlalət edən bütün dəlillər sifətlərin zat ilə eyni olmasına dəlalət edir.

**Dəlilin izahı:**

1. Əgər Allah-taalanın sifətləri ilə zatı eyni olmasaydı sifətləri xüsusunda başqasına, zatından qeyrisinə möhtac olardı. Lakin sifətləri ilə zatı eyni olarsa, belə bir hal baş vermir.

2. Əgər Allahın sifətləri ilə zatı eyni olmasaydı, Allahın zat mərhələsində elm və qüdrətdən xali olması gərəkərdi. Bu isə ilahi zata layiq deyil. Lakin sifətləri ilə zat eyni olarsa belə bir hal baş vermir.

3. Əgər Allah-taalanın sifətləri ilə zatı eyni olmasaydı, zatın hissələrdən ibarət olması zərurəti yaranardı. Allah-taalanın mürəkkəb

[123] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 410; Miqdad Səyyuri, İrşadut-talibin, s. 222.

[124] Bu rəy zatın sifətləri əvəz etməsi anlamında deyil. Çünki zatın sifətləri əvəz etməsi rəyi elm və qüdrət kimi kamal sifətlərin inkar edilməsinə əsaslanır. Lakin bu rəyə əsasən zat məqamında bu kamal sifətlərin varlığı təsdiq edilir. Bax; Şeyx Mufid. Əvailul-məqalat, s. 52.

olması isə qeyri-mümkündür. Lakin sifətləri ilə zat eyni olarsa, belə bir hal baş vermir.

**Allah-taalanın sifətləri ilə zatının eyni olmasının izahı**

Allah-taalanın sifətlərinin zatı ilə eyni olmasını başa düşmək üçün ən əsas məsələlərdən bir məfhum və misdaqın başa düşülməsidir.

Məfhum varlıqların ən əsas və əhmiyyətli xüsusiyyətlərini zehnimizdə əks etdirən ümumi mənadır.[125]

Misdaq (predmet) zehnimizdə olan mənanın (məfhumun) aid olduğu konkret varlıqlardır.[126]

**Qeyd:** Diqqət edilməsi gərəkən əsas məsələlərdən bir də budur ki, vahid misdaqa bir neçə məfhumun şamil olması mümkündür. Məsələn, insan bütün varlığı ilə Allah-taalanın məxluqudur (yaratdığı varlıqdır). Həmçinin insan bütün varlığı ilə Allah-taala üçün məlumdur. Burada insan vahid misdaqdır. Məxluq və məlum məfumları bu vahid misdaqa şamildir. Təbii ki, burada insanın müəyyən hissəsinin Allahın məxluqu, başqa hissəsinin isə Allah üçün məlum olması nəzərdə tutulmur. Əksinə insan bütün varlığı ilə Allahın məxluquddur və eyni zamanda bütün varlığı ilə məlumdur. Məlumdur ki, "məxluq" məfhumu ilə "məlum" məfhumu eyni mənalı deyil, fərqli məfhumlardır. Məna baxımından fərqli olan bu iki məfhum vahid misdaqa şamil olur.

**İlahi məfhum və misdaqın izahı**

1. Allah-taalanın varlığı vahiddir. Lakin Onun müxtəlif təcəlliləriнə nisbətdə çoxlu məfhumlar vardır. Yəni Allah-taalanın vahid həqiqəti vardır və zatı sifətlər hamısı vahid misdaqı ifadə edən məfhumlardır. Həmin vahid misdaq isə Allah-taaladır.

[125] əl-Mucəmul-vəsit, f,h,m kök hərifləri.

[126] əl-Mucəmul-vəsit ,s,d,q kök hərifləri.

2. Sifətlərin çoxluğu Allahın zatında mürəkkəbliyin olmasına gətirib çıxartmır. Çünki Allahın hər bir sifəti Onun varlığının müəyyən hissəsini təşkil etmir. Əksinə bu sifətlərin hər biri bütövlükdə zatı ifadə edir. Burada çoxluq misdaqda deyil, məfhum baxımındandır.

3. Elm, qüdrət və həyat kimi sifətlər Allah-taala ilə insan arasında məfhum baxımından müştərək sifətlərdir. Lakin misdaq baxımından bu sifətlər bir-birindən fərqlidir. Bu sifətlər insanda varlıq baxımından mümkünul-vucuddur, məhduddur və maddidir. Lakin bu sifətlər Allah-taalada vacibdir, zəngindir və sonsuzdur. Allah-taalanın varlıq baxımından heç bir bənzəri yoxdur.[127]

4. İnsanın həqiqi mənada vahid və bəsit olan Allah-taalanı müxtəlif məfhumların sayəsində tanımasının səbəbi onun idrak qüvvəsinə qayıdır. Çünki insan ağlı qarşılaşdığı həqiqəti hissələrə ayırmadan dərk edə bilmir.[128]

5. Məfhumlar məhdudur, həqiqəti tamamilə əhatə edə bilmir. İnsan tövhid bilgisində bu hüduddan kənara çıxa bilmir. Allahın zatı bütün təsəvvürlərin fövqündədir.

## Allahın sifətləri ilə zatının eyni olmasını bəyan edən Əhli-Beyt(ə) hədisləri

1. İmam Cəfər Sadiq (ə) buyurub: “Allah əzəldən bizim Rəbbimizdir. Məlum olmasa da belə, elm onun zatıdır. Eşidilən olmasa da belə, eşitmək Onun zatıdır. Görünən olmasa da belə, görmək Onun zatıdır. Məqdur (qüdrətə tabe olan) olmasa da belə, qüdrət Onun zatıdır. Şeyləri yaratdıqda məlum oldu. Onun elmi məlumlə, eşitməyi eşidilənlə, görməyi görünənlə, qüdrəti məqdurla (qüdrətə tabe olanla) üst-üstə düşdü”. [129]

[127] Bax; Şura, 11

[128] Seyid Kamal Heydəri, ət-Tövhid, c. 1, s. 177, 187

[129] Kuleyni, əl-Kafi, c. 1, s. 107; Şeyx Səduq, ət-Tövhid s. 134, 135.

2. Məhəmməd bin Müslim İmam Məhəmməd Baqirin (ə) qədimlik sifəti barədə belə buyurduğunu nəql edir: “O, vahiddir, ehtiyacsızdır, tək mənalıdır (həqiqətlidir). O, çoxlu müxtəlif mənalar (həqiqətlər) deyil”. Mən dedim: “Fəda olum sənə! İraq əhlindən bəziləri belə iddia edirlər ki, O, gördüyündən fərqli cəhətdən eşidir və eşitdiyindən fərqli cəhətdən də görür”. (İmam) buyurdu: “Yalan demişlər, inkar etmişlər və bənzətmişlər. Allah bundan uca və böyükdür. Həqiqətən də O, görən və eşidəndir. Gördüyü ilə eşidir, eşitdiyi ilə görür”.[130]

3. İmam Cəfər Sadiqdən (ə) sual soruşan zindiqin barəsində nəql olunan hədisdə deyilir: “O, belə soruşdu: “Onun eşidən və görən olduğunu deyirsənmi?” İmam Sadiq (ə) buyurur: “O, eşidən və görəndir. Üzv olmadan eşidir. Alət olmadan görür. O, zatı ilə eşidir, zatı ilə görür. “O, zatı ilə eşidəndir” dedikdə Onun zatından fərqli bir şey olduğunu demirəm. Lakin sual soruşan bir şəxs olaraq sənə cavab vermək məqamında olduğuma görə səni başa salmaq üçün belə dedim. Onun bütünü ilə eşitdiyini deyirəm. Onun bütünü dedikdə bəzisi olan bütün anlamında deyil. Çünki bizim üçün bütünün bəzisi də vardır. Sən başa düşəsən deyə bu ifadəni işlətdim. Bütün bunlarda istinadım budur; Zat və mənanın (həqiqətin) ixtilafı fərqi olmadan O, eşidəndir, görəndir, alimdir və hər şeydən xəbərdardır”.[131]

**Zatla sifətlərin eyni olmasına aid iradlar:**

**Birinci irad:** Əgər Allahın sifətlərinin zatı ilə eyni olduğunu desək, zat barəsində hər hansı sifətlə xəbər verə bilmərik. Çünki bir şey barəsində xəbər vermək üçün xəbər verənlə xəbər verilən arasında

[130] Kuleyni, əl-Kafi, c. 1, s. 108.

[131] Həmin mənbə, c. 1, s. 109.

müəyyən növ fərqin olması şərtdir. Əks təqdirdə bir şey barəsində onun özü ilə xəbər verilmiş oluruq. Bu isə batildir.[132]

**Bu iradın cavabı:** Allahın sifətlərinin zatı ilə eyni olmasında məqsədimiz budur ki, misdaq baxımından sifətlər zatla eynidir. Məfhum baxımından sifətlər zatla eyni deyildir. Əksinə məfhum baxımından sifətlər zatdan fərqlidir. Məfhumda fərqliliyin olmasına əsasən sifətlər vasitəsilə zat barəsində xəbər vermək düzgündür. [133]

**İkinci irad:** Əgər elm ilahi zatla eyni olarsa, həmçinin, qüdrət zatla eyni olarsa, elm qüdrət olar. Bu isə batildir.[134]

**Bu iradın cavabı:**[135]

Elm ilahi zat ilə eynidir və qüdrət zat ilə eynidir dedikdə məqsədimiz elm və qüdrət məfhumlarının Allah-taalada eyni olmasıdır. Məfhum baxımından isə məlumdur ki, elm məfhumu qüdrət məfhumundan fərqlidir. Elm məfhumunun qüdrət məfhumu ilə eyni olması düzgün deyildir. Lakin bu iki məfhumun vahid misdaqa adi olması düzgündür. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi bir neçə məfhumun vahid misdaqa aid olmasının heç bir problemi yoxdur. Başqa sözlə desək: Elm və qüdrət zat ilə eyni dedikdə məqsəd iki ayrı məfhum olan elm və qüdrətin vahid misdaqı olmasıdır. Həmin misdaq Allah-taalanın zatıdır.
Elm məfhumu ilə qüdrət məfhumu eyni deyil ki, qeyd olunan bu irad da yerində olsun.

**Üçüncü irad:** Əgər Allah-taalanın elmi ilə zatı eyni olarsa, "Ey Allahın elmi bağışla məni, rəhm et mənə!" demək düzgün olardı.[136]

---

[132] Əzududdin İyci, əl-Məvaqif, s. 69.

[133] Həmin mənbə.

[134] Həmin mənbə, s. 70.

[135] Həmin mənbə.

[136] Əbulhəsən Əşəri, əl-İbanə, s. 109.

**İradın cavabı:**

Allahın elmi ilə zatının eyni olması deməkdə məqsədimiz elm və zatın vahid misdaqının olmasıdır. Məqsəd elm məfhumu ilə zat məfhumunun eyni olması deyil. Buna əsasən də elm məfhumunu zata işarə etmək üçün zat məfhumu yerində işlətmək düzgün deyil. Çünki elm məfhumundan anlaşılan zat məfhumundan anlaşılan mənadan fərqlidir. Bundan əlavə elm məsdərdir. Ərəb dilində varlığı məsdərlə çağırmaq düzgün deyil. Əksinə adlanan isimlə çağırılmalıdır.

## Dördüncü fəsil: Allah-taalanı naqisliklərdən uca olmasını bildirən sifətləri

**İttihad**

**Ehtiyac**

**Mürəkkəblik**

**Cisimlilik**

**Cəhət**

**Cövhər və ərəz**

**Həd**

**Hərəkət və sükunət**

**Hulul**

**Dəyişiklik**

**Görmək**

**Zaman**

**Bənzərlik**

**Şərik**

**Zidd**

**Keyfiyyət**

**Ləzzət və acı**

**Oxşar**

**Məkan**

## Allat-təalanı pak və uca olduğu naqis sifətlər

### İttihad

İttihad iki şeyin birləşərək artıqlıq və azlıq olmadan bir şey olmasıdır.[137]

İttihad əqidəsində olanlar:

**1. Xristianlar.** Xristianlar Allah-taala ilə İsa Məsihin ittihad etdiyinə yaxud üç üqnumun – ata, oğul və müqəddəs ruhun ittihadına etiqad bəsləyirlər.[138]

**2. Sufilər.** Sufilər arifin seyr-sülük mərhələlərində Allahda fəna olmaq mərhələsinə çatdıqda Allah-taala ilə ittihad etdiyinə etiqad edirlər.[139]

**3. Nuseyriyyə.** Nuseyriyyə təriqəti Allah-taalanın Əli bin Əbu Taliblə (ə) ittihad etdiyinə etiqad edirlər.[140]

### Allah-taalanın hər hansı bir şeylə ittihadının batil olmasının dəlilləri.

1. İttihad özlüyündə batildir. Çünki iki şeyin ittihadı fərz olunarsa təsəvvür ediləcək qisimlər aşağıdakılardan ibarətdir:

**Birinci:** İki şeyin hər biri olduqları kimi qalır. Bu halda onların arasında ittihad baş vermir. Çünki bu halda onlar vahid şey deyil, bir-birindən fərqli iki ayrı şeydir.

---

[137] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 29; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 74; Əllamə Hilli, Kəşful-fəvaid, s. 223.

[138] Bax; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 74; Əllamə Hilli Mənahicul-yəqin, s. 205; Miqdad Səyyuri, İrşadut-talibin, s. 238.

[139] Bax; Həmin mənbələr və Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 72.

[140] Bax; Məhəmməd Əbdülkərim Şəhristani, əl-Miləl vən-nihəl, c. 1, s. 188.

**İkinci:** Hər iki şeyin yox olub üçüncü bir şeyin yaranması. Bu halda da ittihad baş vermir. Çünki yox olan bir şey yox olan bir şeylə ittihad edə bilməz.

**Üçüncü:** İkisindən birinin yox olub digərinin qalması. Bu halda da onların arasında ittihad baş vermir. Çünki olmayan bir şey olan bir şeylə birləşə bilməz.[141]

**2.** Bir şeyin Allah-taala ilə ittihad etməsindən əvvəl təsəvvür ediləcək qisimləri:

a) Həmin şey vacibul-vucuddur. Bu halda bir neçə vacibul-vucud olacaq. Bu isə qeyri-mümkündür.

b) Həmin şey mümkünül-vucuddur. Bu halda ittihaddan sonra hasil olan şey iki cür olmalıdır:

**Birinci:** Həmin şey vacibul-vucud olur. Nəticədə mümkünül-vucud vacibə çevrilir.

**İkinci:** Həmin şey mümkünül-vucud olur. Nəticədə vacib olan mümkünə çevrilir. Hər iki nəticə batildir. Bununla da Allah-taala ilə hər hansı bir şeyin ittihadının batil olması sübuta yetirilir.[142]

**Ehtiyac**

Allah-taalanın möhtac olmamasının dəlilləri:

1. Allah-taala heç bir şeydə başqasına möhtac deyildir. Çünki ehtiyac varlığı səbəbdən asılı olan mümkün varlıqların xüsusiyyətlərindəndir. Varlığı vacib olan isə ehtiyacdan uzaqdır.[143]

---

[141] Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 71; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 65; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 74; Əllamə Hilli, Kəşful-murad, s. 407; Əllamə Hilli, Mənahicul-yəqin, s. 205; Miqdad Səyyuri, İrşadut-talibin, s. 238.

[142] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 29, 30; Əllamə Hilli, Kəşful-murad, s. 407.

2. Allah-taala qədimdir. Qədim olan hər şeydən əvvəl olduğu üçün zəngindir və heç nəyə möhtac deyildir. Allah-taala buyurub**:** ***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilməndir!)"***[144]

**Qeyd:** Ehtiyacın qisimləri:

1. Zat (var olmaq) baxımından ehtiyac. Ayaq izinin həmin izi qoyan şəxsə ehtiyacı kimi.

2. Sifətlər baxımından ehtiyac. Qüdrətli olmaq üçün qüdrət sifətinə ehtiyac kimi.

3. Mənfəətləri əldə edib zərərləri dəf etmək baxımından ehtiyac.

Allah-taala bütün bu qisimlərə nisbətdə zəngindir, ehtiyacsızdır:

1. Çünki Allah-taala Öz zatı ilə zəngindir, ehtiyacsızdır. Bu barədə dəlilləri yuxarıda qeyd etmişdik.

2. Allah-taala sifətləri baxımından zəngindir, ehtiyacsızdır. Çünki sifətləri zatı ilə eynidir.

3. Allah-taala üçün mənfəət və zərər təsəvvür edilməzdir. Çünki mənfəət və zərər acı və ləzzət duyan bir varlıq üçün təsəvvür edilə bilər. Zərər və ləzzət isə şəhvət və inciklik duyan varlıq üçün təsəvvür edilir. Bu xüsusiyyətlər isə cisimlərə aid xüsusiyyətlərdir. Allah-taala cismanilikdən uca və pakdır".[145]

---

[143] Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 31; Məhəmməd Səid Ravəndi, Əcalətul-mərifəti fi usuliddin ,s. 30; Əllamə Hilli, Kəşful-murad, s. 408; Əllamə Hilli, Mənahicul-yəqin, s. 219; Miqdad Səyyuri, İrşadut-talibin, s. 239.

[144] Fatir, 15

[145] Bax; Şərif Murtaza, Şərhul-ilmi vəl-əməl, s. 71; Əbusalah Hələbi, Təqribul-məarif, s. 87; Şeyx Tusi, əl-İqtisad, s. 74; Muhəqqiq Hilli, əl-Məsləк fi usuliddin, s. 54; Əllamə Hilli, Mənahicul-yəqin, s. 218; Miqdad Səyyuri, İrşadut-talibin, s. 238, 239

**Mürəkkəblik**

**Mürəkkəbliyin qisimləri:**[146]

1. Təbii mürəkkəblik. Mövcud hissəciklərdən mürəkkəb olan. Bu hissələr filosofların nəzərində maddə və forma adlanır. Təbiət alimlərinin nəzərində isə maddə, surət, üzvi hissələr və zərrələrdən ibarətdir.

2. Məntiqi mürəkkəblik: Bu növ mürəkkəblik zehni baxımdan mürəkkəblikdir. Məslən, varlıq və mahiyyət, cins və fəsil.

3. Şərti mürəkkəblik. Məsələn, sifətlərin zata əlavə olunması baxımından zatla sifətlərin mürəkkəblik yaratması kimi.

4. Xəyali mürəkkəblik. Məsələn, xətt, müstəvi və cism.

Allah-taala bütün bu növ mürəkkəbliklərdən uca və pakdır.

**Allah-taalanın zatında mürəkkəbliyin olmamasının dəlilləri:**

1. Mürəkkəb olan bir şey öz tərkib hissələrinə möhtacdır. Lakin Allah-taala sübut olunduğu kimi ehtiyacsızdır.[147] Başqa sözlə desək, hissənin varlığı bütünün varlığından öncədir. Mürəkkəb olanı hər bir hissəsi digər hissəsindən fərqlidir. Buna görə də mürəkkəb olan tərkib hissələrinə möhtacdır. Lakin Allah-taala zəngindir və başqasına möhtac deyildir.[148]

2. Əgər ilahi zat mürəkkəb olarsa, onun tərkib hissələri iki cür ola bilər:

**Birinci:** Həmin hissələr qədimdir. Bu halda isə qədimlərin sayı çox olur. Bu isə batildir.

---

[146] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 406; Miqdad Səyyuri, İrşadut-talibin, s. 225; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 68

[147] Bax; Şeyx Mufid. ən-Nukətul-etiqadiyyə, s. 30; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, səh, 68; Əllamə Hilli, Kəşful-murad, s. 213, 214; Miqdad Səyyuri, əl-İtimad fi şərhi vacibil-etiqad, s. 71; Miqdad Səyyuri, İrşadut-talibin. S. 224.

[148] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 405; Əllamə Hilli, Mənahicul-yəqin, s. 201, 202.

**İkinci:** Həmin hissələr sonradan yaranıb. Bu halda isə vacib olan varlığın tərkib hissələri vacib olmayacaqdır. Bu isə batildir.

3. Mürəkkəb olan onu təşkil edənə ehtiyacı vardır. Bu isə ilahi zata aid ola bilməz.

4. Bütöv olan müxtəlif tərəfləri olan hissələrdən ibarətdir. Onun bir tərəfi digəri tərəfi ilə eyni deyil. Onun bir tərəfi digər tərəfinin başladığı yerdə bitir, yox olur. Nəticədə isə hər bir tərəf naqis olur, ilahi zatda naqisliyə və qüsura gətirib çıxarır. Bu isə batildir.[149]

5. Əgər Allah-taala hissələrdən tərkib tapsaydı, Onun elmi və qüdrəti fərqli hissələrin hər birində sabit olardı. Allahın hər bir hissəsi alim və qüdrətli olardı. Nəticədə çoxlu sayda ilahlar olardı. Bu isə batildir.

**Cismanilik**

Cisim uzunluq, en və dərinliyi olan üç tərəfli varlıqdır.[150] Təcsim isə Allah-taalanı cisim olmasına etiqad bəsləməkdir.

**Allah-taalanın cisim olmamasının dəlilləri:**

1. Cisimin varlığının növünə görə məkana ehtiyacı var. Allah-taala bütün növ ehtiyaclardan uca və pak olduğu üçün Onun cismanilikdən də uca olması sübuta yetir.[151]

2. Cisim dəyişikliklərə məruz qalır. Əgər Allah-taala cisim olsaydı hərəkət və sükunət kimi hallardan xali olmamalıdır. Bu kimi hallardan ayrı olmayan hər bir şey əzəli ola bilməz və sonradan yaradılmışdır. Lakin

[149] Bax; Əbu Talib Təclil, Bərahinu usulil-məarifil-ilahiyyəti vəl-əqaidl-haqqətil-imamiyyə, s. 72.

[150] Şey Səduq, ət-Tövhid, s. 293.

[151] Bax; Əllamə Hilli, əl-Bab əl-hadi əşərə. S. 51; Miqdad Səyyuri, İrşadut-talibin, s. 237.

Allah-taala əzəli və qədimdir. Bununla da Allah-taalanın cismanilikdən uca və pak olması sübuta yetir.[152]

3. Cisim məhdud varlıqdır. Əgər Allah-taala cisim olarsa, məhdud olardı. Allah-taala məhdudluqdan uca və pak olduğu üçün cismanilikdən də uca və pakdır.[153]

4. Cisim mürəkkəb olan varlıqdır. Əgər Allah-taala cisim olsaydı,mürəkkəb olardı. Allah-taala mürəkkəblikdən uca və pak olduğu üçün cismanilikdən də uca və pak olması sübuta yetirilir.[154]

## Allah-taalanın cismanilikdən uca və pak olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

1. İmam Əli (ə) buyurub: "... cisim deyil ki, hissələrə bölünsün".[155]

2. İmam Cəfər Sadiq (ə) buyurub: "... Cisim məhduddur və sonludur. Surət məhdud və sonludur. Əgər həddin olması ehtimal olunarsa, artıqlıq və naqislik də ehtimal olunmalıdır. Artıqlıq və naqislik ehtimal olunarsa, məxluq olardı".[156]

3. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: "Həqiqətən də cisim məhduddur".[157]

4. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Müqəddəsdir o Allah ki, heç bir şey Ona bənzəməz. Nə cisimdir, nə də surətdir".[158]

---

[152] Bax; Əllamə Hilli, Nəhcul-həqqi və kəşfus-sidq, s. 56.

[153] Bax; Əllamə Hilli, Mənahicul-yəqin, s. 202.

[154] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 256; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 69; Əllamə Hilli, Mənahicul-yəqin, s. 202.

[155] Şeyx Səduq, ət-Tövhid, s. 76.

[156] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 106.

[157] Həmin mənbə, s. 106.

[158] Həmin mənbə, s. 104.

5. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “Allah-taalanın cisim olmasını iddia edən bizdən deyildir... Həqiqətən də cisim sonradan yaranmışdır”.[159]

**Cəhət**

**Allah-taalanın hər hansı cəhətdə olmamasının dəlilləri:**

1. Cəhət yalnız hər hansı bir məkanda təsəvvür edilə bilər. Məkan isə sübut edəcəyimiz kimi Allah-taalaya nisbət verilə bilməz.[160]

2. Hər hansı bir cəhətdə olan şey iki halda ola bilər:

**Birinci:** Davamlı olaraq həmin cəhətdə olur.

**İkinci:** Həmin cəhətdən başqa cəhətə hərəkət edir.

Hər iki hal hadis olanlardan (sonradan baş verənlərdən) ayrı deyil. Hadis olanlardan ayrı olmayan isə hadisdir. Lakin sübut edəcəyimiz kimi Allah-taala hadis olanlardan uca və pakdır.[161]

3. Hər hansı bir cəhətdə olan varlıq həmin cəhətin əhatə dairəsində məhdud olur. Allah-taala məhdudluqdan uca və pak olduğu üçün müəyyən bir cəhətdə olmaqdan da uca və pakdır. Buna əsasən də İmam Əli (ə) buyurub: “Kim Ona işarə edərsə, Onu məhdudlaşdırar”.[162]

4. Hər hansı bir cəhətdə olan varlıq həmin cəhətə möhtacdır. Allah-taala ehtiyaclı olmaqdan uca və pak olduğu üçün müəyyən bir cəhətdə olmaqdan da uca və pakdır.[163]

---

[159] Şeyx Səduq, ət-Tövhid, s. 101.

[160] Bax; Əllamə Hilli, Mənahicul-yəqin, s. 204.

[161] Bax; Əllamə Hilli, Nəhcul-həqqi və kəşfus-sidq, s. 57; Miqdad Səyyuri, İrşadut-talibin, s. 227, 228.

[162] Şərif Rəzi, Nəhcül-bəlağə, xütbə 1, s. 14.

[163] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 69; Əllamə Hilli, Kəşful-fəvaid, s. 215, 216; Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 52.

5. Hər hansı bir cəhətdə olan varlıq başqa cəhətdə mövcud deyildir. Əgər Allah-taala müəyyən bir cəhətdə olarsa, başqa cəhətlərdə olmaması vacibdir. Bu isə batildir.

**Dua edərkən əlləri səmaya doğru uzatmağın səbəbi:**

1. İmam Əli (ə) buyurub: "Hər hansı biriniz namazını tamamlayarsa, əllərini səmaya doğru uzadıb dua üçün qaldırsın". Bir nəfər ondan soruşdu: "Ya Əmirəlmöminin məgər Allah hər yerdə deyilmi?" (İmam) dedi: "Şübhəsiz!" (Həmin adam) dedi: "Bəs nə üçün (dua edən) əllərini səmaya qaldırır?" (İmam) dedi: "Məgər oxumamısan bu ayəni ***"Göydə də ruzinin (yağış, qar) və vəd olunduğunuz şey (mükafat, cəza) vardır! (Sizə vəd olunan mükafat, yaxud cəza Allah dərgahındakı lövhi-məhfuzda yazılmışdır)".***[164] Ruzi haradan tələb olunar? Yalnız ruzi olan yerdən. Ruzinin və Allahın vəd etdiyinin yeri səmadır".[165]

2. İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: "(Dua edərkən) əlləri səmaya tərəf qaldırmaqla yerə tərəf tutmaq arasında nə fərq var?" (İmam) dedi: "Bu, Allahın elmində, əhatə etməsində və qüdrətində eynidir. Lakin Allah-taala övliyalarına və bəndələrinə əmr etmişdir ki, əllərini ərşə tərəf səmaya uzatsınlar. Çünki onu (səmanı) ruzinin mədəni qərar vermişdir".[166]

Allah-taalaya cəhət nisbət verməyin qeyri-mümkün olması sübuta yetdikdən sonra bəzi Quran ayələrinin təfsiri.

1. Allah-taala buyurub: ***"O Öz qulları üzərindədir".***[167]

Bu ayədə "üzərində" sözündən məqsəd güc və qüdrətdə[168] əzəmət və hegemonluqdur. Burada maddi mənada üzərində anlamı daşımır. Buna

[164] Zariyat, 22

[165] Şeyx Səduq, İləluş-şərai, c. 2, s. 344

[166] Şeyx Səduq, ət-Tövhid, s. 242

[167] Ənam, 18

dəlil olaraq Fironun dili ilə nəql edilən aşağıdakı ayəni qeyd etmək olar: **“Biz onların üzərində, mütləq, qələbə çalacağıq! (Onlar əvvəlki kimi yenə əlimizin altında olacaqlar!)”**[169]

2. Allah-taala buyurub: ***“...Pak söz (tövhid kəlməsi, zikr, həmd-səna) Ona tərəf yüksələr və pak sözü də (Allah dərgahına) yaxşı əməl qaldırar...”***[170] Yəni saleh əməllər səmada məskunlaşan və əməlləri qoruyub saxlayan mələklərə tərəf yüksələr. Buna əsasən yüksəlmə Allaha tərəf nisbət verilmişdir.[171]

3. Allah-taala buyurub: ***“(Ey insanlar!) Göydə olanın (Allahın) yer hərəkətə gəlib çalxalandığı zaman sizi onun dibinə batırmayacağına əminsinizmi?!”***[172] Yəni səmada Allahın istədiyi vaxt əzab endirmək üçün müvəkkil olan mələkləri vardır.[173]

4. Allah-taala buyurub: ***“Onlar öz (başlarının) üstündə olan Rəbbindən qorxar və özlərinə buyurulanları edərlər!”***[174] Yəni Rəblərinin başları üzərindən onlara əzab göndərəcəyindən qorxurlar.[175]

---

[168] Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 185

[169] Əraf, 127

[170] Fatir, 10

[171] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 2, s. 106

[172] Mülk, 16

[173] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, s. 108

[174] Nəhl, 50

[175] Bax” Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 185

**Cövhər**[176] **və ərəz**[177]

**Allah-taalanın cövhər olmamasının dəlili:**

Cövhər ya fərdi cövhər[178] və ya xətt və ya müstəvi və yaxud cisimdir. Bütün bunlar möhtac və hadis olandır. Lakin Allah-taala nə möhtac, nə də hadisdir.[179]

**Allah-taalanın ərəz olmamasının dəlili:**

Ərəz olan bir şey var olması üçün başqa varlığa möhtacdır. Lakin Allah-taala ehtiyacdan uca və pakdır.[180]

**Hədisi-şərif**

Əbdüləzim Həsəni İmam Əli bin Hadiyə (ə) belə dedi: "Ey Rəsulullahın övladı, mən istəyirəm ki, əqidəmi sənə təqdim edəm. Əgər məqbuldursa, Allah-taala ilə qarşılacağım günədək bu əqidədə qalım". İmam (ə) dedi: "Söylə". Əbdüləzim dedi: "Mən Allah-taalanın... ərəz və cövhər ... olmamasını deyirəm". İmam (ə) dedi: "Allaha and olsun ki, bu Allahın bəndələri üçün seçib bəyəndiyi dindir. Bu əqidədə sabit ol..."[181]

**Məhdudluq**

Allah-taala məhdud deyildir. İmam Əli (ə) buyurub: "Allah-taala məhdud deyil ki, müəyyən həddə sonlu olsun".[182] Həmçinin buyurub: "Kim varlıq aləminin ilahının məhdud olduğunu iddia edərsə, ibadət olunan Xaliqi tanımamışdır".[183]

**Allahın məhdud olmamasının dəlilləri:**

---

[176] Ünsür, mahiyyət.

[177] Aksidensiya, bir şeyin təsadüfi, keçici; müvəqqəti; əhəmiyyətsiz xassəsi,

[178] Monada; atom.

[179] Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 47

[180] Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 29; Əllamə Hilli, Mənahicul-yəqin, s. 203; Muhəqqiq Hilli, əl-Məslək fi usulid-din, s. 64, 65

[181] Şeyx Səduq, ət-Tövhid, s. 79, 80

[182] Şeyx Səduq, ət-Tövhid, s. 35

[183] Həmin mənbə, s. 77.

1. İmam Əli (ə) buyurub: “Kim Allahı məhdud hesab edərsə, onu saya daxil etmişdir. Bununla da Onun əzəli olmasını inkar etmişdir”.[184]

2. Bir şəxs İmam Əli bin Musa ər-Rzadan (ə) Allahı həddini söyləməyi tələb etdi. İmam (ə) buyurdu: “Onun həddi yoxdur”. Həmin şəxs dedi: “Nə üçün?” İmam (ə) dedi: “Çünki məhdud olan hər bir varlıq müəyyən həddə bitir. Məhdudluq ehtimal olunarsa, artıqlıq ehtimal olunur. Artıqlıq ehtimal olunarsa, naqislik də ehtimal olunar. O, məhdud, artan, azalan, hissələrə ... ayrılmır”.[185]

**Hərəkət və sükunət**

**Allah-taalanın hərəkət etməməsinin dəlilləri:**

1. İmam Əli (ə) buyurub: “Onda hərəkət və sükunət baş verməz. Onun yaratdığı necə ona hakim ola bilər? Onun yaratdığı necə ona qayıda bilər? Belə olsa zatında dəyişiklik olar, həqiqəti hissələrə bölünər və əzəli olmasının mənası olmaz...”[186]

2. İmam Cəfər Sadiqdən (ə) “O, əzəldən hərəkətdədir?” deyə soruşdular. İmam (ə) buyurdu: “Allah-taala (hərəkət etməkdən) uca və pakdır. Hərəkət fel vasitəsilə sonradan baş verən sifətdir”.[187]

3. İmam Cəfər Sadiq (ə) buyurub: “Allah-taala nə zaman, nə də məkan, nə hərəkət, nə nəql olma, nə də sükunətlə vəsf olunmaz. Əksinə O, zaman, məkan, hərəkət və sükunətin yaradıcısıdır. Allah zalımların dediklərindən uca və böyükdür”.[188]

---

[184] Nəhcül-bəlağə, xütbə 152, s. 278.

[185] Şeyx Səduq, ət-Tövhid, s. 246.

[186] Şeyx Səduq, ət-Tövhid, s. 41.

[187] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 107.

[188] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 330.

4. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: “Hərəkət edən hər bir şey onu hərəkət etdirənə və ya hərəkət etmək üçün bir vasitəyə ehtiyacı vardır. Allah barəsində gümana düşən həlak olar”.[189]

Ümumiyyətlə, hərəkət varlığın bir məkanda qərar tutduqdan sonra başqa məkana keçməsidir. Allaha məkan nisbət verilməsi batildir. Çünki Allah-taala məkana möhtac olmaqdan uca və pakdır.

**Hulul**

Hulul hər hansı bir mövcudun başqa mövcuda tabe olaraq var olmasıdır.[190]

Hulul bir şeyin onu əhatə edən bir şeyə daxil olmasıdır. Ora daxil olduqdan sonra həmin şeyə tabe olur. Burada tabe olmaq dedikdə cisim və onun məkanı arasındakı nisbət kimi hulul edən şeylə digər şey arasında nisbət olur.

**Hulula etiqad edənlər.**[191]

Xristianlar Allahın İsa Məsihdə (ə) hulul etməsinə etiqad edirlər.

Bəzi sufilər Allahın ariflərin bədənində hulul etməsi rəyindədirlər.

Allah-taalanın hər hansı bir şeydə hulul etməsinin qeyri-mümükün olmasının dəlilləri:

1. Hulul cismaniliyi tələb edir. Allah-taala isə cismanilikdən uca və pakdır.[192]

2. Əgər Allah-taalanın hulul etməsini qəbul etsək:

[189] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 125.

[190], [190] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 261, 260; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 73; Əllamə Hilli, Kəşful-murad, s. 407; Əmiduddin əl-Əbidli, s. 250; Miqdad Səyyuri, İrşadut-talibin, s. 227.

[192] Abdullah Şubbər, Haqqul-yəqin, s. 61.

**Birinci:** Ya bir şeydə hulul edir. Bu, Allah-taalanın bölünməz bir hissə olmasının gərəkdirir. Bu, qeyri-mümkündür. Çünki bölünməz hissə çox kiçik olmalıdır. Allah-taala bu cür vəsf olunmaqdan uca və pakdır.

**İkinci:** Yaxud bir neçə şeydə hulul edir; Bu, Allah-taalanın mürəkkəb olmasını və bölüməsini gərəkdirir. Bu isə qeyri-mümkündür.[193]

**Hadis olanlar**

Hadis varlıqda baş verən müxtəlif dəyişikliklərdir. Məsələn, hərəkət, sükunət, yuxu, ayıqlıq, ləzzət, ağrı, fəaliyyət, zəiflik və bu kimi varlığı bir haldan başqa hala keçməsinə səbəb olan dəyişikliklər.

**Allah-taalada hər hansı bir hudusun baş verməsinin batil olmasının dəlilləri:**

Hudus dəyişiklik, təsirlənmə kimi hallarla nəticələnir. Çünki hər hansı varlıqda hudus baş verərsə, həmin varlıq dəyişir, bir haldan digər hala keçir. Bu, maddi və cismani əşyaların xüsusiyyətlərindəndir. Allah-taala maddi olmaqdan və cismanilikdən uca və pak olduğu üçün Onda hudusun baş verməsi mümkün deyildir.[194]

**Hədisi-şərif.**

İmam Cəfər Sadiq (ə) buyurub: "... Aləmlərin Rəbbindən başqa elə bir şey yoxdur ki, məhv olmasın və ya dəyişilməsin, onda dəyişiklik baş verməsin və zavala məruz qalmasın, yaxud bir rəngdən digərinə, bir formadan başqa formaya, bir sifətdən başqa sifətə, artıqlıqdan naqisliyə, naqislikdən artıqlığa keçməsin. Həqiqətən də O, əzəldən əbədiyyətədək bir haldadır..."[195]

---

[193] Əllamə Hilli, Mənahicul-yəqin, s. 203.

[194] Meysəm Bəhrani, Qəvaidul-məram, s. 74; Əllamə Hilli, Kəşful-murad, s. 408; Miqdad Səyyuri, İrşadut-talibin, s. 232.

[195] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 115.

**Görmək**

Şeyx Mufid deyir: “Allah-taalanı gözlərlə görmək mümkün deyildir. Buna ağıl dəlalət edir, Quran bunu bəyan etmiş və Ali Muhəmməddən olan hidayət imamlarından (ə) nəql olunan mütəvatir hədislər ehtiva etmişdir. İmamiyyə mənsubları və kəlam alimlərinin əksəriyyəti bu rəydədir. Mötəzilə bütünlüklə bu məsələdə imamamiyyə mənsubları ilə müvafiqdirlər”.[196]

**Zaman**

Zamanın həqiqəti barədə müxtəlif rəylər vardır. Həmin rəylərdə zaman barəsində belə deyilir:

1. Böyük fələk[197]. Çünki zaman bütün cisimləri əhatə edir.

2. Böyük fələyin hərəkət miqdarı. (Aristotelin rəyi).

3. Təbii fələyin hərəkət miqdarı.[198]

**Allahın zamandan uca və pak olması.**

1. İmam Əli (ə) buyurub: “Həmd olsun Allah ki, Ondan əvvəl vaxt olmamış və Ondan öndə zaman olmamışdır”.[199]

2. İmam Əli (ə)-dan “Ya Əmirəlmöminin, Rəbbimiz nə vaxt olmuşdur ?” deyə soruşdular. İmam (ə) dedi: “Olmayıb sonradan olan bir şey üçün belə deyilər. O, heç nə olmadan və heç nə Onu var etmədən var idi”.[200]

3. İmam Cəfər Sadiq (ə) buyurub: “Allah-taala zamanla vəsf olunmaz... Çünki O, zamanın yaradıcısıdır”.[201]

---

[196]Şeyx Mufid, Əvailul-maqalat, s. 57. Daha geniş məlumat bu kitabda “Allahı gözlə görmək” adlı beşinci fəsildə qeyd olunacaqdır.

[197] Fələk –trayektoriya, hərəkətə gətirən, orbit.

[198] Daha ətraflı məlumat üçün bax; Məhəmməd Asif Muhsini. Siratul-həqq, c. 2, s. 32.

[199] Şeyx Səduq, ət-Tövhid, s. 33.

[200] Həmin mənbə, s. 171.

[201] Şeyx Səduq, əl-Əmali, s. 353.

4. Bir şəxs İmam Məhəmməd Baqirdən (ə) soruşdu: “De görüm Allah nə vaxt olub?” İmam (ə) ona dedi: “Vay olsun sənə! Sən mənə de görüm nə vaxt olmayıb ki, mən də sənə nə vaxt olduğunu deyim. Müqəddəsdir O Allah ki, əzəldən vardır və əbədi olacaqdır...”[202]

**Zamanın Allahı əhatə etməsindən uca və pak olamasının dəlili:**

Zamanın Allah-taalanı əhatə etməsinin nəticəsi budur: Zamanın müəyyən bir hissəsi Allahdan öncə olması, müəyyən bir hissəsinin isə Ondan sonra olması. Birinci hissə keçmiş, ikinci hissə isə gələcək zamandır. Bunun Allah barəsində qeyri-mümkün olmasında heç bir şəkk və şübhə yoxdur. Çünki heç bir şey Allah-taaladan önə keçməz. O, hər şeyi əhatə etmişdir.

**Bənzərlik**

Allah-taalanın yaratdıqlarından heç bir şeyə bənzəməməsində heç bir ixtilaf yoxdur.[203] Allah-taala Özünü vəsf edərək belə buyurub: **“Ona bənzər heç bir şey yoxdur”**.[204]

**Şərik**

**Allah-taalanın şərikinin olmamasının dəlilləri:**

1. **Müştərəklik və fərqlilik dəlili.**

Əgər iki ilahın olması fərz olunarsa, onlar “ilah” məfhumunda müştərək olmalıdırlar. Həmçinin hər biri müştərək olduqları cəhətdən fərqli cəhətlərlə də bir birindən fərqlənməlidirlər. Bu halda isə hər biri müştərək və fərqli cəhətlərdən ibarət mürəkkəb varlıq olacaqlar. Hər bir mürəkkəb olan mümkünül-vucud (varlığı mümkün olan) varlıqdır. Lakin

[202] Şeyx Səduq, ət-Tövhid, 168.

[203] Daha geniş məlumat bu kitabın on beşinci fəsilində qeyd olunacaq.

[204] Şura, 11

Allah-taala vacibul-vucuddur (varlığının olması vacibdir). Bununla da Allahın şərikinin olmaması sübuta yetirilir.[205]

2. **Təmanu (bir-birinə zidd olmaq dəlili).**

Şərikin olması bəzi hallarda iki ilahın istəklərinin fərqli olması ilə nəticələnir. Bu isə varlıq aləminin nizamına xələl və fəsad gətirir. Qurani-kərim bu həqiqətə işarə etmişdir: ***"Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı..."***[206]

İmam Cəfər Sadiq (ə) buyurub: "...Əgər desən ki, iki ilah var, həmin iki ilah ya hər cəhətdən müttəfiq olmalıdırlar ya da hər cəhətdən bir-birinə müxalif olmalıdırlar. Yaradılış aləmini nizamlı, fələyin hərəkətli, idarəçiliyin vahid olmasını, gecəni, gündüzü, günəşi və ayı gördükdə, hər şeyin idarə olunmasının düzgünlüyü və qanunauyğunluğu idarə edənin vahid olmasına dəlalət etdiyi məlum olur".[207]

**Başqa sözlə desək,** əgər iki ilah olsaydı, onların hər biri özlüyündə qüdrətli olmalı idi. Əgər onlardan biri hər hansı cismi hərəkət etdirmək, digəri isə həmin cismi sükunət halında saxlamaq istəsə, aşağıdakı hallardan birinin olması labüddür:

**Birinci:** Hər ikisinin istəyi baş tutur. Bu, qeyri-mümkündür. Çünki bu ziddiyyətdir. Bu halda həmin cisim eyni vaxtda həm hərəkətdə, həm də sükunətdə olur. Bu, mümkün deyil.

**İkinci:** Heç birinin istəyi baş tutmur. Bu halda hər ikisinin aciz olması zərurəti yaranır. İlah aciz olmamalıdır.

**Üçüncü:** Onlardan birinin istəyi baş tutur. Məhz qüdrətli olan İlahdır. Aciz olan isə ilah olmağa layiq deyildir.[208]

---

[205] Bax; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 55.

[206] Ənbiya, 22

[207] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 81

[208] Həmin mənbə, c. 1, s. 55-56

İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: “Nə üçün aləmi yaradanın vahiddən çox olması mümkün deyil?” İmam (ə) belə buyurdu: “Sənin sözünə əsasən iki ilah olsaydı, onların hər ikisi qədim və qüdrətli və ya hər ikisi zəif olmalı yaxud biri qüdrətli, digəri isə zəif olmalıdır. Əgər hər ikisi qüdrətli olarsa, bəs nə üçün biri digərini dəf edərək üluhiyyətə tamamilə sahib çıxmır? Əgər iddia etsən ki, biri qüdrətli, digəri isə zəifdir, ikincinin zəifliyinin ortaya çıxması ilə bizim etiqad etdiyimiz kimi Onun vahid olması sübuta yetir”.[209]

3. **İmam Əli (ə)-ın oğlu İmam Həsənə (ə) etdiyi vəsiyyətdə belə buyurulur**: “Əgər Rəbbinin şəriki olsaydı, onun da elçiləri gələrdi, onun mülkiyyətinin və səltənətinin əlamətlərini görərdin, fellərini və sifətlərini tanıyardın. Lakin O, Özünü vəsf etdiyi kimi vahid ilahdır”.[210]

**Zidd**

İki şey arasında ziddiyyətin mənaları:

**Birinci məna:** Bir məkanda və bir zamanda hər ikisi ola bilməz. Məsələn, soyuqluq və istilik, qara və ağ bir yerdə eyni zamanda ola bilməz.

**İkinci məna:** Hər birinin özünə məxsus digərinə zidd olan təsirləri vardır. Məsələn, od və su kimi. (Od yandırır, su isə söndürür).

**Üçüncü məna:** Hər biri digərini dəf edəcək qüdrətə sahibdir. Məsələn, iki şəxs bir feli etmək üçün mübahisə edirlər. Onlardan biri digərindən daha güclüdür.[211]

---

[209] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 230.

[210] Şərif Rəzi, Nəhcül-bəlağə, 31-ci məktub, s. 541.

[211] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 406; Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 156; Əli Rəbbani Gulpeyqani, İyzahul-murad, s. 87.

**Allah-taalaya zidd olacaq hər hansı varlığın olmamasının dəlilləri:**[212]

Birinci mənaya gəlincə, Allah-taala məkan və zamandan uca və pakdır. Həmçinin başqa bir şeylə bir yerdə olması hulula gətirib çıxarır. Hulul isə, sübut etdiyimiz kimi, Allah-taalaya nisbətdə qeyri-mümkündür.

İkinci mənaya gəlincə, Allahdan savayı hər bir şey məxluqdur. Allahdan savayı heç bir şeyin varlığı müstəqli deyil. Çünki Allahdan savayı hər bir şeyin varlığı Ona istinad edir. Buna əsasən də hər hansı məxluqun Allah-taalaya təsir etməsi qeyri mümkündür.

Üçüncü mənaya gəlincə, Allahdan başqa hər bir şey mümkünül-vucuddur. Heç vaxt varlığı vacib olanla qarşı-qarşıya gələ bilməz. Buna əsasən də Allah-taala buyurur: "**O Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır**!"[213]

**Hiss olunan keyfiyyətlər.**

Hiss olunan keyfiyyətlərə misal olaraq rəng, dad, qoxu, hərarət, soyuq, rütubət və başqalarını qeyd edə bilərik.

**Allah-taalanın hiss olunan keyfiyyətlərdən uca və pak olmasının dəlilləri:**

1. Hiss olunan keyfiyyətlər cismin xüsusiyyətlərindəndir. Allah-taala cismanilikdən uca və pakdır.

2. Hiss olunan keyfiyyətlər hadisdir (sonradan baş verəndir). Lakin Allah-taala hadis deyildir. Onun dəyişikliklərə məruz qalması mümkün deyildir.

3. Hiss olunan keyfiyyətlər təsir qəbul etməni gərəkdirir. Allah təsir qəbul etməkdən uca və pakdır.[214]

---

[212] Bax; Həmin mənbə.

[213] Ənam, 18

[214] Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 267, 268; Əllamə Hilli, Mənahicul-yəqin, s. 209

## Allahın keyfiyyətdən münəzzəh (uca və pak) olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

1. Rəsulullahdan (s) Allah barəsində "O, necədir?" deyə soruşdular? Rəsulullah (s) buyurdu: "Rəbbimi keyfiyyətlə necə vəsf edim? Keyfiyyət Allahın yaratdığıdır. Allah-taala yaratdıqları ilə vəsf olunmaz".[215]

2. Rəsulullah (s) Allah-taala barədə buyurub: "Onun üçün keyfiyyət və hara yoxdur. Çünki O, keyfiyyətə necəlik və haraya haralıq vermişdir (məkanı yaradandır).[216]

3. İmam Əli (ə) Allah-taala barəsində buyurub: "... Keyfiyyət olmadan tanınar".[217]

4. İmam Cəfər Sadiq (ə) Allah-taala barəsində buyrub: "... Keyfiyyətlə vəsf olunmaz. Onu keyfiyyətlə necə vəsf edə bilərəm. O, keyfiyyətə necəlik vermişdir və nəticədə keyfiyyət olmuşdur".[218]

5. İmam Cəfər Sadiq (ə) buyurub: "Kim Allahda keyfiyyət olduğuna etiqad edərsə, həlak olar".[219]

6. İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Əgər səndən keyfiyyət barədə soruşsalar, cavabında Allah-taala buyuran kimi "Ona bənzər heç bir şey yoxdur".[220] de".[221]

### Ləzzət və acı çəkmə.[222]

Ləzzət məzacın mötədilliyə doğru dəyişilməsindən hasil olan haldır.

---

[215] Şeyx Səduq, s. 303

[216] Şeyx Səduq, ət-Tövhid, s. 304

[217] Həmin mənbə, s. 76

[218] Həmin mənbə, s. 111

[219] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 93.

[220] Şura, 11

[221] Şeyx Səduq, ət-Tövhid, s. 92, 93

[222] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 70; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 75; Əllamə Hilli, Kəşful-murad, s. 409; Əllamə Hilli, Mənahicul-yəqin, s. 208, 209; Miqdad Səyyuri, İrşadut-talibin, s. 233

Acı çəkmə məzacın fəsada doğru dəyişilməsindən hasil olan haldır.

Ləzzət və acı çəkmənin filosifların nəzərində tərifi: Ləzzət varlığın ona münasib olanı dərk etməsidir. Acı çəkmə varlığın ona müxalif olanı dərk etməsidir.

**İlahi zatda acı çəkmə:**

Bütün müsəlmanlar Allah-taalanın acı çəkməsinin qeyri-mümkün olması rəyində müttəfiqdirlər.

**Dəlil:**

**Kalamçılar:** Acı çəkmək məzaca aiddir. Məzac dəyişilmə və təsirlənməni qəbul edir. Allah-taala isə bu kimi məsələlərdən uca və pakdır.

**Filosoflar:** Acı çəkmə varlığın ona müxalif olanı dərk etməsidir. Allah-taalaya müxalif olacaq heç bir varlıq yoxdur. Çünki Ondan başqa hər bir varlığı məhz O, yaratmışdır. Buna əsasən də heç bir varlıq Ona müxalif və zidd ola bilməz.

**İlahi zatda ləzzət**

İlahi zatda ləzzətin olması barədə alimlər fərqli rəylər söyləmişlər:

**Kəlamçılar:** Allah-taala ləzzət almaqdan uca və pakdır. Çünki ləzzət məzacdandır və təsir qəbul edir. Ləzzət yalnız cisimlərdə baş verir. Allah-taala məzacdan, təsirlənmədən və cismanilikdən uca və pakdır.

**Filosoflar:** Ləzzət zata münasib olanı dərk etməkdən ibarətdir. Allah-taala zatı ilə zatını dərk edir. Onun zatı gözəllik və kamilliyin qayəsidir. Buna əsasən də Allah-taala zatını dərk etməklə ən böyük ləzzət və sevincə sahibdir.

**Qeyd:** Alimlər Allah-taalanı ləzzət sifəti ilə vəsf etməyi qadağan etmişlər. Çünki Allahın adları dini mətnlərə əsaslanır. Allahı Özünü vəsf etdiyindən fərqli vəsf etmək olmaz.[223]

Miqdad Səyyuri bu barədə belə demişdir: "Ağlın hökm etdiyinə əsasən Allahın müqəddəs zatı barədə isbat olunmasının zəruriliyi olmayan və icazə verilməyən vəsflərdən çəkinmək lazımdır".[224]

**Misl – Oxşar**

Misl mahiyyətcə başqa biri ilə mütabiq olan şeydir. Məsələn, Zeyd insanlıqda Əmr ilə eynidir.

**Allah-təallanın başqa bir şeyə oxşamasının qeyri-mümkün olmasının dəlilləri:**

1. Oxşarlıq mahiyyətdə olur. Allah-taalanın mahiyyəti yoxdur. Buna əsasən də Onun oxşarı yoxdur.

2. Əgər iki oxşar şey varsa, onların varlıq baxımından oxşarlıqları olmalıdır. Allahın zatının xüsusiyyətlərindən biri də qədimlikdir. Allahdan qeyrisinin varlığının xüsusiyyətlərindən biri də hudusdur, yəni sonradan yaranmadır. Əgər Allahın zatının başqa bir varlığın zatına oxşadığını desək, nəticə belə olacaq ki, qədim onlan Allahın zatının xüsusiyyətlərindən biri də sonradan yaranmadır. Bu halda sonradan yaranan qədim, qədim olan isə sonradan yaranmış olur. Bu isə ziddiyyətdir. Deməli, Allah-taalanın başqasına oxşaması qeyri-mümkündür.[225]

3. Hər iki varlıq zat baxımından müştərəkdirlər. Bu halda onlar bir-birindən müəyyən cəhətdən fərqlənməlidirlər. Bu halda fərqli cəhət hər

---

[223] Bax; Meysəm Bəhrani, Qəvaimul-məram, s. 75; Əllamə Hilli, Kəşful-murad, s. 409; Əllamə Hilli, Mənahicul-yəqin, 209; Miqdad Səyyuri, İrşadut-talibin, s. 236.

[224] Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 161.

[225] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 405; Əllamə Hilli, Nəhcul-həqq və kəşfus-sidq, s. 54; Miqdad Səyyuri, İrşadut-talibin, s. 224.

birinin müəyyən hissəsi olmalıdır. Əgər Allah-taala hər hansı bir şeyə oxşar olarsa, mürəkkəb olar. Allah-taala mürəkkəblikdən uca və pak olduğu üçün Onun oxşarının olması qeyri-mümkündür.[226]

**Allah-taalanın oxşarının olmasının Qurani-kərimdə inkarı**

Allah-taala buyurub: ***"Ona bənzər heç bir şey yoxdur".***[227] Yəni heç bir cəhətdən Ona bənzər, oxşar bir şey yoxdur.[228]

**Allah-taalanın oxşarının olmasının hədislərdə inkarı**

1. İmam Əli (ə) buyurub: "... Məxluqlarından heç bir şey ona bənzəməz. Hər bir şey öz tayına bənzəyər. Amma tayı olmayan bir şey başqasına necə bənzədilə bilər..."[229]

2. İmam Əli (ə) buyurub: "Xəlqdə olan hər bir şey Xaliqdə yoxdur".[230]

3. İmam Cəfər Sadiq (ə) buyurb: "Allah-taaladan başqa şey adlanan hər bir şey məxluqdur".[231]

4. İmam Məhəmməd Baqir (ə) buyurub: "Ağlına gələn nə varsa, Ona uyğun deyil. Ona heç bir şey bənzəməz..."[232]

---

[226] Əllamə Hilli, Mənahicul-yəqin, s. 211.

[227] Şura, 11

[228] Ayədə "leysə kə mislihi şeyun" buyurulur. Burada "kə" bənzətmə, oxşatma ədatıdır. Ayənin hərifi mənası Onun mislinə bənzər heç bir şey yoxdur". Burada "kə" ədatının heç bir funksiyası yoxdur. Şərif Murtaza belə deyir: "Burada "kə" ədatı artıq deyildir. Onun mislinin misli olması inkar edilir. Bu sübuta yetərsə, Onun mislinin olmaması məlum olar. Çünki Onun misli olarsa, onun da misilləri olar. Mislinin də misli olar... Bununla da bilirik ki, əslində onun heç bir misli yoxdur. Allah-təala təşbihdən (bənzədilmədən) uca və pak olmasını, Onun bir şey kimi və ya bir şeyin mislində olmasının qeyri-mümkünlüyünü bəyan etmək istəyir". Məhəmməd bin Əli Şəhr Aşub, "Mutəşabihul-Quran və muxtələfihi", s. 104

[229] Şeyx Səduq, ət-Tövhid, s. 52

[230] Şeyx Səduq, ət-Tövhid, s. 41

[231] Həmin mənbə, s. 58

[232] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 82

**Məkan**

**Allah-taalanın məkansız olmasının dəlilləri:**

1. Allahın məkanda olması Onun məkana möhtac olmasını gərəkdirir. Lakin Allah-taala zəngindir və heç bir şeyə möhtac deyil.[233]

İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: "Allah-taalanın hər hansı məkanda olmasını demək olarmı?" İmam (ə) buyurdu: "Müqəddəs Allah bundan uca və pakdır. Əgər O, bir məkanda olsaydı sonradan yaranmış olardı. Çünki məkanda olan varlıq məkana möhtacdır. Ehtiyac qədim olanın deyil, sonradan yaranmışların sifətlərindəndir".[234]

2. Allahın olacağı məkan iki cür ola bilər:

**Birinci:** Qədim olmalıdır. Bu halda bir neçə qədim olur. Bu isə batildir.

**İkinci:** Sonradan yaranmışdır. Sonradan yaranan hər bir şey məhduddur. Lakin Allah-taala məhdud deyil. Məhdud olan bir şey məhdud olmayan bir şeyi özündə sığdıra bilməz.

Bununla da sübuta yetir ki, Allah-taalanın hər hansı bir məkanda olması batildir.[235]

## Allah-taalanın məkansız olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

1. İmam Əli (ə) buyurub: "...Allah-taala haranı yaratmışdır. Onun üçün hara yoxdur. O, hər hansı bir məkanda olmaqdan uca və pakdır..."[236]

2. İmam Əli (ə) buyurub: "Allah vardı, heç bir məkan yox idi".[237]

---

[233] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 29; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 69; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 71; Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 52.

[234] Şeyx Səduq, ət-Tövhid, s. 173.

[235] Bax; Əbulfəth əl-Karacki, Kənzul-fəvaid, c. 2, s. 104; Miqdad Səyyuri, İrşadut-talibin, s. 227.

[236] Əllamə Məclisi, Biharul-ənvar, c. 57, s. 83.

3. İmam Cəfər Sadiq (ə) buyurub: “Allah-taala necəlik və hara (məkan) ilə vəsf olunmaz. Necə onu məkan ilə vəsf edim ki, məkanı yaradan Odur. Bizim üçün məkanı yaratdıqdan sonra biz məkanı tanımışıq...”[238]

4. İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: “Rəbbimiz göyü və yeri yaratmadan əvvəl harada idi?” İmam (ə) buyurdu: “Haradadır məkan barədə sualdır. Allah vardı ve heç bir məkan yox idi”.[239]

**Allah-taalaya bəzi məkanların nisbət verilməsinin mənası**

1. İbrahim (ə)-ın dili ilə Quranda belə buyurulur: ***“Mən Rəbbimə doğru gedirəm. O mənə doğru yolu mütləq göstərəcəkdir!”***[240]

Musa (ə)-ın sözü: ***“...Ey Rəbbim! Məndən razı qalasan deyə, hüzuruna tələsdim!”***[241]

Həmçinin Allah-taala buyurur: ***“Allaha tərəf qaçın!”***[242]
Bundan başqa elə ayələr vardır ki, zahiri Allah-taalanın məkanının olmasına dəlalət edir.[243]

İmam Əli bin Hüseyn Zeynulabidin (ə) buyurub: “...Kəbə Allahın evidir. Kim Allahın evinə həccə gedərsə, Allaha doğru getmişdir. Məscidlər Allahın evləridir. Kim məscidlərə üz tutarsa, Ona doğru üz tutmuşdur. Namaz qılan namaz əsnasında olduğu halda Allah-taalanın qarşısında dayanmışdır. Allah-taalanın (yaratdıqları) səmada yerləri vardır. Kim

---

[237] Şeyx Mufid, əl-İrşad, c. 1, s. 201.

[238] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 103, 104; Şeyx Səduq, ət-Tövhid, s. 111, 112.

[239] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 89, 90; Şeyx Səduq, ət-Tövhid, s. 170.

[240] Saffat, 99

[241] Taha, 84

[242] Zariyat, 51

[243] Məsələn, “Allah onu Öz dərgahına qaldırmışdır”, Nisa surəsi, ayə 158 kimi Həzrət İsa (ə) barədə olan ayədə buyrulduğu kimi. Bax; Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 321

həmin məkanlara ucalarsa, Ona tərəf ucalmışdır. Eşitməmisənmi Allah-taala buyurur: ***"Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar"***[244], ***"Pak söz (tövhid kəlməsi, zikr, həmd-səna) Ona tərəf yüksələr və pak sözü də (Allah dərgahına) yaxşı əməl qaldırar"***[245].[246]

2. İmam Kazimdən (ə) belə soruşdular: "Hansı səbəbə görə Allah peyğəmbərini (s) meraca, oradan da sidrətul-muntəhaya, oradan da nur hicabına aparmış və orada ona xitab etmiş və onunla danışmışdır? Halbuki Allah-taala məkanla vəsf olunmaz?" İmam buyurdu: "Allah-taala məkanla vəsf olunmaz. Ona zaman hakim olmaz. Lakin Allah-taala bununla mələklərini, səmalarının sakinlərini şərəfləndirmək, onu görmələri ilə hörmətləndirmək və endikdən sonra Allahın əzəməti barədə danışması üçün ona qəribəliklərini göstərmişdir. Məsələ təşbih əhlinin dediyi kimi deyil. Allah-taala müşriklərin dediklərindən uca və pakdır".[247]

**Allahın hər bir məkanda olmasının mənası**

1. Rəsulullah (s) buyurub: "O, hər yerdədir. O, məhdud bir məkanda deyil..."[248]

2. İmam Əli (ə) buyurub: "... O, təmas etmədən və yanında olmadan hər bir yerdədir. Orada olanları elmi ilə bilir. Orada heç bir şey Onun idarəçiliyindən kənar deyildir..."[249]

3. İmam Əli (ə) buyurub: "Heç bir əşyanın daxilində deyildir ki, onun orada olması deyilsin. Əşyalardan kənarda deyildir ki, onlardan ayrıdır

[244] Məaric, 4

[245] Fatir, 10

[246] Şeyx Səduq, ət-Tövhid, s. 172, 173

[247] Şeyx Səduq, ət-Tövhid, s. 170

[248] Həmin mənbə, s. 303.

[249] Şeyx Mufid, əl-İrşad, c. 1, s. 201.

deyilsin. Kənarda deyil ki, Onun üçün “hardadır?” deyilsin. Ayrılma ilə əşyalardan ayrı deyildir. O, hər şeylə birlikdədir keyfiyyət olmadan”.[250]

4. İmam Cəfər Sadiqdən (ə) “Allah-taala hər bir məkandadır? Əgər səmada olsaydı, bəs yerdə necə ola bilər? Əgər yerdədirsə, bəs səmada necə ola bilər?” -deyə soruşdular. İmam (ə) belə buyurdu: “Bir məkandan başqa məkan keçən, müəyyən məkanı əhatə edən, bir məkanda olduqda başqa məkanda olmayan və başqa məkana keçdikdən sonra əvvəlki məkanda baş verənlərdən xəbərdar olmayan məxluq belə vəsf olunar. Şəni əzəmətli, hər şeyin sahibi olan Allaha gəlincə, heç bir məkan Ondan kənar deyil, heç bir məkan Onu əhatə etmir, heç bir məkan digərinə nisbətdə Ona daha yaxın deyil”.[251]

5. Məhəmməd bin Noman belə nəql edir: “Əbu Abdullahdan (ə) ayəsi barədə soruşdum. İmam belə dedi: “Beləcə O, hər bir yerdədir”. Mən dedim: “Zatı ilə”. İmam buyurdu: “Vay olsun sənə! Məkanın miqdarı vardır. Əgər Onun zatı ilə bir məkanda olduğunu desən, onun miqdarlarda olduğunu deməlisən. Lakin O, yaratdıqlarından ayrıdır. Yaratdıqlarına elm, qüdrət, hakimiyyət və mülkiyyət baxımından əhatə etmişdir. Heç bir şey Ondan uzaq deyil. Hər bir şey elm, qüdrət, hakimiyyət, mülkiyət və əhatə olunmaq baxımından Ona nisbətdə bərabərdir”.[252]

[250] Şeyx Səduq, ət-Tövhid, s. 77.

[251] Şeyx Səduq, ət-Tövhid, s. 238.

[252] Həmin mənbə, s. 128, 129.

## Beşinci fəsil: Allah-taalanı gözlə görmək

**Allahı gözlə görməyin mənası**

**Şiə və əhli-sünnənin əqidəsinin Allahı görmək barədə əqidəsi**

**Allahı gözlə görməyin qeyri-mümkün olmasının dəlilləri**

**Allahı gözlə görməyin mümkün olmasını deyənlərin dəlilləri və həmin dəlillərin müzakirəsi**

## Birinci mövzu

## Allahı gözlə görməyin mənası

Allahı gözlə görmək görünən əşyaların surətinin işıq vasitəsilə gözdə inikas olunması yaxud əşyalardan gözə inikas olunan nurdur anlamındadır. Sonra həmin nur sinir vasitəsilə beyinə çatır. Beyin onu təhlil etdikdən sonra görünən əşyanın surəti dərk olunur.

**Qeyd:** Allahı görmək barədə müsəlmanlar arasındakı ixtilaf araşdırıldıqda diqqət edilməsi lazım olan məsələlərdən biri də budur ki, Allahı görmək barədə olan ixtilaf Onun hiss üzvü olan gözlə görsənməsinin mümkünlüyüdür. Amma Allahı qəlb gözü ilə görmək, şühudi elmlə və ya hüzuri elmlə tanımağa gəlincə, bunun baş verməsinin mümkünlüyü barədə heç bir ixtilaf baş verməmişdir.

## İkinci mövzu

## Şiə və əhli-sünnənin Allahı görmək barədə əqidəsi

### Şiənin əqidəsi

Şeyx Mufid belə deyir: “Allah-taalanı gözlərlə görmək mümkün deyildir. Buna ağıl dəlalət edir. Quran bunu bəyan etmiş və Ali Muhəmməddən olan hidayət imamlarından (ə) nəql olunan mütəvatir hədislər bu məsələni ehtiva etmişdir. İmamiyyə mənsubları və kəlam alimlərinin əksəriyyəti bu rəydədir. Mötəzilə bütünlüklə bu məsələdə imamaiyyə mənsubları ilə müvafiqdirlər”.[253]

### Əhli-sünnənin əqidəsi

Əbulhəsən Əşəri belə deyir: “Etiqad edirik ki, bədrlənmiş ay (15 günlükü tam görsənən ay) göründüyü kimi Allah-taala axirətdə gözlə görünəcək”.[254]

**Əhli-sünnənin hədis kitablarında aşağıdakı hədislər qeyd edilmişdir:**

Cərir bin Abdullah belə nəql edir: Peyğəmbərin (s) yanında idik. Bir gecə aya baxıb – yəni bədrlənmiş aya – belə dedi: “Bu ayı gördüyünüz kimi Rəbbinizi də görəcəksiniz...”[255]

Peyğəmbər (s) buyurub: “Siz Rəbbinizi aşkarcasına görəcəksiniz”.[256]

---

[253] Şeyx Mufid, Əvailul-maqalat, s. 57. Daha geniş məlumat bu kitabda “Allahı gözlə görmək” adlı beşinci fəsildə qeyd olunacaqdır.

[254] Əbulhəsən Əşəri, əl-İbanə, s. 17.

[255] Səhih Buxari, c. 1, kitabu-məvaqitus-salat, bab fəzlu salətul-əsr, s. 138, hədis 554; Səhih Müslim, c. 1, kitabul-məsacidi və məvadis-salət, bab salətey əs-subhu vəl-əsri vəl-muhafəzəti aleyhima, s. 367, hədis 211 (633).

[256] Səhih Buxari, c. 4, kitabut-tovhid, bab qovluhu təala “ وجوه يومئذ ناضرة الى ربها ناظرة” s. 453, hədis 7435.

## Üçüncü mövzu

## Allahı gözlə görməyin qeyri-mümkün olmasının dəlilləri

1. Allahı gözlə görmək Allah üçün cəhət təyin edilməsini gərəkdirir. Allah-taala hər hansı bir cəhətdə olmaqdan uca və pak olduğu üçün Onun gözlə görünməsi qeyri-mümkündür. Başqa sözlə desək, gözlə görmə görünən şeyin görənin qarşısında olmasını tələb edir.[257] Qarşıda olan hər bir şey müəyyən bir cəhətdədir. Allah-taala cəhətdə olmaqdan uca və pak olduğu üçün Onun gözlə görünməsi qeyri-mümkündür.[258]

2. Gözlə görmə yalnız görünən əşyadan gözə düşən şüalar nəticəsində baş verir. Bu isə görünən şeyin cisim olmasını tələb edir. Allah cismanilikdən uca və pak olduğu üçün göz vasitəsilə Onun görünməsi mümkün deyildir.[259]

3. Görmə yalnız görünən əşyanın surətinin gözdə əks olunması ilə baş verir. Allah-taala surətdən uca və pak olduğu üçün gözlə Onun gürünməsi qeyri mümkündür.

4. Allahın gözlə görünməsi iki məsələni gərəkdirir:

**Birinci:** Göz ilahi zatı tamamilə görə: Bu, ilahi zatın məhdud olmasını və müəyyən hüdudlarla əhatə olunmasını gərəkdirir. Lakin Allah-taala məhdud olmaqdan və əhatə olunmaqdan uca və pakdır.

**İkinci:** Göz ilahi zatın müəyyən hissəsini görə: Bu isə ilahi zatın mürəkkəb olmasını, hissələrdən ibarət olmasını gərəkdirir. Lakin Allah-taala mürəkkəblikdən və hissələrə bölünməkdən uca və pakdır.

---

[257] Yaxud da görənin qarşısında olan hökmündə olmalıdır. Məsələn, insan güzgü vasitəsilə ətrafında olan əşyaları görə bilər.

[258] Bax; Şeyx Tusi, əl-İqtisad, s. 74, 75. İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 52, 53; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 76; Əllamə Hilli, Kəşful-murad, s. 411; Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 163.

[259] Bax; Şeyx Tusi, ər-Rəsailul-əşərə, s. 105.

Deyilənlərə əsasən nəticə çıxarırıq ki, Allah-taalanın gözlə görsənməsi mümkün deyil.

**Nəticə:** Göz vasitəsilə Allahı görmək Ona cəhət, məhdudluq, cismanilik, şəkil və surət nisbət verməyi tələb edir. Deməli, Allah-taalanın gözlə görünməsi mümkün deyil.

## Allah-taalanın gözlə görünməsinin qeyri-mümükün olması barədə Qurani-kərimdən dəlillər

1. ***"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!"*** (Ənam surəsi, ayə 103).

Gözlərə nisbət verilən dərk etmə görmə anlamındadır. Bu ayə Allah-taalanın gözlə görünməsinin qeyri-mümkün olduğunu bəyan edir.[260]

2. ***"Musa təyin etdiyimiz vaxtda (Tur-i Sinaya) gəldikdə Rəbbi onunla (arada heç bir vasitə olmadan) danışdı. (Musa: ) "Ey Rəbbim! Özünü (camalını) mənə göstər. Sənə baxım!" – dedi. Allah: "Sən Məni əsla görə bilməzsən..."*** (Əraf surəsi, ayə 143).

Ayədə "lən" ədatı əbədi inkarı bildirir. Allah-taalanın Musaya "Sən Məni əsla görməyəcəksən" deməsi Allah-taalanın əsla gözlə görünə bilməyəcəyinə dəlalət edir.[261]

Əgər Allahı gözlə görmək mümkün olsaydı Musa peyğəmbər insanlar içərisində Onu görməyə daha layiq idi.[262] Bu ayə barəsində bəzi rəylər vardır. Növbəti səhifələrdə bu barədə qeyd edəcəyik.

---

[260] Bax; Şeyx Tusi, ət-Tibyan, c. 4, s. 223 ,224; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 67; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 122; Miqdad Səyyuri, İrşadut-talibin, s. 241.

[261] Bax; Şeyx Tusi, ət-Tibyan, c. 4, s. 536; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 68; Əllamə Hilli, Nəhcul-haqq və kəşfus-sidq, s. 48; Miqdad Səyyuri, əl-Ləvamiul-ilahiyyə, s. 164.

[262] Bax; Meysəm Bəhrani, Qəvaidul-məram ,s. 77.

## Allahı gözlə görməyin mümkün olmaması barədə Əhli-Beyt (ə) hədisləri

1. Bir şəxs Əmirəlmöminin Əli (ə)- yanına gəlib dedi: "Ya Əmirəlmöminin (ə) Rəbbinə ibadət edərkən Onu gördünmü?" İmam (ə) dedi: "Vay olsun sənə! Görmədiyim Rəbbə ibadət etmərəm!" Həmin şəxs dedi: "Onu necə gördün?" İmam (ə) belə buyurdu: "Vay olsun sənə! Gözlər Onu müşahidə edərək görə bilməz. Lakin qəlblər iman həqiqətləri ilə Onu görər!"[263]

2. İmam Əli (ə) buyurub: "Gözlər Onu görməkdə aciz olduğu üçün gözlə görünüb vəsf olunmaz".[264]

3. İmam Əli (ə) buyurub: "...sonradan yaranmamışdır ki, gözlə görünsün..."[265]

4. Həmçinin buyurub: "Həmd olsun Allaha ki, şahidlər (varlığına gətirilən dəlillər nəticəsində) Onu dərk etməz, məkanlar Onu ehtiva etməz, görənlər Onu görməz, hicablar Onu örtməz".[266]

5. İmam Cəfər Sadiqdən (ə) Allah-taalanın qiyamət günü gözlə görünməsi barədə soruşdular. İmam (ə) belə buyurdu: "Müqəddəs Allah bundan uca və pakdır. Gözlə yalnız rəngi və keyfiyyəti olan şeylər görünər. Allah-taala rəngləri və keyfiyyətləri yaradandır". [267]

6. İmam Sadiqdən (ə) belə soruşdular: "Bir nəfər Allah-taalanı yuxuda görmüşdür. Bu, necə ola bilər?" İmam (ə) buyurdu: "Həmin insanın dini yoxdur. Allah-taala nə ayıqlıqda, nə yuxuda, nə dünyada, nə də axirətdə görünməz".[268]

---

[263] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 98; Şeyx Səduq, ət-Tövhid, s. 106.

[264] Şeyx Səduq, ət-Tövhid, s. 51.

[265] Həmin mənbə, s. 72.

[266] Şərif Murtaza, Nəhcül-bəlağə, xütbə 185, s. 360.

[267] Şeyx Səduq, əl-Əmali, s. 360.

[268] Həmin mənbə, s. 708.

7. İmam Əli bin Musa ər-Rzadan (ə) soruşdular: “Biz rəvayət edirik ki, Allah-taala görünməklə kalamı (danışmağı) iki peyğəmbər arasında bölmüşdür. Kəlamı Musaya (ə), görünməyi isə Muhəmmədə (s) vermişdir”. İmam (ə) belə buyurdu: “... Necə ola bilər ki, bir şəxs Allah-tərəfindən gələ, Allahın əmri ilə insanları Allaha dəvət edə, ***“Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!”***[269], ***“...Onların elmi isə Onu (Allahın zatını) əhatə edib qavraya bilməz!”*** [270], ***“Ona bənzər heç bir şey yoxdur”***[271] dedikdən sonra Onu gözümlə gördüm deyə...?!”[272]

8. İmam Rzadan (ə) belə soruşdular: “Rəsulullah (s) Rəbbini görmüşdürmü?” İmam (ə) belə cavab verdi: “Bəli, qəlbi ilə görmüşdür. Allahın bu ayəsini ***“Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı”***[273] eşitməmisənmi? Yəni gözləri ilə deyil, qəlbi ilə Onu görmüşdür”.

[269] Ənam, 103

[270] Taha, 110

[271] Şura, 11

[272] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 96

[273] Nəcm, 11

## Dördüncü mövzu

## Allahı gözlə görməyin mümkün olmasını deyənlərin dəlilləri və həmin dəlillərin müzakirəsi

**Əqli dəlil:** Görünmənin əsası varlıqdır. Hər bir mövcudun görünməsi doğrudur. Allah-taala da mövcud olduğu üçün Onun görsənməsi mümkündür.[274]

**Bu dəlilin cavabı:** Görünmənin əsası mövcud olma deyil, əksinə müəyyən xüsusiyyətlərə malik olan mövcud görünmənin əsasıdır. Həmin xüsusiyyətlərdən biri də varlığın cisim və maddi olmasıdır. Həmçinin, görünməsi üçün xüsusi şərəaitdə olması lazımdır. Buna əsasən də elm, iradə, ağıl, nəfs, ləzzət və acı kimi mövcud olan elə şeylər vardır ki, gözlə görsənməsi mümkün deyildir.[275]

## Allahın gözlə görünməsini deyənlərin istinad etdikləri Quran ayələrinin müzakirəsi

**Birinci ayə:** Allah-taala buyurub: ***"O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinə baxacaqdır! O gün neçə-neçə üzlər tutulub qaralacaq. (Sahiblərinin) bel sümüklərinin (dəhşətli bir əzabla) qırılacağını anlayacaqdır!"***[276]

**Ayədən əldə olunan dəlil:** "Nəzər" kəlməsi "ilə" ön qoşması ilə işlədildiyi üçün görmək mənasını verir. Bu ayədə də "nəzər" kəlməsi "ilə" ön qoşması ilə işlədilmişdir. Deməli, məna belə olacaq; sevinib gülən üzlər

[274] Əbulhəsən Əşəri, əl-İbanə ən usuliddiyanə, s. 26.

[275] Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 69; Əllamə Hilli, Kəşful-murad, s. 413.

[276] Qiyamət, 22-25

qiyamət günü Rəblərinə baxacaqlar. Bu, Allah-taalanı görməyin mümkün olduğunu sübuta yetirir.[277]

**Bu dəlilin cavabı:**

1. "nəzər" kəlməsi həmişə görmək mənasını ifadə etmir. Çünki ərəb dilində "nəzər" sözü bir şeyi görmək üçün gözü ona tərəf dikməkdir.[278] Ola bilər ki, insan hər hansı bir şeyə tərəf gözünü diksin, amma onu görməsin. Buna görə də "hilala baxdım, amma onu görmədim" deyilir.[279]

2. Yuxarıda qeyd etdiyimiz kimi əql və Quran dəlilinə əsasən Allahı gözlə görməyin qeyri-mümkün olmasına əsasən Allahı gözlə görmək problemi ilə qarşılaşmamaq üçün ayəni fərqli təfsir etməliyik. Əhli-Beyt(ə) bu ayəni nəzərdə tutulan izafətin birinci tərəfinə əsasən fərqli təfsir etmişdir.[280]

Buna əsasən də ayənin mənası ***"O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinin savabına baxacaqdır!"*** olacaq. Savaba baxmaq,

---

[277] Bax; Əbulhəsən Əşəri, əl-İbanə ən usuliddiyanə, s. 22

[278] Covhəri, əs-Sihah, c. 2, s. 830; "Nəzər- bir şeyə gözü yönəltməkdir"; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 812, "nəzərə" sözünün mənası: "Nəzər – bir şeyi görmək üçün gözü və bəsirəti ona tərəf yönəltməkdir".

[279] Bax; Şərif Murtaza, əl-Əmali, c. 1, s. 36; Şeyx tusi, əl-Etiqad, s. 72; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 70; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, s. 128; Əllamə Hilli, Kəşful-murad, s. 412.

[280] Qurani-kərimdə izafətin birinci tərəfinin pozularaq ikinci tərəfinin onun yerində işlədilməsinə misal olaraq aşağıdakı ayələri qeyd edə bilərik. "Olduğumuz şəhərdən də, birlikdə gəldiyimiz karvandan da soruş..." (Yusuf, 82) Yəni şəhər əhalisindən soruş. Çünki şəhərin daşlarından və evlərindən soruşmaq mümkün deyil. "Rəbbin gəlib mələklər səf-səf duracağı". (Fəcr, 22) Yəni Rəbbinin əmri gəldiyi. Çünki hərəkət cismaniliyin xüsusiyyətlərindəndir. Allah-təala isə bundan uca və pakdır.

əslində, savabın gəlməsini, Allah tərəfindən yetişməsinin intizarını çəkməkdir.[281]

İmam Əli bin Musa ər-Rza (ə) ***"O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinə baxacaqdır!"*** ayəsinn təfsiri barədə belə buyrmuşdur: "Yəni parlaq üzlər Rəbbinin savabını gözləyəcək".[282]

**Ayənini üslubu bu mənanı dəstəkləyir**

Bu ayələrdə bir neçə məsələlər qarşı-qarşıya qoyulmuşdur. İlk olaraq ***"O gün neçə-neçə üzlər sevinib güləcək"*** ayəsinin müqabilində ***"O gün neçə-neçə üzlər tutulub qaralacaq"*** ayəsi buyurulur. Yəni qiyamət günü bir tərəfdə sevinib gülən üzlər, digər tərəfdə isə tutulub qaralan üzlər olacaq. Qarşı-qarşıya qoyulan ikinci məsələ isə budur: ***"Öz Rəbbinə baxacaqdır!"*** ayəsi müqabilində ***"(Sahiblərinin) bel sümüklərinin (dəhşətli bir əzabla) qırılacağını anlayacaqdır!"*** ayəsi buyurulur. Burada ikinci tərəfə diqqət etdikdən sonra birinci tərəfdə olan mübhəmlik (gizli olan, anlaşılmayan məna) aradan qalxır. Çünki ayələrə arasında bu uyğun qarşılaşma bizdən birinci tərəfi ikinci tərəfə münasib izah etməyi tələb edir. İkinci tərəfdə ***"(Sahiblərinin) bel sümüklərinin (dəhşətli bir əzabla) qırılacağını anlayacaqdır!"*** buyurulur. Yəni qiyamət günü qaralıb tutulmuş üzlərin sahibləri bellərini qıracaq əzabın gələcəyini anlayacaqlar. Məhz buradan da anlaşılır ki, ***"Öz Rəbbinə baxacaqdır!"*** ayəsinin mənası anlaşılır. Yəni sevinib gülən üzlər sahibi olan itaətkar dəstə günhakar dəstənin əksinə olaraq Rəbləri tərəfindən gələcək savabı, lütfü və rəhmətin onlara nazil olacağını gözləyəcəklər.

Deməli, ayədəki "nəzər" kəlməsi gözləmək, təvəqqe etmək anlamındadır.

---

[281] Lisanul-ərəb kitabında, cild 14, s. 191-də "nəzərə" sösünün mənası barədə belə deyilir: "İnsan birindən bir şey umduqda ona "Allaha, sonra isə sənə baxırıq". Yəni Allahın lütfünü və sənin yaxşılığını təvəqqe edirəm.

[282] Şeyx Səduq, ət-Tövhid, s. 113

**Nəticə:** Bu ayələrdə əsas mövzu rəhməti gözləməklə əzabı gözləməkdir. Allaha itaət edənlər rəhmət gözləyəcəklər. Allaha asi olan bəndələr isə əzabın gələcəyini gözləyəcəklər. Ayə göz və ya qəlblə Allahı görmək mövzusunu ehtiva etmir. Buradan belə nəticə çıxarırıq ki, "nəzər" sözü bu ayədə gözləmək mənasına işarə edir.

**Qeyd:** Bəziləri belə deyir: İntizar, gözləmək qəm və kədərə səbəb olur. Halbuki ayə nemət barədə danışır. Buna əsasən də "nəzər" kəlməsini gözləmək mənasında təfsir etmək doğru deyil.[283]

**Cavab:** Qəm, qüssə və kədər yaradan intizar və gözləmə əldə edilməsinə əminlik olmadan nemət gözlədikdə baş verir. Bu halda insanda gərginlik, narahatçılıq və qorxu yaranır. Lakin bu ayədə Allahın müjdəsindən və əldə edilməsinə əminlik olduqdan sonra nemət gözləməkdən söhbət gedir. Bu halda gözləmə qəmə-qüssə yaratmır. Əksinə sevincə və üzün gülməsinə səbəb olur.[284] Başqa sözlə desək; "İntizar çəkmək xilafının baş verməsi mümkün olan vəd xüsusunda ola bilər. Amma bu vəd heç vaxt vədinə çıxmayan biri tərəfindən verilərsə və qarşı tərəf də bunu bilirsə, intizar çəkmək qəm-qüssəyə deyil, fərəhə, sevincə və üzün gülməsinə səbəb olur".[285]

**İkinci ayə:** Allah-taala buyurub: ***"Musa təyin etdiyimiz vaxtda (Tur-i Sinaya) gəldikdə Rəbbi onunla (arada heç bir vasitə olmadan) danışdı. (Musa: ) "Ey Rəbbim! Özünü (camalını) mənə göstər. Sənə baxım!" – dedi. Allah: "Sən Məni əsla görə bilməzsən. Lakin (bu) dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən", - buyurdu. Rəbbi dağa təcəlli etdikdə (Allahın nuru dağa saçıldıqda) onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: "Sən paksan,***

[283] Bax; Əbuhəsən Əşəri, əl-İbanə ən usulid-diyanə, s. 21.

[284] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 412, 413.

[285] Miqdad Səyyuri, İrşadut-talibin, s. 248. 249.

***müqəddəssən! (Bütün eyib və nöqsanlardan uzaqsan!) Sənə (bu işimdən ötrü) tövbə etdim. Mən (İsrail oğullarından Səni görməyin mümkün olmadığına) iman gətirənlərin birincisiyəm!" – dedi".***[286]

**Bu ayəyə əsasən qeyd olunan dəlillər:**

**Birinci dəlil:** Əgrə Allah-taalanı görmək qeyri-mümkün olsaydı, Musa (ə) peyğəmbər belə bir istəkdə olmazdı. Bu, dəlalət edir ki, Allahı görmək qeyri-mümkün deyildir.[287]

**Dəlilin izahı:** Allahı görmək məsələsində iki hal vardır:

1. Mümkündür. Tələb olunan da məhz budur.

2. Qeyri-mümkündür. Əgər Allahı gözlə görmək qeyri-mümkündürsə, Musa peyğəmbərin Allahdan Onu görməyi tələb etdiyi halda bundan xəbərsiz olması iki məsələyə əsasən mümkün deyildir.

**Birinci:** Allahı görməyin qeyri-mümkün olduğunu bilirdi. Bu, doğru deyil. Çünki belə olsaydı, o, Allah-taaladan belə bir tələbdə bulunmazdı. Çünki ağıl sahibi olan biri qeyri-mümkün bir şey istəməz.

**İkinci:** Musa (ə) peyğəmbər Allahı görməyin qeyri-mümkün olduğunu bilmirdi. Bu, doğru deyil. Çünki peyğəmbər insanlar içərisində Allah-taalanı və sifətlərini hamıdan daha çox tanımalıdır. Bununla da nəticə çıxarırıq ki, Allah-taalanı görmək mümkündür.

**Bu dəlilin cavabı:** Musa (ə) peyğəmbər görmənin mümkün olması və ya olmaması əsasında Allahdan Onu görməyi istəməmişdir. Əksinə başqa səbəbə əsasən belə bir istəkdə bulunmuşdur. Həmin səbəb onunla qövmü Bəni İsrail arasında baş verənlərdə öz əksini tapmışdır. Musa (ə) peyğəmbərlə qövmü arasında baş verən hadisələrin qısa xronikası belə olmuşdur:

1. Allah-taala Musa (ə) peyğəmbərlə danışmışdır.

---

[286] Əraf, 143

[287] Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 23

2. Musa (ə) qövmü Bəni İsrailə Allah-taala ilə danışdığını xəbər vermişdi.

3. Qövmü ona “biz də sənin kimi Allahın sözlərini eşitməsək sənə iman gətirməyəcəyik” demişdir.

4. Musa (ə) peyğəmbər öz qövmündən Rəbbi ilə görüş üçün yetmiş nəfər seçdi.

5. Musa (ə) peyğəmbər həmin yetmiş nəfərlə Turi-Sina dağına getdi. Allahdan onunla danışmasını istədi.

6. Allah-taala Musa (ə) peyğəmbərlə danışdı və onlar Allahın kəlamını eşitdilər.

7. Onlar Musa (ə) peyğəmbərə dedilər ki: “Biz Allahı aşkar görmədən eşitdiyimiz kəlamın Allahın kəlamı olmasına iman gətirməyəcəyik.

8. Onların təkəbbürlükdən irəli gələn bu sözlərindən sonra Allah onlara ildırım göndərdi. Onların hamısını məhv etdi və hamısı öldü.

9. Musa (ə) peyğəmbər Allah-taaladan həmin yetmiş nəfəri diriltməsini istədi ki, Bəni İsrail onu ittiham etməsinlər. Sənin Allahla danışmadığına şahidlik etməsinlər deyə onları aparıb qətlə yetirdin.

10. Allah-taala Musa (ə) peyğəmbərin duasını qəbul edib onları diriltdi.

11. Musa (ə) peyğəmbər onlara belə dedi: “Ey qövmüm, Allah-taala gözlə görsənməz! Onun keyfiyyəti yoxdur. O, ayələri və əlamətləri ilə tanınar.

12. Musanın qövmü etiraz edərək belə dedilər: “Əgər sən Allahdan Özünü sənə göstərməsini istəsən sənin istəyini qəbul edər.

13. Musa (ə) peyğəmbər Allaha belə dedi: “İlahi, Sən Bəni İsrailin nə dediyini eşitdin. Sən nəyin onlara xeyir verəcəyini daha yaxşı bilirsən.

14. Allah-taala Musaya vəhy edərək bildiridi ki, səndən istədiklərini Məndən istə!

15. Musa (ə) peyğəmbər Allahdan Özünü ona göstərməsini istədi ki, deyiləcək cavab onun qövmü üçün höccət olsun və onların bəhanələrinə heç bir əsas qalmasın. O, belə dedi: ***"Ey Rəbbim! Özünü (camalını) mənə göstər. Sənə baxım!"***

16. Allah-taala Bəni İsrailin də eşidəcəyi səslə buyurdu: ***"Sən Məni əsla görə bilməzsən. Lakin (bu) dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən"*.**

17. ***"Rəbbi dağa təcəlli etdikdə"***, yəni Allah-taala ayələri (nişanələri) ilə ***"onu parça-parça etdi. Musa da bayılıb düşdü"*.**

18. Musa (ə) peyğəmbər ayılandan sonra isə: ***"Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan uzaqsan!) Sənə (bu işimdən ötrü) tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!" – dedi".*** Yəni mən İsrail oğullarından Səni görməyin mümkün olmadığına iman gətirənlərin birincisiyəm.

**Nəticə:** Musa (ə) peyğəmbər Allah-taaladan Özünü göstərməsini bu görmənin mümkünlüyünü və ya qeyri-mümkünlüyünü bildiyi va yaxud bilmədiyi üçün tələb etməmişdir. O, qövmünün israrının nəticəsində belə bir istəkdə bulunmuşdur. Allah-taaladan Özünü göstərməyi istəmişdir ki, həmin istəyin müqabilində veriləcək cavab onun qövmü üçün höccət olsun.[288]

Məhz buna əsasən də Allah-taalanın Musa (ə) peyğəmbəri bu istəkdə bulunmasına görə danlamasına rast gəlmirik. Əksinə Musanın (ə)

[288] Daha geniş məlumat üçün bax; Şərif Murtaza, əl-Əmali, c. 2, s. 215; Şeyx Təbərsi. Məcməul-bəyan, c. 4, s. 730, Əraf surəsinin, 143-cü ayəsinin təfsiri; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 320; Muhəqqiq Hillli, əl-Məslək fi usuluddin, s. 68; Əllamə Hilli, Kəşful-murad, s. 412.

qövmünə yönəlik danlağın olduğuna rast gəlirik. Belə ki, Musa (ə) bu tələblərindən dolayı onları "səfehlər" deyə vəsf etmişdir.[289]

**Həmin ayəyə əsasən ikinci dəlil:** Allah-taala görünməyini dağın yerində qalması məsələsinə bağlamışdı. Bu isə mümkün olan bir işdir. Mümkün olandan asılı olan mümkündür.[290]

Başqa sözlə desək, Allah-taala dağa təcəlli edərək dağı yox etməyə qüdrətli olduğu kimi dağa təcəlli edərək onu öz yerində saxlamağa da qüdrəti çatar. Belə nəticə əldə ediriki ki, Allah-taala Özünü Musaya və qövmünə göstərməməyə qüdrətinin çatması kimi, Özünü ona və qövmünə göstərməyə də qüdrəti çatır.[291]

**Cavab:** Allah-taala gözlə görsənməsini mümkün olan bir işə bağlamamışdır. Əksinə mümkün olmayan bir işə bağlamışdır.

**İzah:** Allah-taala dağı darmadağın etmədən öncə onun yerində qalması mümkün bir məsələdir. Lakin Allahın dağı darmadağın etməsindən sonra dağın yerində qalması qeyri-mümkün bir məsələdir. Bu ayədə Allahın gözlə görsənməsi dağın darmadağın edildiyi halda dağın yerində qalmasına bağlanmışdır. Allah-taalanın dağ barəsində ***"Lakin (bu) dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən"*** buyurmasının mənası budur ki, əgər dağ gələcək zamanda yerində qalacaqsa məni görəcəksən. Bu xəbərdarlıqdan sonra isə Allah-taala dağılıb parçalanması üçün hərəkətə gətirdi. Məlumdur ki, bir şeyin hərəkət etməsilə yanaşı onun sabit qalması qeyri-mümkündür. Çünki bir

---

[289] Musanın (ə) qövmü Allahı görməyi tələb etdiklərində Allah-təala səmadan onların üzərinə ildırım göndərdi və onları həlak etdi. Musa (ə) peyğəmbər belə dedi: **"Aramızdakı səfehlərin törətdiyi günahlar üzündən bizi məhvmi edəcəksən?"** (Əraf, 155) Görürük ki, Musa (ə) peyğəmbər Allahı görmək istəməyi səfehlik hesab edir. Bundan sonra özü üçün belə bir istəkdə necə buluna bilərdi?! Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 320

[290] Bax; Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 23

[291] Həmin mənbə

şeyin eyni zamanda həm hərəkətli, həm də sükunətdə olması qeyri-mümkün məsələdir.[292]

**Nəticə:** Allah-taala Özünün görsənməsini qeyri-mümkün bir məsələyə bağlamışdır. Qeyri-mümkün bir şeydən asılı olan hər bir şey qeyri-mümkündür. Bu üslub Qurani-kərimdə bəzi həqiqətlərin bəyanında istifadə edilmişdir. Allah-taala buyurur: ***"Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz (əməlləri, duaları qəbul olunmaz, ruhları göyə qalxmaz) və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil ola bilməzlər. Biz günahkarlara (müşriklərə və kafirlərə) belə cəza veririk!"***[293]

Yəni dəvənin böyük həcmilə yanaşı iynənin kiçik deşiyindən keçməsi qeyri-mümkün olduğu kimi onların da Cənnətə daxil olmaları mümkün deyil.

**Mövzunun davamı:** Allahı-gözlə görülməsinin mümkünlüyünə dəlalət edən bəzi ayələrin olduğu iddia edilmişdir. Lakin həqiqətdə isə həmin ayələr bu iddianı doğrultmur. Həmin ayələrdən bəzilərini qeyd edirik:

1. Allah-taala Muhəmməd (s) peyğəmbərin Merac məsələsi barəsində belə buyurur: ***"And olsun ki, başqa bir dəfə də (merac vaxtı) görmüşdü;"***[294]

Bəzilər belə güman edirlər ki, bu ayə Rəsulullahın (s) meracda gözü ilə Allahı gördüyünü sübut edir. Halbuki ayə gözlə deyil, qəlblə görmə barəsindədir. Bu ayənin əvvəlində Allah-taala belə buyurur: ***"Qəlb***

[292] Şeyx Tusi, ət-Tibyan fi təfsiril-Quran, c. 4, s. 536, Əraf surəsinin 143-cü ayəsinin təfsiri; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 319

[293] Əraf, 40

[294] Nəcm, 13

***(Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı”.***[295] Həmçinin Quran Peyğəmbərin (s) gözlə gördüyü şeyi bəyan edərək belə deyir: ***“And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini gördü”***.[296] Allahın qüdrət nişanələri Allah deyildir.[297]

2. Allah-taala buyurub: ***“Xeyr, o gün Rəbbindən məhrum olacaqlar!”***[298] Bəziləri güman edirlər ki, burada məhrum olmaq Allahı görməkdən məhrum olmaqdır. Ayəyə əsasən bəziləri bundan məhrum olmayacaqlar. Bu isə Allahı gözlə görməyin mümkün olmasına dəlalət edir.[299]

Lakin İmam Əli bin Musa ər-Rza (ə) bu şübhəyə cavab verərək belə buyurub: “Allah-taala hər hansı bir məkana sığmaqla vəsf olunmaz ki, həmin məkan Onu bəndələrindən gizlətsin.[300] Lakin burada məqsəd onların Rəblərinin savabından məhrum olacaqlarını bəyan etməkdir”.[301]

---

[295] Nəcm, 11

[296] Nəcm, 18

[297] Bax; Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 96; Şeyx Səduq, ət-Tövhid, s. 108

[298] Mütəffifin, 15

[299] Bax; Əbulhəsən Əşəri, əl-İbanə ən usulid-diyanə, s. 24

[300] Ayənin orjinalında “məhcubun” sözü qeyd olunur. Bu söz “hicab” sözündən götürülüb. Hicab örtük mənasındadır. Yəni onlar kənar və məhrum olacaqlar. Bəzilərinin Allahı görməsi, bəzilərinin isə görməməsi Onun müəyyən bir məkanda olmasını gərəkdirir. Əvvəlki səhifələrdə sübut olunduğu kimi Allah-təala məkana sığmaqdan uca və pakdır.

[301] Şeyx Səduq, ət-Tövhid, s. 157

## Altıncı fəsil: Allah-taalanın vəhdaniyyəti (vahidliyi)

**Allahın əhədiyyət və vəhdaniyyətinin mənası.**

**Qurani-kərimdə Allahın əhədiyyəti və vəhdaniyyəti.**

**Allahın əhədiyyəti və vəhdaniyyətinin dəlilləri.**

**İkiliyə inananlar.**

**Üçlüyə inananlar.**

**Allah-taala və Özünə övlad seçmə.**

**Bütlərə ibadət.**

**Allahın vəhdaniyyətinin qisimləri.**

## Birinci mövzu

## Allahın əhədiyyəti və vəhdaniyyətinin mənası

### 1. Allahın əhədiyyəti

Əhədiyyət dedikdə Allah-taalanın mürəkkəb olmasının inkar olunması nəzərdə tutulur. Allah-taala hər cəhətdən təkdir. Yəni Onun zatı hissələrə bölünməz.

### 2. Allahın vəhdaniyyətini

Allahın vəhdaniyyəti dedikdə say baxımından çoxluğun inkar olunması nəzərdə tutulur.[302] Allah-taala vahiddir. Yəni Onun şəriki, oxşarı və bənzəri yoxdur.

[302] İmam Əli (ə) Allah-təalanın vəsfində buyurub: "Vahiddir, amma ədəd baxımından". Şeyx Səduq, ət-Tövhid, s. 69

## İkinci mövzu

## Qurani-kərimdə Allahın əhədiyyəti və vəhdaniyyəti

**Birinci:** Qurani-kərimdə buyurulur:

**1. "De: "(Mənim Rəbbim olan) O Allah əhəddir (təkdir)".**[303]

**"Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir".**[304]

**2. "Allah belə buyurdu: "İki tanrı qəbul etməyin. O (Allah) yalnız tək bir tanrıdır. Ancaq Məndən qorxun!"**[305]

**3. "Allah üçün (üç ilahinin) üçüncüsüdür!" – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur..."**[306]

**4. "Allah (Özünə) heç bir övlad götürməmişdir. (Nə İsa Onun oğlu, nə də mələklər Onun qızlarıdır. Əksinə, onların hamısı Allahın qüdrətindən yaranmış məxluqatlardır). Onunla yanaşı (ibadət ediləcək) heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda heç bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər, (öz məxluqatını ayırıb aparar) və onların bir qismi (dünyadakı padşahlar kimi) digərinə üstün olmağa çalışardı..."**[307]

**İkinci: Hədislərdə buyurulur:**

*İmam Əli (ə) Allah-taala vahiddir sözü dörd qisimdir: Bunlardan ikisi Allah-taala barəsində deyilməsi icazəli deyil. Qalan ikisi isə Allah barəsində sabitdir. Deyilməsi icazəli olmayan qisimlərə gəlincə;

---

[303] İxlas, 1

[304] Bəqərə, 163

[305] Nəhl, 51

[306] Maidə, 73

[307] Muminun, 91

**1.** Bir kəs vahid deyə və məqsədi ədəd babından ola. Bu, icazəli deyil. Çünki ikincisi olmayan ədəddən sayılmaz. Görmürsənmi üçün üçüncüsü deyənlər küfr etmişdir.

**2.** Bir kəs insanlardan biridir kimi deyə və məqsədi cinsdən bir növ ola. Bu da Allah üçün deyilməz. Çünki bu, təşbihdir. Rəbbimiz bundan uca və pakdır.

Amma Allah barəsində sabit olan növlərə gəlincə;

**1.** Bir kəs O təkdir, heç bir şey Ona bənzəməz deyə. Rəbbimiz də məhz belədir. (Bu, Allahın vəhdaniyyətidir).

**2.** Bir kəs Allah-taala tək həqiqətdir deyə. Məqsədi Onun varlığında, nə əqli, nə də təsəvvür baxımından bölünmədiyi ola. Uca və əzəmətli Rəbbimiz də məhz belədir. (Bu, Allahın əhədiyyətidir).[308]

***** İmam Rzadan (ə) belə soruşdular: "Allah vahiddir. İnsan vahiddir. Burada vəhdaniyyətdə oxşarlıq olurmu?" İmam (ə) buyurdu: "...Təşbih mənada baş verir. Adlara gəlincə, adlar birdir. Ad mənaya dəlalət edir. İnsan özlüyündə vahid deyil. Çünki onun bədən üzvləri müxtəlifdir, rəngləri müxtəlifdir və vahid deyildir. İnsan hissələrdən ibarətdir. İnsan ad baxımından vahiddir, məna baxımından isə vahid deyil. Allah-taala isə vahiddir və ondan başqa vahid yoxdur..."[309]

[308] Şeyx Səduq, ət-Tövhid, s. 81

[309] Həmin mənbə, s. 61.

## Üçüncü mövzu

## Allah-taalanın əhədiyyəti və vəhdaniyyəti

**Allahın əhədiyyətinin dəlili:**

Əgər Allah-taala əhəd (hər cəhətdən tək) olmasaydı, bu onun hissələrdən tərkib tapması deməkdir. Tərkib hissələrindən ibarət olan mürəkkəb varlıq öz tərkib hissələrinə möhtacdır. Ehtiyac isə naqislikdir. Allah-taala isə naqislikdən uca və pakdır. Bununla da Allah-taalanın əhəd və hissələrə bölünməyən bəsit varlıq olduğu sübuta yetirilir.

İmam Cəfər Sadqidən (ə) belə soruşdular: "Allahın vahid olması necədir?" İmam (ə) belə dedi: "Zatında vahiddir. Onun vahidliyi kimi başqa bir vahid yoxdur. Çünki Ondan başqa bütün vahidlər hissələrə bölünür. Uca və böyük Allah isə hissələrə bölünməyən vahiddir. Onun üçün sayılma (ədəd məfhumu) keçərli deyildir".[310]

**Allah-taalanın vəhdaniyyətinin dəlilləri:**

**Birinci dəlil:**

Əgər Allah-taalanın şəriki olsaydı, Allahla Onun şərikinin hər birinin iki şeydən mürəkkəb olması gərəkir:

1. Digəri ilə ortaq olduğu cəhət.

2. Digəri ilə fərqləndiyi cəhət.

Mürəkkəb isə həqiqətdə öz tərkib hissələrinə möhtacdır. Allah-taala ehtiyacdan uca və pak olduğu üçün Allahın şəriki yoxdur. O, hər hansı bir şərikinin olmasından uca və pakdır.[311]

---

[310] Şeyx Təbərsi, əl-İhticac, c. 2, s. 217.

[311] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 62, 63; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 55; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 100; Əllamə Hilli, Kəşful-murad, s. 405; Miqdad Səyyuri, İrşadut-talibin, s. 249, 250.

**İkinci dəlil:**

Əgər Allah-taalanın şəriki olsaydı Allahla şəriki arasında müştərək və fərqli cəhətlər olmalıdır. Bu isə Allahla şərikinin hər birinin birini digərindən ayıracaq hüdudlarının olması deməkdir. Məhdud olan hər bir şey ona hakim olan hüdud və şərtlərə məhkumdur. Deməli, məhdudluq naqislikdir. Allah-taala naqislikdən uca və pak olduğu üçün Allahın şərikinin olmasından uca və pakdır.[312]

**Üçüncü dəlil:**

Əgər iki ilah olsaydı, onların hər biri aşağıdakı iki xüsusiyyətə sahib olmalıdır:

1. Digərinə qalib gəlməyə qüdrəti vardır. Bu halda o biri aciz olur. Acizlik isə Allahın sifətlərindən deyil. Bununla da Allahın vahid olması sübuta yetir. Mütləq qüdrətlə vəsf olunan Odur.

2. Digərinə qalib gəlməyə qüdrəti çatmır. Bu halda həmin ilah aciz olur. Acizlik isə Allahın sifətlərindən deyil. Bununla da sübuta yetir ki, Allah-taala təkdir. Mütləq qüdrətlə vəsf olunan məhz odur.[313]

---

[312] Buna əsasən də Allah-təala Özünü vəhdaniyyətlə vəsf etdikdən sonra ardınca Özünü qalibiyyətlə vəsf etmişdir. Bu isə Onun vəhdaniyyətdə tək və yeganə olmasına dəlildir**. "Ey mənim iki zindan yoldaşım! (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) ayrı-ayrı tanrılar daha yaxşıdır (ibadət olunmağa daha layiqdir), yoxsa bir olan, (hər şeyə) qadir (qalib) olan Allah?!"** (Yusif surəsi, ayə 39).

**"...Bir olan, (hər şeyi) qəhr edən Allahdan başqa heç bir tanrı yoxdur!"** (Sad surəsi, ayə 65).

**"...O, bir olan, (hər şeyi) qəhr edən (hər şeyə gücü yetən) Allahdır!"** (Zümər surəsi, ayə 4).

[313] Bax; Şeyx Səduq ,ət-Tövhid, s. 263; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 2, s. 269; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 79; Əbussəlah Hələbi, Təqribul-məarif, s. 88, 89; İbn Zuhrə Hələbi, Ğunyətun-nuzu, s. 64, 65; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 322; Əllamə Hilli, Kəşful-fəvaid, s. 194.

Başqa sözlə desək, əgər iki ilah mövcud olsaydı, biri hər hansı bir cismi hərəkətə gətirmək, digəri isə onu sükunətdə saxlamaq istəsəydi aşağıdakı üç haldan biri baş verməlidir:

1. Hər ikisinin istəyi baş verir. Bu halda iki ziddin bir yerə cəm olması baş verir. Bu isə mümkün deyildir.

2. Onlardan heç birinin istəyi baş tutmur. Bu halda hər ikisi aciz olur. Acizlik isə üluhiyyətlə (ilahlıq sifəti ilə) uyğun deyil.

3. Onlardan birinin istəyi baş verir. İstəyi baş tutmayan isə acizdir və onun ilah olması qeyri mümkündür.[314]

İmam Cəfər Sadiq (ə) zindiqlərin birinə cavab verərkən belə buyurur: "Onların iki olması sözün bu məsələni gərəkdirir; hər ikisi qədim və güclüdür, yaxud hər ikisi zəifdirlər, ya da biri güclü, digəri isə zəifdir. Əgər hər ikisi güclüdürsə, bəs nə üçün digərini dəf edib tək özü idarəçiliyi əlinə almır? Əgər onlardan birinin güclü, digərinin isə zəif olduğunu iddia etsən, ikincisində zəiflik aşkar olduğu üçün bizim dediyimiz kimi onun bir olması sübuta yetir".[315]

Həmçinin İmam Sadiq (ə) belə buyurur: "Əgər iddia etdiyiniz kimi iki ilah olsaydı və hər ikisi də xaliq olsaydılar; biri yaratmaq, digəri isə yaratmaq istəməyəcək. Biri istəyəcək, digəri isə istəməyəcək. Hər biri digərinə qalib gəlmək istəyəcəkdir. Əgər onlardan biri insan yaratmaq, digəri isə heyvan yaratmaq istəyərsə, eyni halda həm insan, həm də heyvan yaranmış olacaq. Bu isə mövcud deyil. Bu iddia batil olduğu üçün, yaradılışın və idarəçiliyin vahid olduğu sübuta yetir. Həmçinin idarəçiliyin

[314] Bax; Şeyx Tusi, ət-Tibyan fi təfsiril-Quran, c. 7, s. 239, Ənbiya surəsinin 22-ci ayəsinin təfsiri; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 135; Əllamə Hilli, Mənahicul-yəqin, s. 220.

[315] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 80, 81.

səbatlılığı və varlıqların bir-biri ilə bağlılığı dəlalət edir ki, yaradıcı vahiddir".[316]

İmam Cəfər Sadiq (ə) buyurub: "... Sənin iddia etdiyin kimi onlar iki olsaydılar iki olmaları üçün onların aralarında ayrılıq (məsafə) olmalıdır. Həmin məsafə onların arasında üçüncü olacaq və o, qədim olacaqdır. Bununla da üçünü də olmasını qəbul etməlisən. Əgər üç olduqlarını iddia etsən, ikisi barədə deyiləni qəbul etməlisən. Onların arasında da ayrılıq olmalıdır. Bununla da onlar beş olacaqlar. Sonra isə bu sonsuz saya qədər davam edəcəkdir".[317]

İmam Cəfər Sadiqdən (ə) "Allahın vahid olmasına dəlil nədir?" deyə soruşdular. İmam (ə) buyurdu: "İdarəçiliyin qanuna uyğunluğu,[318] nizamlılığı və yaradılışın kamilliyi (buna dəlalət edir). Necə ki, Allah-taala buyurur: ***"Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı..."[319].[320]***

Həmçinin İmam Sadiq (ə) buyurub: "Yaradılış aləmini nizamlı, fələyin hərəkətli, idarəçiliyin vahid olmasını, gecəni, gündüzü, günəşi və ayı gördükdə, hər şeyin idarə olunmasının düzgünlüyü və qanunauyğunluğu idarə edənin vahid olmasına dəlalət etdiyi məlum olur".[321]

**Dördüncü dəlil:**

İmam Əlinin (ə) övladı İmam Həsənə (ə) etdiyi vəsiyyətdə belə buyurulur: "... Ey oğlum! Bil ki, əgər Rəbbinin şəriki olsaydı onun da

---

316 Əllamə Məclisi, c. 3, s. 219, 220.

317 Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 81.

318 İdarəçiliyin nizamlılığı, qanunauyğunluğu davamlılığı mənasındadır. Çünki qanunauyğunluğun kəsilməsi fəsada gətirib çıxardır.

319 Ənbiya surəsi, ayə 22.

320 Şeyx Səduq, ət-Tövhid, s. 244.

321 Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 81.

peyğəmbərləri sənə gələrdi, onun mülkiyyətinin və səltənətinin əlamətlərini görərdin. Onun fellərini və sifətlərini tanıyardın”.[322]

**Nəticə:**

Allaha şərik nisbət vermək doğru deyil. Çünki bu nisbət ehtiyac, acizlik və fəqirliyin göstəricisidir. Allah-taala isə bütün bu növ naqisliklərdən uca və pakdır.

[322] Şərif Rəzi, Nəhcül-bəlağə, c. 1, məktub 31, s. 542.

## Dördüncü mövzu

## İki ilaha inananlar

**İki ilaha inananların iddiaları:**

Varlıq aləmində xeyir və şər vardır. Onlar bir-birinin ziddidir. Vahid fail (iş icra edən) iki zidd şey yaratmaz. Əksinə hər bir failin özünə məxsus və uyğun yaradılışı var. Buna əsasən də belə nəticə çıxarırıq ki, varlıq aləmində iki təsir edən güc vardır. Həmin təsir edən güclər nur və zülmətdir. Nur öz təbiətinə uyğun olaraq xeyir işlər edir. Zülmət isə öz təbiətinə uyğun olaraq şəri yaradır.[323] Nur xeyir ilahı olan Yəzdandır. Zülmət isə şər ilahı olan Əhriməndir. Nur zülmətə qalib gələnədək onlar arasında mübarizə davam edəcəkdir.

**İki ilahın olmasını iddia edənlərin dəlillərinin batil olması:**

**1.** Əgər xeyir və şər arasındakı ziddiyyət iki ilahın olmasının iddia olunmasına səbəbdirsə, daha çox ilahın olmasını iddia etmək vacibdir. Çünki zidd olanlar təkcə bu ikisindən ibarət deyil. Əksinə bir-birilə çoxlu zidd olanlar vardır.

Rəsulullah (s) iki ilaha inanlarla söhbət edərkən onlara belə demişdir: "Ağ, qara, qırmızı, sarı, yaşıl və göy rəngləri görmürsünüzmü? Bunların hər biri digərinin ziddidir. Çünki bunlardan ikisinin bir yerdə cəm olması mümkün deyil. Necə ki, isti və soyuq bir-birinə ziddir və onların bir yerdə cəm olması mümkün deyil.

Onlar: "Bəli" deyə cavab verdilər.

Peyğəmbər (s) belə dedi: "Bəs nə üçün hər rəngin sayı qədər qədim yaradıcının olmasını demirsiniz? Çünki bu rənglərdən zidd olan hər

[323] Bax; Sədiduddin Himsi, c. 1, s. 140.

birinin o birisindən fərqli öz faili vardır". Bundan sonra onlar sükut etdilər.[324]

**2.** Nur və zülmət bir-birinə təsir edir və onlarda dəyişiklik baş verir. Dəyişiklik isə sonradan yarananların əlamətlərindəndir. İlah isə sonradan yaranma məsələsindən uca və pak olmalıdır. Bununla da nur və zülmətin ilah olmasının qeyri mümkünlüyü nəticəsi çıxır.

**3.** Bir insan üçün xeyir olan başqa insan üçün şər ola bilər. Bir insan üçün şər olan isə başqa insan üçün xeyir ola bilər. Əgər xeyirin xaliqi şərin xaliqi olmasaydı, bir cəhətdən xeyir olan və müxtəlif cəhətlərdən şər olan şeyin xaliqi kim olacaq?![325]

**Nəticə:**

Varlıq aləmində xeyir və şərin olması yalnız onların yaradılışındakı hikmətdən xəbər verir. İnsan elmi və bilgisi dairəsində həmin hikməti tapmaq üçün araşdırma aparmalıdır. Bu hikməti dərk etməmək varlığın təzadlı təzahürlərini və hamısını vahid ilaha istinad etməsini izah etmək üçün bir neçə ilahın olmasını düşünmək zərurəti yaratmır.

[324] Şeyx Təbərsi, əl-İhticac, c. 1, s. 38.

[325] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 2, s. 287; Şeyx Tusi, əl-İqtisad, s. 79; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 140; Əllamə Hilli, Mənahicul-yəqin, s.211.

## Beşinci mövzu

## Üçlüyə etiqad edənlər

**Üçlük əqidəsinin xüsusiyyətləri:**

**1.** Üçlük nəzəriyyəsi həqiqətədə ağıla sığan bir nəzəriyyə deyil. Çox az dində bu qədər qaranlıq və qəliz əqidəyə rast gəlmək olar.

**2.** Bəzi tədqiqatlara əsasən üçlük əqidəsi xristianlığa hindistan mənşəli olan bərahmaniyyə dinindən sirayət etmişdir. Bərahmaniyyə xristianlıqdan öncə yaranmış, əzəli və əbədi rəbbin üç şeydə təmsil olunduğunu demişdir:

**Birinci:** Bərahma (xaliq). Bərahma varlıq aləmini yaradandır.

**İkinci:** Fişo (qoruyucu). Fişo qoruyucu və atası tərəfindən göndərilən oğuldur.

**Üçüncü:** Sifo (dağıdıcı). Sifo kainatı dağıdıb sonra əvvəlki halına qaytarandır.[326]

**3.** Xristianlıqda üçülük əqidəsi ağıl və məntiqlə izah olunmayan ehkamçılıq məsələlərindən olan əqidədir. Bu məsələni ağıl və məntiqlə araşdırmaq olmaz. Çünki onun həqiqəti məntiqi təhlillərin fövqündədir.

**Cavab:**

Metafizik aləmi, maddi aləmlə müqayisə etməyin səhv olması gizli bir məsələ deyildir. Lakin bu, metafizik aləmin heç bir məntiqi meyarlara uyğun olmaması demək deyildir. Həmçinin metafizik aləmlə yanaşı maddi aləmə hakim olmasında heç bir şəkk olmayan əqli nəticələrə əsaslanan aşkar hökmlər vardır. Məsələn, nəticənin səbəbə ehtiyacı olması və ya iki ziddin bir yerdə cəm olması kimi məsələlər bu qəbildəndir.

**Üçlük əqidəsinin həqiqəti:**

---

[326] Daha ətraflı məlumat üçün bax; Şeyx Cəfər Subhani, Məfahimul-Quran, c. 6, s. 488, 489.

Tanrının təbiəti zat baxımından bərabər üç üqnumdən[327] ibarətdir; ata, oğul və müqəddəs ruh. Bu üç üqnum üç olmasına baxmayaraq vahid məqamda və dərəcədədir.[328]

**Cavab:**

Üç üqnumun vahid həqiqət olması iki məsələni gərəkdirir:

**1.** Tanrı üç olmaqla yanaşı vahiddir. Həmçinin vahid olmaqla yanaşı üçdür. Bu batil iddiadır.

**2.** Tanrı üç hissədən ibarətdir. Necə ki, insan vahid fərd olmasına baxmayaraq müxtəlif hissələrdən ibarətdir. Bu isə Allah-taalanın mürəkkəb olması deməkdir. Mürəkkəb olan bir şey tərkib hissələrinə möhtac olduğu üçün tanrı da üç üqnumdan təşkil tapdığı üçün onların hər birinə möhtac olacaqdır. Lakin Allah-taala ehtiyac sifətindən uca və pakdır. Bununla da nəticə çıxarırıq ki, tanrının vahid həqiqətinin üç üqnumdan ibarət olması iddiası puçdur.[329]

## İsa (ə)-ın üluhiyyətinin batil olmasına dəlalət edən Quran ayələri

**1.** İsa (ə) Allaha ibadət edir və insanları Allaha ibadət etməyə dəvət edirdi. Əgər İsa (ə) ilah olsaydı belə etməzdi.

Allah-taala buyurur: **“Şübhəsiz ki: “Allah Məryəm oğlu Məsihdir!” – deyənlər kafir oldular. Halbuki Məsih (İsa) belə demişdi: “Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, Cənnəti haram edər. Onun düşəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!”**[330]

---

[327] Üqnum əsas mənasındadır.

[328] Bax; Müqəddəs kitabın lüğəti, s. 232.

[329] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 2, s. 291, 292; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 145.

[330] Maidə surəsi, ayə 72.

**2.** İsa (ə) digər bəşər övladı kimi yeyir, içirdi. Bu isə ilahi sifətlərdən deyil.

Allah-taala buyurur: **"Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak (Allahın hökmlərini sidq-ürəkdən təsdiq edən) bir qadın idi. Onlardan hər ikisi (adi insanlar kimi) yemək yeyirdi. Gör Biz ayələri onlara necə başa..."**[331]

**3.** Allah-taala İsanı (ə) həlak etməyə qadirdir. Bununla da yalnız Allah-taalanın üluhiyyəti sübuta yetir.

Allah-taala buyurur: **"...(Onlara) de: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, (bu işdə) kim Ona bir şeylə mane ola bilər?.."**[332].[333]

[331] Maidə surəsi, ayə 75.

[332] Maidə surəsi, ayə 17.

[333] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 2, s. 299.

## Altıncı mövzu

## Allah-taala və övlad seçmək

Xristianlar Allah-taalanın İsa Məsihi özünə övlad seçdiyinə etiqad edirlər.

**Bu iddianın cavabı:**

Xristianların Allah-taalanın İsa (ə)-ı övlad seçməsi barədə əqidələri iki anlamda ola bilər:

**1. Həqiqi mənada:** Bu halda övlad atanın bir hissəsi olur və ondan "ayrılmış" və böyümüşdür. Başqa sözlə desək, övlad atadan müəyyən hissənin ayrılıb ananın bətnində yerləşməsi ilə var olur. Bu, Allah-taalanın mürəkkəb və cismanilik xüsusiyyətləri ilə vəsf olunmasını gərəkdirir. Lakin Allah-taala bundan uca və pakdır. Bununla da bu iddianın batil olması nəticəsinə gəlirik.

**2. Məcazi mənada:** Bu cür ifadə insanlar arasında "filankəs filan şəxsi övladlığa götürüb" deyə işlədilir. Bu isə övladlığa götürülməsi mümkün olan varlıqlar xüsusunda mümkündür. Məsələn, insan hər hansı bir cansız varlığı, əşyanı və ya heyvanları, hətta özündən yaşlı olan bir insanı övladlığa götürməsi məntiqi hesab olunmur. Bu baxımdan bu məsələni məcazi mənada belə Allah-taalaya nisbət vermək olmaz. Allah-taala cismanilikdən uca və pakdır. Buna əsasən də cismani olan bir şeyi məcazi mənada belə övladlığa götürməsini demək düzgün deyil.[334]

**Qeyd etdiklərimizdən əlavə;**

**1.** Allahın övlad seçməsi Onun həyat yoldaşının olmasını gərəkdir.

[334] Şərif Murtaza, əl-Muləxxəs, c. 2, s. 294, 293; Şeyx Tusi, əl-İqtisad, s. 81; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, s. 69 ,70.

Allah-taala buyurub: **“O, göyləri və yeri (yoxdan) var edəndir. Allahın necə övladı ola bilər ki, Onun heç bir yoldaşı (zövcəsi) yoxdur. Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir!”**[335]

**2.** Allahın övladının olması onun da ilahi sifətlər və xüsusiyyətlərlə vəsf olunaraq Allaha bənzər və oxşar olmasını gərəkdirir. Məsələn, o da başqasına möhtac olmamalı və müstəqil varlığa sahib olmalıdır. Bu isə Allahın şərikinin olmasını gərəkdirir. Allahın şərikinin olması isə mümkün deyil.

Allah-taala buyurur: **“O Allah ki, göylərin və yerin hökmü (səltənəti) Onundur. O (Özünə) heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu (onun nə cür olacağını) təqdir (əzəldən müəyyən) etmişdir”.**[336]

**“(Yəhudilər, xaçpərəstlər və müşriklər) dedilər: “Allah (Özü üçün) övlad götürmüşdür”. Allah pak və müqəddəsdir (bu sözlərin Ona heç bir aidiyyəti yoxdur. O, bütün eyib və nöqsanlardan xalidir). Bəli, göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir!”**[337]

**Qeyd:**

Bəzi xristianlar belə deyirlər: “Məsih ata olmadan dünyaya gəlmişdir. Buna əsasən də onun Allahın oğlu olmasını demək olar”. Qurani-kərim bu rəyi rədd edərək belə deyir:

**“Allah yanında İsa da (İsanın atasız dünyaya gəlməsi də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: “(Bəşər) ol!” – dedi, o da oldu”.**[338]

---

[335]Ənam surəsi, ayə 101.

[336]Furqan surəsi, ayə 2.

[337] Bəqərə surəsi, ayə 116.

[338] Ali İmran surəsi, ayə 59.

## Yeddinci mövzu

## Bütlərə ibadət

Rəsulullahın (s) bütpərəslərlə diaqloqu barədə nəql olunan rəvayətdə o həzrətin bütpərəstlərə belə dediyi qeyd olunur: “Nə üçün Allaha deyil, bütlərə ibadət edirsiniz?” Onlar belə dedilər: “Biz bununla Allah-taalaya yaxınlaşırıq... bu bütlər əvvəlki qövmlərin mücəssiməsidir (heykəlləridir). Onlar bizdən öncə Allaha itaət etmişlər. Allaha təzim əlaməti olaraq onların heykəllərini düzəldib onlara ibadət edirik. Necə ki, mələklər Adəmə səcdə etməklə Allah-taalaya yaxınlaşmışlar. Necə ki, siz – iddia etdiyiniz kimi – Məkkə tərəfə səcdə etmək əmr olunub və siz bunu edirsiniz. Sonra başqa məmləkətlərdə (Məkkədən başqa yerlərdə) öz əllərinizlə mehrablar tikib ona tərəf səcdə edərək məqsədinizdə onu deyil, Kəbəni tutursunuz. Kəbəyə tərəf üz tutaraq məqsədinizdə onu deyil, Allah-taalanı tutursunuz”. Rəsulullah (s) onlara belə buyurdu: “Yolu səhv salıb azmısınız. Bizi misal çəkərək özünüzə bənzətdiniz. Biz eyni deyilik. Çünki biz Allahın yaradılmış qullarıyıq. Onun əmrlərini yerinə yetirir, qadağalarından çəkinirik. Ona bizdən tələb etdiyi kimi ibadət edirik. Əgər hər hansı tərəfə üz tutmamızı əmr edərsə, Ona itaət edərək əmr etmədiyi və icazə vermədiyi bir tərəfə yönəlmərik. Çünki biz bilmirik ki, bəlkə də ikincini bəyənmədiyi üçün bizdən birincini yerinə yetirməyi istəmişdir. Onun qarşısında söz deməyi bizə qadağan etmişdir. Bizə Kəbəyə tərəf üz tutub Ona ibadət etməyi əmr etdikdə biz də Ona itaət etdik. Sonra biz başqa məmləkətlərdə olduqda da ona (Kəbəyə) tərəf üz tutub ibadət etməyimizi əmr etdi və biz də itaət etdik. Heç bir şeydə Onun əmrindən kənara çıxmadıq. Allah-taala Adəmə səcdə etməyi əmr etdikdə onun surətinə səcdə etməyi əmr etmədi ki, Allahdan qeyrisi üçün səcdə sayılsın. Siz onunla müqayisə oluna bilməzsiniz. Çünki siz bilmirisiniz, bəlkə də (Allah) əmr etmədiyi bir işi etdiyiniz üçün bunu bəyənmir”.

Sonra Rəsulullah (s) onlara belə dedi: “Nə düşünürsünüz? Məgər bir adam müəyyən bir gün sizə evinə daxil olmağa izin verirsə icazəsi olmadan başqa vaxt onun evinə daxil ola bilərsiniz? Onun icazəsi olmadan başqa evinə də daxil ola bilərsiniz?

Əgər bir insan sizə libaslarından birini və ya qullarından birini və yaxud miniklərindən birini hədiyə edərsə, onu götürə bilərsiniz?” Onlar: “Bəli” –deyə cavab verdilər. (Peyğəmbər) dedi: “Əgər götürməsəniz, sonra başqa birini götürə bilərsiniz?” Onlar: “Xeyir! Çünki o, birincidə icazə verdiyi kimi ikinci dəfə bizə icazə verməmişdir”. Peyğəmbər (s) belə buyurdu: “Bəs nə üçün belə edirsiniz? Nə vaxt sizə bu heykəllərə səcdə etməyi əmr etmişdir?”. Onlar: “Bu barədə düşünəcəyik” deyib sükut etdilər. Üç gün sonra isə geri dönüb müsəlman oldular”.[339]

[339] Şeyx Təbərsi, əl-İhticac, c. 1, s. 39, 40.

## Səkkizinci mövzu

## Allahın vəhdaniyyətinin qisimləri

**1. Zatda tövhid.** Yəni Allah-taala təkdir, Onu hissələri yoxdur və O, ikincisi olmayan vahiddir.[340]

**2. Sifətlərdə tövhid.** Yəni Allahın sifətləri Onun zatı ilə eynidir.[341]

**4. İbadətdə tövhid.** Yəni yalnız Allah-taalaya ibadət etmək və ibadət olunmağa layiq olmaqda Ona şərik ola biləcək birinin varlığını inkar etmək.[342]

**Qeyd:**

Bəzi alimlər tövhidin başqa qisimləri barədə də danışmışlar. Həmin qisimlər fellərdə tövhidə aiddir. Lakin doğru olan həmin qisimləri tövhidin qisimlərindən hesab etməməkdir. Çünki həmin qisimlər təkcə Allah-taalaya məxsus deyildir. Həmin qisimlərdə nəzərdə tutulan əməllər Allahın izni ilə bəndənin də yerinə yetirməsi doğrudur. Həmin qisimlərdən aşağıdakıları qeyd edə bilərik:

Fellərdə (hər hansı bir işi yerinə yetirməkdə) tövhid. Allah-taala da hər hansı bir feli edir. Həmçinin insan da hər hansı bir feli edir. Lakin fərq burdadır ki, Allah-taala hər hansı bir feli müstəqil surətdə edir. Amma insan Allahın izni və lütf etdiyi güc və qüvvət vasitəsilə hər hansı feli edir. Buna əsasən də "Allahdan başqa fail (iş yerinə yetirən) yoxdur" demək doğru deyil. Doğrusu budur ki, Allah-taaladan savayı müstəqil fail yoxdur.

---

[340] Daha geniş məlumat üçün bu fəsilin əvvəlki mövzularına müraciət et.

[341] Daha ətraflı məlumat üçün bu kitabın üçüncü fəsilin, altıncı mövzusuna müraciət et.

[342] Qeyd: Zatda tövhid və sifətlərdə tövhid ibadətdə tövhiddən rütbəcə daha öndədir. Çünki ibadət olunan məbud olsa da, olmasa da, Allah-təalanın heç bir şəriki yoxdur.

Fellərdə tövhid qismindən başqa qisimlər də ayrılır. Məsələn, yaradılışda tövhid, təsir etmədə tövhid, hökm vermədə tövhid, mülkiyyətdə tövhid, ruzi vermədə tövhid, itaət etmədə tövhid, hakimiyyətdə tövhid və s.

Allah-taala xaliqdir (yaradandır), təsir edəndir, hökm verəndir, malikdir (mülkiyyət sahibidir), ruzi verəndir, itaət olunandır, hakimdir və s. İnsan da, həmçinin, yaradandır, təsir edəndir, hökm verəndir, malikdir (mülkiyyət sahibidir), ruzi verəndir, itaət olunandır, hakimdir və s. Lakin fərq budur ki, Allah-taala bütün bu sadalananlarda müstəqildir. Amma insan bütün bunları Allah-taalanın izni ilə edə bilər. Buna əsasən də Allahdan başqa yaradıcı, təsir edən, malik ... yoxdur demək olmaz. Doğrusu budur ki, Allah-taaladan başqa müstəqil surətdə yaradan, təsir edən, hökm çıxaran, sahib olan ... yoxdur.

## Yeddinci fəsil: Allah-taalanın həyatı

### Həyatın mənası

### İlahi zatın həyat sifətinin sübutunun dəlilləri

### Allah-taalanın həyatının xüsusiyyətləri

### Qurani-kərim və hədislərdə Allahın həyat sifəti

## Birinci mövzu

## Həyatın mənası

Həyat məfhumu aşkar məfhum olduğu üçün insan fitri olaraq onu dərk edir. Bu məfhumun həddindən artıq aşkar olması, ona tərif verməyin çətin olmasına səbəb olmuşdur. Alimlər həyat məfhumunun izahı üçün bir neçə rəylər demişlər. Həmin rəylərin ən əsaslarını qeyd edirik:

**Həyatın ümumi mənası.**

Həyat onunla vəsf olunan varlığın özünəməxsus bir neçə əlamətlərini ehtiva edir. Məsələn, torpağın həyatı onun münbit olması və bitkilərin həmin torpaqda bitməsidir. Torpağın ölümü isə bunun əksidir. İşin həyatı onun nəzərdə tutulan məqsədə çatmasıdır. Ölümü isə bunun əksidir. Qəlbin həyatı onun mənəvi və əxlaqi dəyərlərlə zəngin olmasıdır. Ölümü isə bunun əksidir.

**Həyatın xüsusi mənası.**

Həyat elm və qüdrət sifətləri ilə vəsf olunmağı vacib edən bir sifətdir. Yəni hər hansı bir varlıq yalnız həyatla vəsf olunduqdan sonra elm və qüdrətlə vəsf oluna bilər. Zərurət hər bir alim və qüdrətlinin diri olmasını tələb edir.[343]

**Qeyd:**

Bəziləri diri olanı dərk edən fail (iş icra edən), fəal dərk edən, fəal iş icra edən kimi səciyyələndirmişlər.[344]

---

[343] Bax; Şeyx Mufid, ən-Nükətul-etiqadiyyə, s. 24; Şərif Murtaza, Şərhu cumələul-ilmi vəl-əməl, s. 51; Əbussəlah Hələbi, Təqribul-məarif, s. 74; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 45;Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 55; Səduddin Himsi, əl-Munqiz minət-təqlid, s. 41; Əllamə Hilli, Kəşful-murad, s. 401; Miqdad Səyyuri, əl-İtimad fi şərhi vacibil-itiqad, s. 60.

[344] Bu rəy filosoflara nisbət verilir. Bax; Əllamə Məclisi, Biharul-ənvar, c. 1, s. 68, 69; Əllamə Hilli bu tərifi Minhacul-yəqin kitabında ilk filosoflara nisbət vermişdir. Bax;

Lakin şübhə yoxdur ki, bu mənada Allah-taalaya həyat sifətinin nisbət verilməsi varlıq aləminin qədim olmasını qəbul etməyi gərəkdirir. Çünki həyat Allah-taalanın zati sifətlərindəndir. Fel (iş icra etmək) və idarəçilik isə Allahın feli sifətlərindəndir. Zati sifət olan həyat sifətini feli sifət olan fel və idarəçilik sifətləri ilə səciyyələndirmək Allah-taalanı diri olduğu halda xəlq edən və idarə edən də olması zərurətini yaradır. Bu isə varlıq aləminin qədim olmasını gərəkdirir.

Lakin bu nəzəriyyə – əvvəlki mövzularda qeyd etdiyimiz kimi – batildir. Allah-taaladan savayı hər bir şey sonradan yaranmışdır.

Ola bilsin ki, fail və idarə edən sözündən məqsəd fel və idarəçiliyə qüdrəti olan mənasıdır. Çünki diri olanın əksi ölü olandır. Ölü olan isə heç bir fel icra edə bilməz və onun real olaraq heç bir təsiri olmur.

---

Mənahicul-yəqin, s. 170; əl-Əbhasul-mufidə, s. 33. Qəribə burasıdır ki, Şeyx Səduq aləmin qədim olmasının batil olduğuna etiqad etməsilə yanaşı (bax; ət-Tövhid) belə demişdir: "Həyy (diri, həyatda olan) iş icra edən və idarə edəndir. (bax; ət-Tövhid, s. 195). Bu rəy aləmin qədim olmasını gərəkdirir. Çünki fel (iş icra etmək), idarə etmək və yaratmaq ilahi zatın varlığından sonrakı mərhələdir. Həyy (diri) olanın iş icra edən və idarə edən olmasını bu sifətlərin zati sifət olması deməkdir. Bununla da ilahi zatın qədimliyi kimi yaradılışın qədim olması zərurəti yaranır. Şeyx Səduq aləmin qədim olmasının batil olmasını bəyan etmişdir.

## İkinci mövzu

## İlahi zatın həyat sifətinin sübutunun dəlilləri

**1.** Zərurət hər bir alim və qüdrətlinin həyat sifəti ilə vəsf olunmasını tələb edir. Allah-taalanın elm və qüdrətlə vəsf olunması Onun həyy (diri, həyata sahib olan) olmasını vacib edir.[345]

**2.** Həyat kamillik sifətidir. Bütün kamilliklər Allaha məxsus olduğu üçün Allah-taalann kamil olması sübuta yetir.

**3.** Allah-taala yaratdığı bəzi məxluqlara həyat bəxş etmişdir. Qeyd etdiyimiz kimi həyat kamillikdir. Kamilliyi bəxş edən özü ondan məhrum ola bilməz hökmünə əsasən Allah-taala bu kamillik sifətindən məhrum ola bilməz.

[345] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 24; Əbusalah Hələbi, Təqribul-məarif, s. 74; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 45. Bu mənbələrə əvvəlki səhifələrdə işarə etmişdik. Həmçinin bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 1, s. 82; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 36; Əllamə Hilli, Minhacul-yəqin, s. 170.

## Üçüncü mövzu

## Allah-taalanın həyatının xüsusiyyətləri

**1.** Həyat Allahın zati sifətlərindəndir. Allah-taala zatı ilə diridir. Bu sifətin Onda olmaması mümkün deyil.[346]

**2.** Allah-taalaya nisbət verilən həyat başqa diri varlıqlara nisbət verilən həyat sifətindən fərqlidir. Həmin fərqlər aşağıdakılardır:

**Birinci:** Allah-taalanı həyatı əzəli, əbədi və fənaya uğramayandır. Allahdan başqasının həyatı isə yoxluqdan sonra olmuşdur.

**İkinci:** Allah-taalanın həyatı cismanilik xüsusiyyətlərindən uca və pakdır. Allahdan başqasının həyatı nəfsani və mizac keyfiyyətləri ilə xarakterizə edilir. Belə ki, inkişaf, hissiyyat, cazibə və başqa cismani və məhdud məsələlərlə şərtlənmişdir.

**Üçüncü:** Allahın həyatı Onun zatı ilə eynidir. Bu sifət Onun zatına əlavə olunmamışdır. Allahdan başqasının həyatı isə zatına əlavə olunmuşdur.

**Qeyd:**

Bizim həyat barədə ümumi təsəvvürümüz məxluqlara məxsus olan həyatdır. Allahın həyatı isə məxluqların həyatından tamamilə fərqlidir. Buna əsasən də Allah-taalaya həyat sifəti nisbət verdikdə Ona nöqsan gətirəcək bütün xüsusiyyətlərdən və məsələlərdən pak və uca olduğunu nəzərə almalıyıq. Allahın həyatı Onun uca məqamına layiq və münasibdir.

[346] Bax" Meysəm Bəhrani, Qəvaidul-məram, s. 87.

## Dördüncü mövzu

## Qurani-kərim və Əhli-Beyt(ə) hədislərində Allahın həyat sifəti

### Qurani-kərimdə Allahın həyat sifəti

**1.** Allah-taala buyurub: **"Allah başqa heç bir tanrı yoxdur, diri əbədi, əzəli varlıq Odur".**[347]

**2.** Allah-taala buyurub: **"Əbədi (həmişə diri) olan ancaq Odur. Ondan başqa heç bir tanrı yoxdur. (Allaha) dini yalnız Ona məxsus edərək (heç bir şərik qoşmadan) ibadət edin!.."**[348]

**3.** Allah-taala buyurub: **"(Ya Rəsulum!) Ölməz, həmişə diri olana (Allaha) bel bağla və Onu həmd-səna ilə təqdis et (və ya Onun nemətlərinə şükür edərək namaz qıl)..."**[349]

### Əhli-Beyt(ə) hədislərində Allahın həyatı

**1.** İmam Məhəmməd Baqir (ə) buyurub: "Allah-taala var idi və Onunla bərabər başqa bir şey yox idi... O, diridir, ölməzdir. Bu gün də belədir. Həmçinin əbədi olaraq qalacaqdır".[350]

**2.** İmam Cəfər Sadiq (ə) buyurub: "Allah-taala diridir, ölməzdir. Zatı həyatdır".[351]

**3.** İmam Musa bin Cəfər Kazim (ə) buyurub: "Allah-taala keyfiyyət olmadan diridir. Sonradan qazanılan olmadan həyatla diridir. O, zatı ilə diridir..."[352]

---

[347] Bəqərə surəsi, ayə 255.

[348] Ğafir surəsi, ayə 65.

[349] Furqan surəsi, ayə 58.

[350] Şeyx Səduq, ət-Tövhid, s. 136.

[351] Həmin mənbə, s. 136.

[352] Həmin mənbə, s. 137.

**4.** İmam Əli bin Musa ər-Rza (ə)-a dedilər: “Biz Allahın ölümsüz həyat olduğunu rəvayət edirik”. İmam (ə) dedi: “O, məhz belədir”.[353]

[353] Həmin mənbə, s. 133.

## Səkkizinci fəsil: Allah-taalanı elm sifəti

**Elmin mənası**

**Elmin növləri**

**Allah-taalanın elminin xüsusiyyətləri**

**Allah-taalanın elminin keyfiyyəti**

**Allah-taalanın elminin növləri**

**Allahın zati elmi**

**Allahın zatına olan elmi**

**Allahın varlıqları yaratmadan öncə onlara olan elmi**

**Allahın varlıqları yaratdıqdan sonra onlara olan elmi**

**Allah-taalanın elminin sonsuz olması**

## Birinci mövzu

## Elmin mənası

Elm məlumatların səhv ehtimalı olmadan tamamilə aşkar olunmasıdır. Allah-taalanın sifətlərindən biri də elmdir. Lakin heç bir varlıq Onun üçün gizli deyildir ki, sonradan aşkar olsun.

Şeyx Mufid belə deyir: "Bir şeyi bilən o kəsdir ki, həmin şey onun üçün aşkar və hazır olsun və ondan gizli qalmasın".[354]

**Qeyd:**

Sədiduddin Himsi belə deyir: "Elmə bir neçə tərif verilmişdir. Həmin tərifl ər doğru deyildir. Ən doğrusu elm və alimə tərif verilməməlidir".[355]

[354] Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 23.

[355] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, s. 38.

## İkinci mövzu

## Elmin növləri[356]

**Birinci: Hüzuri elm.** Bu növ elm məlumun alimdə tam reallığı ilə hər hansı vasitə olmadan hazır olmasıdır.[357] Yəni dərk olunan varlıq surətinin vasitəsilə deyil, özü alim üçün məlum olur.

**Hüzuri elmə aid nümunələr:**

**1.** İnsanın öz varlığını bilməsi.

**2.** İnsanın duyğularını və hislərini bilməsi.

**Hüzuri elmin növləri:**

**1.** Alimin özü məlum ola. Məsələn, insanın özünü dərk etməsi kimi. (Bu halda insan bir cəhətdən alim, digər cəhətdən isə məlumdur. Müt.).

**2.** Alim özü məlum olmaya. Məsələn insanın duyğularına və hislərinə olan elmi. (Bu halda insan alim, duyğu və hisləri isə məlum olur. Müt.).

**İkinci: Hüsuli elm:**

Bu növ elm varlıqlardan götürülmüş və onları əks etdirən surətin vasitəsilə baş verir. İnsanın əldə etdiyi elmin əksəriyyəti bu qəbildəndir. Bu növ elmdə insan varlıqları onlardan hasil olan surətlərin zehnində inikas olunması vasitəsilə dərk edir.

**Hüsuli elm barədə bəzi qeydlər:**

**1.** İnsanda olan bütün hiss üzvləri bu növ elmin formalaşmasına xidmət edir.

**2**. Hüsuli elmdə aləmdəki varlıqlar zehində inikas olunan surətlərinin vasitəsilə dərk olunur. Burada varlığın surəti birbaşa dərk olunur. Yəni varlıq özü deyil, onu əks etdirən surət vasitəsilə dərk olunur.

---

[356] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 399, 400.

[357] Bax; Əllamə Hilli, Əsrarul-xəfiyyə, s. 561.

**3.** Hüsuli elmdə varlıqları əks etdirən surət varlıqları dərk etməyin yeganə yoludur. Əgər bu vasitə olmazsa, insanlarla varlıqlar arasında bağlılıq kəsilər.

**4.** Hüsuli elm əslində həqiqi elm deyildir. Bu növ elm heç bir vasitə olmadan reallığı həqiqət ilə dərk edə bilməyənlər üçün bir vasitədir.

## Üçüncü mövzu

## Allah-taalanın elminin xüsusiyyətləri

### 1. Allah-taalanın elmi hüsuli deyil

**Dəlillər:**

**Birinci dəlil:** Hüsuli elm vasitəsilə alim (bilən) məlum olan şeyin surətini dərk etməyə möhtacdır. Allah-taala ehtiyacadan uca və pakdır.

**İkinci dəlil:** Hüsuli elm cüzi elmdir. Bu elmdə məlumun bəzi hissələri alimdən gizli qalır. Yəni alim (dərk edən) onun tamamilə bilmir. Allah-taala hissələrdən və parçalara bölünmədən uca və pakdır.

### 2. Bizim elmlə Allah-taalanın elmi arasında heç bir bənzərlik yoxdur

Çünki bizim elmimiz məhdud elmdir, sonradan kəsb olunur və varlığımıza sonradan əlavə olunub. Lakin Allah-taalanın elminə bənzər bir elm yoxdur. Onun elmi məhdud deyil, qədimdir, zatidir və heç bir nöqsanı yoxdur.

### 3. Elm Allahın zati sifətlərindəndir

İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: "Allahla elmi arasında heç bir həddyoxdur".[358]

Məhz buna əsasən də;

**Birinci:** Bütün hallarda Allah-taala elm sifətilə vəsf olunmalıdır. Çünki hər hansı bir halda Allah-taalanın elminin olmaması Onun üçün nöqsan gətirər. Buna əsasən də hər hansı bir halda Allah-taalanın elimsiz olması mümkün deyildir.

**İkinci:** Allahın elmi ilə zatı ayrıdır demək doğru deyil. Əksinə Allahın zatı ilə elmi eynidir.

**Dəlillər:**

[358] Şeyx Səduq, ət-Tövhid, s. 134.

**Birinci dəlil:** Əgər Allahın elmi ilə zatı eyni olmazsa, Allah-taala varlıqları bilərkən aşağıdakı hallarda olmalıdır:

**1.** Zatından kənar olan bir şeyə möhtac olar.

**2.** Zatı baxımından naqis olar və kamilləşmək üçün başqa bir şeyə möhtac olar.

Lakin Allah-taala ehtiyac və naqislikdən uca və pakdır. Buna əsasən də Allahın pak və uca olması Onun elminin zatı ilə eyni olmasını deməyi tələb edir.

**İkinci dəlil:** Əgər elm Allahın zatı ilə eyni deyil desək, sonra isə Allahın əzəldən elmli olmasını desək, Allahla yanaşı başqa bir şeyin də qədim olduğunu qəbul etmiş oluruq. Allah-taala bu vəsfdən uca və pakdır.[359]

Buna əsasən də İmam Əli bin Musa ər-Rzaya (ə) "Bəzi qövmlər Allah əzəldən elmi ilə (yəni zatından kənar olan elm vasitəsilə) alimdir deyirlər..." deyə soruşdular. İmam (ə) dedi: "Kim belə deyərsə və etiqad edərsə, Allahla yanaşı başqa ilah seçmiş olar...". Sonra belə dedi: "Allah-taala əzəldən zatı ilə alimdir".[360]

### 3. Allahın elminin həddi və sonu yoxdur

**Bunun dəlili:**

İlahi zatın həddi və sonu olmadığı üçün Allahın elmi Onun zatı ilə eynidir. Buna əsasən də İmam Cəfər Sadiq (ə) səhabələrindən birinə belə

---

[359] Həmin mənbə, s. 131.

[360] Həmin mənbə, s. 134; Qeyd: Allah-təala buyurur: **"Lakin (Ya Rəsulum!) Allah sənə nazil etdiyi (Quran) ilə şəhadət verir ki, onu (Quranı) Öz elmi ilə (Özünə xas olan elm və hikmətlə) nazil etmişdir..."** (Nisa surəsi, ayə 166). Bu ayə Allahın elmlə bilməsinə dəlalət edir demək doğru deyil. Çünki ayədə "Öz elmi ilə" deyilməsindən məqsəd Allahın nazil etdiyini bilməsidir. Əgər burada elm Allahın zatından ayrı bir şey olduğu anlamında olsaydı nazil olanın elm vasitəsilə, yəni alətlə nazil olması gərəkirdi. Necə ki, qələmlə yazdım deyirsiniz. Lakin elm alət deyil.

buyurur: “Belə demə! Yəni Elminin son həddinədək Allaha həmd olsun. Çünki Allahın elminin sonu yoxdur”.[361]

**4. Allahın elmi dəyişilməz**

**Bunun dəlili:**

Allahın elmi zatı ilə eynidir. Allahın elmində dəyişikliyin baş verməsi Onun zatında dəyişikliyin baş verməsi deməkdir. Bu isə mümkün deyil. Çünki Allah-taala dəyişilməz. Dəyişilmə elmdə deyil, məlumatda baş verə bilər.

[361] Şeyx Səduq ət-Tövhid, s. 130.

## Dördüncü mövzu

## Allah-taalanın elminin keyfiyyəti

Allah-taalanın elminin keyfiyyəti barədə soruşmaq və ya araşdırma aparmaq olmaz.

**Bunun dəlil:**

Əhli-beytdən (ə) nəql olunan hədislərdə Allahın zatı barədə danışmağı və araşdırma aparmaq qadağan edilmişdir. İlahi elm Allahın zati sifətlərindən olduğu üçün onun barəsində danışmaq və ya araşdırma aparmaq qadağan edilmişdir. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurur: "Allahın elmi keyfiyyətlə vəsf edilməz".[362]

Bilməyimiz gərəkən məsələlərdən biri də budur ki, Allahın alim olması Onun hər hasnı bir şeyi bilməməsinin mümkünsüz olması mənasındadır. Buna əsasən də Əhli-Beyt imamlarından (ə) aşağıdakı hədislər nəql edilmişdir:

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurur: "Allah-taala ona görə alim adlanmışdır ki, elə bir şey yoxdur ki, ondan xəbərdar olmasın. Nə yerdə, nə də göydə Ondan gizli bir şey yoxdur".[363]

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Allah-taala heç bir şeydən xəbərsiz olmadığı üçün alim adlandırılmışdır".[364]

İmam Muhəmməd bin Əli əl-Cavad (ə) buyurub: "Allah alimdir deməklə Onda cəhalətin olmasını inkar etmiş olursan və cəhaləti Ondan başqasına nisbət vermiş olursan".[365]

---

[362] Şeyx Səduq, ət-Tövhid, s. 134.

[363] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 194.

[364] Şeyx Səduq, ət-Tövhid, s. 183; Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 121.

[365] Şeyx Səduq, ət-Tövhid, s. 188.

## Beşinci mövzu

## Allah-taalanın elminin qisimləri

Allah-taalanın elmi məlum baxımından bir necə qismə bölünür:

**1.** Allahın zati elmi

**2.** Allahın zatına olan elmi

**3.** Allahın yaradılışdan əvvəl varlıqlara olan elmi

**4.** Allahın varlıqları yaratdıqdan sonra onlara olan elmi

Növbəti mövzularda bu qisimləri izah edəcəyik

## Altıncı mövzu

## Allahın zati elmi

Allahın zati elmi: Allah-taalanın varlıq aləmini yaratdığı elmdir. İmam Əli bin Musa ər-Rza (ə) bu elmə işarə edərək belə buyurub: "Yaradılışı qüdrətilə var edən, hikməti ilə nizamlı yaradan və elmi ilə hər şeyi öz yerində qoyan Allah uca və pakdır".[366]

Allahın zati elmlə vəsf olunmasının dəlilləri:

**Birinci dəlil:**[367]

Allah bütün felləri hikmət və nizamla yaratmışdır.

Bu cür edən hər bir kəs alim olmalıdır.[368]

Nəticədə, deməli, Allah-taala alimdir.[369]

**Qeydlər:**

**1.** Hikmətli və nizamlı feldən məqsəd onun bir dəfə deyil, ardıcıl olaraq baş verməsidir. Buna əsasən də yuxuda olanın, cahilin və məqsədsiz olaraq birinin hikmətli və nizamlı bir iş görməsini və bu halda alim olmamasını əsas gətirərək hikmətli və nizamlı iş həmin işi görənin elminə dəlalət etmir deyərək irad tutmaq doğru deyil.

**Bu iradın doğru olmamasının dəlili:**

Hikmətli və nizamlı felin bir və ya iki dəfə baş verməsi iş edənin elminə dəlalət etmir. Lakin bu cür fel ardıcıl olaraq baş verərsə, işi görənin

---

[366] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 85.

[367] Bax; Şeyx Mufid, ən-Nukət əl-etiqadiyyə, s. 23; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 277; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 44; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 85; Əllamə Hilli, Kəşful-murad, s. 397; Əllamə Hilli, Kəşful-fəvaid, s. 167; Əllamə Hilli, Mənahicul-yəqin, s. 164; Miqdad Səyyuri, İrşadut-talibin, s. 194.

[368] Yəni bu kimi felləri yalnız alim biri edə bilər. Alim olmayan birinin davamlı hikmətli və nizamlı iş etməsi mümkün deyil. Bax; Əllamə Hilli, Kəşful-murad, s. 397.

[369] Bu dəlil yalnız Allah-təalanın elm sifəti ilə vəsf olunmasına dəlalət edir. Lakin Allah-təalanın elminin genişliyi üçün növbəti fəsillərdə qeyd edəcəyimiz dəlillərin izahına ehtiyac vardır.

elminə dəlalət edir. Çünki hikmətli və nizamlı işin alim olmayan biri tərəfindən ardıcıl olaraq baş verməsi mümkün deyil.[370]

**2.** Hikmətli və nizamlı fel nəzərdə tutulan mənfəətlərə mütabiq olmalıdır.[371]

Bu aləmin yaradılışından məqsəd insanın sınağa çəkilməsidir. Buna əsasən də şərlər, bəlalar və ağrı-acılar hikmətli və nizamlı işlərdən hesab olunur. Çünki bu hadisələr qeyd olunan sınaq üçün tələb olunan vasitələr və insanın səbr və dözümünün bilinməsi üçün lazımı göstəricidir.

**3.** Heyvanları idarə edən və onların bəzi hikmətli və nizamlı işlər etməyə yönəldən Allah-taaladır.

Buna əsasən də canlı varlıqların elm və idrak olmadan bəzi hikmətli və nizamlı işlər görməsi alim olmayan birinin hikmətli və nizamlı işlər görməsinə dəlalət etmir.

**İkinci dəlil:**

Allah-taala ixtiyar sahibidir. Hər bir ixtiyar sahibi olan varlıq məqsədinə tabedir. Bir şeyi bilmədən onu nəzərdə tutmaq mümkün deyil.[372]

**Üçüncü dəlil:**

Elm kamillik sifətlərindəndir. Məxluqların elmə sahib olmaları Xaliqin ən kamil şəkildə elmə sahib olmasına dəlalət edir.

**Dördüncü dəlil:**

Cəhalət naqislikdir. Allah-taala bütün növ cahillikdən uca və pakdır.

---

[370] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 52; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 85.

[371] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 277.

[372] Miqdad Səyuri, ən-Nafi yəumel-həşr fi şərhil-babil-hadi əşərə, s. 35.

## Yeddinci mövzu

## Allahın zatına olan elmi

Allah-taalanın elmi hər bir varlığa şamildir. Allah-taalanın elmi Öz zatına da şamildir. İmam Əli bin Musa ər-Rza (ə)-dan belə soruşdular: "Allah-taala xəlqi yaratmadan əvvəl Özünü (zatını) bilirdimi?" İmam (ə) "Bəli" deyə cavab verdi.[373]

**Allahın zatına olan elm barədə şübhə.**[374]

Elm alimlə məlum (bilinən) arasındakı nisbətdir. Nisbət iki ayrı şey arasında olur. Əgər Allah zatını bilir desək, deməli, Allahın elm Allahın zatından fərqli bir şey olmalıdır. Bu isə Allahın elmi ilə zatının eyni olması rəyinə müxalifdir.

**Şübhənin cavabı:**

**Birinci:** Elm alimlə məlum arasındakı nisbət deyil, əksinə elm bir həqiqətdir ki, bəzən iki ayrı şey arasında, bəzən isə bir şeydə olur. Əgər Allah zatını bilir deyiriksə, burada Allahın elmi ilə zatı arasında fərq yaranmır. Əksinə məqsəd vahid bir şeydə olan həqiqətdir.

**İkinci:** Əgər qəbul etsək ki, elm alimlə məlum arasındakı nisbətdir. Alimlə məlum arasındakı bu məqamdakı ayrılıq misdaq cəhətindən deyil, məfhum cəhətindəndir. Məfhumun[375] çoxluğu misdaqın[376] çoxluğu demək deyil. Məsələn, Allah-taalanın bir çox adları vardır. Həmin adlar məfhumlardır. Adların çoxluğu ilahi zatın çoxluğuna səbəb olmur. İlahi zat

---

[373] Şeyx Səduq, ət-Tövhid, s. 186.

[374] Bu şübhə və cavabı aşağıdakı kitablarda yazılıb; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 394, 395; Əllamə Hilli, Kəşful-murad, s. 399; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 199.

[375] Məfhum varlıqların ən əsas xüsusiyyətlərini və onlar arasındakı münasibəti zehində əks etdirən ümumi mənadır.

[376] Misdaq zehindəki ümumi mənanın aid olduğu konkret varlıqdır.

bu adların, məfhumların vahid misdaqıdır. Başqa sözlə desək, alimlə məlum arasında həqiqi mənada fərq olsaydı, qeyd olunan şübhə əsaslı hesab edilərdi. Lakin buradakı fərq şərti fərqdir. Buna görə də qeyd olunan irad bu kimi fərqlərdə əsassız hesab olunur.

## Səkkizinci mövzu

## Varlıqları yaratmadan əvvəl Allahın elmi

Şeyx Mufid belə deyir: “Allah-taala olmadan öncə olacaq hər bir şeyi bilir. Elə bir hadisə yoxdur ki, baş vermədən əvvəl Allah onu bilməsin... Ağıl, Yazılmış Kitab (Qurani-kərim) və Peyğəmbərin (s) Əhli-beytindən nəql olunan mütəvatir hədislər buna dəlalət edir”.[377]

### Varlıqları yaratmadan öncə Allahın elmi barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

**1.** İmam Əli bin Musa ər-Rzaya (ə) Allah-taala barəsində sual verilmiş bir məktub gəldi. Həmin məktubda belə soruşurdular: “(Allah) varlıqları yaratmadan əvvəl onları bilirdi, yoxsa bilmirdi? Yaratmaq istədikdə (nə yaradacağını bilməsi vacib olduğu üçün) yaradarkən və xəlq edərkən bildi?”

İmam öz dəsti-xətti ilə belə yazdı: “Allah-taala varlıqları yaratdıqdan sonra onları bildiyi kimi yaratmadan əvvəl, əzəldən onları bilirdi”.[378]

**2.** İmam Məhəmməd bin Əli Baqir (ə) buyurub: “Allah vardı və Onda başqa heç nə yox idi. Olacaq şeyləri əzəldən bilirdi. Yaratmadan öncə olan elmi yaratdıqdan sonra olan elmi kimidir”.[379]

**3.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: “Allah-taala əzəldən Rəbbimizdir. Məlum (bilinən) olmadığı halda belə elm onun zatıdır. Varlıqları yaratdıqdan sonra məlum var oldu. Onun elmi məlumla mütabiq oldu”.[380]

---

[377] Şeyx Mufid, Əvailul-məqalat, s. 54, 55.

[378] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 107.

[379] Həmin mənbə.

[380] Həmin mənbə.

**4.** İmam Əli (ə) buyurub: "... Hər bir alim cahil olduqdan sonra öyrənmişdir. Allah-taala cahil olmamış və öyrənməmişdir. Varlıqlar var olmadan öncə onları bilmişdir. Varlıqların yaranması ilə Onun elmi artmamışdır. Varlıqları yaratmadan əvvəl olan elmi onları yaratdıqdan sonrakı elmi kimidir".[381]

**5.** İmam Cəfər bin Muhəmməd Sadiqdən (ə) soruşdular: "Əvvəlcədən yaradılanlar və qiyamət gününədək yaradılacaqlar Allahın elmində olduğunu düşünürsən?" İmam (ə) dedi: "Şübhəsiz ki, göyləri və yeri yaratmadan öncə belə idi".[382]

**6.** İmam Əli bin Musa ər-Rzadan (ə) belə soruşdular: "Allah bir şey olmadan öncə necə olacağını bilirmi, yoxsa yalnız olduqdan sonra onu bilir?" İmam (ə) belə cavab verdi: "Allah-taala varlıqların yaradılışından öncə varlıqları bilirdi".[383]

**7.** İmam Cəfər bin Muhəmməd Sadiqdən (ə) belə soruşdular: "Allah-taala məkanı yaratmadan öncə məkanı bilirdimi, yoxsa onu yaradarkən və yaratdıqdan sonra bildi". İmam (ə) buyurdu: "Allah uca və böyükdür! Əksinə əzəldən məkanı yaratdıqdan sonra bildiyi kimi yaratmadan öncə əzəldən bilirdi. Həmçinin bütün varlıqlara olan elmi məkana olan elmi kimidir".[384]

**8.** İmam Cəfər bin Muhəmməd Sadiqdən (ə) belə soruşdular: "Bu gün elə bir şey ola bilərmi ki, Allah-taalanın elmində olmamışdır?" İmam (ə) belə cavab verdi: "Əsla yox! Kim belə deyərsə, Allah onu xar edər". Həmin adam belə soruşdu: "Əvvəlcədən yaradılanlar və qiyamət

[381] Şeyx Səduq, ət-Tövhid, s. 44.

[382] Həmin mənbə, s. 131.

[383] Həmin mənbə, s. 132.

[384] Həmin mənbə ,s. 132.

gününədək yaradılacaqlar Allahın elmində olduğunu düşünürsən?" İmam (ə) dedi: "Şübhəsiz ki, varlığı yaratmadan öncə belə idi".[385]

**9.** Cəfər bin Məhəmməd bin Həmzə belə nəql edir: "İmama (ə) belə yazdım: "Səni sevənlər elm (Allahın elmi) barədə ixtilaf ediblər. Bəzilərinin "Allah yaratmadan öncə yaradılışı əzəldən bilirdi" dediklərini, bəzilərinin isə "Biz Allahın əzəldən alim olduğunu demirik. Çünki bilməsinin mənası etməsidir. Əgər əzəldən elm olduğunu desək, əzəldən Onunla yanaşı başqa bir şeyin olduğunu demiş oluruq". Allah məni sənin yolunda fəda etsin! Mənə elə bir şey öyrət ki, bu məsələni öyrənim və həddi aşmayım". İmam (ə) dəsti-xətti ilə belə yazdı: "Adı uca olan Allah-taala əzəldən alimdir".[386]

**10.** İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "... Allah-taalanın varlıqlara olan elmi varlıqların yaranmasından öncə, əzəli və qədimdir..."[387]

**Qeyd:**

Allah-taalanın varlıqların yaradılışından öncə onlara olan elminin olması yaradılacaq varlıq barədə məlumatın olmasından ibarətdir. Bu elmin varlıqların yaradılmasında heç bir rolu yoxdur.[388] Hətta bu növ elmin Allah-taalanın fellərinə hər hansı bir təsir etməsi qeyri-mümkündür.

[385] Həmin mənbə, s. 325.

[386] Şeyx Kuleyni, c. 1, s. 108.

[387] Şeyx Səduq, s. 132.

[388] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 296.

## Varlıq aləminin yaradılmasından öncə Allahın varlığına olan elmi

Bəzi alimlər[389] səbəbi bilmək nəticəni bilməyi gərəkdirdiyini[390] deyirlər. Aşağıdakıları nəzərə alsaq;

**1.** Allah-taala zatını bilir.

**2.** İlahi zat Özündən başqa bütün varlıqların səbəbidir.

Qeyd olunanlardan belə nəticə çıxarırıq: Allahın zatına olan elmi bütün varlıqları bilməsini gərəkdirir.[391]

**Buna cavab olaraq deyirik:**

**1.** Səbəbi bilmək nəticəni bilməyi o vaxt zəruri edir ki, səbəbin iradə və ixtiyarı olmasın.[392] Lakin səbəbin iradə və ixtiyarı olarsa, yəni səbəb istədiyi vaxt təsir edir və istədiyi vaxt təsir etmirsə, bu halda belə səbəbi bilmək onun nəticəsini də bilməyi gərəkdirmir. İlahi zat iradə və ixtiyar sahibi olan səbəb olduğu üçün onu bilmək nəticələrini də bilməyi gərəkdirmir.

**2.** Nəticəni səbəblə bilmək yalnız müxtəsər elmin hasil olmasına imkan yaradır. Lakin Əhli-Beyt (ə)-dan nəql olunan hədislərdə qeyd

---

389 Bax; Əllamə Hilli, Kəşful-murad, s. 398; Əllamə Hilli, əl-Əsrarul-xəfiyyə, s. 560; Əmiduddin Əbidli, İşraful-lahut, s. 275.

390 Əllamə Hilli belə deyir: "Səbəbi bilmək üç qismə bölünür. İki qisimdə səbəbi bilmək nəticəni tamamilə bilməyi gərəkdirmir. Yalnız bir qisimdə səbəbi bilmək nəticəni tamamilə bilməyi gərəkdirir. Bu isə səbəbin bütün xüsusiyyətlərini və incəliklərini bildikdə mümkündür". Bax; Əllamə Hilli, əl-Əsrarul-xəfiyyə, s. 560.

391 Qeyd: Biz fellərimizin, işlərimizin səbəbi olan zatımızı bildiyimiz halda nə edəcəyimizi bilmirik deyərək irad tutmaq doğru deyildir. Buna dəlil: Bizim zatımız fellərimizin müstəqil səbəbi deyil. Əksinə bizim fellərimizin kənar səbəblərdən asılıdır. Allah-təalanın felləri isə belə deyildir.

392 Məsələn, astranomun kainatın qanunlarını, günəşin, yerin və ayın hərəkətini dəqiqliklə bildiyi üçün günəş və ay tutulmasının baş verəcəyini öncədən bilir.

olunduğu kimi Allah-taalanın varlıq aləmini yaratmadan öncə ona olan elmi tamdır və müxtəsər deyil.

**Nəticə:**

Allah-taala varlıq aləmini yaratmadan öncə varlıq aləminin bütünündən tamamilə xəbərdar idi. Lakin biz bunun keyfiyyətini bilmirik. Çünki bu elm Allah-taalanın zatına aiddir. İmam Kazim (ə)-ın dediyi kimi Allahın elmi keyfiyyətlə vəsf olunmaz. Bu fəslin dördüncü mövzusunda bu həqiqəti qeyd etmişik.

## Doqquzuncu mövzu

## Allah-taala varlıq aləmini yaratdıqdan sonra ona olan elmi (feli elm)

Allah-taala yaratdıqdan sonra bütün varlıq aləmini elmi ilə əhatə etmişdir. Varlıq aləmi yaradıldıqdan sonra Allahın elmi ilə varlıq aləmini əhatə etməsi Allahın feli elmi adlanır.

**Nəticə:**

Allah-taalanın varlıq aləmini yaratmamışdan öncə ona dair olan elmi varlıq aləmini yaratdıqdan sonra olan elmi arasında yalnız məlumun mövcud olması ilə fərq var. Məlum mövcud olduğu üçün bu növ elm feli elm adlanır.

Şeyx Tusi bu ayəninin təfsirində belə deyir**: "De: "(Ey insanlar, ey tövbəkarlar! İstədiyinizi) edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər..."**[393]

"Bu ayədə "Allah görəcəkdir" gələcək zaman formasında işlədilmişdir. Halbuki O, varlıq aləmi yaradılmadan öncə onu bilirdi. Burada məqsəd Onun (Allahın) "yox" olduğunu bildikdən sonra "mövcud" olduğunu bilməsidir. Var olarsa, olduğunu bildiyi üçün sonradan olacağını bilir. Burada onun üçün hal yenilənmir".[394]

**Allah-taalanın feli elminə dəlalət edən Quran ayələri**

**1. "(Ey möminlər!) İndi Allah (yükünüzü) yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi..."**[395]

**2. "Sonra iki tayfadan (möminlərdən və kafirlərdən) hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq".**[396]

---

[393] Tövbə surəsi, ayə 105.

[394] Şeyx Tusi, Təfisrul-bəyan, c. 5, s. 295.

[395] Ənfal surəsi, ayə 66.

**3. “(Ey möminlər!) And olsun ki, Biz içərinizdəki mücahidləri və (əziyyətlərə) səbr edənləri ayırd edib bilmək (ümmətə məlum etmək) üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri (əməllərinizi) də yoxlayacağıq”.**[397]

**4. “Yoxsa Allah içərinizdən cihad edənləri (düşmənlə vuruşanları) və (əziyyətə) səbr edənləri bilib (bəlliləşdirib bir-birindən) ayırd etməmişdən qabaq Cənnətə girəcəyinizimi güman edirsiniz?”**[398]

**5. “...Allah (Özünü) görmədən Ona (onun dininə) və peyğəmbərlərinə kömək göstərənləri (dəmirdən düzəlmiş silahlarla kafirlərə qarşı vuruşan mücahidləri) bəlli etsin...”**[399]

**6. “Ey iman gətirənlər! Allah Özünü görmədən (gizlində) Ondan qorxanları ayırd etmək (xalqa bildirmək) üçün sizi (ehramda ikən) əllərinizin və mizraqlarınızın çata biləcəyi (azacıq) bir ovla imtahan edəcəkdir...”**[400]

**7. “...(Ya Rəsulum!) İndi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik...”**[401]

**Qeyd:**

Allahın bu məsələlərə olan elmi bu məsələlərin varlığına olan elmidir. Çünki bu məsələlər baş vermədən öncə Allah-taalanın bu məsələlərin baş verməsinə elminin olmasını demək doğru deyildir. Lakin Allah-taala əvvəlcədən bu məsələlərin baş verəcəyini və ya baş

---

[396] Kəhf surəsi, ayə 12.

[397] Muhəmməd surəsi, ayə 31.

[398] Ali İmran surəsi, ayə 142.

[399] Hədid surəsi, ayə 25.

[400] Maidə surəsi, ayə 94.

[401] Bəqərə surəsi, ayə 143.

verməyəcəyini bilirdi. Elə ki, həmin məsələlər baş verdi Allah-taalanın həmin məsələlərin varlığını (baş verməsini) bilməsini demək doğrudur.

## Onuncu mövzu

## Allah-taalanın elminin sonsuzluğu

Allah-taala bilinməsi mümkün olan hər bir şeyi bilir. Həmin bilinən istər var olsun, istər yox, istər varlığı vacib olsun, istər varlığı mümkün, istər qədim olsun, istər sonradan yaranan, istər ümumi olsun, istər cüzi, istər sonsuz olsun, istərsə də məhdud, heç bir fərqi yoxdur.[402]

**Dəlil:**

Allah-taala elmin şamil ola biləcəyi hər bir şeyi bilir. Hər hansı bir şeyi bilməsi və ya bilməməsi üçün heç bir səbəb yoxdur. Buna əsasən də Allah-taalanın elmi bütün məlumatları ehtiva edir.[403] Başqa sözlə desək, Allah-taalanın elminin bütün məlumatları ehtiva etməsi nisbəti eynidir. Allahın elminin hər hansı bir məluma aid olmaması üçün səbəb ehtiyac vardır. Belə bir səbəb isə yoxdur. Belə nəticə əldə edirik ki, Allahın elmi bütün məlumatlara eyni dərəcədə aid olur.[404]

**Allahın cüzi məsələlərə olan elmi**

**Allah-taala bütün cüzi məsələləri bilir.**

**Dəlil:**

**1.** Cüzi məsələləri bilmək kamillik sifətidir. Bundan xəbərsiz olmaq isə naqislikdir. Allah-taala varlıqların ən kamili olduğu üçün Onun cüzi məsələləri bilməsinə etiqad bəsləmək vacibdir.

---

[402] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 53; Əllamə Hilli, Kəşful-fəvaid, s. 171; Miqdad Səyuri, ən-Nafe yəuməl-həşr fi şərhil-babil-hadi əşərə, s. 36.

[403] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 82.

[404] Bax; Əbu İshaq İbrahim bin Novbəxt, əl-Yaqut, s. 42; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 24; Əmiduddin Əbidli, İşraful-lahut, s. 273; Miqdad Səyuri, ən-Nafe yəuməl-həşr fi şərhil-babil-hadi əşərə, s. 36.

**Qeyd:**

Dəyişən cüzi məsələləri bilmək Allah-taalanın elmində dəyişiklik yaratmır. Çünki bu məqamda dəyişiklik elmdə deyil, məlumda baş verir. Allahın elminin həqiqəti vahiddir. Onun elmi heç bir dəyişikliyə məruz qalmadan bütün dəyişən məlumatlara şamildir. Hətta Onun elminin hər şeyi əhatə etməsinə görə dəyişikliyə uğramasını iddia etməyin heç bir mənası yoxdur.[405]

## Allah-taalanın elminin sonsuzluğuna dəlalət edən Quran ayələri

1. **"Həqiqətən, Allah hər şeyi biləndir!"**[406]

2. **"...Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə,.."**[407]

3. **"Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!"**[408]

4. **"...Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!"**[409]

5. **"...Şübhəsiz ki, O, aşkarı da, gizlini də bilir!"**[410]

---

[405] Bax; Əbu İshaq İbrahim bin Novbəxt, əl-Yaqut, s. 42; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 295; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 98, 99; Əllamə Hilli, Kəşful-murad, s. 400; Əmiduddin Əbidli, İşraful-lahut, s. 275, 276; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 200.

[406] Ənfal surəsi, ayə 75; Tövbə surəsi, ayə 115; Ənkəbut surəsi, ayə 62.

[407] Talaq surəsi, ayə 12.

[408] Ənam surəsi ,ayə 59.

[409] Səbə surəsi, ayə 3.

6. **“Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz”**.[411]

7. **“...Rəbbimiz elm ilə (Öz əzəli elmi ilə) hər şeyi ehtiva etmişdir”**.[412]

8. **“(Ya Rəsulum!) De: “Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız (fərqi yoxdur), Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa (hamısını) bilir. Allah hər şeyə qadirdir!”**[413]

---

[410] Əla surəsi, ayə 7.

[411] Ali İmran surəsi, ayə 5.

[412] Əraf surəsi, ayə 89.

[413] Ali İmran surəsi, ayə 29.

## Doqquzuncu fəsil: Allah-taalanın dərk etməsi

**İdrakın mənası (lüğəti və terminoloji mənası)**

**İdrakın elmlə əlaqəsi**

**İdrakın həyatla əlaqəsi**

**Allah-taalanın idrakının xüsusiyyətləri**

## Birinci mövzu

## İdrakın mənası (lüğəti və terminoloji mənası)

İdrak Qurani-kərimdə qeyd olunan ilahi sifətlərdəndir. Allah-taala buyurur: ***"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!"***[414]

### İdrakın lüğəti mənası

İdrak sözünün lüğəti mənası bir şeyin son həddinə çatmaq və yetişməkdir.[415]

### İdrak sözünün terminoloji mənası

Alimlər idrakın elm sifəti ilə bağlılığı barədə ixtilaflarına əsasən idrak sözünün terminoloji mənası barədə fərqli rəylər söyləmişlər. Həmin rəylər arasında iki məşhur rəy vardır. Növbəti mövzuda həmin rəyləri qeyd edəcəyik.

[414] Ənam, 103

[415] Bax; əl-Muncid fil-luğəti, əl-Mucəmul-vasit və digər lüğət kitabları.

## İkinci mövzu

## İdrakın elmlə əlaqəsi

**Birinci rəy:**

İdrak dərk olunanı bilməkdir. Yəni idrak elmin bir növüdür. İdrak cüzi varlıqları bilmək üçün olan xüsusi elmdir.[416] Başqa sözlə desək, Allahın idrakı mövcud olan varlıqları bilməsidir.

**İkinci rəy:**

İdrak elmə aid deyil. İdrak elmdən əlavə müstəqil vəsfdir.[417]

**Dəlil:**

Biz özümüzdə idrakın elmdən fərqli olduğunu görürük. Dərk etmədiyimizi bilirik və bilmədiyimizi də dərk edirik. Qeyd etdiyimizə misal olaraq aşağıdakılara nəzər salaq:

**İnsanın bilmədiklərini dərk etməsinə dair misallar:**

Yatmış insanın oyanmasına səbəb onun səsləri dərk etməsidir. İnsan bilmədiyi halda bu səsləri dərk edir. Çünki yatdığı halda onu bilməsi mümkün deyil. İnsanın yuxudan ayıldıqdan sonra onun dərk etməsini demək mümkün deyil. Çünki onun oyanmasının bundan başqa bir səbəbi yoxdur.[418]

---

[416] Bax; Şex Mufid, ən-Nukətul-etiqadiyyə, s. 25; Muhəqqi Hilli, əl-Məslək fi usuliddin, s. 47; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 95; Əllamə Hilli, əl-Əbhasul-mufidə, s. 34; Miqdad Səyuri, İrşadut-talibin, s. 207.

[417] Şərif Murtaza və Şeyx Tusi bu rəydədirlər. Bu barədə söylədikləri rəyləri növbəti mövzularda qeyd edəcəyik.

[418] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, s. 92; Şeyx Tusi, əl-İqtisad, s. 56; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 31; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 60.

Şərif Murtaza belə deyir: “Bu sifətin (idrak sifətinin) alim olmasına qayıtması (aid olması) düzgün deyil. Çünki insan dərk etmədiyini də bilir. Məsələn, Allah-taala və qiyamət dərk olunmur”.[419]

Şeyx Tusi belə deyir: “İdrak Onun alim olmasına aid deyil. Çünki Allah-taala varlıqların dərk olunmasından və onların aradan getməsindən sonra da alimdir”.[420]

[419] Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 53.

[420] Şeyx Tusi, əl-İqtisad, s. 56.

## Üçüncü mövzu

## İdrakın həyatla bağlılığı

**Birinci rəy:**

Allah-taala diri olduğu üçün müdrikdir (dərk edəndir). Diri olan hər bir kəs dərk edəndir.[421]

**İkinci rəy:**

Allahın dərk etməsi Onun diri olmasına istinad etmir.

**Dəlillər:**

1. İdrak Allahın feli sifətlərindəndir. Lakin həyat Allahın zati sifətlərindəndir. Feli sifətin zati sifət olamsı mümkün deyildir.[422]

Şərif Murtaza belə deyir: "İdrak sifətinin Allahın diri olamsına qayıtması doğru deyil. Çünki diri olduğu halda bu sifət (idrak sifəti) olmamışdır".[423]

Şeyx Tusi belə deyir: "İdrak Onun diri olmasına istinad etmir. Çünki O, diri olduğu halda belə deyildir (yəni yox olanları dərk etmirdi). Çünki idrak olmayan bir şeyi ehtiva edə bilməz. İdrak yalnız var olanları ehtiva edir".[424]

**2.** İdrak eşitmə və görmə kimi müxtəlif dərk edənlərin olmasını gərəkdirir. Həyat isə belə bir şeyi gərəkdirmir. Bununla da idrakın həyatdan fərqli olduğu sübuta yetir. Allah-taalanın dərk edən olaraq vəsf olunması Onun həyat sifətindən fərqli sifətdir.[425]

---

[421] Bax; Əllamə Hilli, əl-Babul-hadi əşərə, s. 41.

[422] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 1, s. 94; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c .1, s. 56.

[423] Şərif Murtaza, Şərhul-cumələil-ilmi vəl-əməl, s. 53.

[424] Şeyx Tusi, əl-İqtisad, s. 56.

[425] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 1, s. 95.

## Dördüncü mövzu

## Allah-taalanın idrak sifətinin xüsusiyyətləri

1. İdrak feli sifətlərdəndir. Çünki idrak dərk olunanın var olmasından sonra baş verir. Buna əsasən də Allah-taala varlıqları yaratdıqdan sonra bu sifətlər vəsf olunur. Xəlq etmə sifətinin isə feli sifətlərdən olması aşkar məsələdir.[426]

2. Allah-taala varlıqları heç bir vasitə olmadan zatı ilə dərk edir. Allah-taala hiss üzvləri vasitəsilə varlıqları dərk edən insandan fərqlidir. Çünki Allah-taala ehtiyacdan uca və pakdır. Buna əsasən də Allah-taala idrak edərkən heç vaxt hər hansı alətə möhtac deyildir.[427]

3. Allah-taalanı qidanı dərk etdiyi üçün dadan, qoxunu dərk etdiyi üçün qoxulayan, hərarət və soyuğu dərk etdiyi üçün toxunan, təmas edən kimi vəsf etmək olmaz. Çünki dadmaq, qoxulamaq, təmas etmək idrakdan sayılmır. Bunlar sadəcə idrakın baş verməsinin yollarıdır. Tələb olunan Allah-taalaya nisbətdə idrakın yolunu deyil, həqiqətini isbat etməkdir.[428]

4. Allah-taala ləzzət və acını dərk etməsinə baxmayaraq, Onu ləzzət alan və acı çəkən kimi vəsf etmək doğru deyil. Çünki ləzzət və acı çəkmək maddi varlıqların xüsusiyyətlərindəndir. Allah-taala isə bu kimi məsələlərdən uca və pakdır.[429]

---

[426] Bax; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 40.

[427] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 25; İbn Zöhrə Hələbi, əl-Munqiz minət-təqlid, c. 1, s. 58; Əllamə Hilli, Kəşful-murad, s. 403.

[428] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 1, s. 90; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 60.

[429] Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, səh . 100; əz-Zəxirə, s. 212.

## Onuncu fəsil: Allah-taalanın eşitməsi və görməsi

### Allah-taalanı eşidən və görən sifətləri ilə vəsf etməyin həqiqəti

### Görmə və eşitmənin elmlə əlaqəsi

### Allah-taalanın eşidən və görən olmasına dair əqli dəlillər

## Birinci mövzu

## Allah-taalanı eşidən və görən sifətləri ilə vəsf etməyin həqiqəti

Allah-taala buyurur: **“...Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!”**[430]

Allah-taala Musa (ə) və Harun (ə)-a belə buyurur: **“(Allah) buyurdu: “Qorxmayın, Mən də sizinləyəm, (hər şeyi) eşidirəm və görürəm!”**[431]

**Allah-taalanın eşidən və görən adlandırılmasının səbəbi:**

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: “Qulaqların və gözlərin dərk etdikləri heç bir şey Allaha gizli qalmadığı üçün bu adla adlandırılmışdır”.[432]

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “Rəbbimiz eşidən adlanır. O, xəbər vermişdir ki, heç bir səs Ona gizli deyil. Allah görəndir. Çünki görünən bir şey Onun elmindən kənar deyil”.[433]

**Nəticə:** Allah-taala eşidəndir. Yəni heç bir səs Onun üçün gizli deyil. Allah-taala görəndir. Yəni heç bir görünən Ondan yayınmaz, gizli qalmaz.

**Allah-taala zatı ilə eşidən və görəndir:**

Məxluqlar hiss üzvləri, yəni eşitmə və görmə orqanları vasitəsilə eşidib görürlər. Lakin Allah-taala hiss üzvləri vasitəsilə eşidib görmür. O, zatı ilə eşidib görür. Çünki Allah-taala hiss üzvlərinə və ya hər hansı bir alətə, orqana möhtac olmaqdan uca və pakdır.

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurur: “O, eşidəndir, görəndir. (Hiss) üzvü olmadan eşidir və hər hansı alət olmadan görür. O, zatı ilə eşidir və zatı ilə görür. Mən “O, zatı ilə eşidir və zatı ilə görür”

---

[430] Mucadələ surəsi, ayə 1.

[431] Taha surəsi, ayə 46.

[432] Əllamə Məclsi, Biharul-ənvar, c. 3, s. 194.

[433] Şeyx Səduq, ət-Tövhid, s. 383.

dedikdə bu məna başa düşülməməlidir ki, O zatından başqa bir şeydir. Lakin sən sual soruşan və mən də cavab verən məqamında olduğum üçün səni başa salmaq məqsədilə belə dedim".[434]

**Eşitmək və görmək Allah-taalanın zatı sifətlərindəndir**

İmam Muhəmməd Baqir (ə) buyurur: "Allah-taala əzəldən eşidən və görəndir".

Həmçinin Allah-taala barəsində belə buyurur: "O, vahiddir, ehtiyacsızdır, çox həqiqətli deyil, (hər cəhətdən) tək həqiqətlidir". Ravi belə soruşdu: "Fəda olum sənə! İraq əhlindən bir qövm belə iddia edir ki, O, gördüyündən fərqli vasitə ilə eşidir və eşitdiyindən fərqli vasitə ilə görür". (Yəni eşitmək Allahın zatına əlavə olunmuş bir sifətdir. Həmçinin görmə zata əlavə olunmuş sifətdir. Allah-taalanın eşitmək üçün zatından kənar möhtac olduğu şey, görərkən zatından kənar möhtac olduğu şeydən fərqlidir). İmam (ə) buyurdu: "Yalan demişlər, inkar etmişlər və bənzətmişlər. Allah bundan uca və böyükdür. Həqiqətən də O, görən və eşidəndir. Gördüyü ilə eşidir, eşitdiyi ilə görür".[435]

Yəni eşitmə və görmə sifəti Allahın zati sifətlərindəndir. Allah-taala zatı ilə eşidir və zatı ilə də görür. Burada eşitmə və görmədə yeganə vasitə ilahi zatdır. İmamın (ə) "Gördüyü ilə eşidir, eşitdiyi ilə görür" deməkdə məqsədi budur.[436]

[434] Şeyx Səduq ,ət-Tövhid, s. 239.

[435] Kuleyni, əl-Kafi, c. 1, s. 108.

[436] Həmin mənbə, c. 1, s. 108.

## İkinci mövzu

## Görmə və eşitmənin elmlə əlaqəsi

**Birinci rəy:**

Eşitmə və görmənin mənası elmdir.[437] Varlıqların eşitmə və görmə vasitəsilə aşkar olunması elmdən hesab olunur. Allah-taala eşidəndir, yəni eşidilənləri bilir. Allah-taala görəndir, yəni görünənləri bilir.[438]

**İkinci rəy:**

Eşitmək və görmək elmə aid deyil. Elmlə məlum olan eşitmə və görmə ilə məlum olandan fərqlidir. Allah-taala eşidəndir. Yəni Allah-taala eşidilən varlıqları dərk etmək sifətinə sahibdir. Allah-taala görəndir. Yəni Allah-taala görünən varlıqlar mövcud olduqda onları dərk edir.[439]

**Birinci rəyin izahı:**

Eşitmə və görmə elm mənasındadır. Allah-taalnın eşitməsinin həqiqəti Onun eşidilənləri bilməsidir. Allah-taalanın görməsinin həqiqəti Onun görünənləri bilməsidir.

**Eşitmə və görməni elm mənasında təfsir etməyin dəlili:**

Məxluqların eşitmə və görməsi hiss üzvlərinin və orqanlarının vasitəsilə baş verir. Allah-taala bu kimi məsələlərdən uca və pak olmasına görə Allah-taalanın eşitmə və görmə sifətini məcazi mənada izah

---

[437] Bax; Şeyx Mufid, Əvailul-məqalat, s. 54.

[438] Bax; Şeyx Mufid, ən-Nukətul-etiqadiyyə, s. 24; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 296; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 90; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 202.

[439] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 192; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 55; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 403; Əllamə Hilli Kəşful-murad kitabında bu iki rəyə işarə etmişdir. Bax; s. 403.

etməliyik. Yəni eşitmə və görmədən məqsəd eşidilən və görünənləri bilməkdir.[440]

**Allah-taalanın eşidilən və görünənlərə olan elmi dedikdə nəzərdə tutulan elm:**

Eşitmək və görməyi elmlə izah etmək mütləq mənada elm deyil. Əksinə burada elm xüsusi mənada nəzərdə tutulur. Bu növ elm eşidilən və görünənlərin varlığından əvvəl onlara şamil olan ümumi elmdən fərqlidir.

**Qeyd:**

Allah-taalanın eşidilənlərə və görünənlərə olan elmi həmin varlıqların yaradılmasından öncə onlara olan elmi kimidir. Allahın elmi vahiddir, dəyişməz və fərqlənməz. Burada ixtilaf misdaq deyil, məfhum baxımındandır. Buna əsasən də İmam Əli (ə) Allah-taalanın elmi barədə belə buyurur: "Varlıqlar yaradılmadan əvvəl onları elmi ilə ehtiva etmişdir. Onları yaratmaqla elmi artmamışdır. Onları yaratdıqdan sonra olan elmi yaratdıqdan əvvəl olan elmi kimidir".[441]

## Allah-taalanın eşidilən və görünənlərə olan elminin Onun eşidən və görən sifətləri ilə vəsf olunmasında rolu

Allahın eşidilən və görünənlərə olan elmi Onun eşidən və görən sifətləri ilə vəsf edilməsinin səbəbi deyil. Əks təqdirdə "Nə üçün Allahı təmas edən, dadan və ya qoxulayan sifətləri ilə vəsf etmirik?" deyilər. Çünki Allah təmas edilənləri, dadı və qoxusu olanları bilir. Allah-taalanı eşidən və görən sifətilə vəsf etməyin səbəbi bu sifətlərin Quran və hədislərdə qeyd olunmasıdır. Məlumdur ki, Allahın sifətləri və adları toxunulmazdır. Allah-taalanı yalnız Özünü vəsf etdiyi kimi vəsf etmək olar. Allahı təmas etmək, dadmaq və qoxulamaq kimi sifətlərlə vəsf

[440] Əbulfəth Kəracki Tarablusi, Kənzul-fəvaid, c. 3, s. 85; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 90; Miqdad Səyuri, əl-Ləvamil-ilahiyyə, s. 202.

[441] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 135.

etməməyimizin səbəbinə gəlincə – baxmayaraq ki, Allah bütün bunları elmi ilə ehtiva etmişdir – bu sifətlər Quran və hədislərdə qeyd edilməmişdir.[442]

**Qeyd:**

Bəlkə də Allah-taalanın eşidən və görən sifətilə vəsf olunmasının şəriət tərəfindən təkid edilməsinin səbəbi insanların günahdan çəkinməsi üçündür. Çünki insan Allahın onu eşitməsini və görməsini bildikdə bu bilgi onu günahlardan daha artıq çəkinməyə kömək edir.

**İkinci rəyin izahı:**

Allahın eşitmə və görmə sifətlərinin özünəməxsus xüsusiyyətləri və mənası vardır. Bu sifətlərin həqiqəti elmə qayıtmır. Əksinə onların özünə məxsus həqiqətləri var. Allah eşidəndir və görəndir dedikdə məqsədimiz Onun eşidilənləri və görünənləri mövcud olduqda dərk etmək sifətinə sahib olmasıdır.[443]

Bununla da sübuta yetir ki, eşitmə və görmənin özünəməxsus xüsusiyyətləri vardır və bu iki sifət elm sifətindən fərəqlidir.[444]

[442] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 288.

[443] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 55.

[444] Bax; Əmiduddin Əbidli, İşraful-lahut, s. 211.

## Üçüncü mövzu

## Allah-taalanın eşidən və görən olmasının əqli dəlilləri

**Birinci dəlil:**

Allah-taala bütün məlumları (bilinənləri), o cümlədən eşidilənləri və görünənləri bilir. Buna əsasən də Allah-taalanı eşidən və görən sifətilə vəsf etmək doğrudur.[445]

**Qeyd:**

Bu dəlil yalnız eşitmək və görməyi eşidilən və görünənləri bilmək kimi izah edən birinci rəyə müvafiqdir. Bu dəlil eşitmək və görməyin elmin həqiqətindən fərqli olmasını təfsir edən ikinci rəylə müvafiq deyil.

**İkinci dəlil:**

Hər bir dirinin eşitmək və görməklə vəsf olunması doğrudur. Allah-taala diridir. Bununla da Allah-taalanın eşidən və görən olması sübuta yetir.[446]

Lakin qeyd etmək lazımdır ki, hər bir dirinin eşidən və görən olmasını demək doğru deyil. Çünki görmə və eşitmədən məhrum olan canlılar da vardır. Məsələn, həşəratların və balıqların əksəriyyətinin eşitmə qüdrəti yoxdur. Əqrəbin və yarasanın görmə qabiliyyəti yoxdur.[447] Həmçinin, əgər insanın eşitmə və görmə ilə vəsf olunmasının səbəbini onun həyata sahib olmasını əlaqələndirsək belə, Allah-taalanın həyatı

---

[445] Bax; Şeyx Mufid, ən-Nukətul-ilahiyyə,s. 24; Əllamə Hilli, Kəşful-murad, s. 185, 187.

[446] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 55; əl-Muləxxəs fi usuliddin, c. 1, s. 99; Əbussalah Hələbi, Təqribul-məarif, s. 84; Şeyx Tusi, əl-İqtisad fimə yətəlləq bil-itiqad, s. 57.

[447] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 288.

bizim həyatımızdan fərqlidir. Məsələn, bizim həyatımız şəhvətin olmasını tələb etdiyi halda Allah-taalanın hayatı bundan fərqlidir.[448]

**Üçüncü dəlil:**

Əgər Allah-taala eşitmə və görmə ilə vəsf olunmazsa, bu sifətlərin əksi ilə vəsf olunması vacibdir. Onların əksi isə naqislikdir. Allah-taalanın naqis olması isə mümkün deyil. Bununla da Allah-taalanın eşidən və görən olmasının zəruriliyi sübuta yetir.

**Qeyd:**

Hər hansı sifətlə vəsf olunmayan hər bir varlığın həmin sifətin əksi ilə vəsf olunması zəruri deyil. Əksinə hər hansı sifətin ziddi ilə vəsf olunma şəni həmin sifətlə vəsf olunması gərəkən varlıqlara aiddir. Məsələn, insanın şənindəndir ki, eşidən və görən olsun. Əgər bu sifətlərlə vəsf olunmazsa, onların ziddi ilə, yəni karlıq və korluqla vəsf olunmalıdır. Ağıl baxımından Allah-taalanın eşitmə və görmə ilə vəsf olunamasının Onun şənindən irəli gəlməsi sübuta yetməmişdir. Xüsusilə də, görmə və eşitmənin hiss üzvləri ilə şərtləndiyini desək, eşitmə və görmə cismani varlıqların xüsusiyyətlərindən olduğu məlum olur. Allah-taala isə bundan uca və pakdır.[449]

**Dördüncü dəlil:**

Eşidən və görən eşitməyəndən və görməyəndən daha kamildir. Biz eşidən və görənik. Əgər Allah-taala eşidən və görən olmasaydı, onda biz Allahdan daha kamil olardıq. Bu isə mümkün deyil. Bununla da sübuta yetir ki, Allah-taala eşidən və görəndir.[450]

**Qeyd:**

Bizim üçün kamillik olan hər bir şeyin Allah-taala üçün də kamillik olması zəruri deyil. Məsələn, bizlərdən ayaqları üzərində gəzə bilən

---

[448] Bax; Əmiduddin Əbidli, İşraful-lahut, s. 210.

[449] Meysəm Bəhrani, Qəvaidul-məram, s. 91; Əmiduddin Əbidli, İşraful-lahut, s. 215.

[450] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 288.

gəzmək qabiliyyəti olmayandan daha kamildir. Belə olan halda Allah-taala ayaq üzərində gəzə bilmirsə, deməli, biz Ondan daha kamilik deyə bilərikmi? Ola bilsin ki, ayaq üzərində gəzməyin cisimlər üçün kamillik olduğu deyilsin. Allah-taala isə cisim deyil. Lakin eşitmə və görmə cisimlərə məxsus deyil. Buna əsasən də Allah-taalaya eşitmə və görmə nisbət vermək doğrudur. Bunun cavabında isə belə deyirik: Görmə və eşitmənin cisimlərə məxsus olmasına hər hansı bir əqli dəlil yoxdur. Baxmayaraq ki, reallıq bu sifətlərin cisimə məxsus olmasını və hiss üzvləri ilə baş verməsini əks etdirir.[451]

Bundan əlavə; Əgər ağıl baxımından Allah-taalanın eşitmə və görmə ilə vəsf olunması mümkündürsə, deməli, ağıl baxımından Onun təmas etmək, dadmaq və qoxulamaq ilə də vəsf edilməsi mümkündür. Çünki bizlərdən bu sifətlərlə vəsf olunan həmin sifətlərlə vəsf olunmayandan daha kamildir. Lakin şəriət bizim Allah-taalanı bu cür vəsf etməyimizə icazə vermir.

**Qeyd:**

Allah-taalanın eşidən və görən olmasını isbat edən dəlillərə qarşı bu iradlar Allah-taalanın eşidən və görən olmasının inkarı deyil. Əksinə bunun sübutu üçün əqli dəlilin olmaması deməkdir. Allah-taalanın eşidən və görən olmasının yeganə yolu Quran və sünnədir.

**Nəticə:**

Əgər Allahın eşidən və görən olmasının mənasını Onun eşidilənləri və görünənləri bilməsi kimi izah etsək, Allah-taalanın eşidən və görən olmasının əqli yolla isbatının yeganə yolu Onun elminin sübuta yetirilməsidir.

---

[451] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 288; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 92.

Əgər eşitmə və görmənin elmin həqiqətindən fərqli olduğunu desək, Allah-taalanın eşidən və görən olmasını sübuta yetirəcək başqa əqli dəlil yoxdur. Bunun isbatı üçün yeganə yol Quran və sünnədir.

## On birinci fəsil: Allah-taalanın qüdrəti

**Qüdrətin mənası (lüğəti və terminoloji mənası)**

**Qüdrətin qisimləri**

**Allah-taalanın qüdrətinin xüsusiyyətləri**

**Allah-taalanın qüdrətinin sonsuzluğu**

**Allah-taalanın qüdrətinin dəlilləri**

## Birinci mövzu

## Qüdrətin mənası (lüğəti və terminoloji mənası)

Qüdrət hər hansı bir feli yerinə yetirib və tərk etmək mənasındadır. Məcməul-bəhreyn kitabında belə qeyd olunur: "**قدرت على الشيئ**–bir şeyə qüdrətim çatır, yəni onu etməyə gücüm və imkanım var".[452]

Lisanul-ərəb kitabında belə deyilir: "**قدر على الشيئ**–bir şeyə qüdrəti çatdı, yəni ona sahib oldu və qüdrətlidir.[453]

Kəfəminin "Misbahul-kəfəmi" kitabında belə qeyd olunub: "Qadir (qüdrətli) acizlik və süstlük (məcburluq) olmadan ixtiyarı ilə bir şeyi yaradandır".[454]

Şeyx Səduq belə deyir: **"قدر"**–(qadirə) yəni sahib oldu. Olmayan bir şeyə qüdrəti çatmaq və onu icad etmək iqtidarında olmaq ona qalib gəlib sahib olmaqdır".[455]

**Qeyd:**

**قدير -** qədir (qüdrətli) qüdrəti sonsuz olandır. Bu, qadir (قادر) sifətindən daha geniş məna daşıyır. Qədir sifətilə yalnız Allah-taala vəsf oluna bilər. Muqtədir istədiyi bir şeyin qarşısını heç bir şey ala bilməyən kamil qüdrəti olandır.[456]

### Qüdrətin əqidə baxımından terminoloji mənası

**Birinci məna:**

Şeyx Səduq belə deyir: "Allah-taala əzəldən qüdrətlidir. Məqsədimiz Onun aciz olmamasını inkar etməkdir. Onunla yanaşı bir şeyin olmasını

[452] Şeyx Tureyhi, Məcməul-bəhreyn, c. 3, s. 466.

[453] İbn Mənzur, Lisanul-ərəb, c. 11, s. 57.

[454] Şeyx Kəfəmi, Misbahul-kəfəmi, c. 1, s. 382.

[455] Şeyx Səduq, ət-Tövhid, s. 192.

[456] Şeyx Kəfəmi, Misbahul-kəfəmi, c. 1, s. 383.

isbat etmək istəmirik. Çünki O, əzəldən vahiddir və Onunla yanaşı bir şey yoxdur".[457]

Bu sözlər İmam Muhəmməd Cavadın (ə) sözlərindən iqtibas edilmişdir. Belə ki, o həzrət (ə) səhabələrinə belə demişdir: "Allah-taala qüdrətlidir dedikdə Onun aciz olmamasını xəbər vermiş olursan. Bir sözlə acizliyi inkar edirsən. Acizliyi Ondan başqasına nisbət vermiş olursan".[458]

**İkinci məna:**[459]

Qüdrət iradə məqamında feli icra etmək və istəmədikdə isə tərk etməkdir. Qüdrətli olan istədikdə bir iş icra edən və istədikdə tərk edəndir. Başqa sözlə desək, bir işi etmək istədikdə onu edər və bir işi tərk etmək istədikdə isə tərk edər.

**Üçüncü məna:**[460]

Qüdrət feli icra etmək və tərk etməyin mümkünlüyüdür.[461]

Qüdrətli olan bir işi icra edə və ya tərk edə bilər. Başqa sözlə desək qüdrətli olan hər hansı işi icra edə bilən və ya hər hansı bir işi tərk edə biləndir.

**Qeyd:**

Allah-taalanın üç baxımdan hər bir şeyə qüdrəti çatır:

**Birinci:** Olmayanları icad etmək baxımından.

---

[457] Şeyx Səduq, ət-Tövhid, s. 127.

[458] Həmin mənbə, s. 188.

[459] Bax; Şeyx Tusi, ər-Rəsailul-əşər, s. 94; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 83; Əllamə Hilli, Mənahicul-yəqin, s. 161. Əllamə bu rəyi əvvəlki alimlərə nisbət vermişdir.

[460] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 48; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, 269: Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 42; Məhəmməd Səid Ravəndi, Ucalətul-mərifə, s. 30; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 35; Əllamə Hilli, Mənahicul-yəqin. S. 160.

[461] Əgər həmin feli icra etmək mümkündürsə və hər hansı bir maneə yoxdursa. Bax; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 42.

**İkinci:** Var olanları yox etmək və ya onların xüsusunda hər hansı bir işi icra etmək baxımından.

**Üçüncü:** Qüdrətin şamil ola biləcəyi hər bir şeyə qalib gəlir və onu aciz edir.[462]

**Allah-taalanın qüdrət sifətinə qayıdan ilahi adlar.**[463]

**1. əl-Qəviyyu (güclü).**

Yəni kamil qüvvət sahibi. Hər hansı bir mümkün olacaq şeyi icad etməkdə və ya yox etməkdə aciz olmayan. Yorulmaz və zəifləməz güc sahibi. Allah-taala buyurur: **"...Həqiqətən, Rəbin yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"**[464]

**2. əl-Mətin**

Yəni kamil mətanət sahibi. Mətanət qüvvətdən daha geniş anlamdadır. Mətanət qüvvətdən da artıqdır. Buna əsasən də mətin (mətanətli) olmağın mənası belədir; heç bir güc-qüvvətin misli olmayan və heç bir güc-qüvvətin qarşı çıxa bilmədiyi qüvvət sahibi. Həmçinin mətin olan biri üçün acizlik, yorğunluq, mümkün olacaq hər bir işin icrasında uğursuzluq ola bilməz. Allah-taala buyurur: **"Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!"**[465]

**3. əl-Qadir.**

Yəni kamil qüdrət sahibi. Əvvəlki sahifələrdə qüdrətin mənasını izah etmişik. Allah-taala buyurur: **"De: "Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi**

---

[462] Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, c. 1, s. 152, Bəqərə surəsinin 20-ci ayəsinin təfsiri.

[463] Əbdürrəhman Həsən Cənkə Meyani, əl-Əqidəl-islamiyyə, s. 161, 163. (ixtisarla).

[464] Hud surəsi, ayə 66.

[465] Zariyat surəsi, ayə 58.

**dəstələr halında qarışdırmağa və birinizə digərinizin zorunu daddırmağa qadirdir!”...”**[466]

**4. əl-Muqtədir.**

Kamil qüdrət sahibi. Muqtədir qüdrətdən də üstün mənadadır. Allah-taala buyurur: **“Allah hər şeyə (hər şeyi yaratmağa və məhv etməyə) qadirdir!”**[467]

**5. əl-Vacid.**

Heç kimin köməyinə ehtiyacı olmadan qüdrəti olan ehtiyacsız varlıq. əl-Vacid istəyi uğrundan hər şeyə qalib gələndir. Bu ad Qurani-kərimdə qeyd edilməmişdir.

**6. əl-Əziz.**

Yəni kamil izzət sahibi. İzzət qalib gəlmək üçün qüdrəti olandır. Allah-taala buyurur: **“Həqiqətən, Rəbbin yenilməz qüdrət sahibi, qüvvət sahibidir!”**[468]

**7. əl-Muqit.**

Yəni hər şeyi qoruyan, şahid və qüdrətli olan. Başqa sözlə desək, əl-Muqit hər şeyə hakim olan qüdrətli olandır. Allah-taala buyurur: **“Əlbəttə, Allah hər şeyə qadirdir. (Hər şeyin əvəzini verəndir)”.**[469]

**8. Malikul-mülk.**

Yəni mülkiyyətində istədiyini edən, hökmünə qarşı çıxılmayan. Bu, yalnız qüvvət, mətanət, qüdrət, izzət və ehtiyacsızlığın kamilliyinə sahib olduqda mümkündür. Allah-taala buyurur: **“(Ya Rəsulum!) De: “Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin**

[466] Ənam surəsi, ayə 65.

[467] Kəhf surəsi, ayə 45.

[468] Hud surəsi, ayə 66.

[469] Nisa surəsi, ayə 85.

**şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!”**[470]

**9. əl-Məlik.**

Yəni hər bir şeyin xüsusunda əmr və qadağa sahibi. Bir şeyə ol deyərsə, həmin şey onun iradəsinə əsasən dərhal olar. Bu sifət mümkün varlıqların üzərində kamil qüdrətə sahib olmaqdan irəli gəlir. Allah-taala buyurur**: “Həqiqi hökmdar olan Allah (hər şeydən) ucadır!..”**[471]

[470] Ali İmran surəsi, ayə 26.

[471] Taha surəsi, ayə 114.

## İkinci mövzu

## Qüdrətin qisimləri

**1. İxtiyar sahibi olan qüdrətli.** Məsələn, Allah-taala, ixtiyari fellərinin icrası baxımından insan.

**2. Məcbur olan qüdrətli.** Məsələn, İşıq saçmaq baxımından günəş, yandırma baxımından alov.

**İxtiyar sahibi olan qüdrətli ilə məcbur qüdrətli arasındakı fərq:**

**1.**İxtiyar sahibi olan qüdrətli müəyyən bir işi yerinə yetirməsi və ya tərk etməsi mümkündür. Məcbur qüdrətli isə yalnız işi yerinə yetirməyə qüdrəti varıdr. Həmin işi tərk etməyə isə qüdrəti çatmır.[472]

**2.** İxtiyar sahibi olan qüdrətli işi icra etməyə bilər. Lakin məcbur qüdrətli etməyə bilməz.[473]

**3.** İxtiyar sahibi olan qüdrətli hər hansı işi icra edə bilər. Məcbur qüdrətli olanın isə işi icra etməsi vacibdir.[474]

**4.** İxtiyar sahibi olan qüdrətli öz elmi ilə bir işi icra edir. Məcbur qüdrətli isə elmi və bilgisi olmadan bir işi icra edir.[475]

**5.** İxtiyar sahibi olan qüdrətli gördüyü işin nəticəsini bilir. Məcbur qüdrətli olan isə gördüyü işin nəticəsini bilmir.[476]

Ümumiyyətlə, ixtiyar sahibi olan qüdrətli hər biri işi öz iradəsi və ixtiyarı ilə yerinə yetirir. Məcbur olan qüdrətli isə hər bir işi iradə və ixtiyar olmadan yerinə yetirir.[477]

---

[472] Bax; Şeyx Mufid. ən-Nukətul-etiqadiyyə, s. 22; Miqdad Səyuri, əl-İtimad fi şərhi vacibil-itiqad, s. 56.

[473] Bax; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 93.

[474] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 49.

[475] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 35.

[476] Bax; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 83.

[477] Bax; Miqdad Səyuri, əl-Ənvarul-cəlaliyyə, s. 75.

**Qeyd:**

**1.** Bəzi filosofların belə dediyi məşhurdur: “Allah-taala məcbur qüdrətlidir, ixtiyar sahibi olan qüdrətli deyil.[478]

Buna əsasən də həmin filosoflar varlıq aləminin qədim olması rəyini söyləmişlər[479]. Kəlamçıların dediklərindən fərqli anlamda Allahın qüdrətinin və iradəsinin olmasını demişlər. Onlar Allah-taalanı kamil nizama əsaslanan elminin diqtəsilə iradə və ixtiyarı olmayan, əvvəlcədən proqramlaşdırılmış bir cihaza bənzətmişlər. Allah-taala onların dediklərindən uca və pakdır.[480]

**2.** İxtiyar sahibi olan qüdrətli məcbur qüdrətlidən daha şərəfli və üstündür. Çünki məcbur qüdrətlinin bəndələrinə qarşı lütf və ehsanı yoxdur. Çünki o, hər hansı bir işi iradə və ixtiyar olmadan edir. Lakin ixtiyar sahibi olan qüdrətli lütf və mərhəmət bəxş edəndir. Əgər istəyərsə lütf və ehsanlarını bəxş edər, istəyərsə əsirgəyər. Bundan əlavə, məcbur qüdrətli proqramlaşdırılmış bir cihaz kimi işi icra edir. Bu xüsusiyyətdə olan varlıq isə ibadət olunmağa layiq deyil. Çünki bu cür varlıq ixtiyar və iradəyə sahib deyil. Buna əsasən də Allah-taalanın məcbur qüdrətli olmasını demək mümkün deyil.

---

[478] Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 47; Əllamə Hilli, Kəşful-murad, s. 159; Miqdad Səyuri, İrşadut-talibin, s. 182; Miqdad Səyuri, əl-Ənvarul-cəlaliyyə ,s. 75.

[479] Çünki məcbur olan qüdrətlinin nəticəsinin ondan ayrı olmaması zəruridir və edəcəyi feldən ayrı ola bilməz. Allah-təalanın məcbur qüdrətli olduğunu deyənlər varlıq aləminin Allaha nisbətinin şüaların günəşə olan nisbəti kimi izah edirlər. Allah-təala əzəldən olduğu üçün varlıq aləmi də əzəldən mövcuddur. Çünki varlıq aləmi Allahdan ayrı deyil. Allah nurun günəşə nisbəti kimidir. Günəş olduqca nur da mövcud olacaq. Bax; Əllamə Hilli, əl-Bab əl-hadi əşərə, s. 32; Miqdad Səyuri, əl-İtimad fi şərhi vacibil-itiqad, s. 57. Aləmin hadis olması (sonradan yaranması) Allah-təalanın ixtiyar sahibi olan qüdrətli olmasına dəlalət edir. Bax; Şeyx Tusi, əl-İqtisad, s. 191.

[480] Allah-təalanın məcbur qüdrətli olmamasının dəlillərinə nəzər salmaq üçün bax; Əllamə Hilli, Mənahicul-yəqin, s. 160, 161.

## Üçüncü mövzu

## Allah-taalanın qüdrətinin isbatı

**Birinci dəlil:**

Fel (iş) failin (işi icra edənin) varlığına dəlalət etdiyi kimi onun həmin işi icra etməyə qüdrətinin olmasını da əks etdirir. Bu baxımdan biz varlıq aləminə baxdıqda onun bir yaradıcısının olduğunu bilirik. Həmçinin həmin yaradıcının qüdrətli olduğu bizə məlum olur. Çünki fel yalnız qüdrətli olan biri tərəfindən yerinə yetirilə bilər.[481]

İmam Muhəmməd Baqir (ə) buyurur: "Allahın yaratdıqlarını gördüyü halda Onun qüdrətində şəkk edənə təəccüb edirəm!"[482]

**İkinci dəlil:**

Qüdrətin olmaması aciziliyin olmasından xəbər verir. Acizlik ilahi zata layiq deyildir. Allah-taala bütün kamillik sifətlərinə malikdir və bütün naqis sifətlərdən uca və pakdır.

**Üçüncü dəlil:**

Əgər Allah-taala qüdrətli olmazsa başqasına möhtac olar. Allah-taala ehtiyacdan uca və pakdır.

[481] Şeyx Tusi, əl-İqtisad, s. 53; Şeyx Səduq, ət-Tövhid, s. 129.

[482] Bax; Əbussalah Hələbi, Təqribul-məarif, s. 73; Əllamə Hilli, Kəşful-murad, s. 393.

## Dördüncü mövzu

## Allah-taalanın qüdrətinin xüsusiyyətləri

**1.** Qüdrət Allah-taalanın zati sifətlərindəndir. Allah-taala əzəldən qüdrətlidir.[483] Hər hansı bir halda Allah-taalanın qüdrətdən xali olduğunu demək və Ona acizlik nisbət vermək olmaz. Çünki belə olduğu təqdirdə Onun yaradılışı yaratmaqda zatından kənar bir şeyə möhtac olduğu gərəkir. Allah-taala ehtiyaclı olmaqdan uca və pakdır.

İmam Cəfər Sadiq (ə) buyurub: "Allah əzəldən bizim Rəbbimizdir... məqdur (qüdrətə tabe olan) olmasa da belə, qüdrət Onun zatıdır. Şeyləri yaratdıqda ... qüdrəti məqdurla (qüdrətə tabe olanla) üst-üstə düşdü". [484]

İmam Əli bin Musa ər-Rzadan (ə) belə soruşdular: "Allah-taala varlıqları qüdrəti vasitəsilə yaratmışdır, yoxsa qüdrətindən başqa bir şeylə?". İmam (ə) buyurdu: "Varlıqların qüdrət vasitəsilə yaradılması doğru deyil. Çünki sən "varlıqları qüdrəti vasitəsilə yaratmışdır" dedikdə, sanki qüdrətin Ondan başqa bir şey olduğunu düşünürsən. Qüdrəti varlıq aləmini yaratmaq üçün istifadə etdiyi bir alət hesab edirsən. Bu isə şirkdir. Əgər "varlıq aləmini qüdrət olmadan yaratmışdır" desən belə yenə varlıqları qüdrət və iqtidarla yaratdığını demiş olursan (çünki qüdrət olmadan yaratmaq mümkün deyil). O (Allah-taala), nə zəif, nə aciz, nə də başqasına möhtac deyil. Əksinə O, (zatından ayrı olan) qüdrət vasitəsilə deyil, zatı ilə qüdrətlidir".[485]

**2.** Allahın qüdrəti təbii qanunlar və səbəblərdən asılı deyil. Əksinə Allah-taala bu qanunlar və səbəblər olmadan hər şeyi etməyə qadirdir. Həmçinin O, iradəsilə həmin qanunları və səbəbləri ləğv etməyə də

---

[483] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl -əməl, s. 63; Əbussalah Hələbi, Təqribul-məarif, s. 81.

[484] Kuleyni, əl-Kafi, c. 1, s. 107; Şeyx Səduq, s. 134, 135.

[485] Şeyx Səduq, Uyunu əxbari Rza (ə), c. 1,s. 108.

qadirdir. Allah-taala buyurur: **“Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: “Ol!” deməkdir. O da dərhal olar”.**[486].[487]

Deməli, Allahın qüdrəti təkcə adi məsələlərə şamil deyil, hətta Allah möcüzə kimi yollarla işləri idarə edir.

**3.** Hər hansı bir işi görməyə qüdrətin çatması həmin işin baş verməsini zəruri etmir. Çünki təkcə qüdrət təsir etməyə yetərli deyil. Qüdrət iradə ilə birlikdə olduqda öz təsirini göstərir.

Buradan belə nəticə çıxarırıq ki, Allahın bütün mümkün varlıqlara qüdrətinin çatması həmin varlıqların hamısının baş verməsini zəruri etmir. Hər hansı bir varlıq yalnız Allah-taalanın iradəsindən sonra baş verir. Başqa sözlə desək, Allah-taala bütün mümkün varlıqlara qüdrəti çatır, lakin hamısına təsir etmir. Yalnız Allahın iradəsinə əsasən bəzilərinə təsir edir. [488]

**4.** Qüdrət məfhumu iradə məfhumundan daha genişdir. Məsələn, qüdrət işi etmək və ya tərk etməyə aid olur. Lakin iradə fel və ya tərk etməkdən hər hansı birinə aid olur. Yəni Allahın qüdrəti etmək və etməmək felinə aid olur. Buna əsasən də Allahın qüdrəti feli yerinə yetirmək və tərk etməyə şamil olur. Lakin Allahın iradəsi ya feli etməyə ya da feli tərk etməyə şamil olur. Allah-taala ya felin baş verməsini istəyir ya da baş verməsini istəmir. İradə bir anda həm felin icra olunmasına, həm də tərk olunmasına şamil ola bilməz. Çünki iradənin eyni anda onların hər ikisinə şamil olması mümkün deyil. Bu, təzaddır.

Buna əsasən də qüdrətin şamil olduğu sahə iradənin şamil olduğu sahədən daha genişdir.

---

[486] Nəhl surəsi, ayə 40.

[487] İnsanın qüdrəti isə bunun əksinədir. İnsanın qüdrəti nə qədər böyük olsa da təbii qanunlar və səbəblər çərçivəsindən kənara çıxa bilməz. İnsanın edə biləcəyi ən böyük iş təbii qanunları ram edib həmin qanunların hüdudunda öz iradəsini icra etməkdir.

[488] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 299.

**5.** Allah-taalanın qüdrəti müqabilində onun qarşısını alacaq hər hansı bir qüdrət yoxdur. Çünki Allah-taaladan başqa bütün varlıqlar mümkünül-vucuddur (varlığı mümkün olandır). Hər bir mümkünül-vucud öz varlığında belə müstəqil deyil. Əksinə Allah-taalanın qüdrətinə tabedir. Buna əsasən də mümkünül-vucud olan varlıq ilahi qüdrətə qarşı çıxa və ona maneə ola bilməz.

## Beşinci mövzu

## Allah-taalanın qüdrətinin sonsuzluğu

Allahın qüdrəti məhdud deyil, sonsuz və genişdir.

**Dəlil:**

Əvvəlki mövzularda sübuta yetirdiyimiz kimi Allahın qüdrəti Allahın zatı ilə eynidir. İlahi zat mütləq və sonsuz olduğu üçün belə nəticə çıxır ki, ilahi qüdrət də sonsuzdur və heç bir həddi yoxdur.

Buna əsasən də Allah-taalanın qüdrəti hər hansı varlıqlara şamil olub bəzilərinə isə şamil olmaya bilməz. Əksinə bu qüdrət mümkün olan hər bir varlığa şamildir.

**İlahi qüdrətin şamil olduğu yerlər.**

Allah-taalanın qüdrəti yalnız mümkün olan və qüdrətin təsir edə biləcəyi işlərə şamil olur. İlahi qüdrət qeyri-mümkün olan işlərə və zatən olmayacaq məsələlərə şamil olmaz.

**Qeyd:**

Allah-taalanın qüdrətinin qeyri-mümkün işlərə və zatən olmayan məsələlərə şamil olmaması acizlik cəhətindən və ya ilahi qüdrətdəki qüsur üzündən deyil, əksinə qeyr-mümkün olan işin özündən və onun baş vermə qabiliyyəti olmamasından qaynaqlanır.

**Ağıl baxımından qeyri-mümkün olan işələr.**

**1.** Allah-taala Özü kimi birini yaratması.

**2.** Allah-taalanın Özünü yox etməsi.

**3.** Allah-taala yerindən tərpədə bilməyəcəyi və ya yox edə bilməyəcəyi bir şey yaratması.

**4.** Allah-taala yer kimi böyük bir şeyi kiçiltmədən və yumurta kimi kiçik bir şeyi böyütmədən onun içində yerləşdirməsi.

Əgər Allah-taalanın sadalanan bu işləri etməyə qüdrəti çatarmı deyə soruşularsa, cavab budur: İlahi qüdrət baş verə bilməsi mümkün olan

məsələlərə şamil olur. Sadalananların isə baş verməsi zatən qeyri mümkündür. Buna əsasən də ilahi qüdrət bu kimi məsələlərə şamil olmaz. Məhz bu baxımdan hədisdə belə buyurulur: "İmam Əlidən (ə) "Rəbbin yumurtanı böyütmədən və yer, dünyanı kiçiltmədən dünyanı yumurtanın içində yerləşdirə bilərmi" deyə soruşdular. İmam (ə) buyurdu: "Allah-taalaya acizlik nisbət verilməz. Sənin soruşduğun isə baş verən bir şey deyil".[489]

**İzah üçün bir məsəl:**

**1.** Əgər bir şəxs səndən 2+2 –nin nəticəsini 5 edə bilərsənmi? - deyə soruşarsa, sənin ona cavabın belə olacaqdır: 2+2=5 olması mümkün olan bir iş deyil. Mənim bu nəticəni ala bilməməyim acizliyimdən irəli gəlmir. Əksinə bu baş verməsi mümkün olmayan bir işdir. Qüdrətin çatıb çatmaması yalnız baş verməsi mümkün olacaq işlər xüsusunda soruşulmalıdır.

**2.** Əgər bir şəxs səndən: "Eyni məkanda və eyni zamanda həm var olub, həm də olmaya bilərsənmi?" deyə soruşarsa, ona cavabın belə olacaq: "Bu, mümkün olmayan bir işdir. Baş verməsi heç vaxt mümkün deyil. Çünki bu, ziddiyyətdir. İki ziddin bir anda və eyni məkanda olması mümkün deyil. Bunu edə bilməyən şəxsə aciz deyilməz. Çünki qeyri-mümkün olan bir şeyin baş verə bilməməsi onu yerinə yetirməyə lazımı

[489] Şeyx Səduq, ət-Tövhid, s. 126. Başqa bir hədisdə isə belə deyilir: İmam Əli bin Musa ər-Rzadan (ə) belə soruşdular: "Sənin Rəbbin göyləri, yeri və onların arasındakıları yumurtanın içinə yerləşdirə bilərmi?" İmam (ə) belə buyurdu: "Bəli. Yumurtadan kiçiyinə də yerləşdirə bilər. O, bütün bunlar sənin gözündə yerləşdirmişdir. Sənin gözün yumurtadan da kiçikdir. Sən gözlərini açdıqda göyü, yeri və onların arasındakıları görürsən. Əgər istəsəydi sənin gözlərini kor edərdi və bunları görməzdin". Şeyx Səduq, ət-Tövhid, s. 126. Şübhəsiz ki, İmamın (ə) bu məqamda cavabı sual soruşanın əqli səviyyəsinə uyğun olaraq verilmişdir. Ona soruşduğunun baş verməsinin qeyri-mümkün olduğunu deməmişdir ki, zehni qarışmasın. Ona elə cavab vermişdir ki, zehni Allahın qüdrətinin əzəmətinə yönəlsin.

qüdrətin olmamasından irəli gəlmir. Əksinə həmin qeyri-mümkün olan işin var olmağa qabiliyyəti yoxdur.

**Ağıl baxımından qeyri-mümkün olanla adətən qeyri-mümkün olan iş arasındakı fərq.**

Allahın qüdrətinin şamil olmadığı qeyri-mümkün işlər ağıl baxımından qeyri-mümkün olanlardır. Amma adətən qeyri-mümkün olan işlərə gəlincə, ilahi qüdrətin şamil olduğu məsələlərdəndir. Bu məsələni izah etmək üçün belə deyirik:

**Qeyri-mümkün işlər iki qismə bölünür:**[490]

**1.** Ağıl baxımından qeyri-mümkün olan işlər.

Ağıl baxımından qeyri-mümkün olan işlər heç vaxt baş verməsi mümkün olmayan işlərdir. Məsələn, baş verməsi ziddiyyət yaradan işlər kimi. Bu qəbildən olan işlər zatən qeyri-mümkün olan işlər adlanır. Məsələn, bir şey eyni anda və eyni zamanda həm var olsun, həm də yox olsun. Həmçinin praktikada baş verməsi ziddiyyətlə nəticələnən işlər də bu qəbildəndir. Bu kimi işlər praktiki baxımdan qeyri-mümkün olan işlər adlanır. Məsələn, xüsusi səbəb olmadan nəticənin baş verməsi kimi.

**2.** Adətən qeyri-mümkün işlər.

Biz hər bir şeyin real aləmdə müəyyən səbəb nəticəsində baş verdiyinə adət etmişik. Əgər bizdən soruşsalar ki, hər hansı bir şeyin səbəbi olmadan baş verməsi mümkündürmü? Cavabında bunun qeyri-mümkün olduğunu deyəcəyik. Lakin ola bilər ki, həmin şeyin baş verməsinin bizə məlum olmayan səbəbi olsun. Həmin səbəbə əsasən qeyd olunan şey baş verdikdə biz qeyri-mümkün olan bir şeyin baş verdiyini təsəvvür edirik.

**Qeyd:**

İkinci qismin qeyr-mümkün adlanması həqiqi mənada deyil. Bu növ qeyri-mümkün işlər ağılın baş verməsinin qeyri-mümkün olmasına hökm

[490] Bax; Məhəmməd Təqi Misbah, Məariful-Quran, s. 202, 203.

verdiyi işlərdən deyil. Bu kimi işlər ürf və adətə əsasən baş verməsi qeyri-mümkün olan işlərdəndir.

**Adətən qeyri-mümkün olan işlərə aid nümunə.**[491]

Əgər telefon ixtira edilməmişdən öncə bir şəxsdən soruşsan: Sən elə danışa bilərsənmi səndən min kilometrlər uzaqda olan biri səsini eşitsin? Həmin adam sənə: "Bu qeyri-mümkün olan bir işdir" deyə cavab verərdi. Bu, adətən qeyri-mümkün olan işlərdəndir. Ağıl baxımından qeyri-mümkün olan işlərdən deyil. İnsan adətən bəzi işlərin səbəbini bilmədikdə onun qeyri-mümkün olmasını düşünür. Əgər insan səbəbləri bilərsə və qeyd etdiyimiz misaldakı insan telefon cihazından xəbərdar olarsa, qeyri-mümkün olduğuna hökm verdiyi işin mümkün olduğunu dərk edərdi. Bütün möcüzələr adətən qeyri-mümkün olan işlər qəbilindəndir. Möcüzə adətən bizə məlum olmayan səbəblərlə baş verir. Həmin səbəblər bizim bilgi dairəmizdən kənardır.

[491] Həmin mənbə.

## Altıncı mövzu

## Allah-taalanın qüdrətinin dəlilləri

**1.** Allahın qüdrəti Allahın zatı ilə eynidir.

Allahın zatı sonsuz və mütləq olduğu üçün Onun qüdrətinin də sonsuz və mütləq olduğunu, hər hansı həddinin olmaması nəticəsini çıxarırıq. (Əvvəlki mövzuda Allahın qüdrətinin şamil olduğu məsələləri izah edərkən bu dəlili qeyd etmişik).

**2.** Allah-taalanın zatı bütün varlıqlara nisbətdə eynidir. Buna əsasən də Allahın qüdrəti heç bir istisna olmadan bütün varlıqlara nisbətdə eynidir. Buna əsasən də Allah-taalanın müəyyən işlərə qüdrətinin çatması və digər işlərə qüdrətinin çatmamasının heç bir səbəbi yoxdur. Bu iddia batildir.[492] Bununla da sübuta yetir ki, Allah-taala qüdrətin şamil olacağı hər bir şeyi etməyə qadirdir.[493]

**3.** Allah-taalanın göyləri və yeri heç bir şey olmadan yaratması Onun qüdrətinin əzəmətindən xəbər verir. Fərz olunan hər bir mümkün varlıq Allah-taalanın qüdrəti qarşısında ram olur.

Allah-taala buyurur: **"Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?!"**[494]

---

[492] Bir şeyin qüdrətə ram olması onun mümkün varlıq olmasından irəli gəlir. Bu sifət bütün mümkün varlıqlar arasında eyni dərəcədədir. Buna əsasən də bütün mümkün varlıqlar eyni dərəcədə ilahi qüdrət qarşısında ram olur.

[493] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 23; Şeyx Tusi, ər-Rəsailul-əşərə, s. 94; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 82; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 299; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 53; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 96, 97; Əllamə Hilli, Mənahicul-yəqin, s. 163.

[494] Yasin surəsi, ayə 81.

**Allah-taalanın qüdrətinə dəlalət edən Quran ayələri**

1. **“... Həqiqətən, Allah hər şeyə qadirdir”.**[495]

2. **“...Allah hər şeyə (hər şeyi yaratmağa və məhv etməyə) qadirdir!”**[496]

3. **“Hökm (hər şeyin ixtiyarı) əlində olan Allah nə qədər ucadır (nə qədər uludur). O, hər şeyə qadirdir!”**[497]

4. **“...Hökm Onundur, həmd-səna da Ona məxsusdur. O, hər şeyə qadirdir!”**[498]

5. **“...Göylərdə və yerdə Allahı aciz edə biləcək heç bir şey yoxdur. Həqiqətən, O (hər şeyi) biləndir, (hər şeyə) qadirdir!”**[499]

**Allah-taalanın qüdrətinin sonsuzluğu barədə Əhli-beytdən (ə) nəql olunan hədislər.**

**1.** İmam Cəfər Sadiq (ə) buyurub: “Bütün şeylər elm və qüdrət baxımdan Onun üçün bərabərdir...”[500]

**2.** İmam Musa bin Cəfər əl-Kazim (ə) buyrub: “Allah-taala aciz olmayan qüdrətlidir”.[501]

---

[495] Bəqərə surəsi, ayə 20.

[496] Kəhf surəsi, ayə 45.

[497] Mülk surəsi, ayə 1.

[498] Təğabun surəsi, ayə 1.

[499] Fatir surəsi, ayə 44.

[500] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 126.

[501] Şeyx Səduq, ət-Tövhid, s. 74.

## Allah-taalanın qüdrətinin sonsuzluğuna dair qeyd olunan iradların müzakirəsi

**Birinci irad:**[502]

Allah-taalanın qəbih (pis) iş etməyə qüdrəti çatmır.

**Dəlil:**

Əgər Allah-taala qəbih iş görməyə qadir olarsa, Onun qəbih iş görməsi mümkün olar. Allah-taalanın qəbih iş görməsinin mümkünlüyü Onun cəhalət və ehyitacla vəsf olunması ilə nəticələnir. Lakin Allah-taala bu kimi vəsflərdən uca və pakdır. Bununla da sübuta yetir ki, Allah-taala qəbih iş görməyə qadir deyil.

**İradın cavabı:**

Cəhalət və ehtiyacla vəsf olunmaq qəbih işi etməyə qüdrət olduqda deyil, onu yerinə yetirdikdə baş verir. Allah-taalanın qəbih iş etməməsi Onun bu işə qüdrətinin çatmamasından irəli gəlmir. Əksinə Allah-taala hikmət sahibi olduğu üçün qəbih işi etməz.

**Allah-taalanın qəbih iş etməyə qüdrətinin çatması barədə dəlillər:**

**1.** Allah-taala hər bir mümkün işi etməyə qadirdi. Qəbih iş də mümkün işlərdəndir. Deməli, Allah-taalanın qəbih iş etməyə qüdrəti çatır.[503]

**2.** Yaxşı iş qəbih iş cinsindəndir. İki cinsdən birinə qüdrəti çatanın digərinə də qüdrəti çatmalıdır.[504]

---

[502] Bu irad aşağıdakı mənbələrdə qeyd olunmuş və cavablandırılmışdır:

Əbussalah, Hələbi, Təqribul-məarif, s. 100; Muhəqqiq Hilli, əl-Məslək fi usuluddin, s. 89; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 154; Əllamə Hilli, Kəşful-murad, s. 396; Əllamə Hilli, Mənahicul-yəqin, s. 162, 163..

[503] Bax; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 88.

[504] Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 83; Əbussalah Hələbi, Təqribul-məarif, s. 99; Şeyx Tusi, əl-İqtisad, səh 88.

**3.** Əgər Allah-taala qəbih iş etməyə qadir olmazsa, qəbih işi etmədiyi üçün tərif və alqışa layiq olmazdı. Çünki tərif və alqış qəbih işi etməyə qüdrəti olduğu halda onu tərk edənə məxsusdur.[505]

**İkinci irad:[506]**

Allah-taala bəndəsinin etdiyi işin mislini etməyə qadir deyil. Yəni Allah-taala insanın etdiyi işlərin mislini, oxşarını etməyə qadir deyil.

**Dəlil:**

İnsanın qüdrəti dairəsində olan işlər (yəni insanın yerinə yetirməyə qüdrəti çatan işlər) iki qismə bölünür:

**Birinci:** Məqsədsiz olan işlər. Bu kimi işlər əbəs işlər adlanır.

**İkinci:** Məqsədli olan iş.

Məqsədli iş də iki qismə bölünür:

**Birinci:** Məqsəd şəri əmrləri yerinə yetirilməsidir. Bu halda həmin iş itaət adlanır.

**İkinci:** Məqsəd şəri əmrlərə müvafiq olmazsa, yerinə yetirilən iş günah hesab olunur.

Deməli, insanın yerinə yetirdiyi işlər üç qisimdən biridir; əbəs, itaət və günah. Əgər Allah-taalanın insanın etdiyi işlər kimi işlər etməyə qadir olduğunu desək, nəticədə Allahın felləri əbəs, itaət və günahla vəsf olunmalıdır. Bu isə batildir.[507] Bununla da sübuta yetir ki, Allah bəndənin etdiyi işlərə qadir deyil.

---

[505] Əbu İshaq İbrahim bin Novbəxt, əl-Yaqut fi ilmil-kəlam, s. 57.

[506] Bu irad və onun cavablandırması aşağıdakı mənbələrdə qeyd edilmişdir: Meysəm Bəhrani, Qəvaidul-məram, s. 96, 97; Əllamə Hilli, Kəşful-murad, s. 396, 397; Miqdad Səyuri, İrşadut-talibin, s. 191.

[507] Dəlil: Birinci: Allah-təalanın felinin əbəs hesab olunması hikmətə ziddir. Allah-təala bundan uca və pakdır. İkinci: Allah-təalanın felini itaət və ya günah hesab etmək Allaha əmr verən və Ona qadağa edən birinin olmasına dəlalət edir. Bu isə mümkün deyil.

**Cavab:**

Hər bir işin iki tərəfi vardır:

**1.** İşin özü.

**2.** İşin məqsədi. İşin məqsədi həmin işin yerinə yetirilməsində olan hədəf və niyyətdir.

**İnsanın yerinə yetirdiyi işlər məqsədə əsasən aşağıdakı kimi vəsf olunur:**

**Birinci:** Əgər yerinə yetirdiyi iş hər hansı məqsədə istinad etmirsə əbəsdir.

**İkinci:** Əgər yerinə yetirdiyi işin məqsədi şəri əmrlərə istinad edirsə itaət adlanır.

**Üçüncü:** Əgər yerinə yetirdiyi işin məqsədi şəri əmrlərə müxalif olarsa, günah adlanır.

Diqqət edilməsi lazım olan məsələ budur ki, Allah-taalanın fellərindəki məqsədi insanın fellərinin məqsədinə bənzətməkdən çəkinmək lazımdır. Çünki biz Allahın məqsədinin insanın məqsədinə bənzətsək, Allah-taalanın felləri əbəs, itaət və günah xüsusiyyətləri ilə vəsf olunacaqdır. Bu isə mümkün deyil. Lakin biz Allah-taalanın insanın yerinə yetirdiyi işləri hər hansı bir məqsəd olmadan sırf işin özünü etməyə qadirdir və Onun məqsədi insanın məqsədindən fərqlidir desək, bu məsələdə hər hansı bir irad yoxdur. Bununla da Allah-taalanın insanın yerinə yetirdiyi işin bənzərini etməyə qüdrətinin çatması sübuta yetirilir. Başqa sözlə desək, Allahın məqsədi insanın məqsədindən fərqli olduğu üçün Allah-taalanın felləri insanın felləri kimi (əbəs, itaət və günah məfhumları ilə) xarakterizə edilməməlidir. Allah-taalanın fellərinin insanın fellərinin xüsusiyyətləri ilə vəsf olunmaması Allahın insanın yerinə yetirdiyi işlərin bənzərini yerinə yetirməyə qüdrətinin çatmasını inkar etmək zərurəti yaratmır. Bununla sübuta yetir ki, Allahın fellərinin məqsəd və hədəfi insanın felinin məqsəd və hədəflərindən fərqlidir.

Nəticədə Allahın insanın yerinə yetirdiyi işlərin bənzərini məqsəd baxımından deyil, sırf felin özünü etməkdə qüdrətinin çatmasına heç bir tutarlı irad yoxdur.

**Qeyd:**

Allah-taalanın insanın etdiyi işlərin bənzərini yerinə yetirməyə qüdrətinin çatması dedikdə Allah-taalaya nisbət verilməsi doğru olan işlər nəzərdə tutulur. Burada məqsəd insanın yerinə yetirdiyi yemək, içmək və bu kimi cismanilik tələb edən işlər deyil. Çünki Allah-taala bu kimi fellərdən uca və pakdır. Buna əsasən də bu kimi işlər mövzudan kənardır.

**Üçüncü irad:**[508]

Allah-taala insanın yerinə yetirdiyi işi yerinə yetirməyə qadir deyil. Yəni insanın qüdrəti hər hansı bir şeyə şamil olduqdan sonra Allah-taalanın qüdrətinin həmin əmələ şamil olması mümkün deyil.

**Dəlil:**

İnsanın qüdrəti hər hansı bir əmələ şamil olarsa, eyni zamanda Allah-taalanın da qüdrəti həmin əmələ şamil olarsa, iki qüdrətin bir işdə cəm olması mümkün deyil. Çünki insan həmin əməlin baş verməsini istədikdə Allah-taala həmin işin baş verməsini istəməyə bilər. Nəticədə həmin iş eyni zamanda həm baş verəcək, həm də baş verməyəcək. Bu isə mümkün deyil. Çünki bu, iki ziddin bir anda baş verməsidir. Bununla da sübuta yetir ki, Allahın qüdrəti insanın qüdrətinin şamil olduğu işə şamil olmaz.

**İradın cavabı:**

Əgər insanın müstəqil qüdrətə sahib olduğunu deyəydik bu irad yerində olardı və nəticədə Allahın qüdrəti müqabilində olduğu üçün iki ziddin bir anda baş verməsi olardı. Lakin insanın qüdrəti müstəqil deyil və

[508] Bu irad aşağıdakı mənbələrdə qeyd edilmiş və cavablandırılmışdır: Meysəm Bəhrani, Qəvaidul-məram, s. 97; Əllamə Hilli, Kəşful-murad, s. 396; Miqdad Səyuri, İrşadut-talibin, s. 193.

Allahın izni olmadan təsir edə bilməz. Buna əsasən də insanın qüdrətinin Allahın qüdrəti ilə bir yerdə baş verməsində heç bir irad yoxdur. Çünki insanın qüdrəti müstəqil surətdə təsir etmək üçün tam səbəbi təşkil etmir. İnsanın qüdrətinin təsir etməsi üçün Allahın izninin olması labüddür.

**Dördüncü irad:**

**Vahid yalnız vahid bir şey yarada bilər nəzəriyyəsi**

Bəzi filosoflar Allahın qüdrətinin birbaşa yalnız bir şeyə şamil ola biləcəyi rəyindədirlər. Yəni Allah-zatı ilə yalnız bir şey edə bilər. Sonra isə Allahın qüdrəti həmin varlığın vasitəsilə digər şeylərədə şamil olmuşdur.[509]

**Dəlil:**

Allah-taala zatı ilə vahiddir. Allah-taala hər növ çoxluqdan uca və pakdır. Allah-taaladan bir neçə şeyin sadir olması (Allah tərəfindən bir neçə şeyin yaradılması) Onun zatından çoxluğun olmasını gərəkdirir. Bunulada Allah-taala mürəkkəb olur. Bu isə mümkün deyil.

**Cavab:**

**1.** Vahid yalnız vahid bir şey yarada bilər nəzəriyyəsi məcbur olan varlıq üçün keçərlidir. Həmin filosoflar Allahın məcbur qüdrətli olduğunu dedikləri və ya onların sözlərindən belə nəticə çıxdığı üçün onlar Allahdan yalnız vahid bir şeyin sadir olduğunu (yəni Allahın vahid bir şey yaratdığını) demişlər. Buna əsasən də Onun qüdrəti yalnız bir şeyə şamil olur.

Lakin Allah-taala failu muxtar (ixtiyar sahibi olan fail) olduğu üçün bu nəzəriyyə Ona şamil deyil.[510]

Əllamə Hilli belə deyir: "Əgər təsir edən ixtiyar sahibi olarsa, Onun vahid olması ilə yanaşı yaratdıqlarının çox olması mümkündür. Lakin

[509] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 54; Əllamə Hilli, Kəşful-murad, s. 170. Daha ətraflı məlumat üçün Fəxrəddin Razinin əl-Mətalibul-aliyə kitabına müraciət et.

[510] Bu fəsilin ikinci mövzusunda bu barədə dəlilləri qeyd etmişik.

məcbur qüdrətli olarsa, onun vahid olmasına görə alimlərin əksəriyyəti nəticələrin çox olmasını inkar etmişdir".[511]

**2.** Vahid yalnız vahid bir şey yarada bilər nəzəriyyəsinə əsasən yalnız bir cəhətdən bir şeyin yaradılması mümkün deyil. Lakin Allah-taala ixtiyar sahibi olan qüdrətlidir. Buna əsasən də iradəsininin və məşiyyətinin müxtəlifliyi baxımından Onun müxtəlif cəhətlərdən fel yerinə yetirməsi mümkündür. Deməli, çoxlu sayda fellərin Ondan sadir olması mümkündür. Belə ki, hər bir fel digərindən fərqli olan cəhətdən baş verir.[512]

**3.** Vahid yalnız vahid bir şey yarada bilər nəzəriyyəsinə əsasən aşağıdakıların olması zərurəti yaranır:

**Birinci:** Allah-taalanın təsir etmədə rütbəsi başqa təsir edici amillərin rütbəsindən aşağı olur.

**İkinci:** Allah-taalanın qüdrətinin hər şeyə şamil olmasının inkar olunması.

**Üçüncü:** Allah-taalanın hakimiyyətinin məhdud olması.

Allah-taala bu kimi məsələlərdən uca və pak olduğu üçün bu nəzəriyyənin qəbul olunması mümkün deyil.

**Beşinci irad:**[513]

Allah-taala bildiyinin əksini etməyə qadir deyil.

**Dəlil:**

Allah-taalanın baş verməsini bildiyi bir şeyin baş verməsi qətidir. Həmin şeyin baş verməsi vacibdir. Allah-taalanın baş verməyəcəyini

---

[511] Əllamə Hilli, Kəşful-murad, s. 172.

[512] Bax; Əllamə Hilli, Təlxisul-muhəssəl, s. 509.

[513] Bu irada aşağıdakı mənbələrdə qeyd edilmiş və cavablandırılmışdır: Meysəm Bəhrani, Qəvaidul-məram, s. 97; Əllamə Hilli, Kəşful-murad, s. 396; Miqdad Səyuri, İrşadut-talibin, s. 189, 190.

bildiyi şeyin baş verməsi isə mümkün deyil. Baş verməsi vacib olan və ya baş verməsi mümkün olmayan bir şeyə qüdrət şamil ola bilməz. Çünki qüdrət baş verməsi və baş verməməsi mümkün olan işlərə, yəni ola bilən və ya ola bilməyən işə şamil olur. Bununla da sübuta yetir ki, Allah-taala bildiyinin əksi olan bir işə qüdrəti çatmaz. Başqa sözlə desək, əgər Allahın baş verməsini bildiyi bir şey baş verməzsə və ya Allahın baş verməyəcəyini bildiyi bir şey baş verərsə, Allahın elmi cəhalətlə (bilməməklə) əvəz olunar. Bu isə mümkün deyil.

**Cavab:**

**1.** Allah-taala hər şeyi bilir. Allah-taalanın elmində olan şeylər iki qismə bölünür:

**Birinci:** Həmin şeylərin baş verəcəyini bilir. Həmin işlərin – qeyd olunan irada əsasən – baş verməsi vacibdir.

**İkinci:** Allah həmin işin baş verməyəcəyini bilir. Həmin şeylərin – qeyd olunan irada əsasən – baş verməsi mümükn deyil.

Bu rəyə əsasən Allahın qüdrəti heç bir şeyə şamil ola bilməz. Çünki Allah-taala hər şeyi bilir. Bu rəyin batil olması olduqca aşkardır. Ən doğrusu belə deyilməlidir:

**1.** Allahın bir şeyin baş verməsini bilməsi bu mənadadır ki, Allah-taala bilavasitə və ya vasitə ilə qüdrətinin təsiri nəticəsində baş verəcək şeyin baş verəcəyini bilir.

**2.** Allah-taalanın bir şeyin baş verməməsini bilməsi bu mənadadır ki, Özünün və ya yaratdıqlarının qüdrətinin şamil olmadığına əsasən baş verməyəcək bir şeyi əvvəlcədən bilir. Hər bir halda qüdrət bütün şeylərin baş verməsində təsir edicidir. Başqa sözlə desək, elm bir şeyin baş verməsində və ya baş verməməsində səbəb hesab olunmur. Elm sadəcə olaraq bir şeyin səbəbləri olduqda nəticənin baş verməsini, həmçinin, bir şeyin səbəbi olmadıqda həmin şeyin baş verməməsini aşkar edir. Bir şeyin baş verməsinin əsas səbəblərindən biri də qüdrətdir. Qüdrət olmadan bir

şeyin baş verməsi mümkün deyil. Deməli, bir şeyin baş verməsini bilmək həmin şeyin baş verməsini zəruri etmir. Bir şeyin baş verməsinin vacibliyi yalnız tam səbəb olduqdan sonra ola bilər. Qüdrət tam səbəbin əsas hissəsini təşkil edir. Elmin vəzifəsi isə həmin tam səbəbi və həmin səbəbin doğurduğu nəticənin baş verməsini aşkar etməkdir. Nəticənin baş verməsində elmin heç bir rolu yoxdur.

## On ikinci fəsil: Allah-taalanın məşiyyət və iradəsi

**Allah-taalanın fellərinin keçdiyi mərhələlər**

**Allah-taalanın məşiyyətinin mənası və qisimləri**

**Allah-taalanın məşiyyətinin xüsusiyyətləri**

**İradənin lüğəti və terminoloji mənası**

**Allah-taalanın iradəsinin qisimlər**

**İradənin yaxşı və pis olması**

**Allah-taalanın iradəsinin bəndələrin pis əməlinə şamil olmaması**

**Allah-taalanın bəzi felləri istəməməsi**

## Birinci mövzu

## Allah-taalanın fellərinin keçdiyi mərhələlər

**1. Elm**

**2. Məşiyyət**

**3. İradə**

**4. Qədər**

**5. Qəza**

**6. İmza**

**Hədisi-şərif.**

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Bildi, istədi, iradə etdi, təqdir etdi, hökm verdi və imzaladı. Məşiyyət (istək) elmi ilə baş verdi. Məşiyyəti ilə iradəsi oldu. İradəsi ilə təqdir baş verdi. Tədqirinə əsasən hökm verilib. Hökm verməklə imzalandı. Elm məşiyyətdən öncədir. Məşiyyət ikinci, iradə üçüncü, təqdir isə hökm və imzalanmada baş verir. Elmlə varlıqları yaratmadan öncə bildi. Məşiyyətlə onların xüsusiyyətlərini və hüdudlarını bildi. Aşkar etmədən öncə yaratdı. İradə ilə onları rəng və xüsusiyyətlərilə bir-birindən fərqləndirdi. Təqdirlər onların ruzilərini müəyyənləşdirdi, əvvəlini və axırını bəlli etdi. Qəza (hökm verməklə) ilə onun (ruzinin) yerini insanlara bildirdi və ona doğru yönləndirdi. İmza ilə onun (ruzinin) səbəblərini asanlaşdırdı və aşkar etdi. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmüdür)".[514]

[514] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 148, 149.

**İlahi fellərinin mərhələlərinin mənası**

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "... Allahın istədiyindən başqa heçnə baş verməz. O, istədi, təqdir etdi və hökm verdi". Sonra İmam (ə) bu mərhələləri belə adlandırdıdı:

Məşiyyət istəməkdir. İradə istədiyini qərara almaqdır. Qədər hüdudların təyin edilməsi. Qəza (hökm vermək) varlığın baş verməsidir.[515]

Başqa bir hədisdə isə o həzrət (ə) belə buyurur: "Məşiyyət bir şeyi istəməkdir. İradə həmin istəyin tamamlanmasıdır. Qədər uzunluq, en və davamlılıq baxımından formasını təyin etməkdir". Sonra belə buyurdu: "Allah-taala bir şeyi istəyərsə iradə edər. Əgər iradə edərsə, təyin edər. Təyin edərsə, hökm verər. Hökm verərsə, imza edər".[516]

Digər bir hədisdə isə İmam (ə) belə buyurur: "Məşiyyət felin başlanğıcıdır. İrada felin sabit olmasıdır. Qədər onun uzunluğunun və eninin təyin edilməsidir. Əgər hökm verərsə, həmin hökmün qarşısını heç nə ala bilməz".[517]

Üçüncü bir hədisdə belə buyurulur: "Məşiyyət bir şeyi istəməkdir. İradə isə həmin şeyi tamamlamaqdır (baş verməsini qərara almaqdır)".[518]

[515] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 150.

[516] Əllamə Məclisi, Biharul-ənvar, c. 5, s. 122.

[517] Həmin mənbə, c. 5, s. 122.

[518] Həmin mənbə, c. 5, s. 122.

## İkinci mövzu

## Allah-taalanın məşiyyətinin məna və qisimləri

**Məşiyyətin mənası:**

Məşiyyət hər hansı bir feli yerinə yetirmək üçün qərara gəlmədən öncə həmin felə nəzər salmaqdan, diqqət yetirməkdən ibarətdir.[519]

**Allah-taalanın məşiyyətinin qisimləri:**

**1.** Hətmi (qəti) məşiyyət.

**2.** Qeyri-hətmi (qəti olmayan) məşiyyət.

**Hədisi şərif:**

Rəsulullah (s) buyurub: "Allahın iki məşiyyəti var; hətmi məşiyyət və qeyri-hətmi məşiyyət..."[520]

[519] Bu məna qeyd etdiyimiz hədislərdən iqtibas olunub. Bax; Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 109.

[520] Əllamə Məclisi, Biharul-ənvar, c. 5, s. 124.

## Üçüncü mövzu

## Allah-taalanın məşiyyətinin xüsusiyyətləri

**1.** Allahın müəyyən bir işdə hikmət və mənfəətin olmasını bilməsi həmin işi istəməsini gərəkdirir. Məşiyyət əsl həqiqətdə elmdən qaynaqlanır. Lakin bu növ elm məşiyyətdir demək olmaz. Çünki elmin mahiyyəti məşiyyətin mahiyyətindən fərqlidir. Buna əsasən də "in şaə Allah" (əgər Allah istəsə) demək olar, amma "in alimə Allah" (əgər Allah bilsə) demək olmaz.[521]

**2.** Allahın məşiyyəti hadis (sonradan yaranan) olduğu üçün feli sifətlərdən hesab olunur.

## Məşiyyətin sonradan olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Məşiyyət və iradə feli sifətlərdəndir. Kim Allahın əzəldən iradə və məşiyyət sahibi (istəyən) olduğunu iddia edərsə, muvəhhid (tövhid əhli) deyil".[522]

İmam Cəfər Sadiq (ə) buyurub: "Məşiyyət hadisdir (sonradan olandır)".[523]

Həmçinin buyurub: "Hər şeydən əvvəl məşiyyəti yaratmış, sonra hər şeyi məşiyyətlə yaratmışdır".[524]

Həmçinin buyurub: "Allah məşiyyəti zatı ilə yaratmış, sonra hər şeyi məşiyyətlə yaratmışdır".[525]

---

[521] Bu məna İmam Sadiqdən (ə) nəql olunan hədisdən götürülmüşdür. Bax; Şeyx Kuleyni, əl-Kafi,c. 1, s. 109.

[522] Şeyx Səduq ,ət-Tövhid, s. 329.

[523] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 110; Şeyx Səduq, ət-Tövhid, s. 143.

[524] Şeyx Səduq, ət-Tövhid, s. 330.

[525] Şeyx Kuleyni ,əl-Kafi, c. 1, s. 110; Şeyx Səduq, ət-Tövhid, s. 143.

**Qeyd:**

Əllamə Məclisi "Allah məşiyyəti zatı ilə yaratmışdır" sözünü bir neçə cəhətdən izah etmişdir:[526]

**Birinci:** Məşiyyətin zatla olması onun Allahın zatından olması və baş verməsi üçün başqa bir iradədən asılı olmaması anlamındadır. Yaradılışın ona (məşiyyətə) nisbət verilməsi məcazi mənadadır. Yəni yaradılış başqa bir məşiyyətdən asılı olmayaraq Allahın zatına istinad edir.

**İkinci:** Burada şübhə yaranır. Yəni Allah hər şeyi məşiyyətlə yaratmışdırsa, bəs məşiyyəti nə ilə yaratmışdır? Başqa bir məşiyyətlə yaratmışdır? Hər bir məşiyyətdən sonra başqa məşiyyətin olması gərəkir və beləcə sonsuzadək davam edir. İmam (ə) bəyan edir ki, hər şey məşiyyətlə yaradılmışdır. Məşiyyətə gəlincə, onun yaradılmasının başqa məşiyyətə ehtiyacı yoxdur, əksinə məşiyyət özlüyündə məxluqdur..."

**Buna misal olaraq;**

**1.** Bütün şeylər vucudla var olur. Amma vucudun özü başqa vucuda möhtac deyil. O, özlüyündə vardır".

**2.** Canlılarda olan şəhvət özlüyündə ləzzətlidir. Başqa şeylər isə şəhvətlə ləzzətli olur.

[526] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 145, 147.

## Dördüncü mövzu

## İradənin lüğəti və terminoloji mənası

**İradənin lüğəti mənası:**

İradə felə nisbətdə qəti meyl və məqsəddir.[527]

**İradənin terminoloji mənası:**[528]

İradə qüdrət dairəsində olan iki tərəfdən birinin üstün tutulmasını gərəkdirən sifətdir.

**İzah:**

Qüdrət sahibi olan iki halda olur:

**1.** Qüdrətin icra edilməsi (fel baş verməsini üstün tutmaq).

**2.** Qüdrətin icra edilməsi (feli tərk etmək).

Bu iki işdən birini üstün tutmaq üçün xüsusi bir səbəb lazımdır. Həmin səbəb isə iradədir. Bundan əlavə müəyyən bir işi etmək üçün özündə qüdrət duyan hər bir kəsin eyni zamanda aşağıdakılara qüdrəti çatır:

**1.** Onun tərəfindən bəzi fellər baş verir bəzi fellər isə baş vermir.

**2.** Onun tərəfindən bəzi fellər başqa vaxtdan fərqli müəyyən bir vaxta baş verir.

**3.** Onun tərəfindən fellər başqa haldan fərqli keyfiyyətdə və surətdə baş verir.

---

[527] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 2, s. 355.

[528] Bax; Həmin mənbə, s. 372, 373; Əbulfəth Kəracki, c. 1, s. 317; Kənzul-fəvaid, s. 317; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 63; Nəsrəddin Tusi, Təcridul-itiqad, s. 192; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 275; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 55, 56; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 179, 180; Əllamə Hilli, Minhacul-yəqin, s. 171; Əllamə Hilli, Nəhcul-həqq və kəşfus-sidq, s. 131; Miqdad Səyuri, İrşadut-talibin, s. 203; Miqdaq Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 136.

Felin müəyyən bir vaxtda və müəyyən bir keyfiyyətdə baş verməsi üçün xüsusi bir amilin olması şərtdir. Burada təkcə qüdrət yetərli deyil. Həmin amil iradədir.

**Qeyd:**

Məlumdur ki, biz aşağıdakıları qüdrətdən hesab edə bilmirik:

**1.** Feli yerinə yetirmək və ya tərk etmək qərarına gəlmək.

**2.** Felin başqa vaxtda deyil, məhz müəyyən bir vaxtda, başqa keyfiyyətdə deyil, məhz müəyyən keyfiyyətdə baş verməsini təyin etmək.

Çünki qüdrətin işi icad etməkdir. Müəyyənləşdirmək onun işindən deyil.[529]

[529] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 283; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 89; Əllamə Hilli, Kəşful-fəvaid fi şərhi qəvaidil-məram, s. 179; Əllamə Hilli, Kəşful-murad, s. 402; Əllamə Hilli, Mənahicul-yəqin, s. 171; Əllamə Hilli, Nəhcul-həqqi və kəşfus-sidq, s. 131; Miqdad Səyuri, İrşadut-talibin, s. 204; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 201.

## Beşinci mövzu

## Allah-taalanın iradəsinin qisimləri

**1.** İnsanın ixtiyari işlərində Allahın iradəsi. Bu növ iradə təşrii iradə adlanır.

**2.** Allahın öz fellərində olan iradəsi. Bu növ iradə təkvini iradə adlanır.[530]

**Təşrii iradənin Qurani kərimdə nümunəsi:**

Allah-taala buyurur: **"Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan..."**[531] Burada Allah-taalanın iradəsi təşrii iradədir. Yəni Allah-taala xitab olunan tərəfdən ədalətdən möhkəm yapışmağı tələb edir.

**Təkvini iradənin Qurani-kərimdə nümunəsi.**

Allah-taala buyurur: **"... Biz də onlara: "(Zəlil və) həqir meymunlar olun!" – dedik".**[532]

Burada Allah-taalanın iradəsi təkvini iradədir. Buna əsasən də şənbə günü balıq tutan yəhudilər bu əmrdən sonra həqir meymunlara çevrildilər.

**Bu iki ayədə qeyd olunan iki növ iradənin müqayisəsi.**

Əgər Allah-taala ayəsində **"Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan..."** xitab etdiklərinin **"... Biz də onlara: "(Zəlil və) həqir meymunlar olun!" – dedik"** ayəsində xitab etdiklərinin iradə etdiyi kimi olmalarını istəsəydi insanların hamısı istəsələr də, istəməsələr də, ədalətli olardılar. Lakin Allah belə etsəydi insanlar itaətləri

---

[530] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 25.

[531] Nisa surəsi, ayə 135.

[532] Bəqərə surəsi, ayə 65.

müqabilində savab və mükafata layiq olmazdılar. Allah-taala bəndələrinin öz ixtiyarları ilə ədalətli olmalarını istəyir. Buna əsasən də birinci ayədəki iradə ikinci ayədəki iradədən fərqlidir.

**Allah-taalanın təşrii iradəsinin dəlil (yəni Allah-taalanın bəndələrinin bəzi əməlləri etmələrini istəyir):**

Allah-taala bəndələrinə bəzi əməlləri etməyi əmr etmişdir. Bunun mənası budur ki, Allah-taala bəndələrindən həmin əməlləri yerinə yetirmələrini istəyir. Çünki hikmət sahibi yalnız iradə etdiyini əmr edər.[533]

**Allah-taalanın təkvini iradəsinin dəlili (yəni Allah-taala Öz fellərini iradə ilə edir):**

**1.** Allah-taalanın bəzi əməlləri başqa vaxtlarda deyil, məhz müəyyən vaxtlarda baş verir. Allahın bəzi felləri başqa keyfiyyətdə deyil, müəyyən keyfiyyətdə baş verir. Burada həmin fellərin müəyyən vaxtda və müəyyən keyfiyyətdə baş verməsini xüsusiləşdirən bir amil olmalıdır. Həmin amil iradədir. Bununla da sübuta yetir ki, Allah-taala Öz fellərini iradə edir.[534]

**2.** Allahın kəlamı əmrlər, qadağalar, xəbərlər vəsairəni ehtiva edir. Kəlam yalnız Allahın iradəsindən sonra bu kimi xüsusiyyətlər kəsb edə bilər. Allahın kəlamının əmr, qadağa və ya xəbər olmasını iradə təyin edir. Əgər Allah-taala iradə sahibi olmasaydı Onun verdiyi əmr və ya dediyi xəbər mahiyyətini itirərdi. Kəlamın qeyd olunan formalardan biri kimi baş verməsi Allah-taalanın iradə sahibi olmasına dəlalət edir.[535]

---

[533] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 26, 27; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 3, s. 385, 386.

[534] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 26; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 281; Nəsrəddin Tusi, Təcridul-itiqad, s. 192; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 89; Əllamə Hilli, Kəşful-murad, s. 402; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 201.

[535] Bax; Şərif Murtaza, əl-Muləxxəs fi usuliddin, c. 3, s. 357; Şərif Murtaza, ər-Rəsail, s. 376; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 56; Şeyx Tusi, əl-İqtisad, s. 58;

**Allahın təşrii iradəsinin mənası**

Yəni Allah-taalanın bəndələrinin ixtiyari fellərini iradə etməsi.

Allahın bəndələrin fellərini iradə etməsinin mənası budur ki, həmin felləri məcburi olaraq deyil, ixtiyari olaraq yerinə yetirsinlər.[536]

**Hədisi-şərif**

İmam Rza (ə) Allah-taalanın bəndələrin fellərini iradə etməsi barədə belə buyurub: "İtaətlərə gəlincə, onların xüsusunda Allahın iradəsi və istəyi (həmin əməlləri) əmr etmək, (onları) bəyənib razı qalmaq və onları yerinə yetirməyə müvəffəq etməkdir. Günahlar xüsusunda iradə və istəyi onların qadağan olunması, (həmin əməllərə görə) qəzəblənmək və onları yerinə yetirəni zəlil etməkdir".[537]

**Allahın təkvini iradəsinin mənası (yəni Allah-taalanın Öz felləri üçün olan iradəsi)**

**Birinci rəy:** İradənin səhv və əbəs fellərdən uca və pak olmaq mənasında təfsir edilməsi.

Bəziləri[538] Allah-taalanın "murid" (iradə sahibi) sifəti ilə vəsf olunmasını Allahın fellərinin səhv və əbəsdən uca və pak olması, həmçinin, Onun məcbur və məğlub olmadığı mənasını daşıdığını demişlər.[539]

---

Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 64; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 50.

[536] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 337; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 25; Şeyx Mufid, Əvailul-məqalat, s. 53; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 83; Muhəqiq Hilli, əl-Məslək fi usuliddin, s. 50; Əllamə Hilli, Mənahicul-yəqin, s. 171; Miqdad Səyuri, İrşadut-talibin, s. 269.

[537] Əllamə Məclisi, Biharul-ənvar, c. 5, s. 12.

[538] Bu rəy əhli sünnə kəlam alimlərindən olan Hüseyn bin Məhəmməd Nəccara (vəfat tarixi 230 h.) nisbət verilir. Bax; Əbulfəth Məhəmməd bin Əbdülkərim Şəhristani, c. 1, s. 89.

**İrad:**

Bu məna iradə sifətinin xüsusiyyətlərini bəyan edir. Bu xüsusiyyətlər isə iradənin özünün mənasını ifadə etmir.[540]

**İkinci rəy:** İradənin elmlə izah olunması.[541]

İradə müəyyən felin ehtiva etdiyi mənfəət barədə elmə əsasən onun icad edilməsidir. Başqa sözlə desək, Allahın iradə sahibi olmasının mənası Onun hər hansı felin müəyyən keyfiyyətdə və müəyyən vaxtda baş verməsini tələb edən mənfəət və hikməti bilməsidir. Bu elm həmin felin müəyyən surətdə və müəyyən vaxtda baş verməsini tələb edir.

**İzah:**

Əgər Allah hər hansı bir felin baş verməsində mənfəətin olmasını bildikdə bu bilgi həmin felin baş verməsinə səbəb olur. Həmin fel müəyyən surətdə və müəyyən keyfiyyətdə baş verir. Çünki Allah-taala felin həmin surətdə və həmin anda baş verməsinin münasib olduğunu bilir.

İradə tərifində qeyd etdiyimiz kimi felin müəyyən zamanda və müəyyən surətdə baş verməsini təyin edən amildir. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, qüdrət sahibi olan iki halda olur:

**1.** Qüdrətin icra edilməsi (fel baş verməsini üstün tutmaq).

**2.** Qüdrətin icra edilməməsi (feli tərk etmək).

Qüdrətin icra edilməsi aşağıdakıları tələb edir:

**1.** Halın (vəziyyətin) təyin edilməsi. Çünki fel bir çox hallarda ola bilər.

---

[539] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 318; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 62; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 281; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 50; Əllamə Hilli, Kəşful-murad, s. 402; Əllamə Hilli, Mənahicul-yəqin, s. 171; Miqdad Səyuri, İrşadut-talibin, s. 205.

[540] Bax; Miqdad Səyuri, İrşadut-talibin, s. 205.

[541] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 25; Məhəmməd Səid Ravəndi, s. 31; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 88, 98; Əbdülmuttəlib Əbidli, İşraqul-lahut, s. 215; Miqdad Səyuri, İrşadut-talibin, s. 118. 119 və s. 204.

**2.** Zamanın təyin edilməsi. Çünki fel müəyyən bir zamanda baş verə bilər.

Felin məhz müəyyən hala və müəyyən zamana məxsus olması üçün xüsusiləşdirici bir amilə ehtiyac var. Həmin xüsusiləşdirici hal isə Allahın həmin felin baş verəcəyi hal, keyfiyyət və zamanını ehtiva etdiyi mənfəəti bilməsidir. Məhz bu elm həmin felin Allah tərəfindən müəyyən keyfiyyətdə və müəyyən zamanda baş verməsini gerçəkləşdirir. Bu növ elm iradədir.

**Qeyd:**

**1.** Bu məqamdakı elm mütləq mənada elm deyil. Çünki Allah-taala mütləq elmi ilə hər şeyi bilir. Lakin hər şeyi bildiyi üçün hər şeyi iradə etmir (baş verməsini istəmir). Burada xüsusi elmdən söhbət gedir. Bu, bəzi fellərin xeyir və mənfəətli olmasını ehtiva edən elmdir.

**2.** Gizli deyil ki, Allahı iradəsinin gerçəkləşməsinə səbəb olan feldəki mənfəət Allaha deyil, bəndələrə qayıdır. Çünki Allah-taala zatı baxımından zəngindir, ehtiyacsızdır və möhtac olmaqdan uca və pakdır.

**3.** Bu mənaya əsasən iradə Allahın zatı sifətlərindəndir. Çünki bu mənaya görə iradə elm sifəti ilə izah olunur. Elm Allahın zati sifətlərindəndir. Buna əsasən də iradə zati sifətlərdəndir.[542]

**4.** İradənin bu mənada izah olunmasının səbəbi Allah-taalanı insanın iradə sifətində olduğu kimi təsirlənmə qəbul edən hadis (sonradan başvermə) xüsusiyyətlə vəsf etməkdən xilas olmaqdır.

**İkinci rəyin (iradənin elmlə izah olunmasının) müzakirəsi:**

**1.** Şübhəsiz ki, Allah-taala öz zatını, həmçinin, daha faydalı və mənfəətli fel olan fellərini bilir. Lakin iradənin elmlə təfsir edilməsi iradənin həqiqətini inkar etməkdir. Bu rəyə əsasən Allah-taala iradəsi

[542] Bax; Mesəm Bəhrani, Qəvaidul-məram, s. 89; Miqdad Səyuri, əl-Ənvarul-cəlaliyyə, s. 89.

olmayan və zatında əvvəlcədən proqramlaşdırılan müəyyən proqramla işləri edən varlıqdır.[543]

**2.** İradə nəzərdə tutulan iki şeydən birini – feli icra etməyi və ya tərk etməyi təyin edən bir sifətdir. Bu sifət elmdən fərqli bir sifətdir.

**Dəlil:**

Elm məfhumu iradə məfhumundan fərqlidir.[544]

Baxmayaraq ki, elm iki tərəfdən birini təyin etməyi bilməkdir. Lakin nəticədə iradə ilə müştərək olsa da onu iradə adlandırmaq doğru deyil. Çünki nəticədə müştərək olmaq elmin iradə məqamında olmasını tələb etmir. Lakin belə demək olar:

Elm iradəyə yaxın məsələlərdəndir. İradə də felə yaxın məsələlərdəndir.[545]

**3.** İmam Cəfər Sadiqdən (ə) "Allah əzəldən muriddirmi (iradə sahibidirmi) ?" deyə soruşdular. İmam (ə) belə dedi: "Murid (iradə edən) muradla (iradə etdiyi ilə) bir olmalıdır.[546] Allah-taala əzəldən alim və qüdrətli idi. Sonra isə iradə etmişdir". Bu hədis iradənin elm və qüdrətdən fərqli olmasına aşkarcasına dəlalət edir.

**4.** Bir nəfər İmam Cəfər Sadiqdən (ə) belə soruşdu: "Allahın elmi ilə məşiyyəti (istəyi) eyni şeydir, yoxsa fərqlidirlər?" İmam (ə) belə cavab verdi: "Elm məşiyyət deyil. Görmürsənmi sən "Allah istəsə filan şeyi edəcəm" deyirsən, amma "Allah bilsə filan şeyi edəcəm" demirsən? Sənin "Allah istəsə" deməyin Onun istəməməsinə dəlalət edir. Əgər istəsəydi

---

[543] Bax; Şeyx Cəfər Subhani, əl-İlahiyyat, c. 1, s. 169.

[544] Əllamə Məhəmməd Hüseyn Təbətəbai bu həqiqətə işarə edərək belə deyir: "Biz Allah-təalanı iradə sifətilə vəsf etmək istədikdə - Allahı bütün naqisliklərdən uca və pak bildikdən sonra – bunu Onun elmi ilə izah edə bilmərik. Çünki elmin mahiyyəti və həqiqəti iradənin mahiyyətindən fərqlidir. Bax; Əllamə Məhəmməd Hüseyn Təbətəbai, Nihayətul-hikmə, s. 263.

[545] Şeyx Cəfər Subhani, əl-İlahiyyət, c. 1, s. 169.

[546] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 109.

Onun istədiyi olduğu kimi baş verərdi. Allahın elmi məşiyyətdindən əvvəldir".[547]

**Qeyd:**

Allahın sifətlərinin zatı ilə eyni olmasını deyərək Allahın iradəsinin elmi ilə eyni olmasını iddia etmək doğru deyil. Çünki Allah-taalanın zatı sifətlərinin zatı ilə eyni olmasınnın mənası bu sifətləri ifadə edən məfhumların hər birinin digərinə aid olması deyil. Məsələn, Allahın elmi qüdrətidir, qüdrəti elmidir deyilməz. Çünki bu iddianın nəticəsi bütün sifətlərin inkarıdır. Allahın sifətlərinin zatı ilə eyni olmasının mənası bəsit vahid həqiqətdə həyat, elm və qüdrətin zatda çoxluq və mürəkkəblik yaratmadan cəm olmasıdır.[548]

**Nəticə:** İradə elmdən fərqli bir sifətdir. Bu sifət Allah-taalanın zatına əlavə olunmuşdur. (Yəni feli sifətdir).

**Üçüncü rəy: Allahın felləri barədə iradəsinin yaratmaq və icad etmək mənasında izah olunması.**

Allahın bir şeyə iradəsinin şamil olması həmin şeyin yaradılması və icad olunmasıdır. Allah bir şeyi istəmişdir dedikdə, məqsəd budur ki, onu yaratmış və icad etmişdir. Allah filan şeyi istəmişdir və filan şeyi istəməmişdir dedikdə, məqsəd filan şeyi etmiş və filan şeyi etməmişdir.[549]

Allah-taala buyurur: **"Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: "Ol!" deməkdir. O da dərhal olar".**[550].[551]

---

[547] Şeyx Səduq, ət-Tövhid, s. 142; Şeyx Kuleyni, əl-Kafi.

[548] Bax; Məhəmməd Təqi Misbah, Məraiful-Quran, c. 1, s. 165.

[549] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 83.

[550] Nəhl surəsi, ayə 40.

[551] Qeyd: Bu ayədə məqsəd Allah-təalanın mövcud olmayan bir şeyə xitab etməsi deyil. Ayə məcazi mənadadır. Yəni Allah-təala bir şeyi istəyərsə, həmin şey heç bir maneə olmadan dərhal mövcud olar. Bax;Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 57, 58.

Şeyx Mufid belə deyib: “Allah-taalanın Öz fellərinə şamil olan iradəsi məhz felin özüdür... Ali Muhəmməddən olan hidayət imamlarından bu mənada hədislər nəql olunmuşdur”.[552]

**Hədisi şərif.**

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “İradə gizli məxluqdur. Fel sonradan ondan törənir. Allah-taalaya gəlincə, Onun iradəsi feli yaratmasıdır başqa bir şey deyil. Çünki Allah xəyala dalmır, düşünmür və fikirləşmir. Bu sifətlər Onda yoxdur. Bu sifətlər məxluqun sifətlərindəndir. Allahın iradəsi feldən başqa bir şey deyil. Bir şeyə ol deyər, o da söz, dilin nitqi, fikir, düşüncə və keyfiyyət olmadan olar. Necə ki, Onun (Allahın) da keyfiyyəti yoxdur”.[553]

**Allah-taalanın təkvini iradəsinə işarə edən Quran ayələri**

1. **“Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: “Ol!” deməkdir. O da dərhal olar”.**[554]

2. **“Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: “Ol!” deməkdir. O da dərhal olar”.**[555]

3. **“...Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz...”**[556]

4. **“De: “Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq (sıxıntı vermək) istəsə, sizin Allahdan qeyri ibadət etdiklərniz (bütlər, tanrılar) Onun zərərini aradan qaldıra**

[552] Şeyx Mufid, Əvailul-maqalat, s. 53.

[553] Şeyx Səduq, ət-Tövhid, s. 142.

[554] Yasin Surəsi, ayə 82.

[555] Nəhl surəsi, ayə 40.

[556] Rəd surəsi, ayə 11.

**bilərlərmi?! Yaxud: "Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?!"**[557]

5. **"...(Onlara) de: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, (bu işdə) kim Ona bir şeylə mane ola bilər?.."**[558]

**Allahın təşrii iradəsi barədə Quran ayələri**

1. **"...(Ey möminlər!) Siz (fidyə almaqla) puç dünya malını istəyirsiniz, Allah isə (sizin) axirəti qazanmağınızı istəyir. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"**[559]

2. **"Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Öz nəfsinə uyanlar isə sizi böyük bir əyriliklə (düz yoldan) sapdırmaq istəyirlər".**[560]

**Allahın təkvini iradəsinin qisimləri**

**1.** İradənin yaranması ilə felin baş verməsi eyni zamandadır. Yəni iradə baş verən kimi fel də baş verir, hər ikisinin gerçəkləşməsi eyni anda baş verir. Necə ki, Qurani-kərimdə buyurulur: **"Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar".**[561]

**2.** İradə və felin baş verməsi müxtəlif zamanlarda baş verir. Yəni iradə indi baş versə də fel gələcək zamanda baş verəcək. (İradənin baş verməsi onun lövhul-məhfuzda (qorunan lövhə) və ya lövhul-məhvi vəl-isbatda (pozulub sabit qalanları ehtiva edən lövhə) qeyd olunur.

---

[557] Zümər surəsi, ayə 38.

[558] Maidə surəsi, ayə 17.

[559] Ənfal surəsi, ayə 67.

[560] Nisa surəsi, ayə 27.

[561] Yasin Surəsi, ayə 82.

**Bu növ iradə iki qismə bölünür:**

**1.** Hətmi (qəti) iradə. Bu növ iradədə heç bir dəyişiklik olmur. Həmin iradənin şamil olduğu felin baş verməsi labüddür.

**2.** Əzm iradəsi (qəti olmayan iradə). Bu növ iradədə dəyişiklik baş verir. Yəni bəda baş verir (sonradan hökmün dəyişilməsinin aşkar olması) və gələcək zamanda iradə gerçəkləşmir.[562]

Rəsulullah (s) belə buyurub: "Allahın iki iradəsi var: Hətmi iradə və əzm iradəsi. Hətmi iradə xəta etməz. Əzm iradəsi isə xəta edər və düz olar [563]..."[564]

[562] Daha ətraflı məlumat üçün bu kitabın üçüncü fəslinin dördüncü və səkkizinci mövzularına müraciət et.

[563] Yəni əzm iradəsi baş verə də bilər, baş verməyə də bilər.

[564] Əllamə Məclisi, Biharul-ənvar, c. 5, s. 124.

## Altıncı mövzu

## Allahın iradəsi zati sifətdir, yoxsa feli sifətdir?

Allahın iradəsi Allahın feli sifətlərindəndir. Çünki Allahın iradəsi felin baş verməsini istəməkdir. Bu istək feldən ayrı ola bilməz.

**İradə sifətinin feli olmasının izahı:**

**1.** Zati sifətləri feli sifətlərdən fərqləndirməyin meyarlarından biri də budur ki, zati sifətlər isbat və inkar dairəsində olmur. Məsələn, Allah bilir və bilmir deyilməz; Allah qüdrətlidir və qüdrətli deyil deyilməz. Lakin feli sifətlər isbat və inkar dairəsində olur. Məsələn, Allah bəxş edir və bəxş etmir, Allah ruzi verir və vermir deyilməsi doğrudur. Bu meyara əsasən iradənin də isbat və inkar dairəsində olduğunu başa düşürük. Məsələn, Allah filan şeyi istəyir və filan şeyi istəmir demək olar. Bununla da sübuta yetir ki, Allahın iradəsi feli sifətlərdəndir.

**2.** Zati sifətləri feli sifətlərdən fərqləndirməyin meyarlarından biri də budur ki, zati sifətlər məxluqlara nəzərə alınmadan ilahi zatdan anlaşılan sifətdir. Məsələn, həyat, elm və qüdrət sifətləri kimi. Feli sifətlər isə ilahi fellərdən anlaşılır. Həmin sifətləri Allahın yaratdıqlarını nəzərə alınmadan Allaha nisbət verilməsi mümkün deyil.[565] Məsələn, Xaliq, Raziq (ruzi verən), Mudəbbir (idarəçi) kimi adlar. İradə sifəti ilahi fellərdən anlaşılan sifətdir. Çünki iradə yoxluqdan sonra baş verir, əvvəlcədən deyil, sonradan yaranır. Bu mənada iradənin ilahi sifət olması mümkün deyil. Bununla da sübuta yetir ki, iradə Allahın zati sifətlərindən deyil, feli sifətlərindəndir.

[565] Yəni bu sifətlər ilahi felləri və keyfiyyətini əks etdirir.

## İradənin ilahi sifətlərdən olmasını bəyan edən hədislər

1. İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: "Məşiyyət və iradə feli sifətlərdəndir. Kim Allah-taalanın əzəldən murid (iradə sahibi) olmasını iddia edərsə, mübəhhid (tövhid əhlindən) deyil".[566]

2. İmam Cəfər Sadiqdən (ə) "Allah əzəldən muriddirmi?" deyə soruşdular: "Murid (iradə edən) muradla (iradə etdiyi ilə) bir olmalıdır. Allah əzəldən alim və qüdrətli idi. Sonra istədi.[567]

Bu baxımdan Seyid Abdullah Şübbər belə deyir: "Pak imamlardan (ə) nəql olunan hədislərdə hər şeyin sahibi olan bağışlayan Allahın iradəsi icad və feldən ibarətdir. Bu sifət zati sifətlərdən deyil, yaratmaq, ruzi vermək kimi sonradan olan feli sifətlərdəndir. Yəni ən xeyirli olanı bilmək mənasındadır".[568]

**Qeyd:**

Əgər iradə qədim və zati sifətlərdən olarsa, iradənin şamil olduğu varlıqların da qədim olması gərəkir. Bu isə batildir.[569]

**Nəticə:**

İradə Allahın feli sifətlərindəndir və sonradan baş verir. Allahın zati sifətlərindən olan ixtiyar sifətidir. Yəni Allah-taala heç bir şeydə məcbur deyil.

---

[566] Şeyx Səduq, ət-Tövhid, s. 329.

[567] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 109; Şeyx Səduq, ət-Tövhid, s. 141.

[568] Abdullah Şübbər, Haqqul-yəqin, c. 1, s. 54.

[569] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 402; Əmiduddin Əbidli, İşraqul-lahut, s. 408.

## Yeddinci mövzu

## Allah-taalanın iradəsinin xüsusiyyətləri

**1.** Felin baş verməsində təsiredici amil yalnız qüdrətdir. İradə felin baş verməsində təsiredici deyil. İradə yalnız qüdrətin müəyyən cəhətə təsir etməsinin səbəbidir. Bundan sonra qüdrət öz işini görür və məqsəddə olan fel tələb olunan xüsusiyyətlərə uyğun olaraq baş verir.[570]

**2.** Allah-taala bir şeyi istəmək üçün başqa bir iradəyə möhtac deyil.

**Dəlil:**

**Birinci:** İradənin başqa bir iradəyə ehtiyacı olması iradələrin sonsuzadək silsiləvari davam etməsini gərəkdirir. Bu isə batildir. Bunanla da sübuta yetir ki, Allah-taalanın iradəsi başqa bir iradəyə ehtiyac olmadan baş verir.[571]

**İkinci:** İradənin baş verməsi üçün başqa bir iradəyə ehtiyac yoxdur. Çünki çox çəhətli deyil ki, onun baş verməsi üçün həmin cəhətlərə təsir edəcək səbəbə ehtiyac olsun.[572]

**Üçüncü:** İradə özünəməxsus məqsəd üçün baş vermir. Məqsəd bir şey, iradənin şamil olduğu isə başqa şeydir. İradənin özü məqsəddə tutulmur ki, onun da başqa iradəyə ehtiyacı olsun. Məqsəd müəyyən feldir və onun baş verməsi üçün isə iradəyə ehtiyacı vardır.[573]

---

[570] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 347.

[571] Bax; Şeyx Mufid, Məsələtun fil-iradə, s. 7, 8; Həmzə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 43.

[572] Bax; Şərif Murtaza, ər-Rəsail, s. 389.

[573] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 347; Həmzə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 44.

## Səkkizinci mövzu

## İradənin pis və yaxşı olması

**1.** İradə özlüyündə yaxşı və pisi ehtiva etmir. Hər hansı bir şeyin yaxşı və pis olmasında heç bir təsiri yoxdur. İradə sadəcə olaraq bir şeyin müxtəlif cəhətlərdən baş verməsində öz təsirini göstərir. Həmin cəhətlər bunlardır; həmin fel bəzən yaxşı, bəzən isə pis ola bilər. Bu cəhətlərdən iradə yaxşı və ya pis vəsfi ilə xarakterizə edilir.[574]

Məsələn, xəbər özlüyündə yaxşı və ya pis deyil. Onun yaxşı və ya pis olması müəyyən bir vasitə ilə olur. Əgər xəbər reallığa uyğundursa, doğru və yaxşı olar. Əgər xəbər reallığa uyğun deyilsə, yalan və pis olar.[575]

**2.** Yaxşıya şamil olan hər bir iradə yaxşıdır. Lakin bu məqamda pislik səciyyələri olmamalıdır. Çünki iradənin şamil olduğu fel yaxşı, iradə isə pis ola bilər. Məsələn, heç kimin qüdrətinin yetmədiyi yaxşı işi istəmək pisdir.[576]

**3.** Pisi istəmək pisdir. Çünki pisi etmək kimi pis bir şeyi istəmək də pisdir.[577]

---

[574] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 348.

[575] Bax; Həmin mənbə.

[576] Bax; Həmin mənbə.

[577] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 3886; Şərif Murtaza, ər-Rəsail, s. 141; Əbussalah Hələbi, Təqribul-məarif, s. 105; Şeyx Tusi, əl-İqtisad, s. 89; Muhəqqiq Hilli, əl-Məsləк fi usuliddin, s. 300; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 112; Əllamə Hilli, Kəşful-murad, s. 422; Miqdad Səyuri, əl-İtimad, s. 76.

## Doqquzuncu mövzu

## İnsanların pis fellərinə Allahın iradəsinin şamil olmaması

Şeyx Mufid belə deyir: “Allah-taala yalnız yaxşı felləri istəyər. Əməllərdən yalnız gözəl olanı istəyər. Heç vaxt pislikləri və çirkin əməlləri istəməz. Allah batil əhlinin dediklərindən uca və pakdır”.[578]

Seyid Murtaza belə deyir: “Allah günah və pis olan şeyləri istəməz. Bu kimi şeyləri istəməsi və bəyənməsi doğru deyil. Əksinə Allah bu kimi şeyləri bəyənməz və bu kimi şeylərə nifrət edər”.[579]

Sədiduddin Himsi belə deyir: “Ədl əhlinin (imamiyyə və mötəzilə) əksəriyyəti bu rəydədir ki, Allah-taala pis, günah və çirkin şeyləri istəməz, onları sevməz və bəyənməz. Əksinə bu kimi şeylərə nifrət edər”.[580]

## İnsanların pis fellərinə Allahın iradəsinin şamil olmamasının dəlilləri

**1.** Allah-taala insanlara bəzi əməlləri qadağan etmişdir. Bu, Allahın bəzi əməllərə nifrət etməsinə dəlalət edir. Bəndənin hər hansı bir əməli etməsini istəməyən Allahın həmin əməlləri istəməsi məqbul deyil. Çünki bir şeyi istəməməklə istəmək eyni anda ola bilməz. Bu, mümkün deyil. Bununla da sübuta yetir ki, Allahın iradəsi bəndələrinə qadağan etdiyi və onların yerinə yetirməməsini istədiyi əməllərə şamil olmaz. Yəni Allahın iradəsi bəndələrin pis əməllərinə şamil olmaz.[581]

**2.** Əgər Allah-taala insanların etdikləri pis əməlləri istəsəydi, günahkar çirkin əməllər etməklə Allaha itaət etmiş olardı. Çünki günahkar

---

[578] Şeyx Mufid, Təshih itiqadatil-imamiyyə, s. 49, 50.

[579] Şərif Murtaza, ər-Rəsail, s. 140.

[580] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 179.

[581] Bax;Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 387; Şeyx Tusi, əl-İqtisad, s. 89; Həmzə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 76; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid. C. 1, s. 180; Miqdad Səyuri, İrşadut-talibin, s. 269.

insan günah edərkən Allahın istədiyini etmiş olardı. Bununla da Allaha itaət etmiş olardı.[582]

**3.** Sevmək və razı qalmaq iradənin tələb etdiyi xüsusiyyətlərdəndir. Əgər Allahın iradəsinin bəndələrin pis əməllərinə şamil olması doğru olarsa, həmin pis əməlləri sevməsi və onları edəndən razı qalması doğru olardı. Allah-taalanın bu əməlləri sevməsi və onu edənlərdən razı qalması doğru olmadığı üçün, iradəsinin də bu əməllərə şamil olması doğru deyil.[583]

**4.** Əgər iradə felin baş verməsi üçün istəkdirsə, şübhəsiz ki, Allah-taalanın pis iş etməsinə heç bir istək ola bilməz. Buna əsasən də Onun iradəsi pis işə şamil olmaz. Əgər iradə felin baş verməsi üçün səbəb olmaqdan əlavə bir şeyə qayıtsa belə, pis işi istəməyi Allaha nisbət vermək olmaz. Çünki pis işi istəmək özlüyündə pis işdir. Allah-taala bu kimi məsələlərdən uca və pakdır. Bununla da sübuta yetir ki, Allah-taala bəndələrinin etdikləri pis işləri istəmir.[584]

**5.** Allah-taala Ona iftira atılmasına (adından yalan danışılmasını) və peyğəmbərlərinin təkzib edilməsinə razı olmaz. Bunu necə istəyə bilər ki? Deməli, Allahın iradəsi bəndələrin pis əməllərinə şamil olmaz.[585]

**6.** "Əgər desələr: "Bizim kafirlərdən istədiyimiz imandır". Onlara belə deyilər: "Hansı daha yaxşıdır, sizin istədiyiniz iman, yoxsa Allahın istədiyi küfr? Əgər: "Allahın istədiyi bizim istədiyimiz imandan daha xeyirlidir" desələr, küfrün imandan daha xeyirli olduğunu iddia etmiş olarlar. Əgər: "Bizim istədiyimiz iman Allahın istədiyi küfrdən daha xeyirlidir" desələr, özlərinin Allah nisbətdə xeyir və lütfə daha layiq

---

[582] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 180; Əllamə Hilli, Kəşful-murad, s. 423; Əllamə Hilli, ər-Risalətus-sədiyyə, s. 60.

[583] Bax; Şərif Murtaza, ər-Rəsail, c. 2, s. 231.

[584] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 179.

[585] Bax; Şərif Murtaza, ər-Rəsail, c. 2, s. 231.

olduqlarını iddia etmiş olarlar. Onların bu qədər xar olmaları kifayətdir”.[586]

Qeyd etdiklərimizə əsasən sübuta yetir ki, Allah-taalanın iradəsi bəndələrinin pis işlərinə şamil olmaz.

## Allah-taalanını pis işlərdən uca və pak olmasına dəlalət edən ayələr

1. **“Allah ədalətə əsaslanaraq Ondan başqa bir tanrının olmamasına şəhadət verdi. Həmçinin mələklər və elm sahibləri də (şəhadət verdilər)...”**[587]

2. **“Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz...”**[588]

3. **“Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!”**[589]

4. **“...Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər”.**[590]

5. **“Həqiqətən, Allah (heç kəsə) zərrə qədər zülm etməz...”**[591]

6. **“...Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!)”**[592]

7. **“...Sənin Rəbbin (haqsız yerə) bəndələrə zülm edən deyildir!”**[593]

8. **“...Allah aləmlərə (bəşər əhlinə) zülm etmək istəməz”.**[594]

---

[586] Bax; Şərif Murtaza, ər-Rəsail, c. 2, s. 239.

[587] Ali İmran surəsi, ayə 18.

[588] Ənbiya surəsi, ayə 47.

[589] Yunis surəsi, ayə 44.

[590] Tövbə surəsi, ayə 70.

[591] Nisa surəsi, ayə 40.

[592] Kəhf surəsi, ayə 49.

[593] Fussilət surəsi, ayə 46.

## Onuncu mövzu

## Allahın bəzi əməlləri bəyənməməsi

Bəyənməmək dedikdə burada hər hansı bir feli etməmək baxımından qəti olan məqsəd nəzərdə tutulur. Bunun səbəbi isə felin bütövlükdə və ya bəzi cəhətdən fəsadı, pisliyi ehtiva etməsidir. Məhz bu bilgi həmin xüsusiyyətlərə əsasən feli icra etməkdən çəkindirən amildir.[595]

**Allahın sevmədiyi bəzi əməllər.**[596]

**1.** Allah-taalanın sevmədiyi və Özü tərəfindən baş verən fellər.

**2.** Allah-taalanın sevmədiyi və insanlar tərəfindən baş verən fellər.

**Qeyd:**

**1.** Allah-taalanın Öz fellərini sevməməsi doğru deyil. Çünki Allah-taalanın hər hansı bir feli sevməməsi həmin felin pis olması deməkdir. Allah-taala pis feldən uca və pakdır.[597]

**2.** Allah-taala bəndələrinə əmr etdiyi əməlləri yerinə yetirdiklərinə görə onların əməllərinə nifrət etməz. Çünki Allahın hər hansı əməli sevməməsi həmin əməlin pis olmasına dəlalət edir. Biz əvvəlki mövzulardan bilirik ki, bu felləri Allah-taala əmr etdiyi üçün həmin əməllər yaxşıdır.[598]

---

[594] Ali İmran surəsi, ayə 108.

[595] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 25, 26; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 88, 89; Məhəmməd Səid Rəvəndi, Ucalətul-mərifə, s. 31; Miqdad Səyuri, əl-İtimad, s. 67.

[596] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 25.

[597] Bax; Şərif Murtaza, əl-Muləxxəs, c. 3, s. 385; Əbussalah Hələbi, Təqribul-məraif, s. 103. Qeyd: İnsanın hər hansı əməllərini sevməməsi və özünü həmin əməllərdən uzaq tutuması mümkündür. İnsan özünü belə felləri etməkdən uzaq tutaraq həmin felləri etməməyə çalışır. Bütün bunlar isə Allah-taala barəsində deyilməz.

[598] Bax; Əbussalah Hələbi, Təqribul-məarif, s. 104.

**3.** Allah-taalanın bəndələrinin sevmədiyi əməlləri onlara qadağan etdiyi əməllərdir. Allah onlara həmin əməlləri qadağan etmişdir ki, öz ixtiyarları ilə həmin əməlləri tərk etsinlər.[599]

[599] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 26; Miqdad Səyuri, əl-İtimad, s. 67.

## Onüçüncü fəsil: Bəda

**Bəda məsələsinin xüsusiyyətləri.**

**Bədaya etiqad etməyin əhəmiyyəti.**

**Bədanın mənası.**

**Bədanın baş vermə keyfiyyəti və səbəbləri.**

**Bu məsələnin bəda adlanmasının səbəbləri.**

**Allah üçün zahir (aşkar) olmanın mənası.**

**Bədanın ilahi qəza ilə əlaqəsi.**

**Bəda və lovhul-məhvi vəl-isbat.**

**Allah-taala üçün bədanın baş verməsinin nümunələri.**

**Bədanın əhəmiyyətinin səbəbləri.**

**Bəda və yəhudilərin rəyinin cavabı.**

**Bəda və peyğəmbərlərin qeybdən xəbər verdikləri xəbərlərin baş verməməsi problemi.**

**Bədanın istisna olunan xüsusiyyətləri.**

**Muşəbbəhə və bəda ilə nəsx arasındakı fərq.**

## Birinci mövzu

## Bəda məsələsinin xüsusiyyətləri

**1.** Bəda məsələsi əhli sünnənin nəzərində düzgün anlaşılmamışdır. Onlar bədadan Əhli-Beyt(ə) ardıcıllarının məqsədini anlamamışlar. Buna əsasən də bəda məsələsini əsas gətirərək Əhli-Beyt(ə) məzhəbinə tənə vururlar.

**2.** Şiələr və onlar arasında bəda barəsində baş vermiş ideoloji mübarizə bu məsələnin məşhurlaşmasına gətirib çıxartmışdır. Bu məsələ elmi və qeyri-elmi sahələrdə həddindən artıq işıqlandırılmışdır.

**3.** Bəda barədə təəccüb doğuran məsələ budur: Əhli-Beyt (ə) məzhəbinin ardıcılları bədanı dindən hesab edirlər. Əhli-sünnə məzhəbinin ardıcılları isə bu əqidənin dini məhv etdiyini iddia edirlər.

## İkinci mövzu

## Bədaya etiqad etməyin əhəmiyyəti

Əhli-Beyt (ə) imamları bəda əqidəsini həddindən artıq təkid etmişlər. Belə ki, İmam Cəfər Sadiqin (ə) belə buyurduğu nəql olunur:

**1.** "Əgər insanlar bəda əqidəsinin nə olduğunu bilsəydilər onun barəsində danışmaqda süstlük etməzlər".[600]

**2.** "Bəda qədər Allahı əzəmətli tutan bir əqidə yoxdur".[601]

**3.** "Bəda qədər Allaha ibadət edilməmişdir".[602]

**4.** "Allah-taala elə peyğəmbər göndərməmişdir ki, ondan üç şey barədə əhd almasın... Allah-taala istədiyini önə və istədiyini təxirə salar".[603]

Növbəti mövzularda – bədanın mənasını qeyd etdikdən sonra – bədaya etiqad etməyin əhəmiyyətinin səbəbləri və imana olacaq faydaları məlum olacaq.

[600] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 146, 148; Şeyx Səduq, ət-Tövhid, s. 324, 325.

[601] Həmin mənbə.

[602] Həmin mənbə.

[603] Həmin mənbə.

## Üçüncü mövzu

## Bədanın mənası

**Bədanın lüğəti mənası:**[604]

Bəda zuhur, yəni aşkara çıxmaqdır.[605]

Şeyx Səduq belə deyir: "Bəda bir işin aşkar olmasıdır. Ərəb dilində "Bir şəxs yolumun üstündə mənə zahir oldu" deyilir. Yəni aşkar oldu.[606]

Şeyx Mufid belə deyir: "Bədanın əsli zuhurdur (aşkar olmadır)".[607]

Şeyx Tusi belə deyir: "Bəda lüğəti mənada zuhurdur (aşkar olmadır)".[608]

### Qurani-kərimin ayələrində bədanın lüğəti mənası

1. **"Xeyr, əvvəlcə (ürəklərində) gizlətdikləri (küfr, nifaq və çirkin əməllər) onların qabağına çıxdı..."**[609] Ayənin ərəbcəsində "bəda" sözü işlədilmiş və qabaqlarına çıxdı, aşkar oldu mənasında tərcümə edilmişdir.

2. **"(Vəzir və ailəsi Yusifin günahsız olduğunu sübut edən) dəlilləri (Yusifin köynəyinin arxadan cırılmasını, üzünün cırmaqlanmasını, qadınların turunc əvəzinə əllərini kəsməsini və i. a.) onlara aşkar olduğu halda, yenə də onu bir müddət (dedi-qodu**

---

[604] Bəda بدو يبدو بدا sözündən yaranıb. Qeyd: Zuhur (aşkar olma) yalnız gizlində olduqdan sonra baş verir. Buna əsasən də bədanın ən dəqiq mənası gizlində olduqdan sonra aşkara çıxmadır".

[605] Qeyd: Zuhur (aşkara çıxmaq) yalnız gizlində olduqdan sonra baş verir. Buna əsasən də bədanın ən dəqiq mənası gizlində olduqdan sonra aşkara çıxmadır". Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 1, s. 113.

[606] Şeyx Səduq, ət-Tövhid, s. 327.

[607] Şeyx Mufid, Təshihu itiqadatil-imamiyyə, s. 65.

[608] Şeyx Tusi, əl-Ğeybə, s. 429.

[609] Ənam surəsi, ayə 28.

**kəsilənədək) zindana salmaq qərarına gəldilər. (Beləliklə, Yusif zindana atıldı)”.**[610]

3. **“...Allah üzə çıxartdıqlarınızı və gizlətdiklərinizi (hamısını) bilir!”**[611]

4. **“(O gün dünyada etdikləri) pis əməllərinin cəzası onlara aşkar olacaq...”**[612]

5. **“... (Adəm və Həvva) ağacın meyvəsindən daddıqda ayıb yerləri onlara aşkar oldu...”**[613]

**Bədanın ürfi mənası.**

Bəda ürfün nəzərində aşkar olma mənası ilə əlaqəsi olan mənada izah olunur. Necə ki, Şeyx Mufid belə deyir: “Bəda sözü lüğəti mənada rəyin dəyişməsi bir qərardan başqa qərara keçmək mənasındadır”.[614]

**İzah:**

Onun üçün bəda baş verdi deyildikdə məqsədi müəyyən bir işi etmək istədi, lakin onun üçün elə bir şey aşkar oldu və o, əvvəlcədən nəzərdə tutduğu mövqeyini dəyişdi. Bu mənaya əsasən Allaha nisbət verilən bədadan məqsəd budur: Allah-taala bəndələri üçün gələcəkdə bir şey müəyyənləşdirir. Lakin sonradan bəndələrdən baş verən bəzi əməllər Allahın onlar üçün təyin etdiyini dəyişməsinə səbəb olur. Bu mənanı Allaha nisbət vermək olarmı? Bu, növbəti mövzularda izah olunacaq.

---

[610] Yusif surəsi, ayə 35.

[611] Maidə surəsi, ayə 99.

[612] Casiyə surəsi, ayə 33.

[613] Əraf surəsi, ayə 22.

[614] Şeyx Mufid, Təshihu itiqadatil-imamiyyə, s. 67.

## Dördüncü mövzu

## Allahın fellərində bədanın baş vermə keyfiyyəti və səbəbləri

Əgər Allah-taala gələcəkdə hər hansı bir felininin baş verməsini istədikdə bu ilahi iradə gerçəklikdə təqdir formasında inikas olunur və lövhil-məhvi vəl-isbatda (müqəddəratın yazılıb pozulduğu lövhə) təsbit olunur. Bundan sonra Allahın baş verməsini təqdir etdiyi ilə bu təqdirin baş verməsi arasında bir mərhələ vardır. Bu mərhələdə Allaha baş verməsini təqdir etdiyini həyata keçirməsi vacib deyil. Əksinə Allah-taala təqdir etdiyini həyata keçirməkdə və ya bunu etməməkdə ixtiyar sahibidir. Əgər Allah təqdir etdiyini həyata keçirsə, onu olduğu kimi saxlasa və başqa təqdirlə dəyişməsə, bu, "imza" adlanır. Əgər Allah təqdir etdiyini həyata keçirməsə, onu olduğu kimi saxlamasa və başqa təqdirlə dəyişsə, bu, bəda adlanır. Başqa sözlə desək, "imza" birinci təqdirin olduğu kimi saxlanması, başqa təqdirlə dəyişilməməsi və birinci təqdirin icra mərhələsinə çatdırılmasıdır. Bəda birinci təqdiri olduğu kimi saxlamamaq, əksinə başqa təqdirlə dəyişilməsi və ikinci təqdirin icra mərhələsinə çatdırılmasıdır.

Allah-taala buyurur: **"Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar)..."**[615]

**"Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər..."** bəda mənasına dəlalət edir. **"... istədiyini də sabit saxlayar"** isə imza mənasına dəlalət edir.

Allah bir şeyi imza etdikdən sonra bəda baş vermir. Çünki felin baş verməsindən sonra "həmin fel baş verəcək ya yox?" deyə soruşmağın heç

[615] Rəd surəsi, ayə 39.

bir mənası yoxdur. Buna əsasən də İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Əgər hökm imza ilə baş verərsə, artıq bəda yoxdur".[616]

**Bəndələrə nisbətdə ilahi təqdirin dəyişilməsinin səbəbləri:**

Allah-taala bəndələri ilə əvvəlcədən olan iradə və istəklə və ya dəyişilməz qəza və qədərlə rəftar etmir. Əksinə Allah-taala bəndələrə nisbətdə yeni tələbatlara uyğun olaraq mövqe sərgiləyir. Allah-taala bəndələri ilə rəftar edərkən onların əməllərinə böyük yer vermişdir. Buna əsasən də Allah-taala bəndələrin davranış və hərəkətlərinin dəyişilməsinə uyğun olaraq onlar üçün təyin etdiyi təqdiri dəyişir. Allah-taala buyurur: **"...Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz".**[617]

**Nümunələr:**

**1.** Allah bəndələrindən birinə ruzi vermək istəyir və onun üçün iki gündən sonra ruzi hasil olacağını təqdir edir. Növbəti günü bəndə elə bir əməl edir ki, Allah-taala yeni tələblərə uyğun olaraq əvvəlki təqdirini dəyişir. Həmin bəndənin ruzidən məhrum olmasını və ya dörd gün sonra həmin bəndənin ruzi əldə edəcəyini təqdir edir.

**2.** Allah-taala bəndələrindən birinə bəla göndərmək istəyir və iki gün sonra həmin bəndəyə bəla gələcəyini təqdir edir. Növbəti gün həmin bəndə dua edərək Allahın ona rəhm etməsini diləyir. Buna əsasən də Allah-taala onun üçün təyin etdiyi müqəddəratı dəyişir. Əvvəlki təqdirini yeni tələblərə uyğun olaraq yeni təqdirlə əvəz edir.

İmam Cəfər Sadiq (ə) buyurub: "Dua hökm verildikdən sonra belə onu geri qaytarar".[618]

---

[616] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 149.

[617] Rəd surəsi, ayə 11.

[618] Şeyx Kuleyni ,əl-Kafi, c. 2, s. 370.

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: “Duadan möhkəm yapışın! Həqiqətən də, Allah dua etmək, Allahdan istəmək təqdir olunan, hökm edilən və imza olmayan bəlanı geri qaytarar”.[619]

[619] Həmin mənbə.

## Beşinci mövzu

## Bəda adlanmasının səbəbi

**Birinci rəy:**

Allaha nisbətdə bəda demək məcazi mənadadır. Burada bədadan məqsəd "ibda" yəni aşkar etmək mənasıdır. Belə ki, bəndələrə gizli qalan, güman etməkdikləri, səbəblərini bilmədikləri üçün nəzərlərində və düşüncələrində olmayan Allahın felləri onlar üçün aşkar olur.

Şeyx Mufid belə deyir: **"بدا لله"** (Allah üçün aşkar oldu) sözündəki "li" ön qoşması "min" ön qoşması mənasındadır. Yəni Allah tərəfindən insanlar üçün aşkar oldu. Ərəblər belə deyir: **" قد بدا لفلان عمل حسن او بدا له كلام فصيح"** "filankəsdən gözəl əməl aşkar oldu" və ya "filankəsdən gözəl söz aşkar oldu".

Necə ki, **بدا من فلان كذا** (filankəsdən filan iş aşkar oldu) deyirlər. Burada "li" ön qoşmasını "min" ön qoşması yerində işlədirlər. Onların (şiələrin) **بدا لله** (bəda lilləh) demələri **بدا من الله** (bəda minallah) mənasındadır".[620]

Şeyx Tusi belə deyir: "Bədanın lüğəti mənası aşkar olmadır. Allahın güman etdiyimiz və ya bildiyimiz yaxud da şərtini bilmədiyimiz əməlinin əksinin bizə aşkar olmasının heç bir maneəsi yoxdur".[621]

**Mülahizə:**

Bu məna özlüyündə düzgündür. Lakin Əhli-Beyt (ə) imamlarının təkid etdikləri bədanın bu mənada olması mümkün deyil. Həmçinin bu fəsilin ikinci mövzusunda qeyd etdiyimiz hədislərdən dediyimiz aşkar olur.

**Dəlil:**

Bəndələrin güman etmədiyi bir şeyin Allah-taala tərəfindən aşkar olması təbiidir. Çünki insanların bilgisi və elmi az və naqisdir. Allah-taala

[620] Bax; Şeyx Mufid, Təshihu itiqadatil-imamiyyə, s. 65.

[621] Şeyx Tusi, əl-Ğeybə, s. 430.

belə buyurmuşdur: **“...Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!”**[622] Bununla da aydın olur ki, insan Allahın felləri barədə həddindən artıq cüzi bildiyi üçün bəda qeyd olunan mənadan daha yüksəkdir.

**İkinci rəy:**

Bəda Allahın bəndələri üçün təqdir etdiyini dəyişməsidir. Bəda bəndələrin etdikləri işlər Allaha aşkar olmasına görə Allah-taalanın rəftarının dəyişməsinə səbəb olacaq bəzi dəyişiklikdən sonra baş verir. Növbəti mövzularda Allaha aşkar olma mənasını izah edəcəyik.

[622] İsra surəsi, ayə 85.

## Altıncı mövzu

## Allah-taala üçün aşkar olmanın mənası

**Allah-taalaya nisbət verilməsi düzgün olmayan aşkar olmanın mənası:**[623]

Gizli olduqdan sonra aşkar olma bilmədikdən sonra bilmək mənasındadır.

**Allah-taalanın bu növ aşkar olmadan uca və pak olması:**

Bu məna Allahın cəhalətlə vəsf olunmasını, məsələlərin Allah-taaladan gizli qalması və işlərinin nəticələrini bilməməsini ehtiva edir. Lakin Allah-taala bu kimi məsələlərdən uca və pakdır. Çünki heç bir şey Allaha gizli deyil və O hər şeyi bilir.

İmam Cəfər Sadiq (ə) belə buyurub:

"Allah üçün aşkar olan (bəda baş verən) elə bir şey yoxdur ki, əvvəlcədən Allahın elmində olmasın".[624]

"Heç bir şey Onun bilməməsindən aşkar olmamışdır".[625]

"Onun üçün aşkar olan elə bir şey yoxdur ki, elmində olmasın. Allah-taala üçün heç bir şey cəhalətdən aşkar olmaz".[626]

İmam Cəfər Sadiqdən (ə) belə soruşdular: "Bu gün elə bir şey varmı ki, dünən Allahın elmində olmasın?" İmam (ə) buyurdu: "Əsla yox! Kim belə deyərsə, Allah onu xar etsin".[627]

"Kim Allahın dünən bilmədiyi bir şeyin bu gün Onun üçün aşkar olduğunu iddia edərsə, ondan uzaq olun".[628]

---

[623] Bax; Şeyx Mufid, Təshihul-itiqadatil-imamiyyə, s. 65.

[624] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 148.

[625] Həmin mənbə.

[626] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 121.

[627] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 148.

[628] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 111.

“Kim Allah üçün peşmançılıq üzündən bir şeyin aşkar olmasını iddia edərsə, bizim nəzərimizdə o, böyük Allaha küfr etmişdir”.[629]

**Allah-taalaya nisbət verilən düzgün aşkar olunma:**

Gizlilikdən sonra aşkar olunmanın mənası budur ki, Allah-taala olmadıqdan sonra müəyyən şeyin baş verməsini bilməsidir.

**İzah:**

Allaha aşkar olma iki qismə bölünür:

**1.** Allahın zati elmi məqamında aşkar olma.

Bütün şeylər – bu mənada – Allah üçün aşkardır. Heç bir şeyi bu məqamda istisna etmək olmaz.

**2.** Allahın feli elmi baxımından aşkar olma.

Feli elm varlıqların real aləmdə var olduqdan sonra Allaha aşkar olmasıdır. Bütün varlıqlar – bu mənada – fel məqamında yalnız real aləmdə baş verdikdən sonra aşkar olur. Amma hələ mövcud olmayan və real aləmdə varlığı olmayan şeylər isə fel məqamında aşkar deyil. Hətta onun fel məqamında aşkar olmasının mənası yoxdur. Çünki həmin şeylər hələ yoxdur və real aləmdə varlığa sahib deyil.[630]

**Başqa sözlə desək;**

Real aləmdə mövcud olan şeyləri Allah-taala zati elmi ilə bilir. Həmin şeylər real aləmdə Allah üçün aşkardır. Mövcud olmayan və real aləmdə baş verəcək şeyləri Allah-taala zati elmi ilə bilir, lakin həmin şeylər yalnız baş verdikdən sonra Allah üçün aşkar olur.

**Nəticə:**

“Aşkar olma” məfhumunun barəsində bəyan etdiyimiz bölgüdən sonra bəda, yəni filan şey aşkar olmadan sonra Allah üçün aşkar oldu

[629] Şeyx Səduq, əl-İtiqadat, s. 41.

[630] Bax; Şeyx Tusi, İddətul-usul, c. 2, s. 496.

dedikdə məqsədimiz budur: Allah-taala əvvəlcədən bildiyi və real aləmdə olmayan bir şey sonra aşkar oldu.

**Bu növ aşkar olmanın Qurani-kərimdə nümunəsi:**

Allah-taala buyurur: **"(Ey möminlər!) And olsun ki, Biz içərinizdəki mücahidləri və (əziyyətlərə) səbr edənləri ayırd edib bilmək (ümmətə məlum etmək) üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri (əməllərinizi) də yoxlayacağıq".**[631]

Yəni cizin cihad etdiyinizi bilək.[632] Çünki cihad baş vermədən əvvəl kimin cihad edəcəyi real aləmdə baş verməmişdir. Cihad baş verdikdən sonra real aləmdə baş verdiyi məlum olur.[633]

Allah-taala buyurur: **"...(Ya Rəsulum!) İndi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik..."**[634]

Yəni fel məqamında və real aləmdə bunu edənləri bilmək üçün təyin etdik. Çünki Allah-taala bu hadisə baş verməmiş zati elmi ilə bunları bilirdi. Burada məqsəd real aləmdə baş verənlərin varlıqlarını bilmək olan feli elmdir.[635]

**Bədanın ilahi qəza ilə əlaqəsi**

**İlahi qəzanın qisimləri:**

**1. Hətmi (qəti) qəza.** Bu növ qəza qətidir, heç bir dəyişiklik baş vermir və əvəz olunmur.

---

631 Muhəmməd surəsi, ayə 31.

632 Bax; Şey Tusi, Ət-Tibyan fi təfsirul-Quran,, Muhəmməd surəsinin 31-ci ayəsinin təfsiri, c. 9, s. 306; Şeyx Təbərsi, Məcməul-bəyan fi təfsiril-Quran, Muhəmməd surəsinin 31-ci ayəsinin təfsiri, c. 9, s. 161.

633 Şeyx Tusi, İddətul-usul, c. 2, s. 496.

634 Bəqərə surəsi, ayə 143.

635 Daha ətraflı məlumat üçün bu kitabın səkkizinci fəsili, doqquzuncu mövzuya müraciət et.

**2. Qeyri-hətmi (qəti olmayan) qəza.** Bu növ qəza qəti olmur. Allah-taala onun baş verməsini bəzi şərtlərin olmasından asılı etmişdir. Buna əsasən də bu növ qəzada şərtlər mövcud olmadıqda dəyişiklik və əvəz olunma baş verir.

**Bədanın ilahi qəza ilə əlaqəsi.**

Bəda hətmi deyil, qeyri-hətmi qəzada baş verir. Buna əsasən də Şeyx Mufid belə deyir: "Allah-taala tərəfindən olan bəda şərtlərdən asılı olan təqdirlərə məxsusdur".[636]

**Hətmi və qeyri-hətmi olan ilahi qəzaya adi nümunə: Əcəl.**

Əcəl insanın dünya həyatında yaşayacağı müəyyən müddət mənasındadır.

**Əcəlin qisimləri.**

**1. Hətmi əcəl (əcəlun-musəmma).**

Bu növ əcəli Allah-taala müəyyənləşdirmiş, önə keçməyəcək və təxirə salınmayacaq bir surətdə hökmünü vermişdir.

**2. Qeyri-hətmi əcəl.**

Allah-taala bu növ əcəli dəyişən əcəl qərar vermişdir.

**Allah-taalanın aşağıdakı ayəsi barədə Əhli-beytin (ə) sözləri:**

**"Sizi palçıqdan yaradan, sonra da (sizin üçün) bir əcəl (ölüm vaxtı) müəyyən edən Odur. (Allahın) yanında məlum bir əcəl də vardır..."**[637]

İmam Cəfər Sadiq (ə) buyurub: "İki əcəl vardır: (Şərtlərdən) asılı olan əcəl. Allah istədiyini edir. İkincisi isə hətmi əcəldir".[638]

Həmçinin buyurub: "Məlum olmayan əcəl (şərtlərdən) asılı deyil. Allah həmin əcəlin istədiyini önə keçirər, istədiyini isə təxirə salar. Məlum əcələ (hətmi əcələ) gəlincə isə, (həmin əcəl) hətmidir (qətidir). Allah-taala

---

[636] Şeyx Mufid, Təshihu itiqadatil-imamiyyə, s. 67.

[637] Ənam surəsi, ayə 2.

[638] Təfsirul-Əyaşi, c. 1, s. 355.

buyurur: **“Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı (ölüm, tənəzzül və ya əzaba düçar olma çağı) vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə (ondan) nə geri qalar, nə də irəli keçə bilərlər!”**[639].[640]

Həmran bin Əyun İmam Muhəmməd Baqirdən (ə) bu ayə barəsində soruşduqda imam belə cavab verdi: “İki əcəl vardır: Hətmi (qəti) əcəl və (şərtlərdən) asılı əcəl”. Həmran dedi: “Hətmi əcəl hansıdır?”. İmam (ə) buyurdu: “O əcəldir ki, ondan başqası olmaz”. (Həmran) dedi: “Bəs (şərtlərdən) asılı olan hansıdır?” (İmam) buyurdu: “Həmin əcəldir ki, onda Allah istədiyini edir. (Yəni istədiyini önə keçirir və ya istədiyini təxirə salır)...”[641]

[639] Əraf surəsi, ayə 34.

[640] Həmin mənbə, c. 1, s. 354.

[641] Əllamə Məclisi, Biharul-ənvar, c. 52, s. 249.

## Səkkizinci mövzu

## Bəda və lövhul-məhvi vəl-isbat

Allah-taala buyurur: **“Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır.”**[642]

**Lövhin növləri.**

**1. Lövhil-məhfuz (ummul-kitab).**

Bu, hətmi olan ilahi qəza və qədərin yazıldığı lövhədir. Buna əsasən də bu lövhə məhv, dəyişilmə və əvəz olunmadan qorunur. Bu lövhədə yazılanlarda bəda baş vermir.

**2. Lövhil-məhvi vəl-isbat (yazılanların pozulması və ya sabit saxlandığı lövhə).**

Bu lövhədə qeyri-hətmi olan ilahi qəza və qədər yazılır. Yəni Allah tərəfindən baş verməsi müəyyən şərtlərdən asılı olan qəza və qədər nəzərdə tutulur. Buna əsasən də bu lövhədə yazılanlar dəyişilir və əvəz olunur. Allah-taala bu lövhədə olanları istədiyi kimi pozar, dəyişər, əvəzləyər və ya saxlayar.

**İzah:**

Lövhil-məhvi vəl-isbat adlanan lövhədə Allah-taala gələcəkdə baş verənləri yazar. İnsanların felləri və mövqeyləri Allahın onlar üçün təyin olunmuş təqdirin dəyişilməsində rol oynadığı üçün insanlar əməllərini, davranışlarını dəyişdikdə Allah-taala da onlar üçün təyin olunmuş müqəddəratı dəyişir. Belə ki, lövhil-məhvi vəl-isbat lövhəsində yazılanları başqa təqdirlə əvəz edir.

[642] Rəd surəsi, ayə 39.

**Bəda ilə Allahın zati elmi arasında əlaqə:**

İlahi təqdirdə dəyişikliyin baş verməsi Allahın zati elmində dəyişikliyin baş verməsini gərəkdirmir. Çünki Allah-taala birinci təqdiri bildiyi kimi əzəldən bu təqdiri başqa təqdirlə dəyişəcəyini də bilirdi.

## Doqquzuncu mövzu

## Allah-taala üçün bədanın baş verməsinin nümunələri

**Birinci nümunə: Yunis (ə)-ın qövmündən əzabın götürülməsi.**

Allah-taala buyurur: **“Əzab gəlməkdə ikən Yunisin ümmətindən başqa iman gətirib imanı özlərinə fayda verə bilən bir məmləkət əhli vardırmı? (Yunisin ümməti) iman gətirən zaman onları dünyadakı rüsvayçılıq əzabından qurtardıq və onlara bir müddət (ömürlərinin axırınadək) gün-güzəran verdik”.**[643]

**Yunisin (ə) qövmünə nisbətdə bədanın baş verdiyi mərhələlər:**[644]

**1.** Həzrət Yunis (ə) qövmünü hidayətə və imana dəvət etdi.

**2.** Yunisin (ə) qövmü küfr və asi olmaqda israr etdi.

**3.** Yunis (ə) peyğəmbər qövmünün haqqa gəlməsindən ümidsiz oldu. Allahdan onlara bəla göndərməsini istədi.

**4.** Allah-taala Yunisin (ə) qövmünün əleyhinə etdiyi duanı qəbul elədi.

**5.** Allah-taala Yunisin (ə) qövmünə qəti olmayan hökmlə bəla gəlməsini hökm etdi.

**6.** Allah-taala Yunis (ə) peyğəmbərə vəhy etdi ki, filan gün onun qövmünə bəla göndərəcək.

**7.** Yunis (ə) peyğəmbər qövmünə Allahın bəla göndərəcəyini bildirdi.

**8.** Yunis (ə) peyğəmbər müəyyən olunmuş gün qövmünün yaşadığı məntəqəni tərk etdi.

---

643 Yunis surəsi, ayə 98.

644 Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, c. 5, Yunis surəsinin 98-ci ayəsinin təfsiri, s. 203, 205.

**9.** Müəyyən olunmuş zamanda Yunisin (ə) qövmünə göndəriləcək ilahi əzabın əlamətləri aşkar oldu.

**10.** Yunisin (ə) qövmü Allaha asi olduqlarına peşman oldular və tövbə edərək Allaha sığındılar.

**11.** Yunisin (ə) qövmünün peşman olub tövbə etdiklərinə və Allahdan yardım diləmələrinə görə Allah-taala əzabı onlardan götürdü.

**12.** Yunisin (ə) qövmünün tövbəsindən sonra Allah onlar üçün təyin etdiyi əzab hökmünü dəyişdi.

**13.** Allahın onlar barədə ikinci müqəddərat təyini əzabın onlardan götürülməsi və müəyyən müddətədək onlara möhlət vermək idi.

**15.** Məhz burada bəda baş verdi. Beləcə Allah-taala istədiyi şeyi pozar, istədiyini də sabit saxlayar.

**İkinci nümunə: Yunis (ə) peyğəmbərə nisbətdə başqa bir bədanın baş verməsi.**

Allah-taala buyurur: **"Əgər o, (Allahı) çox təqdis edənlərdən (namaz qılanlardan) olmasaydı, yəqin ki, balığın qarnında qiyamət gününə qədər qalardı".**[645]

**Burada baş verən bədanın mərhələləri:**[646]

**1.** Yunis (ə) peyğəmbər qövmünə bəla göndərilmədiyi üçün narazı oldu və qövmünə geri dönmədi.

**2.** Allah-taala belə təqdir və hökm etdi ki, balina Yunis (ə)-ı udsun və o, qiyamət gününədək onun bətnində qalsın.

**3.** Yunis (ə) peyğəmbər balinanın qarnında daha çox Allahı zikr edib şəninə təriflər deməyə başladı.

---

[645] Saffat surəsi, ayə 143, 144.

[646] Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, c. 5, Yunis surəsinin 98-ci ayəsinin təfsiri, s. 203, 205.

**4.** Yunis (ə) peyğəmbərin real aləmdəki zikr və həmd söyləyərək yalvarışları Allah üçün aşkar oldu.

**5.** Allah-taala Yunis (ə) peyğəmbərin xüsusilə də, qiyamət gününədək balinanın qarnında qalması müqəddəratını dəyişdi.

**6.** Allah-taala birinci müqəddəratı başqa müqəddəratla əvəzlədi. Həmin müqəddərat Yunis (ə) peyğəmbərin balinanın qarnından çıxarılması idi.

**7.** Allah Yunis (ə) peyğəmbəri balinanın qarnından çıxartdı və belə buyurdu: **"Əgər o, (Allahı) çox təqdis edənlərdən (namaz qılanlardan) olmasaydı, yəqin ki, balığın qarnında qiyamət gününə qədər qalardı".**[647]

**Üçüncü nümunə: Musa (ə) peyğəmbərin görüş müddətinin dəyişilməsi.**

Allah-taala buyurur: **"Musa ilə otuz gecə (oruc tutub dua edəcəyi, bunun müqabilində ona Tövratı nazil edəcəyimiz və özü ilə danışacağımız) barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin (ibadət üçün) təyin etdiyi müddət tam qırx gecə (gün) oldu..."**[648]

**Burada bədanın baş vermə mərhələləri:**

**1.** Allah-taala Musa (ə) üçün otuz gün müddətində vədələşdi.

**2.** Musa (ə) qövmünə xəbər verdi ki, otuz gün onlardan uzaq olacaq. Onlara: "Rəbbim mənimlə görüş üçün otuz gecə vədələşib" dedi.[649]

**3.** Musa (ə) peyğəmbər Rəbbinin görüşünə getdi və otuz gecə Onunla raz-niyaz etdi.

---

[647] Saffat surəsi, ayə 143, 144.

[648] Əraf surəsi, ayə 142.

[649] Qurtubi, əl-Camiu li əhkamil-Quran, c. 7, Əraf surəsinin 142-ci ayəsinin təfsiri, s. 175.

**4.** Allah-taala Musa peyğəmbərin görüş müddəti xüsusunda olan birinci müqaddəratı dəyişdi və başqa müqəddəratla əvəzlədi. Belə ki, vədələşdiyi müddəti əlavə on gün artırdı.

**5.** Bəlkə də bu dəyişilmənin səbəbi Musa (ə)-ın qövmünün vəziyyətinin Allaha aşkar olması oldu. Allah-taala onları sınağa çəkmək və Musa (ə) peyğəmbərin gecikəcəyi təqdirdə onların mövqeylərinin necə olacağını görmək istədi.

**Dördüncü nümunə: Allah-taalanın bəy və gəlindən ölümü uzaqlaşdırması.**

Nəql olunur ki, İsa (ə) toy-bayram edən bir qövmün yanından keçirdi. "Onlara nə olub?" deyə soruşdu. (Həvarilər) dedilər: "Ey Allahın ruhu, bu gecə filankəsin qızı filankəsin oğluna gəlin gedir". (İsa peyğəmbər) dedi: "Bu gün şadyanalıq edirlər. Amma sabah ağlayacaqlar". Bir nəfər dedi: "Nə üçün, ya Rəsulullah!" (İsa) dedi: "Çünki gəlin bu gecə öləcəkdir..." Ertəsi günü orada bir şey baş vermədiyini gördülər və belə dedilər: "Ya Ruhullah, dünən xəbər verdin ki, gəlin öləcək. Amma o, ölməmişdir". İsa (ə) dedi: "Allah istədiyini edəndir. Gəlin birlikdə onun yanına gedək"...

Gəlin dedi: "Hər cümə axşamı bir dilənçi bizim yanımıza gələrdi. Ona yetəcək qədər ərzaq verərdik. O, mənim başımın qarışıq olduğu gecə yanıma gəldi. Ailə üzvlərim də məşğul idi. O, səsləndi. Amma heç kim ona cavab vermədi. Sonra dəfələrlə səsləndi, amma yenə heç kim ona cavab vermədi. Onun səsini eşidəndə yerimdən qalxdım və hər dəfəki kimi ona pay verdim. İsa (ə) ona dedi: "Oturduğun yerdən qalx". Onu oturduğu yerdə paltarlarının altında quyruğu ağzında bir əfi ilan vardı. (İsa) dedi: "Etdiyin əmələ görə Allah sənu bundan qorumuşdur".[650]

[650] Şeyx Səduq, əl-Əmali, s. 589, 590.

**Beşinci nümunə: Allah-taala yəhudidən ölümü uzaqlaşdırır.**

İmam Cəfər Sadiq (ə)-ın belə buyurduğu nəql olunur: "Bir yəhudi Peyğəmbərin (s) yanından keçirdi. O, "əs-Sammu aleykə (sənə ölüm olsun)" dedi. Rəsulullah (s) da ona: "Sənə də olsun" dedi. Səhabələr dedilər: "O, sənə ölümlə salam verdi. Sənə ölüm olsun dedi". Rəsulullah (s) dedi: "Məndə ona elə o cür cavab verdim". Sonra Peyğəmbər (s) belə dedi: "Bu yəhudini bir ilan başından sancacaq və onu qətlə yetirəcək". Yəhudi gedib odun topladı. Kürəyinə yığıb geri döndü. Rəsulullah (s) ona: "Odunu yerə qoy!" dedi. Yəhudi odun bağlamasını yerə qoydu. Odunların arasında bir qara ilan bir ağac parçasına sarılmışdı. Peyğəmbər (s) dedi: "Ey yəhudi, bu gün nə etmisən?" Yəhudi dedi: "Bu gün odun yığıb gətirməkdən başqa bir şey etməmişəm. Mənim yanımda iki qoğal vardı. Birini yedim. Digərini isə yoxsul birinə sədəqə verdim". Rəsulullah (s) dedi: "Həmin sədəqəyə görə Allah ondan bunu (ilanı) dəf etmişdir". Sonra Rəsulullah (s) buyurdu: "Sədəqə insandan pis ölümü uzaqlaşdırar".[651]

**Altıncı nümunə: İlahi yardımın tez və gec olması.**

İmam Cəfər Sadiqdən (ə) belə nəql olunur:"Bəni İsrailin içində bir peyğəmbər vardı. Allah-taala on beş gecə sonra ona yardım edəcəyini vəd etmişdi. O, bunu qövmünə bildirmişdi. Qövm: "Allaha and olsun ki, bunu mütləq edəcəkdir!" demişdi. Allah-taala onlara edəcəyi yardımı on beş il təxirə saldı. Allah-taalanın yardım edəcəyini on beş il sonraraya təxirə salmasını bilən şəxs onların arasında idi. Bu barədə onlara xəbər verdikdə belə dedilər: "Allah istəyən olar". Bundan sonra Allah onlara edəcəyi yardımı on beş gecəyə baş verəcəyi hökmünü verdi".[652]

---

[651] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 5.

[652] Şeyx Səduq, əl-İmamə vət-təbsirə, s. 95; Əllamə Məclisi. Biharul-ənvar, c. 4, s. 112.

**Yeddinci nümunə: Kralın əcəlinin Allah tərəfindən təxirə salınması.**

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: " Atam ata və babalarından mənə belə xəbər vermişdir ki, Rəsulullah (s) belə buyurub: "Allah-taala peyğəmbərlərindən birinə belə vəhy etdi: "Filan krala xəbər ver ki, mən filan vaxt onu həlak edəcəm. Həmin peyğəmbər kralın yanına gəlib xəbəri ona çatdırdı. Kral Allaha dua etməyə başladı. O, taxtının üstündən yerə düşdü və belə dedi: "Ya Rəbbi, uşaqlarım böyüyənədək və işlərimi tamamlayanadək mənə möhlət ver". Allah-taala həmin peyğəmbərə belə vəhy etdi: "Get həmin krala de ki, mən onun əcəlini təxirə saldım və ömrünü on beş il uzatdım". Peyğəmbər belə dedi: "İlahi, Sən bilirsən ki, mən heç vaxt yalan danışmamışam!" Allah-taala ona belə vəhy etdi: "Sən əmri icra edən bir qulsan. Ona bu xəbəri çatdır. Allah-taala etdiklərinə görə sorğu sual olunmaz".[653]

[653] Şeyx Səduq, ət-Tövhid, s. 430, 431.

## Onuncu mövzu

## Bəda əqidəsinin əhəmiyyəti

1. Allahın fellərində azad olmasının təkidi.

Allah-taala əzəldən müəyyən bir məhdud müqəddərata bağlı deyil. Belə ki, Allah-taala əzəldən Özü üçün müəyyən bir qədər təyin etməyib ki, onu keçə bilməsin. Əksinə Allah-taala əvvəlcədən təyin etdiyi qədəri başqa qədərlə dəyişməyə qadirdir. Hər hansı bir şeyin qədərini təyin etmək və ya onu dəyişməsinin qarşısını ala bilməz. Başqa sözlə desək, əgər Allah-taala bir şeyin qədərini təyin edirsə, əvvəlcədən təyin etdiyi qədərə müvafiq əməl etməkdə məcbur deyil. Əksinə O, bu qədəri dəyişməkdə və başqa bir qədərlə əvəz etməkdə qüdrət və azadlığa sahibdir.

2. Allah-taalanın varlıq aləminə hakim olmasının təkid olunması. O, varlıq aləmini iradə və hikmətinə müvafiq olaraq birbaşa idarə edəndir.

3. İnsanın ixtiyar sahibi olması, həmçinin, öz taleyini, hərəkətlərini və əməllərini dəyişməyə qadir olmasının təkidi. Məhz bu insanı səviyyəsini yüksəltmək, mümkün olan maddi səbəblərə və dua, təvəssül, sədəqələr, müxtəlif itaətlər və yaxşılıqlar kimi mənəvi səbəblərə istinad edərək daha üstün olana yetişməyə çatmaq üçün çalışqanlıq göstərməsinə gətirib çıxarır. Amma əksinə insan bütün müqəddəratın insanın heç bir rolu olmadan Allahın ixtiyarında olmasına, insanın taleyinin əvvəlcədən yazılmasına onu dəyişməyin qeyri-mümkün olmasına inanarsa, bu əqidə insanı uğursuzluğa, ümidsizliyə sürükləyir, öz müqəddəratını yaxşıya doğru dəyişməkdə iradə və gücünü əlindən alır. Ümumiyyətlə, bədaya etiqad etmək Allah-taalanın təyin etdiyi müqəddəratı dəyişməyə qadir olmasına etiqad bəsləməkdir. Məhz bu insanı taleyini daha yaxşıya doğru dəyişmək üçün səy göstərməyə stimul verir.

4. Allah-taalanın iradəsinin qədim deyil, sonradan baş verməsinin təkidi. Allahın iradəsi iki qismə bölünür:

**Birinci:** Müəyyən bir vaxtda felin baş verməsini istəmək.

**İkinci:** Gələcək zamanda felin baş verməsini istəmək.

Birinci növ iradədə müəyyən felin eyni vaxtda baş verməsini istəməkdir. Bu iradə nəzərdə tutulan felin real aləmdə baş verməsində öz əksini tapır. Allah-taala buyurur: **"Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar".**[654]

İkinci növ iradə isə lövhələrdə yazılmaqla öz əksini tapır. Allahın hətmi iradəsi ummul-kitab adlanan lövhədə öz əksini tapır. Allahın qeyri-hətmi (qəti olmayan) iradəsi isə lövhil-məhv vəl-isbat lövhəsində öz əksini tapır.

[654] Yasin Surəsi, ayə 82.

## On birinci mövzu

## Bəda və yəhudilərin əqidəsinə rəddiyyə cavabı

Şeyx Səduq belə deyir: "Bəda yəhudilərə bir cavabdır. Çünki onlar belə demişlər: "Allah-taala işlərini tamamilə bitirmişdir". Biz isə deyirik: "Allahın hər gün bir şəni vardır. O, dirildir, öldürür, ruzi verir və istədiyini edir".[655]

**Yəhudilərin əqidəsi:**

Yəhudilərin əqidəsinə əsasən Allah-taala əzəldən aləmin müqəddəratını təyin etmiş və işini tamamilə bitirmişdir. Allahın təyin etdiklərində heç bir dəyişiklik ola bilməz. Artıq qələm qurumuşdur. Bu əqidəyə əsasən Allah-taala əvvəlcədən müqəddərat qələminin yazdıqlarını dəyişməkdə acizdir.

**Yəhudilərin əqidəsinə rəddiyyə cavabı:**

Bəda əqidəsi yəhudilərin əqidəsinə rədd olaraq təkid olunmuşdur. Bu əqidə ixtiyarın Allahın əlində olmasını və Allahın işlərinin hələ bitməməsini, əksinə hətmi olmayan bütün növ ilahi qədər və qəzada dəyişikliyin olmasını təkid edir.

İmam Cəfər Sadiq (ə) Allah-taalanın **"Yəhudilər dedilər: "Allahın əli bağlıdır!"..."**[656] ayəsi barədə belə buyurub: "... Yəhudilər bu işin tamamlandığını, nə artıb, nə də azala biləcəyini dedilər". Allah-taala onların əqidəsinin batil olmasını bəyan edərək belə buyurur: **"... Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. (Və ya dedikləri sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər!) Xeyr, Allahın əlləri açıqdır. (O, kərimdir, səxavətlidir), istədiyi kimi lütf (və ehsan) edər".**[657] Məgər eşitməmisənmi Allah-taala belə buyurur:

---

[655] Şeyx Səduq, ət-Tövhid, s. 327

[656] Maidə, 64

[657] Maidə, 64

**“Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır”.**[658].[659]

İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: “Yəhudilər belə dedilər: **“Yəhudilər dedilər: “Allahın əli bağlıdır!”...”**[660]. Onlar Allah-taalanın bütün işləri tamamlayıb bitirdiyini və heç bir şey etməyəcəyini nəzərdə tuturdular. Allah-taala belə buyurdu: **“... Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər...”**[661]

Bu necə ola bilər ki, iş tamamlansın? Halbuki Allah-taala buyurur: **“...(Allah) məxluqatda istədiyini artırar...”**[662]

Allah-taala buyurub: **“Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır”.**[663].[664]

Buna əsasən də İmam Cəfər Sadiq (ə) səhabələrindən birinə belə buyurub: “Dua elə! Demə ki, artıq hər şey bitib”.[665]

---

[658] Rəd, 39

[659] Şeyx Səduq, ət-Tövhid, s. 163

[660] Maidə, 64

[661] Şeyx Səduq, Uyunu-əxbari-Rza, c.2, s. 161

[662] Fatir, 1

[663] Rəd, 39

[664] Şeyx Səduq, ət-Tövhid, s. 167

[665] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 366

## On ikinci mövzu

## Bəda və peyğəmbərlərin qeyb barədə xəbər verdiklərinin baş verməməsi

Bəziləri bəda əqidəsinə irad tuturaraq bu əqidə peyğəmbərləri təkzib etməyə və onlara inamsızlığın yaranmasına gətirib çıxarır. Çünki onlar müəyyən hadisələrin baş verəcəyini dedikdən sonra ilahi bəda baş verdiyi üçün həmin hadisələr baş verməmişdir.

**Cavab:**

Allah-taalanın gələcəkdə baş verməsini istədiyi işlər iki qismə bölünür:

**1. Qəti olaraq baş verəcək işlər.**

Bu həmin işlərdir ki, Allah-taalanın qəti iradəsi həmin işlərə şamil olmuşdur. Bu işlər Allah-taalanın dəyişilməsini istəmədiyi qəza və qədərdəndir.

**2. Qeyri-qəti olan işlər.**

Bu kimi işlərə Allahın iradəsi şamil olmuşdur. Lakin baş verməsi bəzi şərtlərdən asılı qərar verilmişdir. Buna əsasn də bu kimi işlər məhv, dəyişilmə və əvəz olunmağa məruz qalır və ya sabit saxlanılır.

**Peyğəmbərlərin verdikləri xəbərlərin növü.**

Peyğəmbərlərin verdikləri xəbərlərin əksəriyyəti bəda baş verməyən hətmi (qəti) işlərdəndir. Buna əsasən də hədislərdə belə buyurulur:

İmam Məhəmməd Baqir (ə) buyurub: “İşlərdən eləsi vardır ki, onun baş verməsi qətidir. Elə işlər də vardır ki, Allahdan asılıdır. Həmin işlərdən istədiyini önə keçirər və istədiyini isə təxirə salar, istədiyini pozar və istədiyini sabit saxlayar. Bundan heç kim xəbərdar deyil. Peyğəmbərlərin

xəbər verdiklərinə gəlincə isə, onlar baş verməsi vacib olan işlərdəndir. Allah nə Özünü, nə peyğəmbərlərini, nə də mələklərini təkzib etməz".[666]

Həmçinin o həzrət buyurub: "Elm iki qismə bölünür: Elə elm var ki, Allahın yanındadır, yaratdıqlarından heç kimi bundan xəbərdar etməmişdir. Elə elm də vardır ki, onu mələklərinə və peyğəmbərlərinə öyrətmişdir. Mələklərinə və peyğəmbərlərinə öyrətdiyi elmə gəlincə, həmin elm baş verəcəkdir. (Allah) nə Özünü, nə mələklərini, nə də peyğəmbərlərini təkzib etməz. Elə elm də vardır ki, yalnız Onun yanındadır. O elmdən istədiyini önə keçirər, istədiyini isə təxirə salar, istədiyini isə sabit saxlayar".[667].[668]

**Nəticə:**

İmamın (ə) "Allah nə Özünü, nə mələklərini, nə də peyğəmbərlərini təkzib etməz" sözü peyğəmbərlərin xəbərlərində bədanın baş verməsini inkar edilməsi deyil. Çünki Qurani-kərim – qedy etdiyimiz kimi – Yunis (ə) peyğəmbərin əhvalatındakı kimi bədanın baş verməsinə dəlalət edir. Əksinə burada məqsəd Allah-taalanın Özünü, mələklərini və peyğəmbərlərini təkzib etməyə gətirib çıxaran bəda baş verməz. Növbəti səhifələrdə bunu izah edəcəyik.

## Peyğəmbərlərin qəti olmayan məsələlər və bəda barədə problemin həll olunması:

Peyğəmbərlərin verdikləri xəbərlərdə bədanın baş verməsi onların təkzib edilməsinə və ya onlara inamsızlığın yaranmasına gətirib çıxarmır.

---

[666] Təfsirul-Əyaşi, c. 2, s. 217, Rəd surəsinin təfsiri

[667] Qeyd: Hədisdə elmdən məqsəd Allahın zati elmi deyil. Əksinə birinci elmdən məqsəd Ummul-kitabda yazılan elmdir. Bu elmdə bəda baş verməz. Çünki bu elmdə dəyişilmə, əvəzlənmə baş vermir. İkinci elm isə məhv və isbat lövhəsində yazılanlardır. Bəda bu növ elmdə baş verir. Çünki bu lövhədə yazılanlar dəyişiklik və əvəz olunma qəbul edir.

[668] Şeyx Bərqi, əl-Məhasin, c. 1, s. 378

Çünki Allah-taala peyğəmbərlərin xəbərlərinin doğruluğuna dəlalət edən əlamətlər təyin etmişdir. Buna əsasən də görürük ki, hədislərdə nəql olunan bəda hallarında onların təsdiq olunmasına və peyğəmbərlərin xəbərlərinin doğru olmasına işarə edən əlamətlər vardır. Həmin əlamətlərdən bəzilərini qeyd edirik:

**1. Yunisin (ə) qövmündən əzabın götürülməsi.**

Yunis (ə) peyğəmbərin qövmünə əzab göndəriləcəyi barədə xəbərinin doğruluğunun əlaməti onun qövmünün ilahi əzabın nişanələrini görmələridir. Yunis (ə) peyğəmbərin xəbərinin doğruluğu üçün bu kifayət edir.

**2. İsa (ə) gəlinin öləcəyi barədə verdiyi xəbər.**

İsa (ə)-ın gəlinin paltarları altında ilanın olmasını xəbər verməsi onun doğru olmasının əlamətidir. Sonra İsa (ə) ona dedi: "Etdiyin iş (yəni həmin dilənçiyə yardım etməyin) səndən bu bəlanı uzaqlaşdırmışdır".

**3. Muhəmməd (s) peyğəmbərin yəhudinin həlak olması barədə verdiyi xəbər.**

Peyğəmbərin (s) xəbərinin doğru olması yəhudinin odunlarını yerə qoymasını əmr etməsidir. Odun yerə qoyulduqda isə ağac parçasına sarılmış ilan gördülər. Sonra o Həzrət (s) belə dedi: "Buna görə (yəni yoxsula verdiyin sədəqəyə görə) Allah səndən bu bəlanı dəf etmişdir".

**Nəticə:**

Peyğəmbərlərin (ə) baş verməsi barədə verdiyi xəbərlər ilahi bəda baş verdiyi üçün olmamışdır. Çünki Allah-taala onların xəbərlərinin doğruluğuna dəlalət edən nişanələr qərar vermişdir. Bədanın bəyan edilməsində məqsəd Allahın fellərində azad və ixtiyar sahibi olmasını və bu fəsilin onuncu mövzusunda qeyd etdiyimiz kimi insanın əməlləri ilə taleyini, müqəddəratını dəyişməkdə rol oynadığını təkid etmək üçündür.

## On üçüncü mövzu:

## Bədada istisna olunan hallar

**İlahi hikmət aşağıdakı hallarda bədanın baş verməməsini gərəkdirir:**

**1.** Peyğəmbərin xəbər verdiyi baş verməsi və ya baş verməməsi qəti olan hətmi məsələlər. Çünki bəda yalnız qeyri-hətmi məsələlərə şamil olur. Hətmi məsələlərə isə heç vaxt bəda şamil olmur. Buna əsasən də peyğəmbər tərəfindən baş verməsi qəti olan xəbərlərdə bəda baş verərsə, bu, peyğəmbərin yalan danışması ilə nəticələnər. Nəticədə isə insanlarda onun sözlərinə inamsızlıq yaranar.

**2.** Peyğəmbərin möcüzə olaraq xəbər verdiyi məsələlər. Məsələn, İsa (ə) buyurur: **"Və onu İsrail övladına (yəhudilərə) peyğəmbər göndərəcək. (İsa onlara deyəcək:) "Mən, həqiqətən, Rəbbinizdən sizə möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzlədib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri dirildərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda (söylədiklərimdə peyğəmbər olduğuna) bir dəlil vardır".**[669] Bu xəbərin hətmi məsələlərdən olması zəruridir. Əks təqdirdə bu xəbər bəda baş verən qeyri-hətmi məsələlərdən olsaydı məqsədə xələl gələrdi.

**3.** Nübuvvət, imamət kimi dinin zəruri prinsiplərindən olan məsələlərdə bəda baş vermir. Çünki bu kimi məsələlərdə bədanın baş verməsi bəndələrin azmasına və şəriətin nizamının pozulmasına gətirib çıxarır.

[669] Ali İmran surəsi, ayə 49.

Buna əsasən də Rəsulullahın (s) Əhli-beytindən olan imamlardan belə nəql olunur:

“Hər bir şeydə Allah üçün bəda baş verər. Lakin nə peyğəmbərin peyğəmbərliyini, nə də imamın imamlığını ləğv edən bəda baş verməz...”[670]

**Nəticə:**

Buna əsasən də İmam Cəfər Sadiqin (ə) oğlu İsmail barəsində baş verən bədanın[671] imamət məsələsi[672] barədə olmasını güman edənlər səhv edirlər. Burada baş verən bəda başqa mənada olmuşdur. İmam Sadiq (ə) bu məsələni bəyan edərək belə buyurur: “İsmailə iki dəfə qətl yazılmışdır. Allah-taaladan bunu dəf etməsini dilədim və Allah da dəf etdi”.[673] Yəni ilahi təqdirdə İsmailin iki dəfə qətlə yetirilməsi vardır. Lakin atası İmam Sadiqin (ə) duası ilə Allah-taala bu təqdiri dəyişmişdir.[674]

---

[670] Şeyx Mufid, əl-Məsail əl-əkbəriyyə, s. 100.

[671] İmam Cəfər Sadiq (ə) buyurub: “Allah üçün oğlum İsmail barəsində olduğu kimi bir bəda baş verməmişdir”. Şeyx Səduq, ət-Tövhid, s. 327.

[672] Burada məqsəd Allah-taalanın əvvəlcə İsmaili imam seçib sonra onun imamlığını ləğv edərək Musə bin Cəfəri imam seçməsi deyil. Bax; Şeyx Mufid, əl-Məsail əl-əkbəriyyə, s. 100.

[673] Şeyx Mufid, Təsisu itiqadatil-imamiyyə, s. 66.

[674] Burada baş verən bəda barəsində təfsir alimləri müxtəlif rəylər söyləmişlər. Həmin rəylərdən biri budur: Buradakı bədadan məqsəd Allah-təalanın tərəfindən İsmail bin Cəfər Sadiq barəsində insanların güman etdiklərinin əksi olan bir hadisənin aşkar olmasıdır. Belə ki, insanların çoxu onun atasından sonra imam olacağını düşünürdü. Allah-taala İsmaili bu dünyadan apardıqdan sonra insanlara güman etdiklərinin əksi aşkar oldu. Daha ətraflı məlumat üçün bax; Şeyx Səduq, ət-Tövhid, s. 327; Şeyx Səduq, əl-İtiqadat, s. 41. Bu fəsilin beşinci mövzusunda bu mənanın bədaya nisbət verilməsinin zəif rəy olduğunu müzakirə etmişik.

## On dördüncü mövzu

### Bəda ilə nəsx arasındakı oxşarlıq və fərq

**Nəsxin tərifi:**

Nəsx şəri hökmün aradan götürülüb başqası ilə əvəz olunmasıdır. Allah-taala buyurur: **"Biz (zaman, məkan və şəraitin tələbinə görə) hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olmasını bilmirsənmi?!"**[675]

**Nəsxin nümunələri:**

**1.** Allahın iradəsinə əsasən xoş nemətlər Bəni İsrailə halal buyurulmuşdur. Sonra bu barədə Allahın iradəsi dəyişdi. Xoş nemətləri onlara haram etdi. Aşağıdakı ayə bu dəyişilmənin səbəblərini bəyan edir.

Allah-taala buyurur: **"Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allahın yolundan döndərdiklərinə görə (əvvəlcə) özlərinə halal edilmiş gözəl (təmiz, halal) nemətləri onlara haram etdik. Və qadağan olunmasına baxmayaraq, sələm (faiz) aldıqlarından, haqsız yerə xalqın malını yediklərindən dolayı (halal olanı onlara haram buyurduq). Biz onlardan olan kafirlər üçün şiddətli bir əzab hazırlamışıq!"**[676]

**2.** Allah-taala namaz qılarkən müsəlmanlara üzlərini beytul muqəddəsə tərəf tutmalarını əmr etmişdir. Sonra Allah-taala bu hökmü nəsx etdi və Kəbəyə tərəf üzlərini tutmalarını əmr etdi.

**3.** Allah-taala buyurur: **"Ya Peyğəmbər! Möminləri döyüşə həvəsləndir (təşviq et). İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar**

[675] Bəqərə surəsi, ayə 106.

[676] Nisa surəsi, ayə 160, 161.

**(həqiqətən, Allahın möminlərə olan köməyini) anlamayan bir tayfadır!”**[677]

Sonra Allah-taala bu hökmü nəsx edərək belə buyurur: **“(Ey möminlər!) İndi Allah (yükünüzü) yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə (kafirə), min kişi olsa, iki min nəfərə Allahın iznilə qələbə çalar. Allah səbr edənlərlədir!”**[678]

**Bəda ilə nəsxin ən əsas oxşar cəhətləri və fərqləri.**

**Birinci:** Bədada Allah-taalanın təkvini iradəsinə əsasən Allah filan bir işi etmək istəyir, lakin sonra bu iradə dəyişir və başqa iradə onun yerini tutur.[679]

Nəsxdə isə Allahın təşrii iradəsinə əsasən Allah bəndənin filan işi etməsini istəyir. Lakin sonradan bu iradə dəyişir və yerini başqa iradə tutur.

**İkinci:** Bədada ilahi iradə, qəza və qədər yaradılış xüsusunda dəyişilir.

Nəsxdə ilahi iradə, qədər və qəza şəri məsələlər xüsusunda dəyişir.

**Üçüncü:** Bəda varlıqlarla bağlı olur. Allah-taala onların baş verməsi üçün müəyyən müqəddərat təyin edir. Lakin sonra həmin müqəddəratı başqası ilə əvəz edir.

Nəsx şəri məsələlərlə bağlıdır. Allah-taala müəyyən hökmü tətbiq etdikdən sonra həmin hökmü başqa hökmlə dəyişir.

---

[677] Ənfal surəsi, ayə 65.

[678] Ənfal surəsi, ayə 66.

[679] Məlumdur ki. Allah-təalanın iradəsi sonradan baş verir. Onun iradəsi dedikdə feli nəzərdə tutulur. Allahın bir iradəni başqa iradə ilə dəyişməsi bir feli başqa fel ilə dəyişməsi deməkdir.

**Bəda ilə nəsxin oxşarlığı barədə alimlərin rəyləri.**

Şeyx Səduq belə deyir: "Allah üçün bəda olmasını təsdiqləmək bizə vacibdir. Bədanın mənası budur ki, Allah hər hansı vaxtda bəndələrinə elə bir əmr etmir ki, həmin əmrin həmin vaxtda bəndələrinə faydalı olması üçün əmr etməsini bilməsin. Həmçinin bilir ki, başqa vaxtda onlara əmr etdiyini qadağan etməsi daha məqsədə uyğundur. Kim Allahın istədiyini etdiyinə, istədiyini etmədiyinə və onun yerinə istədiyini yaratdığına və istədiyini önə keçirməsinə, istədiyini təxirə salmasına, istədiyini əmr etməsinə etiqad edirsə, bədanı təsdiqləmiş olar".[680]

Şeyx Mufid belə deyir: "Bəda barəsində bütün müsəlmanların nəsx kimi fəqirlikdən sonra zənginləşdirmək, xəstəlikdən sonra sağaltmaq, öldürdükdən sonra diriltmək, məsələlərdə dediklərini, xüsusilə də, ədl əhlinin (mötəzilə və imamiyyə) əcəllər və ruzilər xüsusunda əməllər azalıb artmasını deyirəm".[681]

Şeyx Tusi belə deyir: "Bəda sözü Allah-taalaya nisbət verildikdə bəzən bu söz Ona aid olması doğru, bəzən isə doğru deyil. Allaha aid olması doğru olana gəlincə, bu elə nəsxin mənasındadır... Doğru olmayana gəlincə isə, bilmədikdən sonra bilmək mənasını nəzərdə tutmaqdır".[682]

Qeyd: Allah-taala müəyyən hökmləri nəsx edib başqası ilə əvəzlədikdə cəhalət və peşmançılıq çəkmək kimi sifətlərlə vəsf olunmaqdan uca və pakdır. Bunun səbəbi şəriət hökmləri xüsusunda insanların fayda və mənfəətlərinə qayıdır. Real aləmdə bəzi dəyişikliklərin baş verməsi nəticəsində insanlara faydalı olacaq hökmlər dəyişə bilər. Bu məsələ isə Allahın şəri hökmü dəyişərək yeni tələblərə daha münasib olan başqa hökmlərlə əvəz etməsinə səbəb olur.

---

[680] Şeyx Səduq, ət-Tövhid, s. 327.

[681] Şeyx Mufid, Əvailul-maqalat, s. 80.

[682] Şeyx Tusi, İddətul-usul, c .2, s. 495.

**Hədisi şərif.**

İmam Muhəmməd Baqir (ə) belə buyurub: "Yəhudilərdən bir qövm Rəsulullahın (s) yanına gəlib dedilər: "Ya Muhəmməd, sən Beytulmuqəddəsə doğru on dörd il namaz qıldın indi isə tərk etdin. Haqq əməl edirdin sonra batilə döndün? Yalnız haqq batilə qarşıdır. Yoxsa batil idi bu əməl? Bu uzun müddət batil əməl etmisən. Haradan biləkki, indi batil yolda deyilsən?" Rəsulullah (s) buyurdu: "O da haqq idi və bu da haqdır. Allah-taala buyurur: **"...(Ya Rəsulum! Onların cavabında) de: "Şərq də, Qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər".**[683] Ey Allah bəndələri, əgər Allah sizin məşriqə üz tutmanızın faydalı olacağını bilsə sizə bunu əmr edərdi. Əgər Allah sizin məğribə üz tutmanızın faydalı olacağını bilsə sizə bunu əmr edərdi. Əgər Allah sizin bu ikisindən başqa tərəfə üz tutmanızın faydalı olacağını bilsə sizə bunu əmr edərdi. Allahın bəndələri barədə hökmlərini və faydalarını istəməsini inkar etməyin".[684]

[683] Bəqərə surəsi, ayə 142.

[684] Şeyx Tusi, əl-İhticac, c. 1, s. 83. Bəda ilə nəsx arasındakı fərqlər barədə daha ətraflı məlumat əldə etmək üçün bax; Şərif Murtaza, əz-Zəxirə, s. 356; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-elm, s. 186; Əbussalah Hələbi, Təqribul-məarif, s. 163, 165; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 225 ,227.

## On dördüncü fəsil: Allah-taalanın kəlamı

**Allah-taalanın kəlamı məsələsinin xüsusiyyətləri**

**Kəlam, mutəkəllim (danışan) və kəlamın növləri**

**Allahın mutəkəllim sifəti ilə vəsf olunması**

**Allah-taalanın kəlamının həqiqəti**

**Allah-taalanın kəlamının qədim və ya hadis olması**

**Alla-təalanın kəlamının doğruluğu**

## Birinci mövzu

## Allah-taalanın kəlamı məsələsinin xüsusiyyətləri

**1.** Müsəlmanlar arasında Allah-taalanın mutəkəllim (danışan olması) barədə heç bir ixtilaf yoxdur. İxtilaf yalnız Allah-taalanın kəlamının həqiqəti, onun qədim və ya hadis olması barədə olmuşdur.

**2.** Qurani-kərimin qədimliyi və ya hadis olması məsələsi (yəni Allahın kəlamının qədim və ya hadis olması) hicri III əsrin əvvələrində müsəlmanlar arasında baş vermişdir. Bu məsələ tarixin qeyd etdiyi kimi müsəlmanları bir-birinin qanlarını tökmələrinə səbəb olacaq ixtilafların baş verməsilə nəticələnən böyük fitnələr yaratdı. Sonradan "Quran bəlası" adı ilə tanındı.[685]

[685] Bax; Təbəri, Tarixul-uməmi vəl-muluk, c. 8, s. 631, 645.

## İkinci mövzu

## Kəlam və mutəkəllimin mənası, kəlamın növləri

**Kalamın mənası.**

Kəlam ifadə etmək iqtidarında olan şəxs tərəfindən tələffüz olunması mümkün olan iki və daha çox hərfdən ibarətdir.[686]

**Mutəkəllimin mənası.**

Mutəkəllim xəbər vermək üçün mənaya dəlalət edən hərflər və səsləri yaradandır.[687]

**Kəlamın növləri.**

1. Ləfzi kəlam: Ləfz səsləri ehtiva edən hərflərdir.

2. Yazılı kəlam: Yazı tələffüz olunan hərfləri əks etdirən naxışlardır.

3. Feli kəlam: Ləfzi kəlamın ifadə etdiyi mənanı ifadə edən feldir.

**Allaha aid feli kəlamın izahı.**

Allah-taalanın bütün fellərini məcazi mənada Allahın kəlamları adlandırmaq olar. Çünki həmin fellər ləfzi kəlamın ifadə etdiyi bütün mənaları ehtiva edir.

**Nümunə:**

Allah-taala Məryəm oğlu İsanı "kəlimə" (söz) adlandıraraq belə buyurur: **"...Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur..."**[688]

---

[686] Bax; Əbussalah Hələbi, Təqribul-məarif, s. 106; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 59; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 211; Əllamə Hilli, Nəhcul-həqq və kəşfus-sidq, s. 549.

[687] Bax; Şeyx Mufid, əl-Məsailul-əkbəriyyə, s. 44; Miqdad Səyuri, İrşadut-talibin, s. 208, 209.

[688] Nisa surəsi, ayə 171.

Allah-taala Məsihi (ə) kəlimə (söz) adlandırır. Çünki Məsih onun feli və atasız olaraq insanın yaradılması ilə Allah-taalanın qüdrətini ifadə edir.

## Üçüncü mövzu

## Allahın mütəkəllim sifəti ilə vəsf olunması

Allah-taalanın mütəkəllim olmasının sübutu nəqli dəlillərlə öz əksini tapır. Əqli dəlilə gəlincə, Allah-taalanın qüdrətli olmasının sübut edilməsindən artıq bir şey ifadə etmir.[689]

**Allah-taalanın mütəkəllim olmasına dəlalət edən Quran ayələri:**

1. **"Allah bəşər övladı ilə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə (göndərildiyi kimsəyə) Onun istədiyini vəhy edər. Həqiqətən, O (hər şeydən) ucadır, hikmət sahibidir!"**[690]

2. **"(Ya Rəsulum!) Bu peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış..."**[691]

3. **"...Və Allah Musa ilə sözlə danışdı".**[692]

4. **"Musa təyin etdiyimiz vaxtda (Tur-i Sinaya) gəldikdə Rəbbi onunla (arada heç bir vasitə olmadan) danışdı..."**[693]

5. **"...Allah qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz və onları (günahlarından) pak etməz (təmizə çıxarmaz). Onları şiddətli bir əzab gözləyir!"**[694]

---

[689] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 89; Şeyx Tusi, əl-İqtisad fima yətəlləq bil-itiqad, s. 60; Əbussalah Hələbi, Təqribul-məarif, s. 107; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 212; Əllamə Hilli, Kəşful-murad, s. 189; Əllamə Hilli, Mənahicul-yəqin, s. 179.

[690] Şura surəsi, ayə 51.

[691] Bəqərə surəsi, ayə 253.

[692] Nisa surəsi, ayə 164.

[693] Əraf surəsi, ayə 143.

[694] Ali İmran surəsi, ayə 77.

## Dördüncü mövzu

## Allah-taalanın kəlamının həqiqəti

Allahın kəlamı xitab olunana məqsədini çatdırmaq üçün yaratdığı səs və hərflərdən ibarətdir. Bu növ kəlam ləfzi kəlam[695] adlanır. Məsələn, Allah-taala buyurur: **"...Və Allah Musa ilə sözlə danışdı".**[696] Yəni mübarək ərazidə ağacda kəlamı yaratdı ki, məqsədini Musaya çatdırsın.

Allah-taala buyurur: **"(Musa) odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək (bərəkətli) yerdəki ağacdan belə bir nida gəldi: "Ya Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!"**[697]

İmam Əli bin Musa ər-Rza (ə) Allah-taalanın Musa və onun qövmü ilə danışması barədə belə buyurub: "... Allah-taala (kəlamı) ağacda yaratdı. Sonra sözlərin ondan yayılmasını qərar verdi..."[698]

**Qeyd:**

Kalamın Allaha nisbət verilməsi digər feli sifətlər kimi felin baş verməsini gərəkdirir.[699] Məsələn, Allah kəlamı yaratdıqdan sonra Ona mutəkəllim deyilir. Necə ki, ruzi verdikdən sonra "Raziq", nemət bəxş etdikdən sonra "Munim", hərəkəti yaratdıqdan sonra "Muhərrik" (hərəkət verici) adlanır.

**Ləfzi kəlamın arxasındakı həqiqət.**

İmamiyyə və əşərilər arasında ləfzi kəlam barəsində ixtilaf yaranmışdır. Ləfzi kəlam həqiqətən kəlamdır, yoxsa onun arxasında bir həqiqət vardır və ləfzi kəlam həmin gizli həqiqəti əks etdirir?

---

[695] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 27; Muhəqqiq Hilli, s. 72; Əllamə Hilli, əl-Bab əl-Hadi əşərə, s. 43; Əllamə Hilli, Nəhcul-haqq və kəşfus-sidq, s. 60.

[696] Nisa surəsi, ayə 164.

[697] Qəsəs surəsi, ayə 30.

[698] Şeyx Səduq, ət-Tövhid, s. 177.

[699] Bax; Əbussalah Hələbi, Təqribul-məarif, s. 106; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 58.

**İmamiyyənin əqidəsi.**

Ləfzi kəlam həqiqi anlamda kəlamdır. Ləfzi kəlamın arxasında elm və iradədən başqa heç bir şey yoxdur.

**Əşərilərin əqidəsi.**

Ləfzi kəlam həqiqi mənada kəlam deyil. Həqiqi kəlam nəfsi (daxili) kəlamdır. Həmin kəlam elm və iradədən fərqli bir şeydir.

Bu iki əqidəni izah edəcəyik.

**Ləfzi kəlamın arxasındakı həqiqət barədə imamiyyənin əqidəsinin izahı.**

Kəlam iki qismə bölünür:

**1. İxbar (xəbər vermək):** Burada xəbər verməkdən məqsəd təsəvvürlər və təsdiqlərdən ibarətdir.

**a)** Təsəvvürlər aşağıdakı məsələlərin zehində canlandırılmasıdır:

Birinci: Obyekt.

İkinci: Predikat.

Üçüncü: Obyektlə predikat arasındakı nisbət.

**b)** Təsdiqlər obyektlə (mübtəda, barəsində xəbər verilən) predikat (xəbər) arasındakı nisbətin reallığa uyğun olmasını təsdiqləməkdən ibarətdir.

**2. İnşa (inşa etmək):** Burada inşa əmr, qadağa, sual, arzu və ya təmənna formasında olur.

Əmr bir şeyi istəməkdir. Qadağa bir şeyi istəməməkdən ibarətdir. Sual, arzu və təmənna hər biri özünəməxsus ifadələrdən ibarətdir.

**Nəticə:**

Əgər kəlam ixbardan (xəbər verməkdən, yəni təsəvvürlərdən və təsdiqlərdən) ibarətdirsə, bu, elm adlanır.

Əgər kəlam inşadırsa (yəni əmrlər, qadağalar və digərlərindən ibarətdirsə), istəmək və xoşlamamaq anlamındadır.

Nəticədə ləfzi kəlamın arxasında elm və iradədən (istəmək və xoşlamamaq) başqa bir həqiqətin olmadığı anlaşılır.[700]

**Ləfzi kəlamın arxasındakı həqiqət barədə əşərilərin əqidəsinin izahı.**

Əşərilər ləfzi kəlamın arxasında elm və iradədən fərqli bir həqiqətin olduğunu deyirlər. Onlar bunu nəfsi kəlam (danışmadan öncə nə danışacağını zehndə hazır etmək kimi) adlandırır və nəfsi kəlamın həqiqi kəlam olduğunu deyirlər. Ləfzi kəlam nəfsi kəlamı aşkar etmək üçün bir vasitədir. Ləfzi kəlamı kəlam adlandırmaq məcazi anlamdadır.[701]

**Bu rəyin cavabı:**

Əgər nəfsi kəlam həqiqi mənada kəlam olsaydı, sakit olan şəxs mutəkəllim (danışan) hesab olunardı. Lakin heç kim belə hesab etmir.[702] Bununla da sübuta yetir ki, həqiqi kəlam ləfzi kəlamdır. Əşərilərin nəfsi kəlam adlandırdıqları elm dairəsinə aid olan təsəvvürlərdən başqa bir şey deyil. Real aləmdə hərfləri tələffüz edərək səs çıxartmayan heç kim danışan adlanmır.

**Nəfsi kəlamın elmdən fərqli olması barədə əşərilərin dəlilləri.**

İnsan bəzən bildiyini, bəzən də bildiyinin əksini xəbər verir. Bununla da nəticə çıxarırıq ki, bir şey barəsində xəbər vermək bəzən elmdən fərqli də ola bilər.[703]

---

[700] Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 290; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 227; Miqdad Səyuri, İrşadut-talibin, s. 212; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 203.

[701] Bax; Qazi İyci, əl-Məvaqif, Şərif Curcanininin şərhi ilə, c. 3, səh 135, 142; Səduddin Təftəzani, Şərhul-məqasid, s. 144.

[702] Bax; Miqdad Səyuri, İrşadut-talibin, s. 211.

[703] Bax; Qazi İyci, əl-Məvaqif, Curcaninin şərhi ilə, c. 3, s. 134.

**Bu rəyin cavabı:**

Elm təkcə təsdiqə deyil, təsəvvürlərə də şamil olur. İnsanın bildiyi və ya bildiyinin əksini xəbər verməsi müəyyən təsəvvürlərin cəmindən ibarətdir. Həmin təsəvvürlərin arasında müəyyən nisbət vardır. İstər bu nisbət doğru olsun, istərsə də səhv olsun. Bu təsəvvürlər və onların arasındakı nisbət elmdir.

**Nəfsi kəlamın iradədən fərqli olması barədə əşərilərin dəlili.**

Bəzən insan istəmədiyi şeyi əmr edir. Məsələn, ata övladına müəyyən bir işi etməsini əmr edir. Onun məqsədi övladının ona itaət edib etməməsini yoxlamaqdan ibarətdir. Burada ata övladına istəmədiyini əmr edir. Məqsəd övladın sınağa çəkilməsidir, felin yerinə yetirilməsi deyil. Bununla da nəticə çıxarırıq ki, əmr – inşa kalamının bir növü olaraq – iradədən fərqli ola bilər.[704]

**Bu rəyin cavabı:**

Bu kimi əmrlər (sınaq məqsədilə olan əmrlər) həmçinin iradədən qaynaqlanır. Lakin bu kimi əmrlərdə iradə əmr olunan işə deyil, sınağa şamil olur. Başqa sözlə desək, övladının müəyyən bir işi yerinə yetirməsini əmr edən atanın məqsədi övladının ona itaət edib etməməsini sınamaqdır. Bu isə iradədən qaynaqlanır. Lakin bu iradə əmr olunan işə aid deyil. Burada iradə övladın sınağa çəkilməsinə aiddir. Bununla da nəticə çıxarırıq ki, bu halda əmr iradədən qaynaqlanır.

**Əşərilərin nəzərində Allahın nəfsi kəlamının xüsusiyyətləri.**[705]

**1.** Allahın zatı ilə varlıq tapan qədim mənadır (həqiqətdir).

**2.** Özlüyündə vahiddir. Nə xəbər, nə əmr, nə də qadağadır.

**3.** Nəfsi kəlam keçmiş, indiki və gələcək zamanlara aid deyil.

---

[704] Bax; Həmin mənbə.

[705] Bax; Qazi İyci, əl-Məvaqif, Şərif Curcaninin şərhi, c.3, səh 134, 139; Səduddin Təftəzani, Şərhul-məqasid, s. 144, 147, 148, 163.

**4.** Nəfsi kəlam sözlərdən fərqlidir. Onun maddi məsələlərlə heç bir bağlılığı yoxdur.

Nəfsi kəlam insana nisbətdə onun hadis olmasına görə hadisdir (sonradan baş verəndir). Allahda isə nəfsi kəlam zatının qədim olmasına görə qədimdir.

**Cavab:**

**1.** İlahi zatla varlıq tapan mənaya həqiqi mənada kəlam deyilməz. İnsanda ləfzi kəlamdan əvvəl olan məna kəlamın tənzimlənməsi barədə elm və ya danışmağı qərara almaqdır. Bütün bunlar isə elm və ya iradəyə qayıdır.[706]

**2.** İnsanda nəfsi kəlam ardıcıl olaraq baş verir. Nəfsi kəlam bir necə təsəvvürdən ibarətdir. Əşərilərin Allah-taalaya nisbət verdikləri nəfsi kəlam isə qeyd etdikləri vəsflər kimidir. Bu isə dərk olunması mümkün olmayan bir məsələdir. Onu isbat etmək mümkün deyil. Belə olan halda bunu Allaha nisbət vermək necə mümkün ola bilər?[707]

[706] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 215.

[707] Bax; İbn Zöhrə Hələbi. Ğunyətun-nuzu, c. 2, s. 60; Əllamə Hilli. Kəşful-murad, s. 403; Əllamə Hilli, Nəhcul-haqq və kəşfus-sidq, s. 60.

## Beşinci mövzu

## Allah-taalanın kəlamım qədim və ya hadis olması

Şeyx Mufid belə deyir: "Allahın kəlamı hadisdir. Ali Muhəmməddən (s) bu barədə hədislər nəql olunmuşdur və imamiyyə bu məsələdə icma etmişdir".[708]

**Allahın kəlamının hadis olmasının dəlilləri:**

**1.** Allahın kəlamı bir-birinin ardınca olan və bir-birinin ardınca varlıq tapan hərflərdən ibarətdir. Belə ki, bəzisi bəzisindən əvvəl baş verir. Belə olan hər bir şey isə hadisdir. Bununla da nəticə çıxarırıq ki, Allahın kəlamı hadisdir.[709]

**2.** Kəlamdan məqsəd qarşı tərəfə məqsədi çatdırmaqdır. Buna əsasən də xitab olunan qaşı tərəf olmadan öncə kəlamın olması əbəsdir.

Allah-taalanın peyğəmbərlərə və insanlara xitabları vardır. Həmin xitablarda belə qeyd olunur:

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et..."**[710]

**"Ya Peyğəmbər! Allahdan qorx..."**[711]

**"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız!"**[712]

**"Ey iman gətirənlər! ..."**[713]

---

[708] Şeyx Mufid, Əvailul-məqalat, s. 52. Həmçinin mötəzilə Allahın kəlamının həqiqətinin ləfzi kalam olması və sonradan baş verdiyi rəyindədirlər.

[709] Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 27; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 216; Əllamə Hilli, Mənahicul-yəqin, s. 193.

[710] Maidə surəsi, ayə 67.

[711] Əhzab surəsi, ayə 1.

[712] Bəqərə surəsi, ayə 21.

[713] Bəqərə surəsi, ayə 104.

Əgər Allah-taalanın kəlamı qədim olsaydı, bu xitabların bir anlamı olmazdı. Bununla da nəticə çıxarırıq ki, Allah-taalanın kəlamı hadisdir.[714]

**3.** Allahın kəlamında keşmiş zaman barəsində xəbərlər vardır. Məsələn:

**"Həqiqətən, Biz Nuhu: "Qövmünə şiddətli bir əzab gəlməmişdən əvvəl onları (Allahın əzabı ilə) qorxut!" – deyə öz tayfasına peyğəmbər göndərdik".**[715]

**"...Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy göndərdik..."**[716]

**"Sizdən əvvəl neçə-neçə nəsilləri (ümmətləri) peyğəmbərləri özlərinə açıq-aşkar möcüzələr gətirdikləri halda (onlara) zülm etdikləri və iman gətirəsi olmadıqları üçün məhv etdik".**[717]

**"... Üstəlik sizin üçün (ibrətamiz) məsəllər də çəkdik".**[718]

**"(Ya Peyğəmbər!) Əri barəsində sənin lə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!"**[719]

---

[714] Bax; Əbussalah Hələbi, Təqribul-məarif, s. 107: Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 308; Əllamə Hilli, Nəhcul-haqq və kəşfus-sidq, s. 62; Miqdad Səyuri, İrşadut-talibin, s. 220.

[715] Nuh surəsi, ayə 1.

[716] Nisa surəsi, ayə 163.

[717] Yunis surəsi, ayə 13.

[718] İbrahim surəsi, ayə 45.

[719] Mucadələ surəsi, ayə 1.

Əgər Allah-taalanın kəlamı qədim olsaydı, yalan danışmış olardı. Çünki baş verməmiş bir şey barəsində xəbər vermək reallığa uyğun deyil.[720]

**Nəticə:**

Kəlam Allah-taala ilə xitab olunan qarşı tərəf arasındakı əlaqədən yaranan məfhumdur. Buna əsasən də kəlam Allah-taalanın feli sifətlərindəndir. Bundan əlavə Allahın feli sifətləri ilə zati sifətləri arasındakı fərq budur ki, Allah-taala zati sifətlərin əksi ilə vəsf olunmaz. Məsələn, Allah alim deyil, qüdrətli deyil deyilməz. Feli sifətlərə gəlincə isə, Allah-taala həmin sifətlərin əksi ilə vəsf oluna bilər. Məsələn, Allah filan şeyi xəlq etmişdir, filan şeyi isə xəlq etməmişdir. Allah filankəsə ruzi vermişdir, filankəsə isə ruzi verməmişdir. Kəlam sifəti də xəlq və ruzi sifətləri kimidir. Buna əsasən də deyirik ki, Allah-taala Musa (ə)-la danışdı, Firon ilə danışmadı.

**Allahın kəlam sifətinin hadis (sonradan) olması barədə Quran ayələri:**

1. **"Rəbbindən onlara (bir-birinin ardınca) elə bir yeni xəbərdarlıq (öyüd-nəsihət) gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər".**[721]

2. **"Onlara Rəhmandan (rəhmli olan Allahdan) elə bir yeni öyüd-nəsihət (xəbərdarlıq) gəlməz ki, ondan üz döndərməsinlər".**[722]

Bu ayələrdə zikr Qurani-kərimdir.[723] Həmçinin hər iki ayədə **"muhdəs"** sözü işlədilmişdir. Bu isə yeni mənasındadır. Yəni İncildən

---

[720] Bax; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 308; Əllamə Hilli, ər-Risalətus-sədiyyə, s. 46; Miqdad Səyuri, İrşadut-talibin, s. 220; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 203.

[721] Ənbiya surəsi, ayə 2.

[722] Şüara surəsi, ayə 5.

sonra onlara Quran gəlmişdir. Bu iki ayə aşkarcasına dəlalət edir ki, Allahın kəlamı olan Quran sonradan yaranandır.[724]

3. **“Əgər istəsəydik, sənə vəhy etdiyimizi (qəlbindən) çıxardıb aparardıq. Sonra Bizə qarşı özün üçün bir müdafiəçi (vəkil) də tapa bilməzdin”.**[725]

Əgər Allahın kəlamı olan Quran qədim olsaydı, onun aradan aparılması mümkün olmazdı və bu kimi xüsusiyyətlə vəsf olunmazdı.

4. **“(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam”, - dedikdə...”**[726]

Bu ayədə “iz” ədatı işlənmişdir. Bu ədat zaman zərfidir. Müəyyən bir zamana məxsusdur. Bununla da nəticə çıxarırıq ki, ayədə qeyd olunan Allahın sözü sonradan baş vermişdir.

5. **“...ondan da əvvəl Musanın (öz ümməti üçün) bir rəhbər və mərhəmət olan kitabının (İncilin) təsdiq etdiyi kimsə (dünyaya meyl edənlər, ona bel bağlayanlar kimi ola bilərmi)?! Bunlar (bu dəlilləri təsdiq edən müsəlmanlar) Qurana inanırlar...”**[727]

Ayədə **“ondan əvvəl”** deyə buyurulur. Özündən əvvəl bir şey olan qədim ola bilməz.[728] Bu ayə aşkarcasına Allahın kəlamı olan İncilin Allahın kəlamı olan Qurandan əvvəl olmasına dəlalət edir. Əvvəl və sonra olma

---

[723] Allah-təala buyurur: **“Şübhəsiz ki, zikri (Quranı) Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”** (Hicr surəsi, ayə 9).

[724] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 27; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 91.

[725] İsra surəsi, ayə 86

[726] Bəqərə surəsi ,ayə 30.

[727] Hud surəsi ,ayə 17.

[728] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 216.

hudusun (sonradan yaranmanın) əlamətlərindəndir. Bununla da nəticə çıxarırıq ki, Allahın kəlamı hadisdir (sonradan yaranandır).[729]

Ümumiyyətlə, Allah-taala Qurani-kərimdə öz kəlamını **"nuzul"**[730], **hissə-hissə**[731], **qiraət, cəm**[732], **tərtil**[733], **cəəl** (etmək, yaratmaq) [734], **nasix, mənsux**[735] və s.[736] kimi vəsf etmişdir. Bütün bunlar sonradan yaranmanın xüsusiyyətləridir. Deməli, Allahın kəlamı sonradan yaranmadır.

**Allahın kəlamının hadis olması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər:**

**1.** İmam Əli (ə) buyurub: "Allah-taala bir şeyi istədikdə ona "ol" deyər və olar. Lakin (qulağı) dələn səslə və ya eşidilən nida ilə deyil. Onun

---

[729] Həmin mənbə.

[730] **"(Ya Peyğəmbər!) Həqiqətən, Biz Quranı sənə tədriclə (ayə-ayə, surə-surə) nazil etdik".** (İnsan surəsi, ayə 23).

[731] **"İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz onu tədriclə, (iyirmi üç ilə yaxın bir müddət ərzində) nazil etdik".** (İsra surəsi, ayə 106)

[732] **"(Ya Peyğəmbər! Cəbrail sənə Quran oxuduğu zaman) onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə! (Sən də onunla birlikdə Quranı təkrar etmə, yalnız dinlə!) Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir. Biz onu (Cəbrailin dili ilə) oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə".** (Qiyamət surəsi, ayə 16, 17, 18)

[733] **"...Biz onu ayə-ayə (tədricə) nazil etdik...".** (Furqan surəsi, ayə 32).

[734] **"Biz onu, anlaya biləsiniz deyə, ərəbcə Quran etdik".** (Zuxruf surəsi, ayə 3).

[735] **"Biz (zaman, məkan və şəraitin tələbinə görə) hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk..."** (Bəqərə surəsi, ayə 106).

[736] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 91; Şeyx Tusi, Kitabul-xilaf, c. 6, s. 122; Nəsrəddin Tusi, Təlxisul-muhəssəl, s. 308; Səddiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 216.

kəlamı Onun felidir. Onu yaratmışdır və ona varlıq vermişdir. Əvvəlcədən o (kəlam) olmamışdır. Əgər (kəlamı) qədim olsaydı, ikinci ilah olardı".[737]

**2.** İmam Cəfər Sadiqdən (ə) "Allah əzəldən mutəkəllimdirmi (danışandırmı)?" – deyə soruşdular. (İmam) buyurdu:"Kəlam sonradan yaranan sifətdir, əzəli sifət deyil. Allah-taala vardı, amma kəlam yox idi".[738]

**3.** İmam Cəfər Sadiqdən (ə) "Allah-taala əzəldən mutəkəllimdirmi?" – deyə soruşdular. İmam (ə) dedi: "Kəlam sonradan yaranmışdır. Allah əzəldən mutəkəllim deyil".[739]

**4.** İmam Musa bin Cəfər əl-Kazim (ə) Allah-taalanın Musa (ə) peyğəmbərlə Turi-Sinada danışması və onun qövmünün Allah-taalanın kəlamını eşitməsi barədə belə buyurub: "Allah-taala kəlamını ağacda yaratdı. Sonra səsi həmin ağacdan yaydı və hər cəhətdən eşidilməyə başladı".[740]

**5.** İmam Kazim (ə) buyurub: "Kəlam mutəkəllim (danışan) deyil... Ondan (Allahdan) başqa hər bir şey məxluqdur".[741]

**6.** İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Tövrat, İncil, Zəbur, Furqan və nazil olan hər bir kitab Allahın kəlamıdır. Allah onları aləmlərə nur və hidayət olaraq nazil etmişdir. Hamısı sonradan yaranmışdır. Bu kitablar Allah deyil. Allah-taala belə buyurur: **"...yaxud onlar üçün bir zikr yaratmışdır".**[742] Həmçinin buyurur: **"Rəbbindən onlara (bir-birinin ardınca) elə bir yeni xəbərdarlıq (öyüd-nəsihət) gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər".**[743] Allah nazil etdiyi kitabları yaratmışdır".[744]

---

[737] Şərif Murtaza, Nəhcul-bəlağə, 186-cı xütbə s.368

[738] Şeyx Səduq, ət-Tövhid, s. 135.

[739] Şeyx Tusi, əl-Əmali, s. 168.

[740] Şeyx Səduq, ət-Tövhid, s. 118.

[741] Şeyx Kuleyni, əl-Kafi, s. 106.

[742] Taha surəsi, ayə 113.

[743] Ənbiya surəsi, ayə 2.

## Quranın qədim olması fitnəsi barədə Əhli-beytin (ə) mövqeyi

Hicri III əsrdə İslam aləmində Qurani-kərimin qədim və ya hadis (sonradan yaranma) olması, başqa sözlə desək, məxluq və ya qeyri məxluq olması barədə böyük bir fitnə baş vermişdir. Sonradan bu məsələ elm sahəsindən çıxaraq bəzilərinin onlara müxalif olanları təkfir etmək, qətlə yetirmək üçün bir bəhanəyə çevrildi. Buna əsasən də Əhli-Beyt imamları (ə) öz tərəfdarlarını həmin dövrdə bu məsələyə müdaxilə etməkdən çəkindirmişlər. Qurani-kərimin Allah-taalanın kəlamı olması barədə bəyanat verməklə kifayətlənmişlər. Həmin bəyanatları özündə ehtiva edən bəzi hədisləri qeyd edək:

**1.** İmam Musa bin Cəfər əl-Kazim (ə)-dan belə soruşdular: "Ey Rəsulullahın övladı, Quran barəsində nə deyirsən? Bizdən öncəkilər bu barədə ixtilaf etmişlər. Bəziləri onun məxluq, bəziləri isə qeyri məxluq olduğunu demişdir". İmam (ə) belə buyurdu: "Mənə gəlincə, mən belə demirəm. Lakin mən Quranın Allahın kəlamı olmasını deyirəm".[745]

**2.** İmam Rza (ə)-dan "Quran barədə nə deyirsən?"-deyə soruşdular. İmam (ə) buyurdu: "Allahın kəlamıdır. Bundan artığını deməyin..."[746]

Fitnə bitdikdən sonrakı dövrlərdə isə Əhli-Beyt imamları (ə) öz mövqeylərini bəyan etmiş və Qurani-kərimin sonradan yarandığını aşkarcasına qeyd etmişlər. Bu bəyanı aşağıdakı hədisdə aşkarcasına görürük.

Həmçinin İmam Əli bin Musa ər-Rza (ə) Bağdaddakı bəzi şiələrinə belə yazmışdır: "... Biz Quran barəsində mübahisə etməyi bidət hesab edirik... Allah-taaladan başqa xaliq yoxdur. Ondan başqa hər bir şey məxluqdur..."[747]

---

[744] Şeyx Təbərsi, əl-İhticac, s. 383.

[745] Şeyx Səduq, ət-Tövhid, s. 219.

[746] Həmin mənbə, s. 218.

[747] Həmin mənbə, s. 218.

Yəni Allahın kəlamı Allah deyil. Allahdan başqa hər bir şey isə hadisdir (sonradan yaranandır). Buna əsasən də Allahın kəlamı hadisdir.

**Nəticə:**

Qurani-kərimi məxluq və ya qeyri məxluq sifətləri ilə vəsf etməkdən çəkinmək daha yaxşıdır. Ərəb dilində bu söz bəzən uydurulmuş, müəllifi bilinməyən söz kimidir. Məsələn, bu məxluq qəsidədir, yəni müəllifi bilinməyən yalan qəsidədir. Qurani-kərimdə buyurulur: **"...Bu ancaq bir uydurmadır"**[748]

Buna əsasən Qurani-kərimi "məxluq" sözü ilə vəsf etməkdən çəkinmək lazımdır. Çünki bu sözdə Quranın şəninə yaraşmayan məna ehtiva olunur. Deməli, Quranı hadis (sonradan var olan) xüsusiyyətlə vəsf etmək lazımdır.[749]

Buna əsasən Əhli-Beytimamları (ə) bəzi hallarda Qurani-kərimi məxluq sifəti ilə vəsf etməkdən çəkinmişlər. Məsələn;

**1.** İmam Cəfər Sadiq (ə) buyurub: "Quran Allahın sonradan yaranan kəlamıdır, məxluq və Allahla yanaşı əzəli deyildir. Allah bu kimi şeylərdən uca və pakdır. Allah-taala vardı. Ondan başqa bilinən və ya bilinməyən başqa heç bir şey yox idi. Allah-taala əzəldən mutəkəllim (danışan), murid (iradə edən), mutəhərrik (hərəkət edən) və fail (iş icra edən) deyildir. Rəbbimiz uca və pakdır. Bütün bu sifətlər felin sonradan baş verdiyi kimi sonradan yaranmışdır. Rəbbimiz uca və pakdır. Quran Allahın məxluq olmayan kəlamıdır..."[750]

**2.** İmam Rzadan (ə) belə soruşdular: "Ey Rəsulullahın övladı, Quran barəsində mənə de; Quran xaliqdir, yoxsa məxluqdur?" İmam (ə) belə

---

[748] Sad surəsi, ayə 7.

[749] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 220; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, s. 91; Əbussalah Hələbi, Təqribul-məarif, s. 108; Şeyx Tusi, Kitabul-xilaf, c. 6, s. 120; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 64.

[750] Şeyx Səduq, ət-Tövhid, s. 221.

buyurdu: “Nə xaliqdir, nə də məxluqdur. Lakin Allah-taalanın kəlamıdır”.[751]

## Allah-taalanın kəlamının qədim olması barədə əşərilərin əqidəsi

Əşərilər aşağıdakılara etiqad edirlər:

**1. Ləfzi kəlam.**

**2. Nəfsi kəlam.**

Nəfsi kəlam həqiqi mənada kəlamdır. Ləfzi kəlama gəlincə, həqiqi mənada kəlam hesab olunmur. Ləfzi kəlma yalnız nəfsi kəlama işarə etməkdən başqa bir şey deyil. Nəfsi kəlam isə qədimdir və Allahın zatı ilə mövcuddur.[752]

**Allah-tələnın kəlamının qədim olması barədə əşərilərin dəlilləri (əqli dəlillər).**

**Birinci dəlil:** Allahın kəlamı Allahın sifətidir. Allahın hər bir sifəti qədimdir. Nəticədə Allah-taalanın kəlamı qədimdir.[753]

**Cavab:** Allahın bütün sifətləri qədim deyil. Əksinə Allah-taalanın sifətləri zati və feli olaraq iki qismə bölünür. Feli sifətlər qədim deyil. Kəlam Allah-taalanın feli sifətlərindəndir. Buna əsasən də Allahın kəlamı qədim deyil hadisdir (sonradan yaranandır).

**İkinci dəlil:** Diri olanın kəlam sifəti ilə vəsf olunması vacibdir. Əks təqdirdə həmin sifətin əksi ilə vəsf olunması vacib olar. Kəlamın ziddi lallıq və sükutdur. Bu isə nöqsandır. Allah-taalada nöqsanın olması qeyri

[751] Həmin mənbə, s. 218.

[752] Bax; Qazi iyci, əl-Məvaqif, Şərif Curcaninin şərhi ilə, c. 3, s. 135, 142; Səduddin Təftəzani, Şərhul-məqasid, c. 4, s. 144.

[753] Bax; Qazi iyci, əl-Məvaqif, Şərif Curcaninin şərhi ilə, c. 3, s. 133.

mümkündür. Bununla da sübut olunur ki, Allah-taala əzəldən mutəkəllimdir (danışandır).[754]

**Cavab:** Kəlam başqasına məqsədi çatdırmaq hədəfin daşıyır. Xitab olunan qarşı tərəfin olmadığı halda kəlamın heç bir mənası yoxdur. Xitab olunacaq qarşı tərəf olmadan Allahın danışmasını demək nöqsandır. Sükut və lallıqla vəsf olunma danışarkən vasitəyə ehtiyacı olan varlıqlara aiddir. Lakin Allah-taala kəlamında bu kimi vasitələrdən uca və pakdır. Onun kəlamı felin növlərindən bir növdür".[755]

## Allah-taalanın kəlamının qədim olması barədə əşərilərin Qurani-kərimə istinad edərək gətirdikləri dəlillər

**Birinci dəlil:**

Allah-taala buyurub: **"Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: "Ol!" deməkdir. O da dərhal olar".**[756]

Əgər (Allahın kəlamı olan) Quran sonradan yaranmış olarsa, bu Quranın "ol" sözü ilə yaranması vacib olardı. Əgər Allah kəlamına "ol" deyərək yaradırsa, hər kəlamından öncə "ol" deməsi vacib olardı. Bu isə iki haldan birini vacib edir:

**Birinci:** Sonusuzadək hər bir kəlam bir kəlamdan sonra (hər "ol" kəlməsi "ol" kəlməsindən sonra) baş verməlidir.

**İkinci:** Hər bir kəlam başqa bir kəlamla yaranır. Sonda isə qədim kəliməyə gedib çatırıq. (Həmin qədim kəlimə heç nə ilə yaranmamışdır). Bununla da sübuta yetir ki, Allah-taalanın kəlamı qədimdir.[757]

**Cavab:** Bu məqamda sözdən məqsəd "ol" kəlməsini tələffüz etmək deyil ki, yuxarıda qeyd olunan bölgü düzgün olsun. Çünki olmayan bir şeyə

---

[754] Əbulhəsən Əşəri, əl-İbanə ən usulud-diyanə, s. 32.

[755] Bax; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 2, s. 61.

[756] Nəhl surəsi, ayə 40.

[757] Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 31, 32.

ol deyə xitab etməyin mənası yoxdur. Burada "ol" sözündən məqsəd ilahi iradənin müəyyən bir şeyin icad edilməsinə şamil olmasıdır.[758]

**Yuxarıda qeyd olunan ayə aşağıdakıları bəyan edir:**

**Birinci:** Allah bir şey istəyərsə, həmin şey heç bir məneə olmadan dərhal baş verəcək.

**İkinci:** Allah-taala hər hansı bir şeyin icad olunmasını istədikdə həmin şeyin var olması üçün ona yardım edəcək və ya maneəni dəf edəcək hər hansı səbəbə möhtac deyil.[759]

Buna əsasən də İmam Əli (ə) buyurub: "Allah-taala bir şeyi istədikdə ona "ol" deyər və olar. Lakin (qulağı) dələn səslə və ya eşidilən nida ilə deyil. Onun kəlamı Onun felidir. Onu yaratmışdır və ona varlıq vermişdir. Əvvəlcədən o (kəlam) olmamışdır. Əgər (kəlamı) qədim olsaydı, ikinci ilah olardı".[760]

**İkinci dəlil:**

Allah-taala buyurub: **"...Bilin ki, xəlq (yaratmaq) da, əmr də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır (nə qədər böyükdür)!"**[761]

Bu ayədə "xəlq" Allah-taalanın yaratdığı bütün varlıqlara şamildir. Ayədəki "əmr" kəlməsi isə Allahın xəlq etdiyi başqa bir şeyə dəlalət edir. Bununla da məxluq və hadis olmayan başqa bir şeyin – Allahın əmri – olduğu sübuta yetir. Allahın əmri Onun kəlamıdır. Deməli, Allahın kəlamı hadis deyil. Yəni qədimdir.[762]

**Cavab:**

---

[758] Daha ətraflı məlumat üçün müraciət et; Şey Tusi, ət-Tibyan fi təfsiril-Quran, Bəqərə surəsinin 118-ci ayəsinin təfsiri, c. 1, s. 432, 433.

[759] Bax; İbn Zöhrə Hələbi, Ğunyətun-nuzu, c. 1, s. 63; Sədiduddin Himsi, c. 1, s. 218.

[760] Şərif Murtaza, Nəhcul-bəlağə, 186-cı xütbə s.368

[761] Əraf surəsi, ayə 54.

[762] Bax; Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 31.

**Birinci:** Bu ayədə "əmr" kəlməsi Allahın kəlamı mənasında deyil. Əksinə ayədəki əmr kəlməsi əmr etmək və aləmə hakim olan nizamın idarəçiliyi mənasındadır. Ayədə "xəlq və əmr Ona məxsusdur" deyilməsində məqsəd aləmdəki şeylərin zatının yaradılmasıdır. Əmr isə həmin yaradılışın idarəçiliyi, aləmdəki varlıqlara hakim olan nizamın qaydaya salınması mənasındadır.[763]

"Əmr" kəlməsinin nizamın idarəçiliyi mənasında olmasının dəlilləri:

Allah-taala elə həmin ayənin özündə belə buyurur: **"Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə boyun əymiş halda yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır (nə qədər böyükdür)!"**[764]

Yəni qeyd olunan varlıqlar Allah-taalanın əmrinə, idarəçiliyinə və tədbirinə tabedir.

Xəlq kəlməsindən sonra işlədilən əmr kəlməsinin idarəçilik mənasında olmasının əlamətlərindən biri də bu əmr kəlməsinin aşağıdakı iki ayədə də xəlq və yaratmaq mənasını bildirən sözlərdən sonra işləri səhmana salmaq anlamında işlədilməsidir:

**1. "Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşə üz tutan), hər işi yerinə qoyan (səhmana salan) Allahdır..."**[765]

**2. "Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan (ərş üzərində bərqərar olan), müəyyən**

---

[763] Bax; Şeyx Tusi, ət-Tibyan fi təfsiril-Quran, c. 4, Əraf surəsinin 54-cü ayəsinin təfsiri, s. 423.

[764] Əraf surəsi, ayə 54.

[765] Yunis surəsi, ayə 3.

**vaxta (dünyanın axırına – qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır...”**[766]

**Xəlq sözündən sonra əmr sözünün qeyd olunmasının hədəfi:**

Əraf surəsinin 54-cü ayəsində “Xəlq və əmr Ona məxsusdur” buyurulmasında məqsəd varlıq aləminin yaradılışından sonra onun idarəçiliyinin başqasına həvalə olunması deyil, əksinə Allah-taala varlıq aləmini yaratdığı kimi onun idarəçiliyini də öz öhdəsinə götürmüşdür.

Bu ayədə əmr sözündən məqsədin ilahi kəlam olmasına ən azacıq belə işarə yoxdur.

**İkinci:** Əgər əmr sözünün Allahın kəlamı olmasını qəbul etsək belə, əmr sözünün ayrıca işlədilməsi onun qeyri məxluq olmasına dəlalət etmir. Əksinə bu, Allahın təziminə və şəninin ucalığına dəlalət edir. Məsələn, Allah-taala buyurur: “Hər kim Allaha, onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə düşməndir”.[767]

Bu ayədə Cəbrail və Mikailin mələklərdən ayrıca qeyd edilməsi onların mələklərdən hesab olunmamasına dəlalət etmir. Əksinə onların ayrıca qeyd edilməsi yalnız şənlərinin uca olması üçündür.

Bundan əlavə “əmr” sözünün Allahın kəlamı mənasında olduğunu qəbul etsək **“...Allahın əmri icra olunasıdır”**[768] ayəsinə əsasən Allahın kəlamı hadisdir. Çünki icra olunma sonradan baş vermənin xüsusiyyətlərindəndir.[769]

---

[766] Rəd surəsi, ayə 2.

[767] Bəqərə surəsi, ayə 98.

[768] Əhzab surəsi, ayə 37.

[769] Şeyx Təbərsi, ət-Tibyan fi təfsiril-Quran, Əhzab surəsinin 37-ci ayəsinin təfsiri, c. 8, s. 345.

**Üçüncü dəlil:**

Allah-taala buyurur: **“De: «Əgər dəniz mənim Rəbbimin (bütün kainatdan və mövcudlardan ibarət) sözləri (ni yazmaq) üçün mürəkkəb olsa, hətta onun bənzərini (başqa bir dənizi) köməyə gətirsək belə, şübhəsiz o (dənizlər), Rəbbimin sözləri sona çatmamış qurtarar»**.[770]

Əgər Allahın kalamı (sözləri) bitib tükənməzsə, deməli, Onun əzəldən mutəkəllim (danışan olması) doğrudur.[771]

**Cavab:** Allahın kəlmələrindən öncə dəniz tükənməsi həmin kəlmələrin əzəli olması mənasında deyil. Bu ayə yalnız buna dəlalət edir ki, dənizlər Allahın kəlmələrini yazmaq üçün mürəkkəb olsa belə, Allahın kəlmələri dənizdən daha əzəmətlidir. Ayə əsl həqiqət də Allah-taalanın qüdrətinin, hikmətinin və qəribəliklərinin əzəmətini bəyan edir.[772]

**Dördüncü dəlil:**

Allah-taala buyurub: **“Bu, bəşər kəlamından başqa bir şey deyildir”.**[773]

Əbulhəsən Əşəri belə deyir: “Kim Quranın məxluq olmasını iddia edərsə, onu bəşər sözü hesab etmiş olar. Allah isə buna görə müşriklərə etiraz edir”.[774]

**Cavab:**

**1.** Allah-taalanın müşriklərə etiraz etdiyi Quranın Allah tərəfindən deyil, əksinə Muhəmməd (s) peyğəmbərin özü tərəfindən yazması məsələsi idi. Buna görə bu ayə nazil olmuşdur.

---

[770] Kəhf surəsi, ayə 109.

[771] Bax; Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 32.

[772] Şeyx Tusi, Məcməul-bəyan, Kəhf surəsinin 109 – cu ayənin təfsiri, c. 6, s. 770.

[773] Muddəssir surəsi, ayə 25.

[774] Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 32.

**2.** Qeyd olunan dəlildə deyilir ki, Quranın məxluq olmasını, yəni sonradan yaranmasını iddia edərsə, Quranı bəşər sözü hesab etmiş olar. Lakin Quranın məxluq olmasına etiqad edənlər onun bəşər sözü hesab etmirlər. Əksinə Quranın Allah-taala tərəfindən yaradılmış söz hesab edir.

**Qeyd:**

Kəlam sifətinin iki mənada hesab etmək olar:

**1.** Xitab etmək üçün səs və hərflərin yaradılmasına Allah-taalanın qüdrətinin çatması.

**2.** Xitab etmək üçün yaradacağı səs və hərflərin Allah-taala üçün əvvəlcədən məlum olması.

Amma kəlamı Allah-taalanın səs və hərfləri yaratması mənasında hesab etsək bu sifət sonradan yaranan sifət olmalıdır. Bununla da kəlam yaratmaq və ruzi vermək kimi Allahın feli sifətlərindəndir.

## Altıncı mövzu

## Allah-taalanın kəlamının doğruluğu

Doğru kəlam reallığa uyğun olan kəlamdır. Onun əksi isə yalanla vəsf olunan kəlamdır. Yəni reallığa müxalif olan kəlamdır.[775]

### Allah-taalanın kəlamının doğruluqla vəsf olunmasının dəlili

Yalan pisdir. Allah-taala yalandan uca və pakdır. Yalanın pis olmasının səbəblərindən biri də Allah-taalanın xəbərlərinə inamın aradan getməsi və vədinin doğru olmaması ilə nəticələnir. Bununla da şəri vəzifələrin faydası aradan gedərdi. Bu isə bir çox fəsadlara gətirib çıxardır.[776]

### Allahın kəlamının doğruluğuna işarə edən Quran ayələri.

**1. "... Sözdə kim Allahdan daha doğruçu ola bilər?!"**[777]

**2. "... Allahdan daha doğru danışan kimdir?!"**[778]

**3. "Və Biz sənin üçün haqq xəbəri və doğru vədi gətirmişik və şübhəsiz, biz düz danışanlarıq".**[779]

[775] Bax; əl-Mucəmul-vəsit.

[776] Bax; Əllamə Hilli, Mənahicul-yəqin, s. 194; Miqdad Səyuri, İrşadut-talibin, s. 221.

[777] Nisa, 87

[778] Nisa, 122

[779] Hicr, 64

## On beşinci fəsil: Allah-taalanın xəbəri sifətləri

### Allah-taalanın xəbəri sifətlərinin izahı barədə ən əsas rəylər

### Muşəbbəhə

### Əşərilər

### Muəttilə

### Muəvvilə

### İmamiyyə

### Xəbəri sifətlərin mənalarının bəyanı

## Birinci mövzu

### Allah-taalanın xəbəri sifətlərinin tərifi

Allah-taalanın xəbəri sifətləri yalnız Quran və sünnə yolu ilə isbat olunan sifətlərdir. Həmin sifətlərin zahiri mənada qəbul edilməsi təcsim (cisimləşdirmək) və təşbih (bənzətmə) ilə nəticələnir.

**Allahın xəbəri sifətlərinə aid nümunələr:**

1. Üz: **"...hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allahın üzü (zatı) oradadır..."**[780]

**2.** Göz: **"Gözümüz (nəzarətimiz) altında və vəhyimiz üzrə (sənə öyrədəcəyimiz kimi) gəmini düzəlt..."**[781]

**3.** Əl: **"...Allahın (qüdrət) əli onların əllərinin üstündədir..."**[782]

**4.** Sağ əl: **"...göylər isə Onun sağ əli ilə büküləcəkdir..."**[783]

**5.** Ovuc: **"...Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq..."**[784]

**6.** Baldır: **"Baldırlar açılacağı gün..."**[785]

**7.** Tərəf, yan: **"(Elə edin ki, sonradan) bir kəs: "Allahın yanında itaət barəsində etdiyim təqsirlərə görə vay halıma!.."**[786]

**8.** Nəfs (nəfs, zat): **"...Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatından ola bilmərəm..."**[787]

---

[780] Bəqərə, 115

[781] Hud surəsi, ayə 37.

[782] Fəth surəsli, ayə 10.

[783] Zümər surəsi, ayə 67.

[784] Zümər surəsi, ayə 67.

[785] Qələm surəsi, ayə 42.

[786] Zümər surəsi ,ayə 56.

[787] Maidəs surəsi, ayə 116.

**9.** Ruh: **“Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!”**[788]

**10.** Gəlmək: **“Rəbbinin (əmri) gəlib mələklər səf-səf duracağı”**[789]

**11.** Ərş (taxt): **“Rəhman olan Allah taxtın üzərində qərar tutmuşdur”.**[790]

**12.** Kürsi: **“...Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir...”**[791]

**13.** Qovuşmaq: **“Belə kimsələr Rəbbinə qovuşacaqlarını və axırda Onun hüzuruna qayıdacaqlarını bilirlər”.**[792]

**14.** Yaxınlıq: **“...Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm...”**[793]

**15.** Razılıq və qəzəb: **“...Allah onlardan, onlar da Allahdan razıdırlar...”**[794]

**“...Allahın onlara qəzəbi tutmuş...”**[795]

**16.** Ələ salmaq, istehza etmək, hiylə işlətmək və aldatmaq: **“Könüllü surətdə (bollu) sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni sədəqə verən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır...”**[796]

**“Allah da onlara (dünya və axirətdə) istehza edər...”**[797]

---

[788] Hicr surəsi, ayə 29.

[789] Fəcr surəsi, ayə 22.

[790] Taha surəsi, ayə 5.

[791] Bəqərə surəsi, ayə 255.

[792] Bəqərə surəsi, ayə 46.

[793] Bəqərə surəsi, ayə 186.

[794] Maidə surəsi, ayə 119.

[795] Fəth surəsi, ayə 6.

[796] Tövbə surəsi, ayə 79.

[797] Bəqərə surəsi, ayə 15.

**“Onlar (İsaya inanmayanlar) hiyləyə əl atdılar. Allah da onların hiyləsinə (İsanı göyə qaldırıb münafiqlərdən birini isə İsa surətində onlara öldürtməklə) əvəz verdi. Allah (bütün) hiyləgərlərdən tədbirlidir (hiyləgərlərə ən yaxşı cəza verəndir)”.**[798]

**“... Halbuki əslində (Allah) onları aldadır...”**[799]

**17.** Unutmaq: **“...Onlar Allahı unutdular, Allah da onları unutdu...”**[800]

**18.** Nur: **“Allah göylərin və yerin nurudur...”**[801]

[798] Ali İmran surəsi, ayə 54.

[799] Nisa surəsi, ayə 142.

[800] Tövbə surəsi, ayə 67.

[801] Nur surəsi, ayə 35.

## İkinci mövzu

## Allahın xəbəri sifətlərinin izahı barədə ən əsas rəylər

**1. Muşəbbəhənin (Allahı yaranmışlara bənzədələrin) rəyi:**

Bu sifətləri zahiri mənada qəbul etmək və bənzətmə ilə isbatı. Yəni bu sifətləri insandakı sifətlərə bənzədərək Allah-taalaya nisbət vermək.

**2. Əşərilərin rəyi:**

Bu sifətlərin zahirini qəbul etmək və keyfiyyət olmadan isbatı. Yəni bu sifətləri ifadə edən məfhumlardan keyfiyyəti inkar edərək Allaha nisbət vermək.

**3. Muəttilənin (sifətlərin dərk olunmasını inkar edənlər) rəyi:**

Bu sifətləri anlamaqda ağlın imkanının olmaması və mənasını Allah-taalaya nisbət vermək. Yəni insan bu sifətlərin mənalarını dərk etməyə mükəlləf deyil. Onun vəzifəsi yalnız həmin sifətləri ifadə edən sözlərə iman gətirməkdir.

**4. Muəvvilənin (yozanlar) rəyi:**

Bu sifətləri zahiri mənada qəbul etməmək və yozaraq isbatı. Yəni Allahın ucalığına münasib olan mənada bu sifətləri yozaraq Allaha nisbət vermək.

**5. İmamiyyənin rəyi:**

Bu sifətləri zahiri mənada qəbul etməmək və yozulmadan məcazi mənada Allaha nisbət vermək. Yəni bu sifətləri yozmadan onların lüğəti mənasının ali mənaları ifadə etməsi kimi izah etmək.

**Birinci rəy (Muşəbbihənin rəyi): Allahın sifətlərinin insan sifətlərinə bənzədilməsi.**

Bu rəydə olanlar xəbəri sifətlərin zahiri mənasını qəbul edirlər və həmin sifətləri insan sifətlərinə bənzədərək Allaha nisbət verirlər. Buna əsasən də onlar Allahın enməsi, qalxması, məkanda qərar tutması,

toxunması və Allahla əl-ələ tutmaq kimi məsələləri qəbul edirlər. Çünki onlar bu sifətlərin zahirini əsas hesab edərək cisimlərə aid olması kimi başa düşürlər.[802]

**Əhli-beytin (ə) muşəbbihə barədə mövqeyi:**

**1.** Rəsulullah (s) buyurub: "Allahı yaratdıqlarına bənzədənlər Allahı tanımamışdırlar".[803]

**2.** İmam Əli (ə) buyurub: "Heç bir bənzəri olmayan Rəbbi bir şeyə bənzətməkdən, yaratdıqlarına oxşatmaqdan, təsəvvür etməkdən, Onun zatı barəsində fikirləşməkdən, Ona məsəl çəkməkdən və ya məxluqların sifətləri ilə vəsf etməkdən çəkinin..."[804]

**3.** İmam Zeynulabidin (ə) bir gün Rəsulullahın (s) məscidində oturmuşdu. Bir qövmün Allahı yaratıqlarına bənzətdiklərini eşitdi. Bundan ürpəndi və dəhşətə gəldi. Rəsulullahın (s) qəbrinin yanına gəlib orada dayanaraq Rəbbi ilə uca səslə münacat elədi. Münacatında belə dedi: "İlahi, qüdrətin heyəti (keyfiyyəti) aşkar olmadan aşkar oldu. Səni tanımadılar və Sənə layiq olmayan tərzdə Səni dəyərləndirdilər. Səni bənzətdilər. İlahi, mən Səni bənzədənlərdən uzağam..."[805]

**4.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: "... Vəsf edənlərin vəsfindən, Allahı yaratdıqlarına bənzədərək Allaha iftira atanlardan uca və pakdır".[806]

**5.** İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Tövhid barəsində insanlar üç qismə bölünürlər: 1. Bənzətmə ilə sifətləri Ona nisbət verənlər. 2. Sifətləri inkar edənlər. 3. Bənzətmə olmadan sifətləri (Allaha) nisbət

---

[802] Bax; Şəhristani, əl-Miləl vən-nihəl, c. 1, s. 92, 105, 106.

[803] Şeyx Səduq, ət-Tövhid, s. 48.

[804] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 298.

[805] Şeyx Mufid, əl-İrşad fi mərifəti hucəcillahi aləl-ibad, c. 2, s. 153.

[806] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 100.

verənlər. Bənzədərək sifətləri isbat edənlərin rəyi doğru deyil. Sifətləri inkar edənlərin rəyləri doğru deyil. Doğru yol bənzətmə olmadan sifətlərin (Allaha) nisbət verilməsidir".[807]

**İkinci rəy (Əşərilərin rəyi): Xəbəri sifətləri zahiri mənada qəbul edib keyfiyyəti inkar etmək.**

Bu rəydə olanlar xəbəri sifətləri ifadə edən sözlərdən ilk anlaşılan mənaları Allah-taalaya nisbət verirlər. Onlara görə Allahın üzü, gözü, əli və sairə sifətləri vardır. Lakin bu sifətlərin keyfiyyəti bizim sifətlərdən fərqlidir. Allah-taalanın üzü vardır, lakin bizim üzümüz kimi deyil. Allah-taalanın gözü vardır, lakin bizim gözümüz kimi deyil. Allah-taalanın əli vardır, lakin bizim əlimiz kimi deyil. Allah-taala enir, lakin bizim endiyimiz kimi deyil.

Əbulhəsən Əşəri deyir: "Allahın keyfiyyəti olmadan üzü vardır... Onun keyfiyyət olmadan əli vardır... Onun keyfiyyət olmadan iki gözü vardır".[808]

**Cavab:** Xəbəri sifətlərdə qeyd olunan üz, göz, əl və başqaları müəyyən sözlərdir və özünəməxsus keyfiyyəti olan şeylərin adlarını ifadə edir. Bu sözləri işlədərək mənasını keyfiyyət olmadan qəbul etmək doğru deyil. Çünki keyfiyyət mənanı sabitləşdirir və əsaslandırır. Əgər keyfiyyət aradan gedərsə, bu sözlər məna baxımından mübhəm və məchul qalar. Mübhəm və məchul olan hər hansı bir həqiqətə və ya bir şeyə dəlalət etməz.

**İzah:**

Allah-taalanın həqiqi əlinin olduğunu deyib keyfiyyətini inkar etmək təzaddır. Çünki həqiqi əlin məlum keyfiyyəti vardır. Keyfiyyətin aradan getməsi onun həqiqətinin aradan getməsidir. Nəticədə əl kəlməsi

[807] Şeyx Səduq, ət-Tövhid, s. 98.

[808] Əbulhəsən Əşəri, əl-İbanə fi usulid-diyanə, s. 36.

keyfiyyət inkar olduqdan sonra söz olaraq anlaşılmır və dərk olunmur. Bu sözü müəyyən bir həqiqəti ifadə etmək üçün işlətmək mümkün olmur. Çünki mübhəm olan söz buna qadir deyil.[809]

**Üçüncü rəy (muəttilənin rəyi): Ağlın sifətləri dərk etməsinin inkarı.**

Bu rəydə olanlar Allahın xəbəri sifətlərini dərk etməkdə ağılın yetərsiz olduğunu deyirlər. Bu sifətlərin mənalarının bizə məlum olmadığını deyirlər. Həmçinin bizim bu sifətlərin mənalarını dərk etməyə mükəlləf olmadığımızı deyirlər. Biz bu sözlərə iman gətirməli, mənasını isə Allah-taalaya həvalə etməliyik.[810]

**Dəlil:**

Xəbəri sifətləri ehtiva edən ayələr mütəşabih ayələrdəndir. Allah-taala mütəşabih ayələri yozmağı qadağan etmişdir. Bəndələrə isə həmin ayələrə yalnız iman gətirməyi əmr etmişdir. Allah-taala buyurur:

**"(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik,**

[809] Bax; Şərif Murtaza, Şərhu cumələil-ilmi vəl-əməl, 74; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 57, 58.

[810] Bax; Şəhristani, əl-Miləl vən-nihəl, c. 1, s. 92, 104.

**onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər".**[811]

Bu baxımdan da bu sifətlərin mənasını dərk etməyə çalışmaqdan çəkinmək və mənasını Allah-taalaya həvalə etmək vacibdir.

**Cavab:** Allahın xəbəri sifətləri mütəşabih ayələrdən deyil. Çünki insan məcazi məna kimi dilin bədii üslublarına müraciət edərək onların mənalarını dərk edə bilir. Məlumdur ki, Quranın zahirini anlamaq ərəb dilininin qayda-qanunlarını, bədii üslublarını bilməkdən asılıdır. Bu yolla insan qəti elm əldə edə bilər.

**Dördüncü rəy (muəvvillənin rəyi): Allah-taalanın uca və paklığına münasib tərzdə xəbəri sifətlərin yozulması.**

Bu rəydə olanlar Allah-taalanın xəbəri sifətlərinin zahirinə əsaslanmağın təcsim və təşbih əqidəsilə nəticələndiyini deyirlər. Bundan xilas olmağın isə yeganə yolu sözün zahirinin əksinə olaraq bu sifətləri Allah-taalanın uca və paklığına münasib üslubda yozmaqdır.[812]

**Qeyd:**

Yozuma yalnız məcbur qaldıqda müraciət olunur. Xəbəri sifətlərin mənasını başa düşməkdə belə bir məcburiyyət yoxdur. Çünki bu sözlərin ərəb dilində maddi anlamdan başqa lüğəti mənaları da vardır. Yozuma ehtiyac olmadan həmin mənaları götürmək olar. Növbəti rəydə bu məsələni izah edəcəyik.

**Beşinci rəy (imamiyyənin rəyi): Məcazi mənada izah etmək.**

Bu rəydə olanlar xəbəri sifətlərin zahiri və maddi mənasını Allah-taalaya nisbət verməyin mümkün olmamasını deyirlər. Həmin sözlərin məcazi mənada olan digər mənaları da vardır. Ərəb dilini bilən şəxslər

[811] Ali İmran surəsi, ayə 7.

[812] Bax; Miqdad Səyuri, İrşadut-talibin, s. 230.

yozuma və təfsirə ehtiyac olmadan həmin mənaları başa düşürlər. Ərəb dilində məcazi məna ehtiva edən sözlər çoxdur və həddindən artıq istifadə edilir. Məsələn;

"Əl" sözü ərəb dilində maddi mənada olan insanın bədən üzvünə dəlalət etdiyi kimi qüdrət və hakimiyyət mənasını da ifadə edir. Müəyyən əlamətlərə əsasən əl kəlməsinin hansı mənaya dəlalət etdiyini təyin etmək mümkündür. Əgər "şah çantanı əli ilə götürdü" deyilərsə, məqsəd aydındır ki, o, maddi anlamda olan əli ilə çantanı daşımışdır. Əgər "Ölkə şahın əlindədir" deyilərsə, məqsəd ölkənin onun hakimiyyəti və qüdrəti altında olmasıdır. İkinci məna zahirə xilaf olan yozum və ya təfsir deyil. Əksinə ərəb dilində olan bu sözün təyin etdiyi mənalardandır.

**Başqa nümunə:** Aslan sözü yırtıcı heyvana dəlalət etdiyi kimi, həmçinin şücaətli insana da dəlalət edir. Bu iki mənadan məhz hansının nəzərdə tutulduğunu müəyyən etmək üçün əlamətlərə baxmaq lazımdır. Əgər bir şəxs "heyvanlar bağçasında aslan gördüm" deyərsə, zehnə gələn ilk məna yırtıcı heyvandır. Lakin bir şəxs "qılıncını sıyırıb hücum edən bir aslan gördüm" deyərsə, burada qılıncını sıyırıb hücum edən sözlərinə əsasən aslan sözünün şücaətli insana dəlalət etdiyini anlayırıq.

**Qeyd:**

Yuxarıda qeyd etdiyimiz nümunədə diqqət edilməsi gərəkən əhəmiyyətli məsələ budur ki, aslan kəlməsinin şücaətli insan mənasında olması ərəb dilçiliyində geniş istifadə edilən məcazi mənaya əsasəndir. Bu isə sözün zahirinin xilafına olaraq yozmaq və ya təfsir etmək növündən deyil.

## Üçüncü mövzu

## Xəbəri sifətlərin ifadə etdiyi mənaların bəyanı.[813]

### 1. Üz.

**Birinci:** Üz (ərəb dilində "vəch" adlanır) bir şeyin zatına dəlalət edir.[814]

Alla-təala buyurur: **"(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir".**[815]

Bu ayədə orjinal dilində (ərəb dilində) "وجه" (üz) kəlməsi işlədilmişdir. Məna Allahın zatının və həqiqətinin əbədi qalmasıdır. Allahdan başqa hər bir şey fənaya məhkumdur.

**İkinci:** "وجه الله" sözü Allah-taalaya üz tutmaq üçün vasitə olan əmələ də işarə edir.[816]

Allah-taala buyurur: **"... Onun vəchindən başqa hər şey məhvə məhkumdur..."**[817] yəni bəndələrin Allah-taalaya xatir olan əməllərindən başqa bütün əməllər batil və puçdur. Həmin əməllərin isə savabı qalacaqdır.[818]

---

[813] Bu mövzuda qeyd olunan Quran ayələrində bəzi sözləri ya zahiri mənasında, ya da ərəb dilində olduğu kimi saxladıq. Çünki izahlar həmin sözlərin mənasını özündə ehtiva edir. (Mütərcim).

[814] Bax; Murtaza, Əmali, c. 1, s. 591; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 108; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 61.

[815] ər-Rəhman surəsi, ayə 26, 27.

[816] Bax; Şeyx Səduq, əl-İtiqadat fi dinil-imamiyyə, c. 1, s. 591.

[817] Qəsəs surəsi, ayə 88.

[818] Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, Qəsəs surəsinin 88-ci ayəsinin təfsiri, c. 7, s. 421.

İmam Muhəmməd Baqir (ə) bu ayə barəsində belə buyrub: "...Yalnız Allahın dini və Ona xatir olan əməllərdən başqa hər bir şey fənaya məhkumdur".[819]

İmam Cəfər Sadiq (ə) bu ayə barəsində belə buyurur: "Haqq yolunu tutan kəsdən başqa hər bir şey fənaya məhkumdur".[820]

İmam Əli bin Musa ər-Rza (ə) bu ayə barəsində belə buyururb: "Vəchullah Allahın peyğəmbərləri, rəsulları və höccətləridir. Onların hamısına Allahın salam və salavatı olsun. Məhz onların vasitəsilə Allaha üz tutmaq, Onun dinini öyrənmə və Onu tanıma baş verir".[821]

**Allah-taalanın surətdən uca və pak olması.**

Allah-taala surətdən uca və pakdır. Rəsulullahdan (s) nəql olunan "Allahı Adəmi öz surətində yaratmışdır" hədisə gəlincə, Əhli-Beyt imamları (ə) bu hədisi iki müxtəlif cəhətdən izah etmişlər:

**1.** Bir nəfər İmam Rzadan (ə) belə soruşdu: "Ey Rəsulullahın övladı, camaat Rasulullahın (s) "Allah Adəmi öz surətində yaratmışdır" –deyə buyurduğunu nəql edir. İmam (ə) buyurdu: "Allah onları öldürsün! Hədisin əvvəlini deməmişlər. Rəsulullah (s) bir-birini söyən iki kişinin yanından keçirdi. Onlardan birinin digərinə "Allah sənin və sənin kimilərin üzünü çirkinləşdirsin" dediyini eşitdi. Peyğəmbər (s) belə buyurdu: "Ey Allahın qulu, qardaşına elə demə! Həqiqətən də Allah-taala Adəmi onun surətində yaratmışdır".[822] Hədisdə "صورته" sözündəki "ه" bitişən əvəzliyi öz və ya onun mənasını ifadə edir.

**2.** İmam Muhəmməd Baqirdən (ə) "Allah Adəmi özünün (və ya onun) surətində xəlq etmişdir" hədisi barədə soruşdular. İmam (ə) belə

[819] Şeyx Səduq, ət-Tövhid, s. 144.

[820] Həmin mənbə.

[821] Həmin mənbə, s. 114.

[822] Həmin mənbə, s. 147, 148.

buyurdu: “Bu sonradan var olan, yaranan surətdir. Allah həmin surəti başqa surətlərin içindən seçib ayırmışdır. Kəbəni və ruhu Özünə nisbət verdiyi kimi onu da Özünə nisbət vermişdir. Allah-taala belə buyurmuşdur: **“... Evimi...”**[823], **“... ruhumdan üfürdüyüm zaman ...”**[824].[825]

**Mövzunun davamı.**

**1.** Bir xristian İmam Əlidən (ə) belə soruşdu: “Uca Rəbbin vəchi (üzü) barədə mənə xəbər ver”. Əli (ə) bizi səslədi. Odun topladı və od qaladı. Od alovlandıqdan sonra Əli (ə) belə dedi: “Bu alovun üzü hardadır?” Xristian dedi: “Bu alov hər cəhətdən üzdür”. İmam Əli (ə) buyurudu: “Bu alov yaradılmış bir məxluqdur. Onun üzü tanınmır. Onu yaradan heç bir şeyə bənzəməz. Şərq və qərb Allaha məxsusdur. Hara üz tutsanız Allahın vəchi (zatı) oradadır...”[826]

**2. “... Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik...”**[827] ayəsində “وجه الله” sözü riya və ya hər hansı məqsəd olmadan sırf Allaha üz tutaraq ixlasla sizi yedirdirik.[828]

**2. Göz.**

Göz nəzarət, qorumaq, himayə etmək mənasını ifadə etmək üçün işlədilir.

Allah-taala buyurur: **“Gözlərimizin önündə və vəhyimiz üzrə (sənə öyrədəcəyimiz kimi) gəmini düzəlt...”**[829]

Yəni bizim nəzarətimiz və himayəmiz altında gəmini düzəlt.[830]

---

[823] Bəqərə surəsi, ayə 125.

[824] Hicr surəsi, ayə 29.

[825] Şeyx Səduq, ət-Tövhid, s. 100.

[826] Həmin mənbə, s. 177.

[827] İnsan surəsi, ayə 9.

[828] Bax; Şeyx Tusi, Məcməul-bəyan, İnsan surəsinin 9-cu ayəsinin təfsiri, c. 10, s. 617.

[829] Hud surəsi, ayə 37.

Allah-taala buyurur: **“(Ya Peyğəmbər!) Sən öz Rəbinin hökmünə səbr et! Şübhəsiz ki, sən Bizim gözümüzün qabağındasan...”**[831]

Yəni Rəbbinin hökmünə səbr et! Həqiqətən də sən Bizim nəzarətimiz, hifzimiz və himayəmiz altındasan.[832]

### 3. Əl.

**Birinci məna:** Əl qüvvət və qüdrət anlamındadır. İmam Muhəmməd Baqir (ə) belə buyurub: “Ərəb dilində əl qüvvət və nemət mənasındadır. Allah-taala buyurub: **“Onların dediklərinə səbr et və qüvvətli bəndəmiz[833] Davudu yadına sal!..”**[834]Həmçinin buyurub: **“Biz göyü qüdrətimizlə (qüdrət əlimizlə) yaratdıq...”[835].**[836]

Allah-taala buyurub: **“... Allahın əli onların əlinin üstündədir...”[837] Yəni Allahın qüdrət və qüvvəti.**[838]

Allah-taala buyurub: **“(Allah) buyurdu: «Ey İblis! Sənə Mənim öz əlimlə (vasitəsiz olaraq Öz istəyimlə) yaratdığıma səcdə etməyə nə mane oldu?» Təkəbbür göstərdin, yoxsa doğrudan da üstünlərdənsən?”**[839]

---

[830] Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 173.

[831] Tur surəsi, ayə 48.

[832] Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 107.

[833] Bu ayədə orjinalda “zul-əydi” sözü işlənib. Bu sözün hərfi mənası əllər sahibi deməkdir. Əl sözünü bildirən “yəd” sözünün cəmi işlədilmişdir. Ərəb dilində cəm üçdən daha artıq sayı ehtiva edir. Əgər zahiri mənanı götürsək Davudun üçdən artıq əllərinin olduğu deyilmiş olur. Bu isə ağıl və məntiqə aşkarcasına ziddir.

[834] Sad surəsi, ayə 17.

[835] Zariyat surəsi, ayə 47.

[836] Şeyx Səduq, ət-Tövhid, s. 148.

[837] Fəth surəsi, ayə 10.

[838] Bax; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 173.

[839] Sad surəsi, ayə 75.

Yəni qüdrət və qüvvətimlə yaratdığım. [840]

**İkinci məna:** Əl nemət mənasındadır.[841] Əli bağlı olma simiclik mənasındadır. Əliaçıq isə səxavətli olmaq mənasındadır.

Allah-taala buyurur: **"Yəhudilər dedilər: «Allahın əli bağlıdır (həm şəriət mərhələsində və həm də insanlara əta və bəxşiş etməkdə! Və elə buna görə də dinin istər Tövratda, istərsə də başqasında olan hökmləri nəsx oluna bilməz. Həmçinin əta və bəxşişdə də ona görə ki, möminlərin hamısı yoxsuldurlar və Allah insanlardan borc istəyir).» Öz əlləri bağlansın və dedikləri sözün cəzası olaraq Allahın rəhmətindən uzaq düşsünlər! Əksinə, Onun hər iki (qüdrət) əli daim açıqdır və Onun kamil qüdrəti həmişə qalmaqdadır (hökm və şəriətləri nəsx edir, dost və düşmənlərə dünyada və axirətdə) istədiyi kimi əta və bəxşiş edir…"**[842]

Yəhudilər dedilər ki, Allah-taala simicdir. Bəndələrinə ruzisin əsirgəyir. Allah-taala onalar cavab belə buyurdu: **"Əksinə, Onun hər iki əli daim açıqdır".**[843] Yəni Allah-taala son dərəcə səxavətli və bəxşiş edəndir.

---

[840] Bax; Əmali Murtaza, c. 1, 565, 566. "Əlimlə yaratdım" yaradılışını öz öhdəmə götürmüşəm mənasındadır. Yəni Adəmi vasitə olmadan özüm yaratdım. Bax; Şeyx Tusi, Məcməul-bəyan, Sad surəsinin 75-ci ayəsinin təfsiri, c. 8, s. 757.

[841] Əlin nemət mənasını daşımasının səbəbi nemətin verilməsi üçün əlin bir vasitə olmasıdır. Bax; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 173.

[842] Maidə surəsi, ayə 64.

[843] Burada iki əl deyilir. Bunun səbəbi aşağıdakılardı:

1. Səxavətin mübaliğə anlamındadır. Çünki əl sözünün təkdə işlədilməsindən daha bəlağətlidir.

2. Məqsəd dünya və axirət nemətləridir. Yaxud aşkar və gizli nemətlərdir. Əgər bu ayədə əldən məqsəd qüvvətdirsə, əl sözünün ikilik kateqoriyasında işlədilməsindən məqsəd Allahın bəndələrinə savab verməkdə və Allah bizə cəza verə bilməyəcək deyən yəhudilərin əksinə olaraq cəza verməkdə qüvvətinin aşkar olmasına işarə edir. Bax; Şeyx Tusi, Məcməul-bəyan, Maidə surəsi, ayə 64-cü ayənin təfsiri, c. 3, s. 340.

**Qeyd:**

Əlin bağlı olmasının simiclik, əlin açıq olmasını səxavət mənasında olması bu ayəyə bənzəyir: **"Və əlini bağlayıb boynuna qoyma (vacibləri verməkdə xəsislik etmə) və onu tamamilə də açma (özün möhtac olacağın həddə qədər vermə) ki, qınanmış və aciz halda düşüb qalarsan".**[844]

**4. Sağ əl:**

Sağ əl qüdrət və qüvvət mənasındadır. Allah-taala buyurur: **"... bütün göylər Onun qüdrətli əli ilə büküləcəkdir".**[845] Yəni bütün göylər Onun qüdrət və qüvvətilə büküləcəkdir.

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) bu ayənin barəsində belə buyurur: "(Ayədəki) sağ tərəf əl mənasındadır. Əl qüdrət və qüvvət mənasındadır. Allah-taala buyurur**: "...bütün göylər Onun qüdrətli əli ilə büküləcəkdir".**[846]

**5. Ovuc.**

Ovuc mülkiyyət mənasındadır. Allah-taala buyurur: **"... Halbuki qiyamət günü yer (kürəsi) bütünlüklə Onun (qüdrət) ovucunda olacaq..."**[847] Yəni qiyamət günü yer bütövlükdə Onun mülkiyyətində olacaq.

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) bu ayə barəsində belə buyurub: "Yəni (yer bütövlükdə) Onun mülkiyyətindədir. Onunla yanaşı heç kim yerə sahib deyil".[848]

---

[844] İsra surəsi, ayə 29.

[845] Zümər surəsi, ayə 67.

[846] Şeyx Səduq, ət-Tövhid, s. 157.

[847] Zümər surəsi, ayə 67.

[848] Şeyx Səduq, ət-Tövhid, s. 157.

**6. Baldır:**

Birinci məna: Baldır çətinlik mənasındadır.[849]

Allah-taala buyurub: **"(Yada sal) o gün ki, baldır açılar (işləri olduqca çətinə düşər)..."**[850]

Yəni qiyamət günü olduqca çətin gündür.

Şeyx Mufid bu ayə barəsində belə deyir: "Məqsəd qiyamət günüdür. Həmin gün olduqca çətin, şiddətli və ağırdır. Hesab, əməllərin düzgün olması, edilən günahlara verilən cəza, qəlblərdə olanların aşkar olması, içdə olanların üzə çıxması... Budun açılması işin çətinliyini ifadə edir".[851]

Şərif Murtaza ərəblərin baldır sözünü işin çətinliyini ifadə etmələri barədə belə deyir: "Çünki insanlar çətin işlərdə baldırların çırmalayıb qaçırlar".[852]

Bu ayənin barəsində İmam Cəfər Sadiq (ə) belə buyurub: "İnsanların bütün bəhanələri kəsiləcək və içlərinə qorxu dolacaq, gözlər bərələcək, qəlblər hulquma çatacaq, gözlər yerə dikilər, zillət vucudlarını bürüyər..."[853]

**İkinci məna:** Ayədə baldır mənasını verən "ساق" sözü nurdan olan hicabın aradan getməsinə işarədir. Allah-taala buyurur: **"İş çətinləşəcəyi (baldırlar açılacağı, lüt-üryan vəziyyətdə qiyamətə gedəcəkləri, qiyamət bütün dəhşəti ilə görünəcəyi, həqiqət aşkar olacağı)..."**[854]

İmam Əli bin Musa ər-Rza (ə) bu ayənin barəsində belə buyurur: "Nurdan olan hicab açılacaqdır".[855]

---

[849] Şeyx Səduq, əl-İtiqadat, 28, 29.

[850] Qələm surəsi, ayə 42.

[851] Şeyx Mufid, Təshih itiqadatil-imamiyyə, 28, 29.

[852] Muhəqqiq Hilli, əl-Məslək fi usulid-din, s. 62.

[853] Şeyx Səduq, ət-Tövhid, s. 150.

[854] Qələm surəsi, ayə 42.

[855] Şeyx Səduq, ət-Tövhid, s. 149.

**7. Tərəf, yan:**

Allahın yanında Allah yaxın olmanı ifadə etmək üçündür. Məsələn, Allahın peyğəmbəri, övliyaları və razı olduğu əməllər insanı Allaha yaxın edən cəhətlərdir. Ümumiyyətlə, Allahın yanında dedikdə Allah-taalaya itaət etmək nəzərdə tutulduğunu demək olar.[856]

Allah-taala buyurur: **"(Elə edin ki, sonradan) bir kəs: "Allahın yanında itaət barəsində etdiyim təqsirlərə görə vay halıma!.."**[857]

Yəni Rəsulullaha tabe olmaqda, ondan sonra Allahın mənə əmr etdiyi yolla getməkdə yola verdiyim təqsirlərə görə vay halıma! Yaxud ümumiyyətlə, Allah-taalaya itaət etməkdə yola verdiyim təqsirlərə görə vay halıma!

İmam Muhəmməd bin Əli əl-Baqir (ə) belə buyurur: "Allahın yanında sözünün mənası budur; Allaha Rəsulundan yaxın heç bir kəs yoxdur. Rəsuluna vəsisindən başqa ən yaxın heç bir kəs yoxdur. O, yaxınlıqda bir şeyin yanında olan kimidir. Allah-taala bunu kitabında bəyan edərək belə buyurur: **"(Elə edin ki, sonradan) bir kəs: "Allahın yanında itaət barəsində etdiyim təqsirlərə görə vay halıma!.."**[858] yəni (Allahın) övliyalarının vilayəti barədə yol verdiyim təqsirlər".[859]

**8. Nəfs:**

Nəfs bir şeyin zatı mənasındadır.

Allah-taala buyurur: **"...Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatından ola bilmərəm..."**[860]

---

[856] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 160 ,161.

[857] Zümər surəsi, ayə 56.

[858] Zümər surəsi, ayə 56.

[859] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 10.

[860] Maidə surəsi, ayə 116.

Yəni mənim gizlətdiyimi Sən bilirsən, Sənin gizlətdiyini isə mən bilirmirəm.[861]

Yəni Allah bununla verəcəyi cəzadan çəkindirir.

Ola bilər ki, Allah-taalanın Özünü qeyd etməsindən məqsəd budur: Başqası tərəfindən gələn deyil, Özü tərəfindən gələcək əzabdan bəndələrini çəkindirir. Çünki Allah-taala tərəfindən bir başa gələn bəla daha təsirli və ağrılıdır.[862]

**9. Ruh:**

Ruh Allahın yaratdığı və seçərək Özünə nisbət verdiyi varlıqdır. Neçə ki, Allah-taala bəzi yaratdıqlarını Özünə nisbət verərək qulum, cənnətim, cəhənnəmim, səmam, yerim demişdir.[863]

Allah-taala buyurur: **"Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!"**[864]

İmam Muhəmməd bin Əli əl-Baqir (ə) bu ayə barəsində belə buyurub: "Allahın seçdiyi, saflaşdırdığı, yaratdığı, Özünə nisbət verdiyi və bütün ruhlardan üstün tutduğu bir ruhdur. Əmr etdi və həmin ruhdan Adəmə üfürüldü".[865]

Başqa bir hədisdə isə belə buyurur: "... Başqa ruhlardan seçib ayırdığı üçün bu ruhu Özünə nisbət vermişdir. Necə ki, evlərdən bir evi seçib "evim" demişdir. Peyğəmbərlərindən birinə "xəlilim" (dostum) demiş və buna bənzər şeylər. Bütün bunların hamısı məxluqdur, sonradan yaradılmışdır, tərbiyə və idarə olunandır.[866]

---

[861] Şeyx Səduq, ət-Tövhid, s. 166.

[862] Bax; Şərif Murtaza, Həqiqut-təvil, s. 78.

[863] Şeyx səduq, əl-İtiqadat, s. 5.

[864] Hicr surəsi, ayə 29.

[865] Şeyx Səduq, ət-Tövhid, s. 166.

[866] Həmin mənbə, s. 167.

**10. Gəlib getmək:**

Allaha gəlib getmək nisbət verilməsi Allah sözünə əlavə olunmuş izafət birləşməsinin birinci tərəfinin pozulmasından sonra olur. Ərəb dilində izafət birləşməsinin birinci tərəfinin pozularaq nəzərdə tutulması baş verən hallardandır.

Allah-taala buyurur: **"Rəbbinin gəlib mələklər səf-səf duracağı"**[867]

Yəni Rəbbinin əmri gəldi.[868] Necə ki, başqa bir ayədə belə buyurulur: **"...yaxud sənin Rəbbinin (əzab) əmrinin gəlib çatmasınımı gözləyirlər?..."**[869]

İmam Əli bin Musa ər-Rza (ə) bu ayənin barəsində belə buyurur: "Allah-taala gəlib getməklə vəsf olunmaz. Allah-taala hərəkət etməkdən uca və pakdır. Burada məqsəd "Rəbbinin əmri gəldi"dir..."[870]

Allah-taala buyurub: **"Yoxsa onlar Allahın bulud kölgələri içində mələklərlə gəlməsini və işin tamam olmasını (özlərinin məhv edilməsini) gözləyirlər?..."**[871]

Yəni Allahın əzabının[872] və ya vədinin gəlməsi nəzərdə tutulur.[873]

**11. Ərş:**

Allah-taala buyurur: **"Rəhman olan Allah ərşdə qərar tutdu".**[874]

**Allahın ərşi nədir?**

İmam Əli (ə) buyurub: "Ərş taxt formasında deyil. Lakin məhdud, məxluq və idarə olunan bir şeydir. Rəbbin onun sahibidir... Mələklərə onu

---

[867] Fəcr surəsi, ayə 22.

[868] Bax; Şeyx Səduq, əl-İtiqadat, s. 6.

[869] Nəhl surəsi, ayə 33.

[870] Şeyx Səduq, ət-Tövhid, s. 158.

[871] Bəqərə surəsi, ayə 210.

[872] Bax; Şeyx Səduq, əl-itiqadat, s. 6.

[873] Bax; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 106.

[874] Taha surəsi, ayə 5.

daşımağı əmr etmişdir. Allahın onlara verdiyi qüdrət sayəsində ərşi daşıyırlar".[875]

**Allah-taala ərşi nə vaxt yaradıb?**

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Allah-taala göyləri və yeri yaratmadan əvvəl ərşi yaratmışdır".[876]

Ərşin Allaha nisbət verildiyi Quran ayələrini düşünən insan ərş qeyd edildikdən sonra həmin ayələrdə yaradılışın tədbiri barədə danışıldığına rast gəlir.

Allah-taala buyurur: **"Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşə üz tutan), hər işi yerinə qoyan (səhmana salan) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?"**[877]

Allah-taala buyurur: **"Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan (ərş üzərində bərqərar olan), müəyyən vaxta (dünyanın axırına – qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə, inanasınız!"**[878]

Allah-taala buyurur: **"Göyləri, yeri və onların arasındakıları altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşdə bərqərar olan) Allahdır. Sizin Ondan başqa heç bir haminiz və şəfaət (əzabı dəf) edəniniz yoxdur. Məgər öyüd-nəsihət qəbul**

[875] Şeyx Səduq, ət-Tövhid, s. 309.

[876] Həmin mənbə, s. 313.

[877] Yunis surəsi, ayə 3.

[878] Rəd surəsi, ayə 2.

**etməyəcəksiniz? O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona doğru (Allahın dərgahına) yüksələr".**[879]

**Allahın ərşdə qərar tutmasının mənası.**

Ayədə qeyd olunan "استواء" bir şeyin bir şey üzərində qərar tutmasıdır. Həmçinin bu söz hakim olma, idarəsi altına alma, sahib olma mənasına da dəlalət edir.[880] Allah-taala hər hansı məkanda qərar tutmaqdan uca və pak olduğu üçün məcazi mənanı götürmək lazımdır. Allah-taala buyurur: **"Rəhman olan Allah ərşdə qərar tutdu".** Yəni Rəhman olan Allah yaradılışın işlərini idarə etmək üçün ərşə hakim oldu.[881]

## Allahın ərşdə qərar tutması barədə Əhli-beytdən (ə) nəql olunan hədislər

**1.** İmam Əli (ə) buyurub: "... Bir şey bir şeyin üzərində olduğu kimi onun (ərşin) üzərində deyil ..."[882]

**2.** İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "... Ərşin üzərində olmaqla vəsf olunmaz. Çünki O, cisim deyil. Allah-taala yaratdıqlarının sifətindən uca və pakdır..."[883]

**3.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: "Kim bunu iddia edərsə (kim Rəbbin ərşin üzərində olduğunu iddia edərsə), Allahı daşınan

[879] Səcdə surəsi, ayə 4, 5.

[880] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 439.

[881] Bax; İbn Zöhrə, Ğunyətun-nuzu, c. 2, s. 48; Muhəqqiq Hilli, əl-Məslək fi usuliddin, s. 63.

[882] Şeyx Səduq, ət-Tövhid, s. 309.

[883] Həmin mənbə, s. 313.

hesab etmiş və Onu məxluqların sifətilə vəsf etmişdir. Onu daşıyanın Ondan daha qüvvətli olması vacib olar...”[884]

**4.** İmam Cəfər Sadiq (ə) buyurub: “... O, ərşə hakimdir. Ərş Onu daşımadan. O, xəlqindən ayrıdır. Ərş Onun məhəlli deyil... Ərşin Onu ehtiva etməsini, hər hansı bir məkana və ya yaratdıqlarından bir şeyə möhtac olmasını inkar edirik. Əksinə yaratdıqları Ona möhtacdır”.[885]

**5.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) “Rəhman olan Allah ərşdə qərar tutdu” ayəsinin barəsində belə buyurdu: “Hər şeydən eyni dərəcədə yaxındır. Bir şey digərindən Ona daha yaxın deyil”.[886]

**12. Kürsi.**

**Birinci məna:** Allaha nisbət verilən kürsi göyləri və yeri əhatə edən bir örtükdən ibarətdir. Allah-taala buyurur: **“...Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir...”**[887] Yəni kürsi göyləri və yeri əhatə edən ilahi bir məxluqdur.

İmam Cəfər Sadiq (ə) buyurub: “Allah-taala kürsünü yaratmışdır. Göylər və yer onun içindədir. Kürsü Allahın yaratdığı hər şeydən daha böyükdür. Sonra ərşi yaratdı və onu kürsüdən daha böyük etdi”.[888]

Həmçinin belə buyurub: “Ərşdən başqa Allahın yaratdığı hər şey kürsünün içindədir. Ərş kürsünün onu əhatə etməsindən daha böyük və əzəmətlidir”.[889]

**İkinci məna:** Kürsünün ərəb dilində iki mənası vardır:

**1. Taxt.** Allah-taala Süleyman peyğəmbərin əhvalatında belə buyurur: “...Taxtının üstünə (ruhsuz) bir cəsəd atdıq ...”[890]

---

[884] Həmin mənbə, s. 312.

[885] Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 29, 30.

[886] Şeyx Səduq, ət-Tövhid, s. 308.

[887] Bəqərə surəsi, ayə 255.

[888] Şeyx Təbərsi, əl-İhticac, c. 2, s. 250.

[889] Həmin mənbə, c. 2, s. 249.

**2. Elm.**[891] Buna əsasən də ərəb dilində elmi məsələ barədə yazılmış səhifəyə "kurrasətun" deyilir.[892]

Allah-taala buyurur: **"...O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsünü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir..."**[893]

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) **"...Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir..."** ayəsi barədə belə buyurur: "Bu, Allahın elmidir".[894]

**13. Qovuşmaq.**

Burada qovuşmaq (لقاء) əzəmətli biri ilə görüşmək, onun hökmü və qüvvəti altına daxil olmaqdır.

Allah-taala buyurur: **"Belə kimsələr Rəbbinin mərhəmətinə qovuşacaqlarını və axırda Onun hüzuruna qayıdacaqlarını bilirlər".**[895]

Həmçinin buyurur: **"(Allaha) verdikləri vədə xilaf çıxdıqlarına, yalan danışdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı".**[896]

Bu iki ayədə qovuşmaqdan məqsəd aşağıdakıların olduğu ehtimal edilir:

---

[890] Sad surəsi, ayə 34.

[891] Lisanul-ərəb, c. 12.

[892] İbn Cərir Təbəri, Camiul-bəyan, c. 3, s. 15.

[893] Bəqərə surəsi, ayə 255.

[894] Şeyx Səduq, ət-Tövhid, s. 319.

[895] Bəqərə surəsi, ayə 46.

[896] Tövbə surəsi, ayə 77.

**Birinci:** Qiyamət günü onlar Allahın hökmü və qüdrəti altında olacaqlar.

**İkinci:** Bu sözdə izafət birləşməsinin birinci tərəfi pozulmuşdur. Yəni məna Rəblərinin cəzası ilə qarşılaşacaqlardır.[897]

### 14. Yaxınlıq.

Allah-taalaya yaxınlıq nisbət verilməsi elm və qüdrətlə yaxınlıq mənasındadır. Allaha zaman və məkan baxımından yaxınlıq nisbət verilməz. Çünki Allah-taala bu kimi məsələlərdən uca və pakdır.

Allah-taala buyurur: **"...Biz ona şah damarından da yaxınıq!..."**[898]

Yəni elm, əhatə etmək, nəzarət etmək, eşitmək və görməklə biz ona daha yaxınıq.[899]

### 15. Razılıq və qəzəb.

Allah-taala buyurur: **"...Allah onlardan, onlar da Allahdan razıdırlar..."**[900]

Allah-taala buyurur: **"...Allahın onlara qəzəbi tutmuş..."**[901]

**Allah-taalanın təsirlənmək mənasında razılıq və qəzəbdən uca və pak olması.**

**1.** İmam Cəfər Sadiqdən (ə) Allah-taala barəsində "Onun razılıq və qəzəbi varmı?" –deyə soruşdular. İmam (ə) belə buyurdu: "Bəli. Lakin bu, məxluqlarda olduğu kimi deyil. Çünki razılıq və qəzəb daxil olmaqla bir haldan başqa hala dəyişir, təsirlənmədir, mürəkkəbdir. Əşyaların bu işdə

---

[897] Bax; Miqdad Səyuri, əl-Ləvamiul-ilahiyyə, s. 178.

[898] Qaf surəsi, ayə 16.

[899] Bax; Şeyx Məhəmməd bin Həsən Tusi, ət-Tibyan fi təfsiril-Quran, Qaf surəsinin 16-cı ayəsinin təfsiri, c. 9, s. 364.

[900] Maidə surəsi, ayə 119.

[901] Fəth surəsi, ayə 6.

təsiri vardır. Xaliqimizə gəlincə, heç bir şey ona təsir edə bilməz. O, vahiddir, zatı və həqiqəti təkdir, bəsitdir və mürəkkəb deyil...”[902]

**2.** İmam Cəfər Sadiq (ə) belə buyurub: “...Əgər Allahda narahatlıq və qəzəb baş versəydi, Onda dəyişiklik olardı. Əgər Onda dəyişiklik baş verərsə, aradan getməməsinə əminlik olmazdı. Belə olduqda isə yaradan yaradılandan, qüdrətli ilə qüdrətə tabe olandan, Xaliqlə məxluqdan fərqlənməzdi. Allah-taala bu rəydən uca və böyükdür!”[903]

**3.** İmam Məhəmməd bin Əli əl-Baqir (ə) Allah-taalanın qəzəbi barədə belə buyurur: “Kim Allah-taalanın bir şeydən başqa şeyə dəyişildiyini iddia edərsə, Onu məxluq sifəti ilə vəsf etmişdir. Heç bir şey Onu sarsıda və dəyişə bilməz”.[904]

**4.** İmam Əli (ə) buyurub: “Riqqətə gəlmədən sevib razı qalar, məşəqqətə düşmədən nifrət edər və qəzəblənər”.[905]

**Allah-taalaya nisbət verilən razılıq və qəzəbdən məqsəd.**

**1.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: “... Onun razılığı savabı, qəzəbi cəzasıdır. Onda heç bir dəyişiklik olmadan, bir haldan başqa hala salacaq bir şey baş vermədən olur. Bütün bunlar məxluqların, acizlərin və möhtacların sifətidir. O, uca, böyük, qüvvətli, izzətli, yaratdığı heç bir şeyə ehtiyacı yoxdur və bütün yaratdıqları Ona möhtacdır”.[906]

**2.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə)-dan “Ey Peyğəmbərin (s) övladı, mənə de görüm; Allah-taalanın razılıq və qəzəbi varmı?” –deyə

[902] Şeyx Səduq, ət-Tövhid, s. 165.

[903] Həmin mənbə, s. 164, 165.

[904] Həmin mənbə, s. 164.

[905] Şərif Murtaza, Nəhcül-bəlağə, 186-cı xütbə, s. 367, 368.

[906] Həmin mənbə, s. 165.

soruşdular. İmam (ə) buyurdu: “Bəli. Lakin bu məxluqlarda olan kimi deyil. Allahın qəzəbi Onun cəzası, razılığı isə savabıdır”.[907]

**Nəticə:**

Razılıq və qəzəb sifəti dəyişiklik və təsirlənmə mənasını ehtiva edir. Allah-taala bu kimi mənalardan uca və pak olduğu üçün bu sifətlərin Ona nisbət verilməsi məcazi anlamda olmalıdır. Bu sifətlər Onun savabı və cəzasını bildirir.

**Qeyd:**

Əgər Allah-taalanın razılığı və qəzəbi hər hansı bir insana şamil olarsa, məqsəd ona savab vermək və ya cəzalandırmaqdır. Lakin Allahın razılığı və ya qəzəbi insanın əməllərinə aid olarsa, məqsəd əmr və qadağalardır. Əgər Allah itaəti bəyənir deyiriksə, məqsəd onu əmr etməsidir. Əgər Allah günah əməldən qəzəblənir deyiriksə, məqsəd Onun həmin əməli qadağan etməsidir.[908]

**16. Məsxərə, istihza, hiylə və aldatma.**

Allah-taala buyurur: **“... və onlara məsxərə edənləri Allah məsxərə edir...”**[909]

**“Allah da (Qiyamətdə) onları ələ salacaqdır”.**[910]

**“Və onlar (Bəni-İsrail kafirləri İsanı öldürmək və onun dinini məhv etmək üçün) hiylə işlətdilər və Allah da onların hiylələrinin cavabını verdi. Allah hiyləyə cavab verənlərin ən yaxşısıdır...”**[911]

**“ Həqiqətən münafiqlər Allaha qarşı hiyləgərlik edirlər, halbuki, Allah onları aldadır...”**[912]

---

[907] Şeyx Səduq, ət-Tövhid, s. 164.

[908] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 84.

[909] Tövbə surəsi, ayə 79.

[910] Bəqərə surəsi, ayə 15.

[911] Ali İmran surəsi, ayə 54.

İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: "Allah-taala məsxərə etməz, ələ salmaz, hiyləgərlik etməz və aldatmaz. Lakin Allah-taala məsxərə, istehza, hiylə və aldatmanın cəzası ilə onları cəzalandırar. Allah zalımların dediklərindən uca və böyükdür".[913]

### 17. Unutmaq.

Allahın bəzi bəndələrini unutması onlara əhəmiyyət verməməsi, öz öhdələrinə buraxması və onlara biganə qalması mənasındadır. Allah onlara qarşı belə edərsə, onlar özlərini unudacaqlar. Bu, Allahı unutduqları üçün onlara veriləcək cəza olacaqdır.

Allah-taala buyurur: **"... Onlar Allahı unutdular, Allah da onları unutdu..."**[914]

İmam Əli bin Musa ər-Rza (ə) bu ayə barəsində belə buyurub: "Allah-taala unutmaz, qəflətdə olmaz. Unudub qəflətdə olan yalnız sonradan yaranan məxluqdur. Məgər Allah-taalanın **"... Sənin Rəbbin əsla unutqan deyil"**[915] -deyə buyurduğunu eşitməmisənmi? Allah yalnız Onu və Onunla qarşılaşacağı günü (qiyamət gününü) unudanı cəzalandırar. Onlara özlərini unutdurar. Necə ki, Allah-taala belə buyurur: **"Allahı unutduqlarına görə, Allahın da onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar həmin fasiqlərdirlər!"**[916] Həmçinin buyurur: **"...Beləliklə, onlar bu günki görüşlərini yaddan çıxardıqları və ayələrimizi inkar etdikləri kimi, Biz də bu gün onları yaddan**

---

[912] Nisa surəsi, ayə 142.

[913] Şeyx Səduq, ət-Tövhid, s. 159.

[914] Tövbə surəsi, ayə 67.

[915] Məryəm surəsi, ayə 64.

[916] Həşr surəsi, ayə 19.

**çıxaracağıq”.**[917] Yəni onlar bu günkü görüşə hazırlaşmadıqları üçün biz də onları öz öhdələrinə buraxırıq”.[918]

İmam Əli (ə) buyurub: “Allah-taalanın **“... Onlar Allahı unutdular, Allah da onları unutdu...”**[919] buyurmasına gəlincə, mənası budur ki, onlar dünya yurdunda Allahı unutdular, Ona itaət etmədilər Allah da axirətdə onları unutdu. Yəni onlara heç bir savab vermədi. Onlar xeyirdən kənar, unudulmuş qaldılar”[920]

[917] Əraf surəsi, ayə 51.

[918] Şeyx Səduq, ət-Tövhid, s. 155.

[919] Tövbə surəsi, ayə 67.

[920] Həmin mənbə, səh 253.

## On altıncı fəsil: Allah-taalanın adları

**Adın mənası və qisimləri**

**Allah-taalanın adlarınının məqsədi**

**Əsmaul-husna (Allahın gözəl adları)**

**Allah-taalanın adlarının xüsusiyyətləri**

**Allah-taalanın adlarının toxunulmaz olması**

**Allah-taalanın adlarının izahı və mənaları**

## Birinci mövzu

## Adın mənası və qisimləri

**Adın mənası.**

İsim (ad) zamana bağlı olmayan bitmiş mənanı ifadə edir.[921]

Adlar real varlıqların mənasını əks etdirən sözərdir.[922]

**İsimlərin (adların) qisimləri:**

İsim bir neçə cəhətdən formalaşır:

**1.** Zeyd və ya Ömər kimi varlığın zatına dəlalət edir. Məsələn, Allah kəlməsi.

**2.** Varlığın müəyyən hissəsinə dəlaət edir. İnsan bədən üzvlərinin adları kimi. Bu növ ad Allah-taala barəsində qeyri mümkündür. Çünki Onun hissələri yoxdur.

**3.** Varlığın müsbət vəsfi üçün olan isimlər. Bu növ isim kamil sifətlə vəsf olunan zata dəlalət edir. Məsələn, "alim" adı kimi. Bu ad elmlə vəsf olunan varlığa dəlalət edir.

**4.** Varlığın inkar olunan vəsflərdən uca olmasına dəlalət edən isimlər. Bu kimi adlar zatın həmin sifətlə vəsf olunmamasına dəlalət edir. Çünki zat həmin mənfi sifətlə vəsf olunmur. Məsələn, "Qüddus" sözü kimi. Bu sözün mənası bütün eyb və nöqsandan uca və pak olandır.

**5.** Felin baş verməsinə görə yaranan isim. Feli vəsf də adlanır. Bu növ isim varlığın etdiyi bəzi fellərə görə ona nisbət verilən adlardır. Məsələn, Xaliq, Raziq adları kimi.

---

[921] Rəşid Şərtuni, Məbadiul-ərəbiyyə, c. 2, s. 31.

[922] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c.1, s. 70; Əllamə Hilli, Mənahicul-yəqin, s. 225.

**İsmin başqa bölgüsü.**[923]

**1. Xalis isim:** Hər hansı sifət nəzərə alınmadan zata dəlalət edən ad.

**2. Sifəti isim:** Hər hansı bir sifətlə vəsf olunmasına görə zata dəlalət edən ad.

**İsimlə sifət arasındakı fərq:**[924]

**1.** Zat və sifət olmaları xüsusunda. Əgər sifətə sırf sifət olma baxımından nəzər salsaq, ona sifət deyilir. Əgər sifətlə vəsf olunmuş zata nəzər salsaq, bu halda sifət isim (ad) adlanır.[925]

**2.** Sifət zatın vəsf olunduğu sifətə işarə edir. İsim zatın vəsf olunduğu sifət baxımından zata işarə edən addır. Həyat və elm sifət, alim və həyy (diri) isə addır.[926]

**3.** Sifət xəbər yerində işlədilmir. Məsələn, Allah elmdir, Allah yaratmaqdır deyilməz. Lakin isim xəbər yerində işlədilər. Allah alimdir, Allah xaliqdir deyilər.

---

[923] Əbu Hilal əl-Əskəri, Mucəmul-furuqil-luğəviyyə, s. 51; Bax; Əllamə Məclisi, Biharul-ənvar, c.4, s. 155.

[924] Burada isim və sifət dedikdə, nitq hissələri deyil, Allaha nisbət verilən isim və sifət nəzərdə tutulur. Mütərcim.

[925] Bax; Seyid Kamal Heydəri, ət-Tövhid, c. 1, s. 112.

[926] Bax; Seyid Məhəmməd Hüseyn Təbatəbai, əl-Mizan fi təfsiril-Quran, c. 8, s. 180.

## İkinci mövzu

## Allah-taalanın adlarının məqsədi

**1. Bu adlarla Allahı tanıyıb Ona dua etsinlər.**

İmam Əli bin Musa ər-Rza (ə) Allahın Özünə adlar seçməsi barədə belə buyurub: "... Başqaları Ona dua etsinlər deyə Özünə adlar seçmişdir. Əgər Onun adı ilə çağırılmazsa, tanınmaz..."[927]

**2. Bu adlar vasitəsilə Allah-taalaya yalvarmaq.**

İmam Məhəmməd bin Əli Cavad (ə) buyurub: "... Sonra onları (yəni Allah adları) yaratdı ki, Özü ilə yaratdıqları arasında vasitə olsun və bu adlarla Ona yalvarıb ibadət etsinlər..."[928]

**Allah-taalanın isimləri ilə təvəssül və yalvarmaların nümunəsi:**

**1.** Rəsulullahın (s) belə buyurduğu nəql olunur: "Özünü adlandırdığın hər ada xatir Səndən diləyirəm..."[929]

**2.** Həmçinin belə buyurub: "... Ya Allah, Sənin üçün pak, uca və yüksək olan, Özün üçün seçdiyin, zikrin üçün məxsus etdiyin adlara xatir diləyirəm... bu adları Sənə dəlalət edən dəlil və Sənə gedən yolun səbəbidir".[930]

**3.** Əmirəlmöminin Əli (ə) Məşlul duasında belə buyurub: "İlahi, Sənin olan hər bir ada xatir diləyirəm".[931]

**4.** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: "Özün üçün seçdiyin müqəddəs, pak və gizli olan hər bir ada xatir Səndən diləyirəm".[932]

---

[927] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 113.

[928] Həmin mənbə, c. 1, s. 116.

[929] Əllamə Məclisi, Biharul-ənvar, c. 93, s. 267.

[930] Həmin mənbə, c. 94, s. 218.

[931] Şeyx Kuleyni, əl-Kafi, c. 4, s. 452.

## Üçüncü mövzu:

## Əsmaul-husna (gözəl adlar)

Allah-taala buyurur: **“Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin...”**[933]

**Bu ayədə əsmaul-husnadan məqsəd.**

**1.** Əsmaul-husna sözündəki “əl” artiklı müəyyənlik mənasını ifadə etmir. Buna əsasən də burada artikl təkcə Quran və səhih sünnədə qeyd olunan adlara işarə etmir. Burada artikl ümumililik mənasını ifadə edir.

**2.** Bu ayədə “Allah” kəlməsinin öndə olması həsr (məxsusluq) mənasını ifadə edir. Yəni Allah-taala kamilliyin ali mərtəbəsinə sahib olan yeganə varlıqdır. Buna əsasən də O, ən gözəl adlarla vəsf olunmağa layiqdir. Başqa varlıqlara gəlincə, onun sahib olduğu kamillik Allahın lütf etdiyi və ya özünün kəsb etdiyi miqdardadır.

---

[932] Əllamə Məclisi, Biharul-ənvar, c. 86, s. 316.

[933] Əraf surəsi, ayə 180.

## Dördüncü mövzu

## Allah-taalanın adlarının sayı

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) atalarından nəql edərək Rəsulullahın (s) belə buyurduğunu deyir: "Allah-taalanın doxsan doqquz, yüzdən bir ədəd kəm adı vardır. Kim bu adları sayarsa, Cənnətə daxil olar. Həmin adlar bunlardır:

Allah, əl-İlah, əl-Vahid, əl-Əhəd, əs-Saməd, əl-Əvvəl, əl-Axir, əs-Səmi, əl-Bəsir, əl-Qədir, əl-Qahir, əl-Əliyyu, əl-Əla, əl-Baqi, əl-Bədi, əl-Bari, əl-Əkrəm, əz-Zahir, əl-Batin, əl-Həyy, əl-Həkim, əl-Əlim, əl-Həlim, əl-Həfiz, əl-Haqq, əl-Hasib, əl-Həmid, əl-Həfiyy, ər-Rəbb, ər-Rəhman, ər-Rəhim, əz-Zari, ər-Rəzzaq, ər-Rəqib, ər-Rauf, ər-Rai, əs-Salam, əl-Mumin, əl-Muhəymin, əl-Əziz, əl-Cəbbar, əl-Mutəkəbbir, əs-Seyyid, əs-Subbuh, əş-Şəhid, əs-Sadiq, əs-Sanii, ət-Tahir, əl-Ədl, əl-Əfuvv, əl-Ğəfur, əl-Ğəniyy, əl-Ğiyas, əl-Fatir, əl-Fərd, əl-Fəttah, əl-Faliq, əl-Qədim, əl-Məlik, əl-Quddus, əl-Qəviyy, əl-Qarib, əl-Qəyyum, əl-Qabiz, əl-Basit, Qazil-hacat, əl-Məcid, əl-Məula, əl-Mənnan, əl-Muhit, əl-Mubin, əl-Muqit, əl-Musəvvir, əl-Kərim, əl-Kəbir, əl-Kafi, Kaşifuz-zurr, əl-Vitr, ən-Nur, əl-Vəhhab, ən-Nasir, əl-Vədud, əl-Hadi, əl-Vəfiyy, əl-Vəkil, əl-Varis, əl-Bərr, əl-Bais, ət-Təvvab, əl-Cəlil, əl-Cavad, əl-Xəbir, əl-Xaliq, Xeyrun-nasirin, əd-Dəyyan, əş-Şəkur, əl-Əzim, əl-Lətif, əş-Şafi".[934]

**Qeyd:**

Allah-taalanın adları 99-dan daha çoxdur. Hədisdə bu sayda adların qeyd edilməsinin səbəbi bu hədisdə sadalanan adların başqasından fərqli olaraq müəyyən xüsusiyyətinin olmasıdır. Hədisdə bu adları sayanların Cənnətə daxil olması bildirilir.[935]

---

[934] Şeyx Səduq, ət-Tövhid, s. 189.

[935] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 100. Rəsulullahdan (s) nəql olunan Covşənul-kəbir duasında Allah-təalanın adlarından 1000 ad qeyd edilmişdir.

**Allah-taalanın adlarını saymağın mənası**

1. Şeyx Səduq belə deyir: "(Allahın) adlarını saymaq onları bilmək, mənalarına vaqif olmaqdır. Burada məna adları sadalamaq deyil".[936]

2. Adları saymağın mənası qəlblə müşahidə etmək yolu ilə bilmək və həqiqətlərini qəlb gözü ilə görüb yəqin mərtəbəsinə çatmaqdır. Bu isə nəfsi çirkinliklərdən, qəlbi murdarlıqlardan paklamaqdır.

3. Bu ilahi adların xüsusiyyətləri ilə əxlanmaq və gözəllikləri ilə zinətlənməkdir. Buna əsasən də Rəsulullah (s) belə buyurub: "Allahın əxlaqı ilə əxlaqlanın".[937]

**Qeyd:**

Allahın əxlaqı ilə əxlanmaq Allahla qul arasında oxşarlığın olması demək deyil. Çünki heç bir şey Allah bənzəməz. Burada oxşarlıq sifətlərin həqiqəti ilə deyil, məzhərlərində (zahirində) olur.

4. Adları saymaq məsələsində məqsəd adları saymağa gücün yetməməsidir. Allah-taala buyurur: **"...O sizin bunu ölçüb saya bilməyəcəyinizi bildiyi üçün sizi əfv etdi (sizə rüsxət verdi)..."**[938] Yəni bunu bacarmayacaqsınız. "Kim adları sayarsa Cənnətə girər" sözündən məqsəd kim bu adlarla zinətlənərsə, əxlaqlanarsa, bu yolda səbr edib dözərsə Cənnətə daxil olar".[939]

---

[936] Şeyx Səduq, ət-Tövhid, s. 190.

[937] Əllamə Məclisi, Biharul-ənvar, c. 61, s. 129.

[938] Muzəmmil surəsi, ayə 20.

[939] Seyid Fəzlullah Ravəndi Şərhuş-şihab kitabında Şeyx Movla Muhsin Kaşaninin Elmul-yəqin fi usuliddin kitabına əsasən bu rəyi nəql etmişdir; c. 1, s. 102.

## Beşinci mövzu

## Allah-taalanın adlarının xüsusiyyətləri

1. Allah-taalanın bütün adları vəsfə əsasəndir. Yəni Allah-taala bu adları Özü üçün vəsf qərar vermişdir.

İmam Muhəmməd bin Əli əl-Baqir (ə) belə buyurub: "Adlar Allahın Özünü vəsf etdiyi adlardır".[940]

İmam Əli bin Musa ər-Rza (ə)-dan (Allah-taalaya nisbət verilən) ad barədə soruşdular. İmam (ə) belə dedi: "Vəsf olunanın sifətidir".[941]

2. İlahi adların hər biri müəyyən sifətlə vəsf olunma baxımından ilahi zata dəlalət edir. Məsələn, "əl-Qadir" adı qüdrətlə vəsf olunma baxımından ilahi zata dəlalət edir.

3. Allahın adlarının hamısı həmd, səna, alqış, tərif, təzim məqamı baxımından ilahi zatı ifadə edir.

4. Bəzi ilahi adların ehtiva etdiyi məna bəzilərindən daha genişdir. Məsələn, "əl-Alim" adı – bəzi rəylərə əsasən – geniş mənaya malikdir və bir neçə adları özündə ehtiva edir. Həmin adlardan eşidən, görən, şahid, vəbərdar olan kimi adları qeyd etmək olar.

5. Allahın adları bir-birinin sinonimi deyil. Hər bir adın digərindən fərqli mənası vardır. Hətta başqasının dəlalət etdiyi mənadan daha geniş mənaya dəlalət edərək bir ad başqasından fərqlənir.[942]

6. Allah-taalanın adlarından məqsəd məxluqlara şamil olan adlar deyil. Əksinə burada Allah-tələnın şəninə layiq məna nəzərdə tutulur.

7. Allah-taalanın adlarının başqasına deyilməsi ləfz baxımından müştərəklikdir. Buna əsasən də Allah-taalanın adlarının mənalarının həqiqəti başqasının adlarının mənalarının həqiqətinə bənzəməz.

---

[940] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 87, 88.

[941] Həmin mənbə, c. 1, s. 113.

[942] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 101 .

8. Allah-taalanın müəyyən hissəyə dəlalət edən adının olması qeyri-mümkündür. Çünki Allah-taala mürəkkəb deyil və onun hissəsi yoxdur.

9. Allah-taalanın zatını pak və uca tutulması vacib olduğu kimi, Allahın adlarının da uca və pak tutulması vacibdir.

Allah-taala buyurur: **"(Ya Peyğəmbər!) Ən uca olan Rəbbinin adını pak (müqəddəs) tutub şəninə təriflər de!"**[943] Həmçinin buyurur: **"(Ya Peyğəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər ucadır (nə qədər uludur)!"**[944]

10. Ad adlanandan fərqlidir.

İmam Cəfər bin Muhəmməd əl-Baqir (ə) buyurub: "Ad adlanandan fərqlidir. Kim mənaya deyil, ada ibadət edərsə, küfr etmişdir və bir şeyə ibadət etməmişdir. Kim adla mənaya ibadət edərsə, şirk etmiş iki şeyə ibadət etmişdir. Kim ada deyil, mənaya ibadət etmişdirsə, məhz bu tövhiddir".[945]

İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyrub: "... Allah isimlərlə adlanır. O adlar deyil, adlar isə O deyil".[946]

İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: "... Əgər ad məna olarsa, hər bir ad ilah olardı. Lakin Allah-taala bu adların dəlalət etdiyi mənadır, bu adların heç biri deyil".[947]

11. Allah-taalanın adları sonradan yaranan və məxluqdur.

İmam Muhəmməd bin Əli əl-Cavad Allahın adları və sifətləri barədə belə buyurub: "... adlar və sifətlər (sifətləri ifadə edən sözlər) məxluqdurlar".[948]

---

[943] Əla surəsi, ayə 1.

[944] ər-Rəhman surəsi, ayə 78.

[945] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 114.

[946] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 113, 114.

[947] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 157.

[948] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

Bununla da nəticə çıxarırıq ki, Allah-taalanın əzəldən ismi olmamışdır. Bəndələrin Onu tanıyıb Onu çağırmaları (dua etmələri üçün) adları sonrakı rütbədə yaratmışdır. Allahın əzəldən isminin olmamasında heç bir nöqsan yoxdur. Çünki ad məna deyil. Adın olmaması mənanın olmamasını gərəkdirmir.

12. Allah-taalanın müşriklərə xitab edərək **"(Allahdan) qeyri ibadət etdiklərіniz sizin və atalarınızın (özündən uydurub) qoyduğunuz (Allaha heç bir aidiyyəti olmayan) adlardan (bütlərdən) başqa bir şey deyildir..."**[949] buyurmasında məqsəd onların məna olmadan adlara ibadət etmələridir. Yəni onlar ilahlar adlandırdıqları varlıqlara ibadət etmişlər. Əslində isə həmin varlıqlar ilah deyil. Məsələn, özünü sultan adlandıranın addan başqa heç sultanlıqda bir payı yoxdur.

[949] Yusif surəsi, ayə 40.

## Altıncı mövzu

## Allah-taalanın adlarının toxunulmaz olması[950]

Şeyx Səduq belə deyib: “Allahın adları yalnız Ondan və ya Rəsulullahdan (s) və yaxud da hidayət imamlarından (ə) götürülməlidir”[951]

Şeyx Mufid belə deyir: “Allah-taalanı Özünü Quranda və ya peyğəmbərinin (s) dili ilə adlandırdığından, yaxud da peyğəmbərinin xəlifələri olan höccətlərinin adlandırdığı addan başqa adla çağırmaq icazəli deyil. Həmçinin sifətlər barəsində də bunu deyirəm. Bu barədə Ali Muhəmməddən (s) hədislər nəql olunmuşdur. Bu, imamiyyə camaatının əqidəsidir”.[952]

---

[950] Allahın adlarının toxunulmaz olmasından məqsəd budur ki, Allahı Qurani-kərimdə və səhih sünnədə qeyd olunan adlardan başqa adla adlandırmaq icazəli deyil.

[951] Şeyx Səduq, ət-Tövhid, səh 293.

[952] Şeyx Mufid, Əvailul-maqalat, s. 53;

Əşərilərin Allahın adlarının toxunulmaz olması barədə rəyləri: Allahın adları toxunulmazdır. Allahın adlarının təyin olunması üçün yalnız ilahi şəriətə müraciət etmək olar. Allaha hər hansı bir adı nisbət vermək üçün şəriətin icazəsi labüddür. Bax; əl-İyci, əl-Məvaqif, Şərif Curcaninin şərhi ilə, c. 3, s. 306; Əhməd Məhəmməd Subhi, Elmul-kəlam, s. 39.

Allahın adlarının toxunulmaz olması barədə mötəzilənin rəyi: Allahın adları toxunulmaz deyil. Allaha hər hansı bir adı nisbət vermək üçün şəriətin icazəsi lazım vacib deyil. Mənası doğru olan və Allahın həmin sifətlə vəsf olunmasına ağıl dəlalət edirsə, həmin vəsflə Allahı adlandırmaq icazəlidir. Bir şərtlə ki, həmin ad nöqsana və ya Allah-təalaya layiq olmayan bir şeyə gətirib çıxartmasın. Bax; Səduddin Təfəzani, Şərhul-məqasid, c. 4, s. 343, 344. Əşərilərinin bəziləri də bu rəydədir. onlardan Qazi Əbu Bəkr Baqillaninin adını qeyd etmək olar. Bax; Məhəmməd Ramazan Adbullah, Baqillani və arauhul-kəlamiyyə, s. 519.

## Allah-taalanın adlarının toxunulmaz olması barədə Əhli-Beytdən (ə) nəql olunan hədislər

1. İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: Allah-taala sifətinin həqiqətinə varılmaqdan daha əzəmətli, daha uca və daha böyükdür. O, Özünü vəsf etdiyi kimi Onu vəsf edin. Başqa vəsflərdən isə əl çəkin!”[953]

2. İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: “Xaliq Özünü vəsf etdiyindən başqa cür vəsf olunmaz. Hiss üzvlərinin dərk etmədiyi, xəyalların çata bilmədiyi, düşüncələrin əhatə etməkdə aciz olduğu, gözlərin görmədiyi birini necə vəsf etmək olar? Vəsf edənlərin vəsfindən münəzzəhdir, pakdır! Mədh edənlərin mədhindən böyükdür!”[954]

3. İmam Əli bin Musa ər-Rza (ə) Allah-taalanın adları barədə onunla mübahisə edən şəxsə belə demişdir: “... Özünü adlandırmadığı bir isimlə Onu adlandıra bilməzsən...”[955]

## Allah-taalanı “vacibul-vucud” adlandırmağın şəriət baxımından icazəli olması

1. Muhəddis Kaşani əl-Vafi kitabında belə deyir: “Kamillik bildirən sözlərə gəlincə, şəriət tərəfindən Allah vacibul-vucud kimi adlandırılmasına şəriət tərəfindən icazənin olması qeyd edilməsə də bu sözləri Allahın adı kimi deyil vəsfi kimi demək olar”.[956]

2. Seyid Təbətəbai əl-Mizan təfsirində belə deyir: “Dində ehtiyata əsasən Allahın adları məsələsində dini mətnlərdə qeyd olunanlarla

[953] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 102.

[954] Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 290.

[955] Şeyx Səduq, Uyunu əxbari-Rza, c. 1, s. 167.

[956] Feyzul-Kaşani, Kitabul-vafi, c. 1, s.110.

kifayətlənmək lazımdır. Amma isim nisbət vermədən, sadəcə vəsf olaraq deməyə gəlincə, bu, mümkündür".[957]

3. Şeyx Cəfər Subhani bu rəydədir ki, bəzi həqiqətlərin Allah-taalaya aid olmasına ağıl hökm verir. Lakin həmin həqiqətlərlə Allahı adlandırmaq Allahın adlarının və sifətlərinin toxunulmaz olması məsələsi ilə uyğun gəlmir. Sonra belə deyir: "Həqiqət bir şey, Allaha isim nisbət vermək isə başqa bir şeydir".[958]

**Qeyd:**

Möminlər arasında mövcud adət bu cürdür ki, sənədinin səhih olması sübuta yetirilməsə də, dini mətnlərdə nəql olunan duaları oxuyurlar. Heç bir mərceyi-təqlid sənədinin səhih olması sübuta yetməyən dualarda Allahın adları varsa, həmin duaları oxumağın haram olmasını deməmişdir.

Bu, Allah-taalaya isim nisbət verməyin qadağan olması barədə nəql olunan hədislərdəki qadağanın haram dərəcəsinə çatmadığına dəlalət edir.

[957] Əllamə Təbətəbai, əl-Mizan fi təfsiril-Quran, c. 8, Əraf surəsinin 180, 186-cı ayələrin təfsiri, s. 359.

[958] Şeyx Cəfər Subhani, əl-İlahiyyat alə hudal-kitabi vəs-sünnəti vəl-əql, Şeyx Həsən Məhəmməd Məkki Amulinin qələmi ilə, c. 2, s. 124.

## Yeddinci mövzu

## Allahın adlarının bəyanı və mənalarının izahı

1. **əl-Axir**.

Allah-taala buyurur: **"Əvvəl də, axır da, zahir də, batin də Odur..."**[959]

Axir sonu olmayandır. Allah-taala sonu olmayan axırdır.[960]

İmam Əli (ə) buyurub: "... Axirdir, ondan sonra yoxdur ki, bir şey də olsun".[961]

İmam Cəfər bin Muhəmməd əs-Sadiq (ə) buyurub: "Məxluqların sifətində dərk olunduğu kimi sonu olmayan axırdır".[962]

İmam Musa bin Cəfər əl-Kazim (ə) buyurub: "... Ondan sonra bir şey olmayan axırdır".[963]

2. **əl-Əhəd**.

Allah-taala buyurur: **"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir əhəddir"**.[964]

Əhədin mənaları:

1. Zatında və sifətlərində hissələrə ayrılmayan, bölünməyən.[965]

2. Sifətlərinin bənzəri və oxşarı olmayan.[966]

---

[959] Hədid surəsi, ayə 3.

[960] Şeyx Səduq, ət-Tövhid, s. 192.

[961] Şərif Murtaza, Nəhcul-bəlağə, 91-ci xütbə, s. 148.

[962] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

[963] Şeyx Səduq, ət-Tövhid, s. 74.

[964] İxlas surəsi, ayə 1.

[965] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 190; Şeyx Tusi, Məcməul-bəyan, c. 10, s. 860.

[966] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 190.

3. Vahidlik mənasında heç bir şəriki olmayan.[967]

**Qeyd:**

Əhəd yalnız Allah-taala üçün olan vəsfdir. Bu vəsfi ondan başqasına nisbət vermək doğru deyil.

3. **əl-Əla**.

Allah-taala buyurur: **"(Ya Peyğəmbər!) Ən uca olan Rəbbinin adını pak (müqəddəs) tutub şəninə təriflər de!"**[968]

Əla **"uluvv"** sözündən götürülüb. Bu sözün mənası ucalıq və yüksəklikdir.

**əl-Əla sözünün mənaları:**

1. Qalib gələn, hakim olan.

2. Oxşar və bənzərdən uca olan. Necə ki, Allah-taala buyurur: **"Allah Özünə şərik qoşulan bütlərdən uzaqdır və ucadır!"**[969].[970]

4. **əl-Əkrəm**.

Allah-taala buyurur: **"...Sənin Rəbbin ən böyük kərəm sahibidir!"**[971]

əl-Əkrəm "kərəm" sözündən götürülüb. Kərəm sözünün bir neçə mənası vardır.

1. Yaxşılıq etmək və nemət bəxş etmək. Buna əsasən də əl-Əkrəm (ərəb dilində üstünlük dərəcəsi vəznində olduğu üçün) başqalarından

[967] Bax; Həmin mənbə.

[968] Əla surəsi, ayə 1.

[969] Yunis surəsi, ayə 18.

[970] Şeyx Səduq, ət-Tövhid, s. 193.

[971] Ələq surəsi, ayə 3.

daha çox yaxşılıq edən, nemət verən anlamındadır. Elə bir nemət yoxdur ki, sonda Ona qayıtmasın.[972]

2. Ən şərəfli. Buna əsasən də əl-Əkrəm sözü şərəf baxımında zatında və elmində ən kamil olan anlamındadır.[973]

**5. əl-İlah.**

Allah-taala buyurur: **"Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir".**[974]

**əl-İlah sözünün mənaları:**

1. **Məbud və ya ibadət olunmağa layiq olan.**[975]

Allah-taala buyurur: **"O kəslər ki, Allaha başqa ilah şərik qoşdular!"**[976] Yəni Allahla yanaşı başqa məbudu şərik qoşurlar.

Allah-taala buyurur: **"(Ya Rəsulum!) Nəfsini özünə tanrı edəni gördünmü?.."**[977] Yəni həvayi-nəfsinə ibadət edən şəxs.

2. Yaradılışın işləri ixtiyarında olan və idarə edən. Bu mənanın dəlili:

Allah-taala buyurur: **"Əgər (yerdə və göydə) Allahdan başqa ilahlar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı..."**[978]

---

[972] Şeyx Tusi, Məcməul-bəyan, c. 3, Ələq surəsinin 3-cü ayəsinin təfsiri, s. 781.

[973] Şeyx Cəfər Subhani, Məfahimul-Quran, c. 6, s. 132.

[974] Bəqərə surəsi, ayə 163.

[975] Əgər əl-İlah sözünün məbud mənasında olduğunu desək, əl-İlah Allahın feli sifətlərindən olacaqdır. Çünki Allah-təala vardı, lakin Ona ibadət edən hər hansı məxluq yox idi. Əgər əl-İlah sözünün ibadətə layiq olan mənasında olduğunu desək, əl-İlah Allah-taalanın zati sifətlərindən olacaqdır. Çünki Allah-taala ibadətə layiq olmaq üçün lazım olacaq feli etməyə qadirdir. Bax; Şeyx Tusi, Məcməul-bəyan, c. 1, Fatihə surəsinin birinci ayəsinin təfsiri, s. 93.

[976] Hicr surəsi, ayə 96.

[977] Furqan surəsi, ayə 43.

[978] Ənbiya surəsi, ayə 22.

İlahların bir neçə olmasının dəlili əl-İlah sözünü idarəçi və ya işlərin ixtiyarı əlində olan mənasında izah etdikdə tamamlanır. Əgər əl-İlah kəlməsini məbud mənasında izah etsək dəlil tamam olmaz. Çünki bu aləmdə ibadət olunan məbudların say çoxluğuna baxmayaraq varlıq aləminin nizamı fəsada uğramır.[979]

**Qeyd:**

Əgər bu ayədə əl-İlah sözünün məbud (ibadət olunan) mənasında olduğunu desək, əl-İlah kəlməsindən sonra "haqq ilə" kəlməsini nəzərdə tutmalıyıq. Bu halda "Əgər (yerdə və göydə) Allahdan başqa ilahlar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı..."[980] ayəsinin mənası belə olacaq. Əgər Allahdan başqa haqq məbudlar olsaydı yer göy fəsada uğrayardı. Çünki haqq məbud varlıq aləmində idarəçi ola bilər. Onun sayının birdən artıq olması isə fəsadla nəticələnərdi.

Lakin biz əl-İlah kəlməsinin idarəçi və işlərin ixtiyarı əlində olan mənasında izah etsək, ondan sonra hər hansı bir sözü nəzərdə tutmağımıza ehtiyac yoxdur.

3. əl-İlah sözü "الاله" sözündən düzəlib, sığınmaq mənasındadır. Yəni bir şeydən qorxduqda pənah aparmaq mənasındadır. əl-İlah isə sığınılan və pənah aparılan mənasındadır.[981]

6. **Allah**.

Allah-taala buyurur: **"Mərhəmətli, Rəhimli Allahın adı ilə!"**[982]

**"Allah başqa heç bir tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini**

[979] Şeyx Cəfər Subhani, əl-Əsmaus-səlasə əl-İlah, ər-Rəbb və əl-İbad, s. 12.

[980] Ənbiya surəsi, ayə 22.

[981] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 190.

[982] Fatihə surəsi, ayə 1.

**dolandıran və onların işlərini yoluna qoyan) əbədi, əzəli varlıq Odur...”**[983]

Allah sözü Allah-taalanın zatını bildirən xüsusi isimdir. Bunun bir neçə dəlili vardır:

1. Bu isim ikilik və cəm forması yoxdur. Bu söz daima tək formada işlənir.

2. ər-Rəhman və ər-Rəhim sözlərindən fərqli olaraq bu sözdən “əl” artiklini pozmaq olmaz.

3. Bu sözə “yə” nida ədatı artırılır və ya Allah deyilir. Nida ədatları isə müəyyənlik artikli olan “əl” ilə birlikdə işlədilmir. Buna əsasən “ya Allah” dediyimiz kimi “ya ər-Rəhman” və “ya ər-Rəhim” deyilmir. Bu, dəlalət edir ki, bu sözdəki əlif və lam bu ismin tərkib hissəsidir.

4. Heç bir isimlə izafət birləşməsinin birinci tərəfini təşkil etmir. Əksinə bütün əsmaul-husna izafətin birinci tərəfi ola bilir.

**Allah sözü düzəltmə sözdürmü?**[984]

**Birinci rəy:** Allah sözü başqa sözdən düzəldilmir. Bu isim bütün kamil sifətləri özündə cəm edən və bütün nöqsanlardan uca olan ilahi zata dəlalət edir.[985]

**İkinci rəy:** Allah sözü düzəltmə sözdür. Bu sözün hansı sözdən düzəldilməsi barədə ixtilaf vardır. Bu barədə nəql olunmuş ən əsas rəylər aşağıdakılardır:

**Birinci:** Allah sözü məbud mənasında olan əl-İlah sözündən düzəldilib. İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: “Allah ilah sözündən düzəldilmişdir”.[986]

---

[983] Bəqərə surəsi, ayə 255.

[984] Düzəltmə isim feldən düzəlir. Düzəltmə olmayan isim isə feldən düzəldilmir. Bax; Rəşid Şərtuni,c. 1, s. 32.

[985] Bax; Muhsin Kaşani, İlmul-yəqin, c. 1, s. 106.

[986] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 87.

**İkinci:** Allah ismi heyrətə düşmək mənasında olan əl-vəlih sözündən düzəldilmişdir. İmam Muhəmməd bin Əli əl-Baqir (ə) buyurub: "Allah məxluqlar tərəfindən mahiyyəti dərk olunmayan və əhatə edilməyən məbud mənasındadır. Ərəblər belə deyirlər: "اله الرجل" – yəni heyrətə düşüb bir şey anlamamışdır..."[987]

**Üçüncü:** Allah ismi "الهت الی فلان" yəni filankəsə pənah apardım, sığındım. Çünki bütün yaradılış ehtiyacları üçün Ona sığınırlar.

İmam Cəfər bin Muhəmməd əs-Sadiq (ə) buyurub: " Allah ehtiyac anında hər bir məxluqun başqalarından ümidləri üzüldükdə, Ondan başqa bütün səbəblər aradan getdikdə pənah aparıb sığındıqları varlıq mənasındadır".[988]

**Dördüncü rəy:** Allah ismi "ألهت اليه" yəni onunla aramlıq tapdım. Çünki məxluqlar Onun zikri ilə aramlıq tapırlar.[989]

**Beşinci rəy:** Allah ismi "اله" sözündən düzəlmişdir. Mənası gizli olandır. Çünki Allah-taala məxluqların hiss üzvləri və xəyalları ilə dərk olunmaz. İmam Muhəmməd bin Əli əl-Baqir (ə) buyurub: "... əl-İlah xəlqin hiss üzvlərindən örtülü olandır".[990]

**Altıncı rəy:** Allah ismi şiddətli məhəbbət mənasında olan "الوله" sözündən düzəldilmişdir.

**Yeddinci rəy:** Allah ismi ucalmaq mənasında olan "اله" sözündən düzəldilmişdir. Allah-taala elə bir varlıqdır ki, Ondan uca heç bir varlıq yoxdur.

**Səkkizinci rəy:** Allah ismi müəyyən məkanda oldum mənasını ifadə edən "ألهت الی المكان" sözündən düzəldilmişdir. Allah-taalanın varlığının davamlı olması üçün bu ada layiq olmuşdur.

---

[987] Şeyx Səduq, ət-Tövhid, s. 87.

[988] Həmin mənbə, s. 225.

[989] Bax; Əllamə Məclisi, Biharul-ənvar, c. 3, s. 226.

[990] Şeyx Səduq, ət-Tövhid, s. 87.

7. **əl-Əvvəl**.

Allah-taala buyurub: **“Əvvəl də, axır da, zahir də, batin də Odur...”**[991]

Çünki Allah-taala varlıq baxımından əvvəldir. Bunun mənası bütün varlıqların öz vücudlarını Allahdan almasıdır. Lakin Allah-taalanın varlığı Öz zatındandır. Varlığını başqasından almamışdır. Buna əsasən də əvvəldir və bütün mövcud olanlardan öncədir.[992]

İmam Əli (ə) belə buyurub: “Rəbbim (Onun üçün) əvvəl olmadan belə əvvəldən də əvvəldir, sonra olmadan belə sonradan da sonradır”.[993]

Həmçinin buyurub: “Ondan əvvəl heç nə olmadığı üçün O, öncəsi olmayan əvvəldir”.[994]

Həmçinin buyurub: “Son məqsədi olmadığı üçün bitməyən əvvəldir. Sonu olmadığı üçün bitib aradan getməz”.[995]

İmam Cəfər Sadiq (ə) buyurub: “Özündən öncə olmayan əvvəldir”.[996]

8. **əl-Badi**.

Allah-taala buyurur: **“Məxluqatı əvvəlcə yoxdan var edən, sonra da (qiyamət günü) yenidən dirildəcək Odur...”**[997] Allahın adlarından biri də əl-Badidir. Yəni Allah varlıqları hər hansı maddə olmadan ilk yaradandır.[998]

---

[991] Hədid surəsi, ayə 3.

[992] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 141.

[993] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 90.

[994] Şərif Murtaza, Nəhcul-bəlağə, 91-ci xütbə, s. 148.

[995] Həmin mənbə, 94-cü xütbə, s. 175.

[996] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

[997] Rum surəsi, ayə 27.

[998] Bax; əl-Beyhəqi, əl-Əsma vəs-sifat, c. 1, s. 61.

9. **əl-Bariu**.

Allah-taala buyurur: **“O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır...”**[999]

əl-Bari nümunə olmadan yaradan mənasındadır. Yəni varlığı bir şeydən yaratmamış və tamamilə Özü icad etmişdir.[1000]

10. **əl-Basit**.

Allah-taala buyurur: **“...Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər)...”**[1001]

əl-Basit nemət verən, lütf edən, öz nemətini, lütfünü və ehsanını bəndələrinə əsirgəmədən bol bəxş edəndir.[1002]

11. **əl-Batin**.

Allah-taala buyurur: **“Əvvəl də, axır da, zahir də, batin də Odur...”**[1003]

**əl-Batin isminin mənaları:**

1. Allah-taala batindir. Çünki hiss üzvləri və xəyallar Onu dərk etməkdə acizdir. Allahı tanımağın yeganə yolu ağıl vasitəsilə Onun nişanələri və etdikləri ilə dəlil gətirməklə mümkündür.[1004]

2. Ağıllar Allah-taalanın zatını və həqiqətini tanımaqda aciz olduğu üçün O, batindir. Ağıl məhduddur. Allah-taala isə məhdud deyil. Buna əsasən də ağıl Allah-taalanı zatı və həqiqətilə deyil, yalnız nişanələri, ayələri və etdikləri vasitəsilə tanıya bilər.

---

[999] Həşr surəsi, ayə 24.

[1000] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 1, s. 354.

[1001] Bəqərə surəsi, ayə 245.

[1002] Şeyx Səduq, ət-Tövhid, s. 205.

[1003] Hədid surəsi, ayə 3.

[1004] Şeyx Səduq, ət-Tövhid, s. 195; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 142.

3. Allahın batin adlanmasının səbəbi Onun hər şey görməsi, hər şeyə özündən də yaxın olması, qeyblərin bətnində (içində) gizli qalanlardan xəbərdar olması, bəndələri əhatə etməsi, onların nəyi aşkar edib, nəyi gizlətmələrindən agah olub, qəlblərindən keçənləri bilməsidir.[1005]

4. İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: "... Batin sözünün mənasına gəlincə, şeylərin aşıb daşmaması üçün onları içində saxlamaqdır. Lakin Allah üçün bu, elmi, qoruması və idarəçiliyi ilə varlıq aləmini əhatə etməsidir. Necə ki, (ərəb dilində) "أبطنه" deyildikdə, ondan agah oldum, gizli sirrini bildim..."[1006]

12. **əl-Bais**

Allah-taala buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik..."**[1007]

**"...Allah qəbirlərdə olanları dirildəcəkdir!"**[1008]

əl-Bais sözü sükunətdə olan bir şeyi hərəkətə gətirmək və vəziyyətini dəyişmək mənasını verən "البعث" sözündən götürülüb. Allah-taalanın bu adla adlanmasının bir neçə səbəbi vardır:

1. Allah ilahi hökmlər və şəriətlərlə peyğəmbərlər göndərmişdir. (Peyğəmbər cəmiyyəti durğunluq halından çıxartmaq üçün göndərilmişdir).

2. Allah-taala qəbirlərdə olanları oradan çıxardacaq. Çünki məhşər günü məxluqatı dirildəcəkdir. Qəbirdə olanların hamısını dirildəcək və hesab üçün onları məhşər ayağına cəm edəcəkdir.[1009]

---

[1005] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 122: Şeyx Səduq, ət-Tövhid, s. 195.

[1006] Şeyx Səduq, ət-Tövhid, s. 184.

[1007] Nəhl surəsi, ayə 36.

[1008] Həcc surəsi, ayə 7.

[1009] Şeyx Səduq, ət-Tövhid, s. 209.

**13. əl-Baqi.**

Allah-taala buyurur: **“...Allah daha xeyirli və daha baqidir!”**[1010]

**“(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir”.**[1011]

əl-Baqi fənaya uğramayan varlıq mənasındadır.[1012] Yəni fəna olmayan, yox olmayan və sonu olmayan varlıq. Allah-taala zatı baxımından varlığı vacib olandır. Əgər zehində ona keçmiş nisbət verilsə qədim, gələcək nisbət verilsə isə baqidir (əbədi qalandır). əl-Baqi gələcəkdə heç zaman varlığı sona çatmayandır. Buna əbədi də deyilir.[1013]

**Qeyd:**

Allah-taala zatı baxımından varlığı davam edəndir. Onun hər hansı səbəbə əsasən davamlı olmasını demək doğru deyil. Çünki Allah-taalanın varlığının davamlı olması başqa bir səbəbə bağlı olsaydı, O, varlığı mümkün varlıq olardı. Lakin Allah-taala başqasına möhtac olmaqdan uca və pakdır.[1014]

**14. əl-Bədi.**

Allah-taala buyurur: **“Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur...”**[1015]

“İbda nümunə, oxşar və bənzətmədən olmadan yoxdan icad etməkdir. Allah barəsində bu söz deyilərsə, hər hansı bir alət, maddə, məkan və zaman olmadan bir şeyi icad etmək mənasındadır. Yalnız Allah-taala bunu edə bilər”.[1016]

---

[1010] Taha surəsi, ayə 73.

[1011] ər-Rəhman surəsi, ayə 26, 27.

[1012] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 193.

[1013] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 148.

[1014] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 404.

[1015] Bəqərə surəsi, ayə 117; Ənam surəsi, ayə 101.

[1016] Rağib İsfəhani, Mufrədatu mucəmi əlfazil-Quran, s. 100, 111.

Deməli, “بديع السماوات و الارض” dedikdə göyləri və yeri heç bir şey olmadan və hər hansı nümunəyə əsaslanmadan icad edilməsi mənasını ifadə edir.

**15. əl-Bərr.**

Allah-taala buyurur: **“Şübhəsiz ki, O, (vədinə sadiq) kərəm sahibidir, rəhm edəndir!”**[1017]

əl-Bərr sözü “بِر” sözünün feli sifətidir.

əl-Bərr sözünün mənaları:

**1.** Doğru olan.[1018] **2.** Yaxşılıq edən.[1019] **3.** Şəfqətli.[1020] **4.** Savab verən.[1021] **5.** Şəninin uca olması ilə yanaşı mərhəmətlə davranan.[1022]

**16. əl-Bəsir.**

Allah-taala buyurur: **“...Allah sizin nə etdiklərinizi görəndir!”**[1023]

**“... O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!”**[1024]

**əl-Bəsir sözünün məanları:**

**1.** Görünən varlıqları bilən.[1025]

**2.** Görünən varlıqlar mövcud olduqda Allah onları dərk etmək sifətinə malikdir.[1026]

---

[1017] Tur surəsi, ayə 28.

[1018] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 209.

[1019] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 143.

[1020] Muhəmməd bin Məkki Amuli, əl-Qəvaidu vəl-fəvaidu, c. 1, s. 173.

[1021] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 114.

[1022] Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, c. 9, Tur surəsinin 28-ci ayəsinin təfsiri, s. 252.

[1023] Hədid surəsi, ayə 4.

[1024] Şura surəsi, ayə 11.

[1025] Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 24.

[1026] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 192. Daha ətraflı məlumat üçün bu kitabın onun fəslinə müraciət edə bilərsən.

**17. ət-Təvvab.**

Allah-taala buyurur: **“Məgər onlar bilmirlər ki, Allah qullarından tövbə qəbul edər,..”**[1027]

**“Mən ancaq tövbə edənləri, yaxşı işlər görənləri və (Tövratda buyurduqlarımı) bəlli edənləri əfv edərəm. Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm!”**[1028]

Təvvab taib sifətinin mübaliğə formasındadır. Tövbə lüğəti mənada qayıdış mənasındadır. Qul tövbə etdi dedikdə onun peşmançılıq çəkib itaətlə Allaha qayıtması nəzərdə tutulur. Allah bəndəsinin tövbəsini qəbul etdi dedikdə isə Allahın bağışlamaq və onların tövbəsini qəbul etməklə ona dönməsidir. Allah-taalaya “təvvab” deyildikdə verildikdə Onun bəndələrinin tövbələrini qəbul etməsi və pisliklərini bağışlaması nəzərdə tutulur.[1029]

**18. əl-Camiu.**

Allah-taala buyurur: **“Ey Rəbbimiz! Olacağına şübhə edilməyən bir gündə (qiyamətdə) bütün insanları (bir yerə) toplayan Sənsən...”**[1030]

**əl-Camiu sözünün mənaları:**

**1.** Bir-birindən uzaq olan hissələri, fərqli şeyləri, oxşar və ya zidd olan əşyaları cəm edən.[1031]

**2.** Bütün fəzilətləri, dəyərləri və üstünlükləri cəm edən.[1032]

**3.** Qeyd etdiyimiz ayədə anlaşıldığı kimi insanları qiyamət günü cəm edən.

---

[1027] Tövbə surəsi, ayə 104.

[1028] Bəqərə surəsi, ayə 160.

[1029] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 2, s. 61.

[1030] Ali İmran surəsi, ayə 9.

[1031] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 145.

[1032] Əbu Bəkr Əhməd bin Hüseyn əl-Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 149.

**19. əl-Cəbbar.**

Allah-taala buyurur: **“O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi ... (hamını istədiyi hər hansı bir şeyə) məcbur etməyə qadir olan ... Allahdır...”**[1033]

**Cəbbar sözünün lüğəti mənaları:**

**1.** Əzəmət, qüvvət və izzət.

**2.** Məcbur etmək, qalib gəlmək.

**3.** Fəqirlikdən qurtarıb zəngin etmək.[1034]

**Allah-taalaya nisbət verilən əl-Cəbbar isminin mənaları:**

**1.** İzzət və əzəmət sahibi olan qüdrətli və məcbur edən.[1035]

**2.** Özündən üstün olmayan ali varlıq. Çünki “الجبر” ucalıq növlərindəndir.[1036]

Həmçinin Allah-taala barədə əl-Cəbbar adı bu anlamdadır ki, fikirlər Ona yetişməz, gözlər Onu əhatə etməz, ağılları Onun zatını tanıya bilməz.

**3.** əl-Cəbbar “جابر” sözünün mübaliğə vəznindədir və “الجبر” sözündən götürülmüşdür. Bu sözünün mənası bir şeyi məcbur edərək düzəltməkdir. Allah-taala bir çox şeyləri məcbur edərək islah edən olduğu üçün Cəbbar adlanır.[1037] Buna əsasən də İmam Əli (ə) belə demişdir: “Ey hər yaranı (istədiyi kimi) sağaldan”.[1038]

**Qeyd:**

əl-Cəbbar sifəti Allah-taala üçün bəyənilən sifət olduğu halda qeyrisi üçün bəyənilməyən sifətdir. Çünki əl-Cəbbar Allahdan qeyrisi üçün heç bir

---

[1033] Həşr surəsi, ayə 23.

[1034] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 2, s. 165, 166.

[1035] Şeyx Səduq, ət-Tövhid, s. 201.

[1036] Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 184.

[1037] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 183.

[1038] Əli bin Musa bin Cəfər bin Tavus, əl-İqbal bil-əmalil-həsənə, c. 1, s. 258.

haqqı olmadan başqasını istədiyi bir şeyə məcbur edəndir.[1039] Allah-taala isə Öz ədalətli və hikmətli iradəsi ilə məxluqları istəyinə məcbur etməyə mütləq haqqı vardır.

**20. əl-Cəlil.**

Allah-taala buyurur: **"(Ya Peyğəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər ucadır (nə qədər uludur)!"**[1040]

**əl-Cəlil sözünün mənaları:**

**1.** əl-Cəlil cəlal sözündən götürülmüşdür. Mənası sifətlərdə və fellərdə kamil olandır.

**2.** əl-Cəlil sözünün mənası "seyid" (ağa) mənasındadır. Bir qövmün ağasına cəlil və əzəmətlisi də deyilir. Məsələn, "جل فلان في عيني" deyildikdə, yəni gözümdə böyüdü, böyük oldu deməkdir. "أجللته" yəni onu əzəmətli hesab etdim.[1041]

**21. əl-Cəmil (gözəl).**

İmam Əli (ə) belə buyurub: **"Allah-taala gözəldir və gözəlliyi sevər".**[1042]

İmam Əli bin Hüseyn Zeynulabidin (ə) buyurub: "Ya Allahu! Ya Cəmilu!"[1043]

Allah-taala gözəldir dedikdə fellərinin gözəlliyi və sifətlərinin kamilliyi nəzərdə tutulur.[1044]

---

[1039] Allah-təala buyurur: **"...Allah hər təkəbbür sahibinin, zalımın ürəyini (təkəbbür, zülm sahibi olan hər bir qəlbi) belə möhürləyər!"** (Ğafir surəsi, ayə 35).

[1040] ər-Rəhman surəsi, ayə 78.

[1041] Şeyx Səduq, ət-Tövhid, s. 210.

[1042] Şeyx Kuleyni, əl-Kafi, c. 6, s. 438.

[1043] Səhifeyi-səccadiyyə, Ramazan ayının duaları, iyirmi beşinci günün duası, s. 134.

[1044] İbn Mənzur, Lisanul-ərəb, c. 2, s. 363.

**22. əl-Cəvad.**

Allah-taala buyurur: **"...Allah ruzi verənlərin ən yaxşısıdır!"**[1045]

İmam Əli (ə) buyurur: "Bəxş etmək və səxavətli olmaqla xəzinəsi tükənməyən Allaha həmd olsun! Çünki Ondan başqa hər bir bəxş edən tükənər..."[1046]

əl-Cəvad "əl-cud" sözündən götürülüb, lütf etmək mənasındadır.[1047] əl-Cəvad yaxşılıq edən, lütf edən, bol nemət və yaxşılıq edən mənasındadır.[1048]

**23. əl-Hafiz.**

Allah-taala buyurur: **"...Allah Özü (onu) ən yaxşı qoruyandır ..."**[1049]

**"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!"**[1050]

Allah-taalanın bəndələrini hifz etməsi onları din və dünya işlərində təhlükədən qorumasıdır.

**24. əl-Həsib.**

Allah-taala buyurur: **"...Allah hər şeyi hesaba alandır".**[1051]

**"...Haqq-hesab çəkməyə Allah kifayət edər!"**[1052]

əl-Həsib sözünün mənaları:

---

[1045] Cümə surəsi, ayə 11.

[1046] Şərif Murtəza, Nəhcul-bəlağə, 91-ci xütbə, s. 148.

[1047] Bax; Əbulfəth Kəracki, Kənzul-fəvaid, c. 1, s. 73.

[1048] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 210.

[1049] Yusif surəsi, ayə 64.

[1050] Hicr surəsi, ayə 9.

[1051] Nisa surəsi, ayə 86.

[1052] Nisa surəsi, ayə 6.

**1.** Hər şeyi hesab edən və heç bir şey ona gizli qalmaz.[1053]

**2.** Qiyamət günü bəndələri sorğu-sual edən və əməllərinə görə mükafat və ya cəza verən.[1054]

**3.** Kifayət edən. Necə ki, "حسبنا الله" deyildikdə "Allah bizə kifayət edər" mənasındadır.

Bu mənada Allah-taala buyurur: **"(Bu, müttəqilərə) Rəbbindən olan mükafat, kifayət edəcək qədər verilən bəxşişdir".**[1055]

**"Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər".**[1056]

**4.** əl-Həsəb. Şərəf və əsilzadəlik mənasındadır. Əgər əl-Həsib sözü "حسب" sözündən götürülübsə, üluhiyyət, rübubiyyət şərəfinə və bütün kamilliklərə sahib olan mənasındadır.

### 25. əl-Həfiyy.

Allah-taala İbrahim (ə) dili ilə belə buyurur: **"Mən Rəbbimdən sənin bağışlanmağını diləyəcəyəm. O mənə qarşı çox mehribandır (çox lütfkardır)".**[1057]

**əl-Həfiyy sözünün mənaları:**

**1.** Alim.[1058]

**2.** Lütfkar, başqalarına yaxşılıq edən.[1059]

### 26. əl-Həfiz.

Allah-taala buyurur: **"...Sənin Rəbbin hər şeyi hifz edəndir!.."**[1060]

---

[1053] Şeyx Səduq, ət-Tövhid, s. 197.

[1054] Həmin mənbə.

[1055] Nəbə surəsi, ayə 36.

[1056] Talaq surəsi, ayə 3.

[1057] Məryəm surəsi, ayə 24.

[1058] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 197; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 246.

[1059] Həmin mənbə.

[1060] Səbə surəsi, ayə 21.

**“...Həqiqətən, Rəbbim hər şeyi hifz edəndir!”** [1061]

**əl-Həfiz sözünün mənaları:**

**1.** əl-Həfiz sözü “الحفظ” sözündən götürülüb mənası bir şey aradan getməkdən, xarab olmadan qorumaqdır. Allah-taalnın əl-Həfiz adlanmasının mənası budur ki, O, məxluqları var olduqları müddət ərzində mövcud nizam və tərkibində qalmasını qoruyur. Həmçinin, Allah-taala bəndələrinin pisliklərdən qoruyur, hikmət və məsləhət baxımından bəlaları onlardan dəf edir.[1062]

**2.** Allah bəndələrinin əməllərini qoruyur və saxlayır. Belə ki, heç bir şey Ondan yayınmır və heç bir şey Ona gizli qalmır. Bir zərrə belə Onun nəzərindən qaça bilməz.

**27. əl-Haqq.**

Allah-taala buyurur: **“O gün Allah onların cəzasını layiqincə verəcək və onlar Allahın (Allahın onlara verdiyi vədin) açıq-aşkar bir haqq olduğunu biləcəklər!”**[1063]

**“O sizin həqiqi Rəbbiniz olan Allahdır”.**[1064]

**Haqqın mənaları:**

**1.** Haqq dəyişilməyən, ziddiyyətli olmayan, zatı bir şeyə məruz qalmayan və zatına heç vaxt batil qarışmayan sabit olandır.[1065]

**2.** İnkar olunması mümkün olmayan. Onun isbatı və etiraf olunması vacibdir.[1066]

**3.** əl-Haqq “muhiq” haqlı mənasındadır.[1067]

---

[1061] Hud surəsi, ayə 57.

[1062] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 196.

[1063] Nur surəsi, ayə 25.

[1064] Yunis surəsi, ayə 32.

[1065] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 415.

[1066] Beyhəqi, əl-Əsma vəs-sifat, c. 1, s. 40.

[1067] Şeyx Səduq? ət-Tövhid, s. 196.

**4.** Allah-taalanın əl-Haqq adlanması və haqq ilə vəsf olunmasında məqsəd Ona ibadət olunmasının haqq, başqasına ibadət olunmasının isə batil olmasıdır. Bu ayə qeyd olunan mənanı təsdiqləyir: **"Bu belədir. Çünki Allah haqq, (müşriklərin) Ondan başqa ibadət etdikləri (bütlər, tanrılar) isə batildir..."**[1068] yəni puç olacaq, heç kimə nə bir savab, nə də bir cəza vermək iqtidarında deyil.[1069]

**28. əl-Həkəm.**

Allah-taala buyurur: **"Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah hökm (zəfər hökmünü) verənə qədər səbr et. O, hökm verənlərin ən yaxşısıdır!"**[1070]

**"Allah sizə Kitabı (Quranı) müfəssəl surətdə nazil etdiyi halda, mən (haqq ilə batili ayırd etmək üçün) Ondan başqasınımı özümə hakim istəməliyəm?!..."**[1071]

əl-Həkəm sözü əslində fəsadın qarşısını almaq mənasındadır. Bu söz insanları bir-birinə zülm etməmələrinin qarşısını almaq üçün hakimə deyilir.[1072]

Allahın əl-Həkəm adlanmasının məqsəd bəndələri fəsad və zülmdən uzaqlaşdırmaq üçün şəriət göndərməsidir.[1073]

**29. əl-Həkim.**

Allah-taala buyurur: **"...Odur! O qüdrət, hikmət sahibindən başqa heç bir tanrı yoxdur!"**[1074]

---

[1068] Həcc surəsi, ayə 62.

[1069] Şeyx Səduq, ət-Tövhid, s. 196.

[1070] Yunis surəsi, ayə 109.

[1071] Ənam surəsi, ayə 114.

[1072] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 142.

[1073] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 121.

[1074] Ali İmran surəsi, ayə 6.

**əl-Həkimin mənaları:**

**1.** Ən üstün və kamil elmi olan alim.[1075]

Allah-təlanın bu ayəsi qeyd olunan mənadadır: **"Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər..."**[1076]

**2.** Felləri hikmətli, nizamlı, mətin və fəsaddan qorunan.[1077] Buna əsasən də hikmətli gərəkməyən feldən uca və pak olan, hər şeyi öz yerində yaradan mənasında olur.[1078]

**Qeyd:**

**1.** Hikmət sözünün lüğəti mənası qarşısını almaqdır.[1079] Hikmət insanı gərəkməyən işdən çəkindirdiyi üçün belə adlanmışdır. Elm cəhalətin qarşısını aldığı üçün elmə də hikmət deyilir. Nizamlı felə də hikmət deyilir. Çünki belə bir felin fəsada uğramanın mümkün olmadığını bəyan edir. Kim əməlini nizamlı edərsə, həqiqətən də o, əməllərinin fəsada uğramasının qarşısını alır. Buna əsasən də onun əməli hikmətli, nizamlı, fəsad və nöqsandan qorunmuş olur.

**2.** Əgər hikməti elmin vəsfi hesab etsək, mənası ən üstün və ən kamil elm olacaqdır. Bu mənaya əsasən də Allah nisbət verilən hikmət sifəti Allah-taalanın zati sifətlərindən olacaqdır. Əgər hikməti felin vəsfi hesab etsək, mənası felin nizamlı və fəsaddan uzaq olacaqdır. Bu mənaya əsasən Allaha nisbət verilən hikmət sifəti Allah-taalanın feli sifətlərindən olacaqdır.

---

[1075] Şeyx Səduq, ət-Tövhid, s. 195: **"Allah (hər şeyi) biləndir, hikmət sahibidir!..."** (Nisa surəsi, ayə 26) ayəsi elmin hikmətdən fərqli olmasına dəlalət edir. Buna əsasən də belə desək daha yaxşıdır: "Əgər hikmət elmin vəsfi olarsa, mənası ən üstün və kamil elm olacaqdır".

[1076] Bəqərə surəsi, ayə 269.

[1077] Bax; Şeyx Səduq, ət-Tövhid, 195, 196.

[1078] Şeyx Təbərsi, Məcməul-bəyan, c. 6, Nəhl surəsinin 60-cı ayəsinin təfsiri, s. 566.

[1079] İbn Mənzur, Lisanul-ərəb, s. 272.

**30. əl-Həlim.**

Allah-taala buyurur: **“...Həqiqətən, Allah bağışlayandır, həlimdir!”**[1080]

**“...Allah ehtiyacsızdır, həlimdir!”**[1081]

Allah-taalanın bəndələrinə qarşı həlim olmasının nümunələrindən biri də günahkar bəndələrini cəzalandırmaqda tələsməməsidir.[1082] Əksinə Allah-taala bəndələrinə imkan verir, onların üzərində höccəti tamamlayır və onlar üçün tövbə və qayıdış imkanı yaradır. Allah-taalanın günahkar bəndələrinə etdikləri günah üzündən nemətlərini əsirgəməməsi Onun həlimliyinin kamiliyindəndir. Hətta Allah-taala itaətkar bəndələrinə ruzi verdiyi kimi onlara ruzi bəxş edir.

Buna əsasə də Allah-taala buyurur: “Əgər Allah insanları zülmləri üzündən cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən müddət (ömürlərinin sonunadək) möhlət verər. Əcəlləri gəlib çatdıqda isə (ondan) bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər”.[1083]

**31. əl-Həmid.**

Allah-taala buyurur: **“...Allah (bəndələrinin, o cümlədən müşriklərin ibadətinə) möhtac deyildir və (özlüyündə hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyəniləndir!).**[1084]

Həmd ixtiyari olaraq yerinə yetirilən bəyənilən işlər müqabilində olan tərif və alqışdır. Həmd pisləməyin əksidir.[1085]

**əl-Həmid isminin mənaları:**

[1080] Ali İmran surəsi, ayə 155.

[1081] Bəqərə surəsi, ayə 263.

[1082] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 196.

[1083] Nəhl surəsi, ayə 61.

[1084] Loğman surəsi, ayə 26.

[1085] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 3, s. 314.

**1. Təriflənən.**[1086] Yəni Allah-taala etdiyi kamil işlər müqabilində təriflənməyə layiqdir.

**2. Tərifləyən.** Yəni Allah-taala etdikləri saleh əməllər müqabilində itaətkar bəndələrini tərifləyir.

**32. əl-Hənnan.**

İmam Cəfər Sadiq (ə)-dan nəql olunan duada belə buyurur: **"Sən Allahsan! Səndən başqa ilah yoxdur. Sən Hənnan və Mənnansan (lütfkarsan)!"**[1087]

Hənnan mərhəmət və şəfqət göstərən mənasındadır.[1088] Həmçinin ondan üz çevirən birinə tərəf qayğı göstərən mənasında olduğunu da demişlər.[1089]

**33. əl-Həyy.**

Allah-taala buyurur: **"Allah başqa heç bir ilah yoxdur. Diri və əzəli ... Odur..."**[1090]

**əl-Həyy isminin mənaları:**

**1. Ölüm və fənaya məruz qalmayan.**

Allah-taala buyurur: **"Ya Rəsulum!) Ölməz, həmişə diri olana (Allaha) bel bağla və Onu həmd-səna ilə təqdis et (və ya Onun nemətlərinə şükür edərək namaz qıl)..."**[1091]

**2. Həyatda olan.** Həyat mövcud olan bir sifətdir. Bu sifət elm və qüdrət sifətlərinin şənindəndir.[1092]

---

[1086] Şeyx Səduq, ət-Tövhid, s. 197.

[1087] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 583.

[1088] İbn Mənzur, Lisanul-ərəb ,c. 3, s. 366.

[1089] Məhəmməd Zubeydi, Tacul-ərus, c. 9, s. 184.

[1090] Bəqərə surəsi, ayə 255.

[1091] Furqan surəsi, ayə 58.

**34. əl-Xafiz.**

İmam Əli (ə) buyurub: **“Alçaldan və ucaldan Allaha həmd olsun ...”**[1093]

əl-Xafiz ismi “الخفز” sözündən götürülüb, ucalmağın əksidir. Bu sözün mənası alçalmaq, süquta uğramaq və məqamın kiçildilməsidir. Allah-taala küfr və günah əhlini alçaldar, yəni küfr və günah səbəbinə onları alçaldar, məqamlarını kiçildər.[1094]

**35. əl-Xaliq.**

Allah-taala buyurur: **“...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”**[1095]

**Xəlq sözünün mənaları:**

**1. Yaratmaq.** Yəni heç bir şey olmadan bir şeyi icad etmək, hər hansı bir materiya olmadan və əvvəlcədən hər hansı nümunə olmadan onu var etməkdir.

**2. Təqdir etmək.** Yəni yeni bir şeyin olması üçün tərtib və tərkib vasitəsilə bir şeydən başqa bir şeyi yaratmaq.

**36. əl-Xəbir.**

Allah-taala buyuru: **“...Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır”.**[1096]

Ayədə (ərəbcə variantında) “xəbir” deyildikdə alim nəzərdə tutulur. Xəbərdar olma elmin (bilməyin) növlərindəndir. Xəbərdar olmaq gizli işləri bilməkdir. Xəbərdar olan hər şeyi bilən, həqiqətlərindən, batinini və

---

[1092] Daha ətraflı məlumat üçün bu kitabın yeddinci fəslinə, Allah-təalanın həyatı mövzusuna müraciət edin.

[1093] Şeyx Kuleyni ,əl-Kafi, c. 8, s. 170.

[1094] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 4, s. 154, 155.

[1095] Muminun surəsi, ayə 14.

[1096] Hücurat surəsi, ayə 13.

gizli tərəflərindən agah olandır. Onun elmindən heç bir şey gizli qalmaz.[1097]

**37. əl-Xeyir.**

Allah-taala buyurur: **"...Allah daha xeyirli və baqidir!"**[1098]

Allah-taalanın xeyir adlanmasının səbəbləri:

**1.** Həddindən artıq xeyir iş edən şəxsin məcazi mənada xeyir adlandırılması doğrudur. Allah-taala həddindən artıq xeyir etdiyi üçün xeyir sifəti ilə vəsf olunmuşdur. [1099]

**2.** Xeyir sözünün əsl mənası seçmək anlamındadır. Bir şeyin xeyir adlandırılması bizim tərəfimizdən həmin şeyin başqa biri ilə müqayisə edilib birini seçməkdir. Seçdiyimiz şey xeyirli olandır. Onu istək və mənfəətlərimizi ehtiva etdiyi üçün seçirik. İstədiyimiz həqiqi anlamda xeyir olandır. Əgər başqa bir şey üçün istəsək, həmin başqa olan həqiqi xeyirdir. Digəri isə onun cəhətindən xeyirlidir. Xeyir əsl həqiqətdə başqası üçün deyil, özlüyündə tələb olunandır...

Allah-taala mütləq anlamda xeyirdir. Çünki hər bir şey Ona tərərf gedir, Ona qayıdır, hər şey Onu istəyir və məqsədi Odur".[1100]

**Qeyd:**

Xeyir sözü **"...Allah daha xeyirli və baqidir!"**[1101] ayəsində Allah-taala üçün vəsf olaraq tək formada qeyd edilmişdir. Lakin bir çox ayələrdə xeyir sözü izafət birləşməsi formasında qeyd edilmişdir. Məsələn:

**"... Axı O, hökm verənlərin ən xeyirlisidir!"** (Əraf surəsi, ayə 87).

**"... Ruzi verənlərin ən xeyirlisidir!"** (Maidə surəsi, 114).

---

[1097] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 123, 124.

[1098] Taha surəsi, ayə 73.

[1099] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 210.

[1100] Əllamə Məhəmməd Hüseyn Təbətəbai, c.3, s. 132. Ali İmran surəsinin 26-cı ayəsinin təfsiri.

[1101] Taha surəsi, ayə 73.

**“Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən xeyirlisisən!”** (Əraf surəsi, ayə 89).

**“... Sən rəhimlilərin ən xeyirlisisən”** (Muminun surəsi, ayə 109).

**“...Allah bağışlayanların ən xeyirlisisən”.** (Əraf surəsi, ayə 155).

**“...O, yardım edənlərin ən xeyirlisidir!”** (Ali İmran surəsi, ayə 150).

**“...Sən sığınacaq verənlərin ən xeyirlisisən!”** (Muminun surəsi, ayə 29).

**“Sən varislərin ən xeyirlisisən!”** (Ənbiya surəsi, ayə 89).

**38. əd-Dəyyan.**

Allah-taala buyurur: **“Haqq-hesab gününün sahibi”.**[1102]

Dəyyan ismi bu ayədən götürülmüşdür. Ayədə “yəvmud-din” (din günü) deyə buyurulur. Yəni haqq-hesab və cəza günü. əd-Dəyyan sözünün mənası bəndələrini əməllərinə görə mükafatlandıran və ya cəzalandırandır.[1103]

**39. əz-Zari.**

Allah-taala buyurur: **“De: “Sizi yer üzünə yayıb səpələyən Odur. (Qiyamət günü) Onun hüzuruna toplanacaqsınız!”**[1104]

**əz-Zari isminin mənaları:**

**1. Xaliq.** “ذرأ الله الخلق” dedikdə yəni Allahın xəlqi yaratmışdır.[1105]

**2. İnşa edən, böyüdən.**[1106]

[1102] Fatihə surəsi, ayə 3.

[1103] Şeyx Səduq, ət-Tövhid, s. 210.

[1104] Mülk surəsi, ayə 24.

[1105] Şeyx Səduq, ət-Tövhid, s. 198.

[1106] Beyhəqi, əl-Əsmau vəs-sifəat, c. 1, s. 57.

**40. Zul-cəlali vəl-ikram.**

Allah-təal buyurur: **“(Ya Peyğəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər ucadır (nə qədər uludur)!”**[1107]

Cəlal əzəmət mənasındadır.[1108] İkram kərəm, şərəf mənasındadır.[1109] Zul-cəlali vəl-ikram əzəmət, şan-şöhrət, şərəf və kamilliyin Allah-taalaya məxsus olması mənasındadır.

**Qeyd:**

“Cəlal” sifəti Allah-taalanın vəsf olunmaqdan uca və pak olduğu səlbi sifətlərə münasibdir.

İkram sifəti isə Allah-taalalnın vəsf olunduğu, Onun şərəf, kərəm və şanına münasib olan sübuti sifətlərə münasibdir.

**41. ər-Rauf.**

Allah-taala buyurur: **“...çünki Allah bəndələrə (Öz bəndələrinə) mərhəmətlidir!”**[1110]

**“... Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir”.**[1111]

ər-Rauf “رفأة” sözündən götürülüb. Rəhmətin həddindən artıq olmasıdır. Rauf rəhmətin daha mübaliğəli olması ilə yanaşı rəhimli olan mənasındadır.[1112]

**42. ər-Rai (görən).**

Allah-taala buyurur: **“Məgər bilmir ki, Allah (onun bütün əməllərini) görür?!”**[1113]

---

[1107] ər-Rəhman surəsi, ayə78.

[1108] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 198.

[1109] Bax; Həmin mənbə, s. 707.

[1110] Ali İmran surəsi, ayə 30.

[1111] Bəqərə surəsi, ayə 143.

[1112] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 144.

ər-Rai isminin mənaları:[1114]

**1**. **Alim.** Çünki "الرؤية" elm mənasın bildirir.

**2. Görən.** Çünki "الرؤية" görmək mənasınıdadır.

**43. ər-Raziq.**

Allah-taala buyurur: **"Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!"**[1115]

**Ruzinin mənaları:**

**1.** Ruzinin mənası ruzi verilən şəxsin faydalandığı şeyin adıdır. Ruzi canlı varlığın qida, geyim və yaşayış yeri kimi möhtac olduğu şeylərdir. Həmçinin insana nisbətdə onun varlığının əsası və münasib kamilliyi olan elm və hidayət kimi məsələləri də ehtiva edir.

**2.** Ruzinin "رزق" felin məsdəri olması baxımından mənası. Ruzi canlı varlığa faydalanacağı şeyləri əldə etməyə imkan yaratmaq və bu faydalanmağa mane olacaq şeyləri aradan götürməkdir.

**ər-Raziq adı aşağıdakı şərtləri cəm edən hər kəsə aiddir:**

**Birinci:** Bir başa özü ruzi verə.

**İkinci:** Ruzinin əldə olunmasına səbəb ola.

**Üçüncü:** Ruzinin əldə olunması üçün lazımi müqəddimələri və yolları hazırlaya.[1116]

---

[1113] Ələq surəsi, ayə 14.

[1114] Şeyx Səduq, ət-Tövhid, s. 199.

[1115] Zariyat surəsi, ayə 58.

[1116] Daha ətraflı məlumat üçün Əla Həssun, "əl-Ədlu ində məzhəbi əhlil-beyt (ə)" kitabında müraciət edin.

**44. ər-Rafi.**

Allah-taala buyurur: **"...Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın..."**[1117]

ər-Rafi "رفع" sözündən düzəlmiş feli sifətdir. Mənası hörmət etmək və məqamı ucaltmaq mənasındadır. Allah-taala iman və elm əhlinin dərəcələrini ucaldar və onları Özünə yaxınlaşdırar.[1118]

**45. ər-Rəbb.**

Allah-taala buyurur: **"Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha) – aləmlərin Rəbbinə"**[1119]

ər-Rəbb sözü tərbiyə etmək mənasındadır. Yəni bir şeyi yavaş-yavaş kamilliyə çatdırmaqdır. ər-Rəbb mübaliğə formasındadır.

Rəbb sözü malik və sahib mənalarını da bildirir. Çünki bir şeyə malik olan malik olduğunu qoruyur və tərbiyə edir.[1120]

**46. ər-Rəhman.**

Allah-taala buyurur: **"Mərhəmətli, Rəhmli Allahın adı ilə!"**[1121]

**"Rəhman! (Mərhəmətli olan Allah!), (Öz peyğəmbərinə) Quranı öyrətdi. İnsanı yaratdı. Ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi".**[1122]

**"(Ya Rəsulum!) De: "İstər Allah, istərsə də Rəhman deyib çağırın (dua edin). Hansını desəniz (fərqi yoxdur), çünki ən gözəl adlar (əsmayi-hüsna) yalnız Ona məxsusdur".**[1123]

---

[1117] Mucadələ surəsi, ayə 11.

[1118] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 119.

[1119] Fatihə surəsi, ayə 2.

[1120] Məhəmməd bin Məkki Amuli, əl-Qəvaidu vəl-fəvaidu, c. 1, s. 173.

[1121] Fatihə surəsi, ayə 1.

[1122] ər-Rəhman surəsi, ayə 1, 2, 3, 4.

[1123] İsra surəsi, ayə 110.

**Rəhmətin mənası:**

İnsana nisbətdə rəhmət birinə mərhəmətli olmağı tələb edən duyğu nəticəsində formalaşır. Allah-taala duyğudan uca və pak olduğu üçün Allah-taalaya nisbət verilən rəhmət duyğu olmadan yaxşılıq etmək və mehriban olmaq mənasına dəlalət edir.[1124]

Buna əsasən də İmam Əli (ə) buyurub: "Riqqət (duyğu) ilə vəsf olunmadan Rəhimdir".[1125]

**Rəhmanın mənası:**

Rəhman sözü rəhmət sözündən yaranıb və mübaliğə formasındadır. Həddindən artıq mərhəmətli olan mənasındadır. Allah-taalanın bəndələrinə qarşı rəhməti genişdir. Onun rəhməti haqqı çatan və haqqı çatmayan bəndələrinə şamil olur.[1126] Allahın rəhməti mömin, kafir, əməlisaleh və yolunu azmış bütün bəndələrinə sonsuz lütf və ehsanlarında təcəlli etmişdir.

**47. ər-Rəhim.**

Allah-taala buyurur: **"Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhimlidir, mərhəmətlidir".**[1127]

**"...Allah möminlərə rəhm edəndir!"**[1128]

ər-Rəhim rəhmət sözündən yaranıb. Rəhim sözündən məqsəd nemət bəxş edəndir. Necə ki, Allah-taala Rəsulullah (s) barəsində belə buyurur: **"Səni də (Ya Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq**

[1124] Şeyx Səduq, ət-Tövhid, s. 198.

[1125] Şərif Murtaza, Nəhcul-bəlağə, 179-cu xütbə, s. 344.

[1126] Şərif Murtaza, Nəhcul-bəlağə, 179-cu xütbə, s. 344.

[1127] Bəqərə surəsi, ayə 163.

[1128] Əhzab surəsi, ayə 43.

**bir rəhmət olaraq göndərdik...”**[1129] Yəni səni aləmlərə nemət olaraq göndərdik.[1130]

**Rəhman və Rəhim isimlər arasındakı fərq.**

**1.** Rəhman Allah-taalaya məxsus olan isimdir.[1131] Lakin Rəhim ümumi isimdir və Allah-taaladan başqasının bu isimlə adlanması mümkündür.[1132]

**2.** İmam Cəfər Sadiq (ə) buyurub: “Rəhman bütün yaratdıqlarına, Rəhim isə yalnız möminlərə (mərhəmətli olandır)”.[1133]

**48. ər-Rəzzaq.**

Allah-taala buyurur: **“Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!”**[1134]

ər-Rəzzaq Raziq isminin mübliğə formasıdır. Raziq mənasını isə əvvəlki səhifələrdə qeyd etmişik.

**49. ər-Rəşid.**

Allah-taala buyurur: **“(Ya Rəsulum!) Xatırla ki, o zaman gənclər mağaraya sığınıb: “Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver!” – demişdilər”.[1135]**

---

[1129] Ənbiya surəsi, ayə 107.

[1130] Şeyx Səduq, ət-Tövhid, s. 198.

[1131] Rəhman ismini Allah-taaladan başqasına deyilməsi doğru deyil. Çünki Rəhmanın mənası rəhmətdə sonsuz olan həqiqi nemət bəxş edəndir. Bu məna isə yalnız Allah-təalaya məxsusdur. Bax; Zeynuddin bin Əli əl-Amuli (Şəhid Sani), ər-Rovzətul-bəhiyyə fi şərhil-lumətid-diməşqiyyə, c. 1, s. 218.

[1132] Şeyx Təbərsi, Məcməul-bəyan, c. 1, Fatihə surəsinin 3-cü ayəsinin təfsiri, s. 93.

[1133] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 114.

[1134] Zariyat surəsi, ayəsi 58.

[1135] Kəhf surəsi, ayə 10.

**ər-Rəşid isminin mənaları:**[1136]

**1.** Bütün əməllərində, işlərində haqqa və doğruya müvafiq olan. Allah-taalanın ər-Rəşid adlanması Onun bütün fellərinin haqq və doğruya müvafiq olmasından irəli gəlir.

**2.** Murşid, yol göstərən. Yəni bəndələrinə onlara fayda verəcək şeyləri bəyan edən və dəvət edən. Allah-taalanın **"...Allahın yoldan çıxartdığı (zəlalətə saldığı) kimsəyə isə əsla doğru yolu göstərən bir dost (rəhbər) tapa bilməzsən! ..."**[1137] ayəsi qeyd olunan mənadadır.

### 50. Rəfiud-dərəcat.

Allah-taala buyurur: **"Dərəcələri yüksəldən, ərşin sahibi Allah..."**[1138]

**Rəfiud-dərəcat ismindən məqsəd:**

**1.** Allah-taalanın şəninin ucalığına dəlalət edir. Yəni şəni Allah-taaldan daha uca olan bir varlıq yoxdur.[1139]

**2.** Peyğəmbərlərin və övliyaların dərəcələrini ucaldan.

### 51. ər-Rəfiq.

Rəsulullah (s) belə buyurub: **"Allah-taala işlərində yüngül olandır və işlərdə yüngül, asan olmağı sevər".**[1140]

ər-Rifq işləri yavaş-yavaş yerinə yetirmək mənasındadır. Əksi isə işləri tələskənliklə və kobudcasına yerinə yetirməkdir. Allah-taala fellərini yüngül və tədricilə edir. Allah-taala məxluqatı bir dəfəyə və bir anda

---

[1136] Məhəmməd bin Məkki Amuli, əl-Qəvaidu vəl-fəvaid, c. 1, s. 173.

[1137] Kəhf surəsi, ayə 17.

[1138] Ğafir surəsi, ayə 15.

[1139] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 45.

[1140] Hürr Amuli, Vəsail əş-şiə, c. 15, s. 271, hədis 20489.

yaratmağa qadir olmasına baxmayaraq, onları tədricilə və yavaş-yavaş yaratmışdır.

Rəfiq həmçinin mülayim olan mənasını da bildirir. Allah-taala əmr və qadağalarında olduqca mülayimdir. Bəndələrinə çətin və ağır işləri yerinə yetirməyi əmr etməmişdir. Əksinə yavaş-yavaş bir haldan digərinə öyrəşdirərək tədricilə onlarla davranır.[1141]

**52. ər-Rəqib.**

Allah-taala buyurur: **"Allah hər şeyə nəzarət edəndir!"**[1142]

**"... Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"**[1143]

**ər-Rəqib isminin mənaları:**

**1.** Qoruyan, gözətçi.[1144]

**2.** Hər şeyi daima nəzarətdə saxlayan.[1145]

Allah-taalanın bəndələrinin üzərində nəzarətçi olması Onun daima hazır olması mənasındadır. O, bəndələrinin nə etdiklərini görür, nə dediklərini eşidir, onların bütün batini və zahiri hərəkətlərini və sükunətlərinə nəzarət edir. Belə ki, onların etdikləri heç bir şey Allahdan gizli deyildir.

**53. əs-Subbuh.**

Allah-taala buyurur: **"Allah (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır!"**[1146]

---

[1141] İbn Qəyyim əl-Covziyyə, Əsmaullahil-husna, s. 237.

[1142] Əhzab surəsi, ayə 52.

[1143] Nisa surəsi ,ayə 1.

[1144] Şeyx Səduq, ət-Tövhid, s. 199.

[1145] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 130.

[1146] Saffat surəsi, ayə 159.

əs-Subbuh vəsf olunması gərəkməyən hər bir şeydən uca və pak olandır.[1147] Məsələn:

**1.** Mümkün varlıqlara oxşamaqdan uca və pak olan.

**2.** Şərikinin olmasından uca və pak olan.

**3.** Hiss üzvləri və təsəvvür vasitəsilə dərk olunmaqdan uca və pak olan.

**4.** Nöqsan gətirən sifətlərdən uca və pak olan.

**5.** Acizlik və zülmə səbəb olacaq bütün növ fellərdən uca və pak olan.[1148]

### 54. Səriul-hisab (tez sorğu-sual edən).

Allah-taala buyurur: **"... Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir".**[1149]

Yəni Allah-taalanın birini sorğu-sual etməsi digərin də sorğu-sual etməsinə məne olmur. Buna əsasən də məxluqatın sorğu-sualı uzun vaxtı əhatə etmir.[1150]

### 55. Səriul-iqab (tez cəza verən).

Allah-taala buyurur: **"...Həqiqətən, sənin Rəbbin (kafirlərə, müşriklərə, Onun birliyini inkar edənlərə) tezliklə cəza verən və şübhəsiz ki, (möminləri) bağışlayan, (onlara) rəhm edəndir!"**[1151]

İqab "عقيب" sözündən yaranıb. Bir şeyin ardınca gələn ona nisbətdə əqib (ardı) adlanır. Cəza mənasında olan "عقوبة" sözü də eyni kök hərflərdən ibarətdir. Çünki cəza günahın ardınca olan bir feldir.

---

[1147] Şeyx Səduq, ət-Tövhid, s. 210.

[1148] Bax; Əllamə Məclisi, Biharul-ənvar, c. 4, s. 170.

[1149] Ali İmran surəsi, ayə 199.

[1150] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 153.

[1151] Ənam surəsi, ayə 165.

Səriul-iqab Allah-taalanın daimi sifətlərindən deyil. Yalnız tez cəzalandırmanın gərəkdiyi məqamlara məxsus olan sifətdir.

**56. əs-Səlam.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan, (bəndələrinə) salamatlıq, əmin-amanlıq bəxş edən..."**[1152]

**əs-Səlam isminin mənaları:**

**1.** Allah-taala salam adlanır. Çünki Onun zatı, sifətləri, felləri hər bir eyb, nöqsan, pislik və ziddən salmatdır (uca və pakdır).[1153]

**2.** Allah-taala salam adlanır. Çünki bütün məxluqlar Onun tərəfindən salamatlığa və əmin-amanlığa çatır. O, yaratdıqlarından istədiyi hər hansı birinə salamatlıq və əmin-amanlıq bəxş edir.[1154]

**57. əs-Səmi (eşidən).**

Allah-taala buyurur: **"... Allah (hər şeyi) eşidəndir, biləndir!"**[1155]

**"(Allah) buyurdu: "Qorxmayın, Mən də sizinləyəm, (hər şeyi) eşidirəm və görürəm!"**[1156]

**əs-Səmi isminin mənaları:**

**1.** Eşidilənləri bilən.[1157]

**2.** Allah-taala eşidilən varlıqlar mövcud olduqda onları dərk edir.[1158]

---

[1152] Həşr surəsi, ayə 23.

[1153] Şeyx Səduq, ət-Tövhid, s. 199.

[1154] Həmin mənbə.

[1155] Maidə surəsi, ayə 76.

[1156] Taha surəsi ,ayə 46.

[1157] Bax; Şeyx Mufid, ən-Nukətul-itiqadiyyə, s. 24.

[1158] Şeyx Səduq, ət-Tövhid, s. 192.

**3.** Allah-taala duanı eşidəndir.[1159] Yəni duanı qəbul edəndir. Allah-taala buyurur: **“...Həqiqətən, Rəbbim duaları eşidəndir!”**[1160].[1161]

**58. əs-Seyyid.**

Allah-taalanın əs-Seyyid ismi ilə adlandırılması bir çox dualarda qeyd edilmişdir. Həmin duaların biri olan Kumeyl duasında belə deyilir: **“Ey mənim Allahım, seyyidim (ağam, sahibim) və Rəbbim! Sənin tövhidinə (etiqad bəslədikdən) sonra mənə cənnəminin odu ilə əzab verəcəksənmi?!”**[1162]

**əs-Seyyid isminin mənaları:**

**1. Ağa.** Qövmün sahibinə və əzəmətlisinə onların ağası deyilir. Çünki onlara hakimdir və onları idarə edir.[1163]

**2. İnsanların möhtac olduğu biri.** Çünki insanlar ağalarına müraciət edər, onun əmrlərinə əməl edər, onun rəyinə əsaslanaraq çıxış edər və onun sözü ilə yol gedərlər.[1164]

**59. əş-Şafi.**

Allah-taala buyurur: **“Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik...”**[1165]

Allah-taala İbrahim (ə)-ın dili ilə nəql edərək belə buyurur: **“Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir”.**[1166]

---

[1159] Həmin mənbə.

[1160] İbrahim surəsi, ayə 39.

[1161] Daha ətraflı məlumat üçün bu kitabın onuncu fəsli “Allah-təalanın eşitməsi və görməsi” mövzusuna müraciət edin.

[1162] Bax; Abbas Qummi, Məfatihul-cinan.

[1163] Şeyx Səduq, ət-Tövhid, s. 201.

[1164] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 54.

[1165] İsra surəsi, ayə 82.

[1166] Şüara surəsi, ayə 80.

Allah-taala şəfa verəndir. Çünki xəstə və sağlam olmayan əlil insan Allah-təalnın izni olmadan şəfa bulmaz. Mənəvi baxımdan xəstə olan da Allah-taalanın iradəsindən sonra sağlamlıq əldə edər.

**60. əş-Şakir, əş-Şukur.**

Allah-taala buyurur: **"...Hər kəs (vacibdən əlavə) könüllü olaraq yaxşı bir iş görərsə, Allah (onun etdiyi yaxşı işdən) razı qalandır (əvəzini verəndir), (onu) biləndir".**[1167]

**"...Həqiqətən, Rəbbimiz bağışlayandır, qədirbiləndir!"**[1168]

Şükr sözünün lüğəti mənası yaxşılığı tanıma və yaxşılıq edənə yaxşılıq etməkdir. Allah-taala yaxşılıq edən bəndələrinə şükr edir. Yəni yaxşı əməlləri müqabilində onlara savab verir. Həmin bəndələrin yaxşı əməllərini tərifləməklə, yaxşılıq etməklə, onlara nemət və bol savab verməklə az əməlləri müqabilində münasib və ya daha artıq əvəz verir.[1169]

**Qeyd:**

Allah-taala qədimdən yaxşılıq edən və hər bir yaxşılığın Ondan olması, Onun yanında şükrə layiq olacaq bir varlığın olmasını gərəkdirir. Əks təqdirdə saleh əməlləri yaxşılıq hesab etmək, bəndələrin Ona etdiyi yaxşılıqların müqabilində yaxşılıq etməsi anlamında olduğu üçün Onun şükr və yaxşılıqla mükafat verməsi yaxşılıq müqabilində yaxşılıqdır. Allah-taala buyurur: **"Yaxşılıq əvəzi ancaq yaxşılıqdır!"**[1170]

**"(Onlara belə deyiləcəkdir:) "Bu sizin (dünyada etdiyiniz yaxşı əməllərə görə) mükafatınızdır. Zəhmətiniz (Allah yanında) məqbuldur (təqdirəlayiqdir)!"**[1171].[1172]

---

[1167] Bəqərə surəsi, ayə 158.

[1168] Fatir surəsi, ayə 34.

[1169] Şeyx Səduq, ət-Tövhid, s. 211.

[1170] ər-Rəhman surəsi, ayə 60.

[1171] İnsan surəsi, ayə 22.

**61. Şədidul-əzab (Əzabı şiddətli olan).**

Allah-taala buyurur: **“...Allahın əzabının şiddətli olacağını bilərdilər”.**[1173]

**62. Şədidul-iqab (cəzası şiddətli olan).**

Allah-taala buyurur: **“... bilin ki, Allahın cəzası şiddətlidir”.**[1174]

**63. Şədidul-mihal (Cəzası şiddətli olan).**

Allah-taala buyurur: **“...Allahın cəzası şiddətlidir! (Allah yenilməz qüvvət sahibidir!)”**[1175]

Allah-taalanın cəzası şiddətlidir, ağırdır. Bəzi rəylərə görə burada “محال” sözü hiylə anlamındadır.[1176] Allaha nisbət verilən hiylənin göstəricilərindən biri də bəndəni öz şəninə buraxması və lütflərini ondan əsirgəməsidir. Bundan sonra bəndəni doğru yola yönəldən, günah və xətalardan qorumaq üçün əlindən tutan biri qalmır.

Allah-taala buyrur: **“Ayələrimizi yalan hesab edənləri haradan olduğunu özləri də bilmədən tədriclə məhvə yaxınlaşdıracağıq! (dərəcə-dərəcə aşağı endirəcəyik)!”**[1177]

**64. əş-Şəhid.**

Allah-taala buyurur: **“...Şübhəsiz ki, Allah hər şeyə şahiddir!”**[1178]

---

[1172] Əllamə Təbatəbai, əl-Mizan fi təfsiril-Quran, c. 1, Bəqərə surəsinin 158-ci ayəsinin təfsiri, s. 383.

[1173] Bəqərə surəsi, ayə 165.

[1174] Bəqərə surəsi, ayə 196.

[1175] Rəd surəsi, ayə 13.

[1176] Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 726.

[1177] Əraf surəsi, ayə 182.

[1178] Həcc surəsi, ayə 17.

**“De: “Ey kitab əhli! Allah sizin əməllərinizin şahidi olduğu halda, nə üçün Allahın ayələrini (dəlillərini) inkar edirsiniz?”**[1179]

**Şahidliyin mənaları:**

**1.** əş-Şəhid ismi şahidlik mənasını bildirən “شهادة” sözündən yaranıb. Şahidlik xüsusi məziyyəti olan elmdir. Allah-taalanın mütləq elmi nəzərdə tutulduqda “Əlim” adlanır. Əgər Allah-taalanın qeybi məsələləri, batini gizlilikləri[1180] bilməsi nəzərdə tutularsa, “Xəbir” (xəbərdar və agah olan) adlanır.

Əgər Allah-tələnın aşkar və zahiri məsələlərə elmi nəzərdə tutularsa, “Şahid” adlanır.[1181]

**2.** Allah-taala şahiddir. Çünki O, qiyamət günü bəndələrinin şahid olduğu əməllərə görə onların əleyhinə şahidlik edəcək.[1182]

## 65. əs-Sadiq.

Allah-taala buyurur: **“...Allah və Peyğəmbəri düz buyurmuşlar! ...”**[1183] Yəni Allah-taala sözlərində və vədlərində doğru olandır. Onun yalan danışması mümkün deyil. Allah əhdinə vəfalı olan heç kimin savabını vəd etdiyindən az verməz.[1184]

---

[1179] Ali İmran surəsi, ayə 98.

[1180] Məlumdur ki, burada qeybi məsələlər və batini gizliliklər dedikdə, bu işlərin bizə nisbətdə olması nəzərdə tutulur. Çünki hər bir şey Allah-taala yanında aşkardır, hazırdır. Allah-taalaya nisbətdə qeyd deyilən bir anlayış yoxdur. **“Şübhəsiz ki, Allah hər şeyə şahiddir”** (Həcc surəsi, ayə 17).

[1181] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 134.

[1182] Həmin mənbə.

[1183] Əhzab surəsi, ayə 22.

[1184] Şeyx Səduq, ət-Tövhid, s. 201.

**66. əs-Sane.**

Allah-taala buyurur: **"...Bu, hər şeyi bacarıqla (yerli-yerində) edən Allahın gördüyü işdir..."**[1185]

əs-Sani sözünün mənası düzəldən, tərtib edən anlamındadır.[1186] Yəni bir şeyi başqa bir şeylə birləşdirərək yeni bir şey yaradır. Həmçinin bu sözün işi gözəl surətdə etmək mənasında olduğu da deyilmişdir.[1187]

**67. əs-Səbur.**

Məsum imamların birinin dualarında belə buyurulur: **"İlahi, adına xatir Səndən diləyirəm... Ey Səbur (səbirli olan)!"**[1188]

Səbur hər hansı feli vaxtından əvvəl yerinə yetirməyə tələsmir. Əksinə hər bir şeyi müəyyən miqdarda və müəyyən qaydalara əsasən edir. Tənbəl kimi feli təyin olunmuş vaxtından sonraya təxirə salmaz və tələsən biri kimi vaxtından əvvələ keçirməz. Hər bir şeyi öz vaxtında edir.[1189]

**68. əs-Səməd.**

Allah-taala buyurur: **"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!)"**[1190]

**əs-Səməd isminin mənaları:**

---

[1185] Nəml surəsi, ayə 88.

[1186] Beyhəqi, əl-Əsma vəs-sifat, c. 1, s. 59.

[1187] Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 493.

[1188] Əllamə Məclisi, Biharul-ənvar, c. 93, s. 391.

[1189] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 150.

[1190] İxlas surəsi, ayə 1, 2.

**1.** Rəsulullah (s) "صمد" sözünün mənası barədə belə buyurub: "İçi, qarnı olmayandır".[1191] Yəni ehtiyacı olmayan. İmam Zeynulabidin (ə) buyurub: "Səməd qarnı olmayandır".[1192]

**2.** İmam Məhəmməd bin Əli əl-Baqir (ə) buyurub: "Səməd itaət olunan ağadır. Onun üstündə əmr verən və qadağa edən yoxdur".[1193]

**3.** İmam Muhəmməd bin Əli əl-Baqir (ə) "səməd" sözün mənası barədə belə buyurub: "Az və çox şeylərdə ehtiyacları ödəyən ağa".[1194]

Yəni az və ya çox işlərdə ona üz tutular.[1195] Xüsusilə də dua etdikdə, ehtiyacları dilədikdə[1196], çətinliklərdə pənah aparılan, rifah halında ümid yeri olandır.[1197]

**4.** İmam Zeynulabidin (ə) belə buyurub: "Həqiqətən də Allah-taala içi (qarnı olmayan, ehtiyacı) olmayandır".[1198]

**5.** İmam Muhəmməd bin Əli əl-Baqir (ə) buyurub: "Əzəldən və əbədi olaraq daim ehtiyacı olmayandır".[1199]

### 69. əz-Zarr.

Allah-taala buyurur: **"Əgər Allah sənə bir sıxıntı versə, (səni ondan) Allahdan başqa heç kəs qurtara bilməz..."**[1200]

əz-Zarr zərər verən mənasındadır.[1201] Allah-taala mənfəət və zərər verəndir. O, heç kimə zülm edərək zərər verməz. O, sınaq və ya günahlar

---

[1191] Şeyx Səduq, ət-Tövhid, s. 91.

[1192] Həmin mənbə, s. 88.

[1193] Həmin mənbə.

[1194] Həmin mənbə, s. 91.

[1195] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 123.

[1196] Şeyx Səduq, ət-Tövhid, s. 192.

[1197] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 124.

[1198] Əllamə Məclisi, Biharul-ənvar, c. 93, s. 304.

[1199] Şeyx Səduq ,ət-Tövhid, s. 88.

[1200] Ənam surəsi, ayə 17.

müqabilində cəza məqsədilə müəyyən hikmətlərə əsasən istədiyinə zərər verər.

**70. ət-Tahir.**

İmam Əli bin Musa ər-Rza (ə) etdiyi duaların birində belə buyurur: **"İlahi, Səndən diləyirəm .., ey pak olan!"**[1202]

Tahir ismi Allah-taalanın bənzərdən, ziddən, oxşardan, məhdudluqdan, zəvala uğramaqdan və bütün növ dəyişiklikdən uca və pak olmasını bildirir".[1203]

**71. əz-Zahir.**

Allah-taala buyurur: **"Əvvəl də, axır da, zahir də, batin də Odur..."**[1204]

**əz-Zahir isminin mənaları:**

**1.** Ayələri, nişanələri, hikməti, varlığına, vəhdaniyyətinə, rübubiyyətinə və kamil sifətlərinə dəlalət edən aşkar dəlillərilə zahir olan. Çünki elə bir şey yoxdur ki, Onun varlığına dəlalət etməsin və kamil sifətlərini bəyan etməsin.[1205]

**2.** Qalib və uca olan. Zuhur qələbə və ucalıq mənasındadır.[1206] Aşağıdakılar bu mənadadır:

**Birinci:** Allah-taala buyurur: **"...Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və onlar qələbə çaldılar".**[1207] Bu ayədə zahir sözü qələbə mənasındadır.[1208]

---

[1201] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 146.

[1202] Şeyx Tusi, Misbahul-mutəhəccid, s. 810.

[1203] Şeyx Səduq, ət-Tövhid, s. 202.

[1204] Hədid surəsi, ayə 3.

[1205] Şeyx Səduq, ət-Tövhid, s. 194, 195.

[1206] Həmin mənbə.

[1207] Səff surəsi, ayə 14.

**İkinci:** İmam Cəfər bin Muhəmməd Sadiq (ə) buyurub: "Sən zahirsən! Səndən üstün heç bir şey yoxdur".[1209] Yəni sən qalib gələn və uca olansan. Səndən uca heç bir şey yoxdur.

**Üçüncü:** İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "Zahir varlıqlara güc, qələbə və qüdrəti ilə aşkar olandır. Məsələn bir nəfər deyir: "Düşmənlərimə zahir (qalib) oldum", Allah məni düşmənimə zahir (qalib) etdi"... Beləcə Allah düşmənlərə zahir (qalib) olur".[1210]

### 72. Alimul-ğeybi vəş-şəhadəti (qeybi və aşkarı bilən).

Allah-taala buyurur: **"O, qeybi də, aşkarı da biləndir, (hər şeydən) böyükdür, ucadır!".**[1211]

Qeyb bizim hissiyyat üzvlərimizdən kənar olandır. Şəhadət sözü isə bu fəslin yeddinci mövzusunda əş-Şəhid isminin izahında qeyd edilmişdir. Qurani-kərimdə bu ismə oxşar "göylərin və yerin qeybini bilən", "qeybləri bilən" kimi isimlər qeyd edilmişdir.

Allah-taala buyrub: **"Şübhəsiz ki, Allah göylərin və yerin qeybini (gözə görünməyən sirlərini) bilir. O, ürəklərdə olanları da biləndir!"**[1212]

**"... Allah qeybləri (gizli şeyləri) çox gözəl biləndir?!"**[1213]

### 73. əl-Ədl.

Allah-taala buyurur: **"(Ya Rəsulum!) Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu..."**[1214]

---

[1208] Şeyx Səduq, ət-Tövhid, s. 194, 195.

[1209] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 504.

[1210] Şeyx Səduq, ət-Tövhid, s. 184.

[1211] Rəd surəsi, ayə 9.

[1212] Fatir surəsi, ayə 38.

[1213] Tövbə surəsi, ayə 78.

[1214] Ənam surəsi, ayə 115.

Ədl (ədalətli olmaq) Allah-taalanın pis bir işi etməkdən və ya vacib bir işə xələl gətirməkdən uca və pak olmasıdır. əl-Ədl isim kimi işlənən məsdərdir. Burada Allah-taalanın ədalətli olmasının mübaliğəli ifadə olunması nəzərdə tutulur. Yəni Allah-taala həddindən artıq ədalətli və ya ədalətin son zirvəsində, kamilliyində olandır.[1215]

**74. əl-Əziz.**

Allah-taala buyurur: **"...Şübhəsiz ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!"**[1216]

**"...Şübhəsiz ki, (izzət və) qüdrət tamamilə Allaha məxsusdur!"**[1217]

**əl-Əziz isminin mənaları:**

**1.** Yenilməz güc və qüdrət sahibi. Çünki kamil güc və qüdrət Ona məxsusdur.[1218] əl-Əziz izzət sahibi olan deməkdir. İzzət qalib gəlməyə qüdrəti olan mənasındadır. Ərəblər qalib olan birinə "عز" deyirlər.[1219]

**2.** Varlığının bənzəri az olan, daha çox ehtiyac duyulan və çətinliklə əldə olunan.[1220]

**3.** Məlik (şah). Çünki şaha da əziz deyilir. Necə ki, Yusif peyğəmbərin qardaşları Yusif (ə) belə demişdir: **"Ey əziz! Bizə və ailəmizə müsibət (quraqlıq, qıtlıq, aclıq) üz vermişdir..."**[1221] Yəni ey şah![1222]

---

[1215] Daha ətraflı məlumat üçün Əla Həssunun "əl-Ədlu fi məzhəbi əhli-l-beyt (ə)" (Əhli-beyt (ə) məzhəbində ədalət sifəti) kitabına müraciət edin.

[1216] Ali İmran surəsi, ayə 62.

[1217] Nisa surəsi ,ayə 139.

[1218] Şeyx Səduq, ət-Tövhid, s. 200.

[1219] İbn Mənzur, Lisanul-ərəb, c. 9, s. 185.

[1220] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 113.

[1221] Yusif surəsi, ayə 88.

[1222] Şeyx Səduq, ət-Tövhid, s. 200.

**75. əl-Əzim.**

Allah-taala buyurur: **“Göylərdə və yerdə nə varsa (hamısı) Onundur! O, (hər şeydən) ucadır, (hər şeydən) uludur!”**[1223]

**“Çünki o, böyük olan Allaha inanmırdı”.**[1224]

**əl-Əzim isminin mənaları:**

**1.** Şan şöhrətdə və qüdrətdə uca olan.[1225]

**2.** Qüdrətli və qalib olan.[1226]

**3.** Ağa. Bir millətin ağası onun ən əzəmətlisi və böyüyüdür.[1227]

**4.** Özündən başqa hər bir şey onun qarşısında mütidir. Ondan başqa hər bir varlığın əzəməti Ona qayıdır.[1228]

**5.** Gözün əhatə edə bilmədiyi varlıq.[1229]

**6.** Həqiqətini ağılların dərk etmədiyi varlıq.[1230]

**7.** Təkvini iradəsi ilə bir şey istədikdə, Ona qarşı çıxmaq və müxalif olmaq mümkün deyil.[1231]

**76. əl-Əfuvv.**

Allah-taala buyurur: **“Həqiqətən, Allah əfv edəndir, bağışlayandır!”**[1232]

**“Bəndələrinin tövbəsini O qəbul edir, günahları O bağışlayır və sizin nə etdiyinizi də O bilir”.**[1233]

---

[1223] Şura surəsi, ayə 4.

[1224] əl-Haqqə surəsi, ayə 33.

[1225] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 211.

[1226] Həmin mənbə.

[1227] Həmin mənbə.

[1228] Həmin mənbə.

[1229] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 123.

[1230] Bax; Miqdad Səyuri, əl-Ənvarul-cəlaliyyə, s. 98.

[1231] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 70.

[1232] Həcc surəsi, ayə 60.

əl-Əfv pozmaq, izini aradan aparmaqdır.[1234] Günahı əfv etmək onun pozmaq, izini aradan aparmaq mənasındadır. Allah-taala əməl səhifəsindən günahları və pislikləri pozur, onun izini aradan aparır.

**Əfv etməklə bağışlamaq arasındakı fərq.**

Əfv günahı pozmaq, bağışlamaq isə günahın üstünü örtmək anlamındadır. Buna əsasən də əfv bağışlamaqdan daha böyükdür. Çünki günahın silinməsi onun üstünün örtülməsindən daha böyükdür.[1235]

**77. əl-Əliyyu.**

Allah-taala buyurur: **"...Həqiqətən, Allah (hər şeydən) ucadır, böyükdür!"**[1236]

**əl-Əliyyu isminin mənaları:**

**1.** Qalib gələn, iqtidar sahibi.[1237]

**2.** Ağılların və təsəvvürlərin Onu əhatə etməsindən daha böyük olan.[1238]

**3.** Müşriklərin vəsfindən uca və böyük olan.[1239]

**4.** Şərəf cəlalında uca olan. Onun məqamından və rütbəsindən üstün heç bir məqam və rütbə yoxdur. Bütün rütbələr onun rütbəsindən aşağıdır.[1240]

**5.** Hər bir eyb və nöqsandan uca olan.

---

[1233] Şura surəsi, ayə 25.

[1234] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 203.

[1235] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 144.

[1236] Həcc surəsi, ayə 62.

[1237] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 193.

[1238] Həmin mənbə.

[1239] Həmin mənbə.

[1240] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 126.

**Qeyd:**

əl-Əliyyu sözünün lüğəti mənası ucalıq və yüksəklikdir. Allah-taala cismanilikdən uca və pak olduğu üçün bu sözü cəhət və hərəkət kimi Onun şəninə münasib olmayan mənada izah etmək doğru deyildir.

**78. əl-Əlim.**

Allah-taala buyurur: **"...Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!"**[1241]

əl-Əlim kamil elm sahibi olandır. Elm elə bir sifətdir ki, məlum olanları (bilinənləri) xəta ehtimalı olmadan tamamilə aşkar etməyə dəlalət edir.[1242]

**79. əl-Ğafir, əl-Ğaffar, əl-Ğəfur.**

Allah-taala buyurur: **"Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan (Allahdandır)!"**[1243]

**"...Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır!"**[1244]

**"...Allah bağışlayandır, rəhm edəndir!"**[1245]

Bu isimlərin kökü olan "əl-ğəfr" sözü örtmək, pərdə çəkmək mənasını ifadə edir. Allah-taala tövbə edən və Ona dönən bəndələrinin bağışlanmaq diləklərini qəbul edərək günahlarının üzərini örtəndir. Nəticədə onlarıın vəziyyətini yaratdıqları varlıqlar arasında aşkar edib onları biabır etmir, dünya və axirətdə həmin günahlara görə onlara cəza vermir.

---

[1241] Bəqərə surəsi, ayə 247.

[1242] Daha ətraflı məlumat üçün bu kitabın səkkizinci fəslinə müraciət edin.

[1243] Ğafir surəsi, ayə 3.

[1244] Nuh surəsi, ayə 10.

[1245] Tövbə surəsi, ayə 27.

**80. əl-Ğalib.**

Allah-taala buyurur: **“...Allah Öz işində (əmrində) qalibdir (istədiyini edəndir), lakin insanların əksəriyyəti (bunu) bilməz!”**[1246]

əl-Ğalib isminin mənası işlərə hakim olandır. Çünki varlıq aləmində hər bir şey yalnız onun izn və iradəsilə baş verir. Varlıq aləmində Allah-taalanın hakimiyyətindən kənar heç bir şey yoxdur.[1247]

**81. əl-Ğəniyy.**

Allah-taala buyurur: **“Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir!”**[1248]

**əl-Ğəniyy isminin mənası:**

əl-Ğəniyy heç bir şeyə ehtiyacın olmamasını ifadə edən “الغنى” sözündən yaranıb. Allah ğənidir, zəngindir. Yəni zatında, sifətlərində və fellərində heç nəyə möhtac deyildir. Allah öz zatında zəngindir və Ondan başqa hər bir şey Ona möhtacdır.[1249]

**82. əl-Ğiyas.**

Rəsulullah (s) belə buyurub: **“Allah-taalanın doxsan doqquz adı vardır... əl-Ğiyas ...”**[1250]

İmam Zeynulabidin (ə) etdiyi duaların birində belə deyir: **“... Ya ğiyasəl-mustəğisin! (Ey yardım diləyənlərin yardım edəni...)”**[1251]

---

[1246] Yusif surəsi, ayə 21.

[1247] Bax; Şeyx Cəfər Subhani, Məfahimul-Quran, c. 6, s. 365.

[1248] Fatir surəsi, ayə 15.

[1249] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 146. Daha ətraflı məlumat üçün bu kitabın dördüncü fəslinə müraciət edin.

[1250] Şeyx Səduq, ət-Tövhid, s. 189.

[1251] əs-Səhifətus-səccadiyyə, ramazan ayında hər gün oxunan dua, s. 238.

əl-Ğiyas "مغيث" (muğis)[1252] mənasındadır. Yəni çətinliklərdə Onu çağıran bəndələrinə yardım edən, onlara nicat verən, onları xilas edən.[1253]

**83. əl-Fatir.**

Allah-taala buyurur: **"...Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?!"**[1254]

**"Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun"**[1255]

Fatir xəlq edən mənasındadır.[1256] Bu sözün əsl mənası parçalamaq və bölməkdir. Allah-taala göyləri və yeri yaratmasının bu sözlə ifadəsinin səbəbi budur ki, sanki Allah göyləri və yeri yaratdıqda yoxluğu yarmış göyləri və yeri varlıq sahəsinə çıxartmışdır.[1257]

**84. əl-Faliq.**

Allah-taala buyurur: **"Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan ... Allahdır".**[1258]

**"(Gecənin zülmətindən) səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, günəşi və ayı (vaxt üçün) bir ölçü vasitəsi edən də Odur. (Bütün) bunlar yenilməz qüvvət sahibi, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmüdür)".**[1259]

---

[1252] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 203.

[1253] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 123.

[1254] İbrahim surəsi, ayə 10.

[1255] Fatir surəsi, ayə 1.

[1256] Xəlil Fərahidi, Kitabul-eyn, c. 7, s. 418.

[1257] Məhəmməd bin Məkki Amuli, əl-Qəvaidu vəl-fəvaid, c. 1, s. 174.

[1258] Ənam surəsi, ayə 95.

[1259] Ənam sursəsi, ayə 96.

əl-Faliq “الفلق” – “fəlq” sözündən yaranıb mənası parçalamaq, yarmaqdır. Allah-taalanın əl-Faliq ismi ilə vəsf olunmasının səbəbi:

**Birinci:** Çünki Allah-taala toxumu və çəyirdəyi yarıb cücərdir.

**İkinci:** Gecəni yarıb onun bağrından nur və sabahı çıxarır.[1260]

**85. əl-Fəttah.**

Allah-taala buyurur: **“Ədalətlə hökm edən (müşkülləri açan), (nə hökm etdiyini) bilən ancaq Odur!”**[1261]

**“... Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!”**[1262]

**əl-Fəttah isminin mənaları:**

**1.** Allah-taala Öz rəhmət xəzinələrini insanların üzərinə açmışdır. Onlar üçün ruzi qapılarını və hər bir xeyirli işin qapılarını açmışdır. Haqq və həqiqəti tanımaları üçün onların qəlblərini və gözlərini açmışdır.[1263]

**2.** Haqla batili bir-birindən ayıran hakim.[1264] Haqlını ucaldır və batil olanı isə cəzalandırır.[1265]

**3.** Öz övliyaları üçün zəfər və fəth bəxş edən. Allah-taalanın buyruduğu bu ayə **“(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər gəldiyi zaman”**[1266] qeyd olunan mənadadır.

---

[1260] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 203, 204.

[1261] Səba surəsi, ayə 26.

[1262] Əraf surəsi, ayə 89.

[1263] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 117, 118.

[1264] Şeyx Səduq, ət-Tövhid, s. 203.

[1265] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 113.

[1266] Nəsr surəsi, ayə 1.

**86. əl-Fərd.**

İmam Zeynulabidin (ə)-ın dualarının birində belə buyurur: **"... Səndən başqa ilah olmayan Allah sənsən! Sən əhədsən, vahidsən, yeganəsən, təksən..."**[1267]

**əl-Fərd isminin mənaları:**

**1.** Rübubiyyət və idarəçilikdə yaratdıqlarına ehtiyac olmadan tək və yeganə olan.[1268]

**2.** Əzəldən tək olan və Onunla yanaşı biri olmayan.[1269]

**87. əl-Fəaal.**

Allah-taala buyurur: **"...Həqiqətən, Rəbbin istədiyini edəndir ..."**[1270]

Allah istədiyini edəndir. Yəni Allah təala hər bir feli etmək iqtidarındadır. O, məxluqları kimi deyil ki, bir işi etdikdə digər birini etməkdə aciz olur.[1271]

**88. əl-Qabiz.**

Allah-taala buyurur: **"...Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər)..."**[1272]

**"...Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq..."**[1273]

**əl-Qəbz sözünün mənaları:**

---

[1267] əs-Səhifətus-səccadiyyə, Ərəfə günü oxuduğu dua, s. 316.

[1268] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 203.

[1269] Həmin mənbə.

[1270] Hud surəsi, ayə 107; Buruc surəsi, ayə 16.

[1271] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 81.

[1272] Bəqərə surəsi, ayə 245.

[1273] Zümər surəsi, ayə 67.

**1.** Mülkiyyət. Filan şey əlimin içindədir, yəni mənim mülkiyyətimdədir. Zümər surəsinin 67-ci ayəsi **"...Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq ..."** qeyd olunan mənadadır.[1274]

**2.** Bir şeyi yox etmək. Buna görə də meyit üçün Allah onu qəbz etdi (canını aldı) deyilir.[1275]

**3.** Hikmətinə əsasən bəndələri üçün ruzisini bol bəxş edən və ya əsirgəyən.[1276]

**89. əl-Qadir və əl-Qədir.**

Allah-taala buyurur: **"De: "Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinizin zorunu daddırmağa qadirdir!"** [1277]

**"...Həqiqətən, Allah hər şeyə qadirdir".**[1278]

**əl-Qadir isminin mənaları:**

**1.** Allah-taalada heç bir acizliyin olmaması.[1279]

**2.** Əgər bir şeyi istədikdə edər, bir şeyi tərk etmək istədikdə isə tərk edər.[1280] Başqa sözlə desək, heç bir şey onun iradəsindən və etmək istədiyi işdən uzaqlaşdıra bilməz.[1281]

**3.** Bir işi etməsi və tərk etməsi mümkün olan.[1282]

---

[1274] Şeyx Səduq, ət-Tövhid, s. 205.

[1275] Həmin mənbə.

[1276] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 118.

[1277] Ənamn surəsi, ayə 65.

[1278] Bəqərə surəsi, ayə 20.

[1279] Şeyx Səduq, ət-Tövhid, s. 127.

[1280] Bax; Meysəm Bəhrani, Qəvaidul-məram, s. 83.

[1281] Şeyx Səduq, ət-Tövhid, s. 192.

**90. əl-Qazi.**

Allah-taala buyurur: **“Allah (qiyamət günü) ədalətlə hökm edər...”**[1283]

əl-Qazi ismi hökm mənasında olan “qəza” sözündən düzəlmişdir. Lüğəti mənası hökm verməkdir.[1284] Terminoloji mənası isə Allah-taalanın baş verəcək hər bir şeyi lövhul-məhfuzda (qorunan lövhədə)[1285] yazması və ya felin baş verməsinin qəti olmasıdır.[1286]

**91. Qazil-hacat.**

Rəsulullah (s) belə buyurub: **“Allah-taalanın doxsan doqquz ismi vardır... biri də qazil-hacat ...”**[1287]

Allah-taala Qazil-hacatdır. Yəni bəndələrinin dilədikləri bütün ehtiyacları yerinə yetirəndir.[1288]

**92. əl-Qahir və əl-Qəhhar.**[1289]

Allah-taala buyurur: **“O Öz qulları üzərində hakimi-mütləqdir...”**[1290]

**“... O, bir olan, (hər şeyi) qəhr edən (hər şeyə gücü yetən) Allahdır!”**[1291]

---

[1282] Bax; Nəsrəddin Tusi, Qəvaidul-əqaid, s. 48. Daha ətraflı məlumat üçün bu kitabın on birinci fəslinə, Allah-təalanın qüdrəti mövzusuna müraciət edin.

[1283] Ğafir surəsi, ayə 20.

[1284] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 11, s. 209.

[1285] Bax; Əllamə Hilli, Kəşful-murad, s. 432, 433.

[1286] Daha ətraflı məlumat üçün Əla Həssunun əl-Ədlu ində məzhəbi əhlil-beyti (ə) (Əhli-beyt məzhəbində ədalət sifəti) kitabına, altıncı fəsil, Qəza və qədər mövzusuna müraciət edin.

[1287] Şeyx Səduq, ət-Tövhid, s. 189.

[1288] Həmin mənbə, s. 206.

[1289] əl-Qəhhar qahir sözünün mübaliğə formasıdır.

[1290] Ənam surəsi, ayə 18.

**əl-Qahir isminin mənaları:**

**1.** Heç vaxt məğlub olmayan qalib.[1292]

**2.** Allah-taala bütün düşmənlərinin belini qırar və onları zillətlə və məhv etməklə qəhr edər.[1293]

**3.** Heç bir şey ondan qaça və ya edəcəyi işdən imtina edə bilməz.[1294]

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: "... Qahir isminə gəlincə, bu, yalan, aldatmaq, hiylə edərək insanların bir-birini qəhr etməsi mənasında deyil... Lakin Allah-taalanın bütün yaratdıqları zəlildir. Onun istəklərindən imtina edə bilməz. Bir göz qırpımı Onun hökmündən kənara çıxa bilməz..."[1295]

**93. əl-Quddus.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan... Allahdır".**[1296]

**"Göylərdə və yerdə nə varsa, (hamısı) mülkün (yer-göy mülkünün) hökmdarı (sahibi), müqəddəs (pak), yenilməz qüvvət, hikmət sahibi olan Allahı təqdis edib Onun şəninə təriflər deyər!"**[1297]

əl-Quddus ismi paklıq mənasını bildirən "əl-quds" sözündən yaranmışdır.[1298] Quddus sözünün mənası pak,[1299] hər bir eyb və nöqsandan uzaq, şəninə layiq olmayan hər bir vəsfdən uca, hiss üzvlərinin

---

[1291] Zümər surəsi, ayə 4.

[1292] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 122, 123.

[1293] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 134, 135.

[1294] Şeyx Səduq, Uyunu-əxbari Rza, c. 1, s. 134, 135.

[1295] Şeyx Səduq, ət-Tövhid, s. 184, 185.

[1296] Həşr surəsi, ayə 23.

[1297] Cümə surəsi, ayə 1.

[1298] İbn Mənzur, Lisanul-ərəb, c. 11, s. 60.

[1299] Şeyx Səduq, ət-Tövhid, s. 204.

dərk etdiyi, ağılın təsəvvür etdiyi və xəyala gələn hər bir sifətdən münəzzəh olandır.[1300]

**94. əl-Qədim (əzəli olan).**

İmam Muhəmməd bin Əli əl-Baqir (ə) belə buyurub: **"... Allah əzəldən qədim olandır... Zatında qədim olandır".**[1301]

İmam Əli bin Musa ər-Rza (ə) buyurub: **"Allah-taala qədimdir. Qədim elə bir sifətdir ki, ağıl Ondan öncə bir şeyin olmadığına dəlalət edir..."**[1302]

**əl-Qədim isminin mənası:**

əl-Qədim əvvəli olmayan, varlığından öncə yoxluq olmayandır. Başqa sözlə desək, qədim varlığı keşmiş zamanda əvvələ və başlanğıca gedib çıxmayandır.[1303]

Şeyx Səduq belə deyir: "Qədimin mənası hər bir şeydən öncə olandır. Hər bir şeydən əvvəl olan vəsfdə mübaliğə olaraq qədim adlanır. Lakin Allah-taala əvvəl və son olmadan özlüyündə qədimdir. Başqa varlıqların isə əvvəli və sonu vardır".[1304]

Qədim həmçinin əzəli və həmişə mövcud olan da adlanır.[1305]

**Allah-taalanın əzəli və əbədi olmasına dair əqli dəlillər.**

**1.** Allahın varlığının vacibliyini sübut edən dəlillər Onun əzəli və əbədi olmasını da sübuta yetirir. Çünki varlığı vacib olan mövcudun xüsusiyyətlərindən biri də onun özlüyündə, zatı ilə var olmasıdır.

---

[1300] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 110.

[1301] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

[1302] Şeyx Səduq, ət-Tövhid, s. 181.

[1303] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 148.

[1304] Şeyx səduq, ət-Tövhid, s. 204.

[1305] Həmin mənbə.

Zatı özündən olan bir varlıq üçün isə əvvəl və sonranın olması mümkün deyildir. Bununla da sübuta yetir ki, Allah-taala əzəli və əbədidir.[1306]

**2.** Varlıq aləmini yaradanın varlığı ya qədim, ya da sonradan olandır. Əgər qədim olarsa, tələb olunan sübuta yetmişdir. Əgər sonradan olmuşdursa, onun bir icad edənə ehtiyacı vardır. Həmin icad edən də sonradan var olmuşsa, onun da bir icad edənə ehtiyacı vardır. Beləcə bu silsilə sonsuzluğadək davam edəcəkdir. Bu isə batildir. Əgər bu silsilə qədim varlığa yetişərsə, tələb olunan da məhz budur. Bununla da varlığı qədim olan birinin olması zəruridir. Həmin qədim varlıq isə Allah-taaladır.[1307]

Buna əsasən də İmam Musa bin Cəfər əl-Kazim (ə) Allah-taala barəsində belə buyurmuşdur: "O, qədimdir. Ondan savayı olan hər bir şey sonradan yaranan məxluqdur".[1308]

**Allah-taalanın əzəli və əbəsi olmasına dəlalət edən hədislər.**

**1.** İmam Əli (ə) Allah-taala barəsində belə buyurub: "Əvvəldir, Ondan öncə yoxdur. Axırdır, Onun sonu yoxdur".[1309]

**2.** Həmçinin buyurub: "Əvvəldir. Sonu yoxdur ki, bitib tükənsin, axırı yoxdur ki, yox olsun".[1310]

**3.** Həmçinin buyurub: "Onun nə əvvəl olmasının başlanğıcı, nə də axır olmasının həd və sonu vardır"[1311]

---

[1306] Əllamə Hilli, Kəşful-murad, s. 404: Miqdad Səyuri, İrşadut-talibin, s. 181, 182.

[1307] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 78, 79; Şərif Murtaza, Şəru cumələil-ilmi vəl-əməl, s. 50; Sədiduddin Himsi, əl-Munqiz minət-təqlid, c. 1, s. 70.

[1308] Şeyx Səduq, ət-Tövhid, s. 74.

[1309] Şərif Rəzi, Nəhcül-bəlağə, 85-ci xütbə, s. 135.

[1310] Həmin mənbə, 94-cü xütbə, səh, 175.

[1311] Şeyx Səduq, ət-Tövhid, s. 33.

**4.** Həmçinin buyurub: "Əvvəl olmasının başlanğıcı və əzəli olmasının tükənməsi yoxdur. O, əzəldən əvvəl, sonu olmadan baqidir (daimidir)".[1312]

**5.** Həmçinin buyurub: "Yaratdıqlarının sonradan var olması ilə Öz qədimliyinə dəlalət edən Allaha həmd olsun".[1313]

**6.** İmam Əlidən (ə) "Rəbbin nə vaxt olmuşdur?" –deyə soruşdular. O həzrət belə cavab verdi: "... Əvvəli olmadan əvvəldən əvvəldir. Sonu olmadan sondan da sondur".[1314]

"Sonu olmadan sondan sonra da olacaqdır".[1315]

**7.** İmam Cəfər bin Muhəmməd əs-Sadiq (ə)-dan "O. əvvəldir, axırdır"[1316] ayəsi barədə soruşdular. İmam (ə) belə buyurdu: "Özündən əvvəl və Özündən öncə başlanğıc olmadan əvvəldir. Məxluqların xüsusiyyətlərindən anlaşılan kimi sonu olmayan axırdır. O, qədimdir, əvvəldir və axırdır. Əvvəl və son olmadan olmuşdur və olacaqdır".[1317]

**Qeyd:**

Sərmədi termini əzəli və əbədi mənalarını özündə cəm edir. Sərmədi olan mövcud əbədi və əzəli olan varlığa deyilir. Yəni özündən əvvəl və sonra "yoxluq" olmayan varlıq.[1318]

**95. əl-Qərib.**

Allah-taala buyurur: **"(Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm..."**[1319]

---

[1312] Şərif Rəzi, Nəhcül-bəlağə, 162-ci xütbə, s. 306.

[1313] Şərif Rəzi, Nəhcül-bəlağə, 185-ci xütbə, s. 360.

[1314] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 90.

[1315] Həmin mənbə.

[1316] Hədid surəsi, ayə 3.

[1317] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 116.

[1318] Bax; əl-Muncid fil-luğət, s. 331.

**əl-Qərib isminin mənaları:**

**1.** Duanı qəbul edən.[1320] Allah-taala bəndələrinə yaxındır. Yəni dua edənin duasını qəbul etməklə ona yaxındır.[1321]

**2.** Allah-taala bəndələrinin qəlblərində və içlərində olanlardan xəbərdar olmaqla onlara yaxındır.

**96. əl-Qəviyyu.**

Allah-taala buyurur: **"Həqiqətən, Rəbin yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"**[1322]

**"Allah Öz bəndələrinə çox lütfkardır; istədiyinə ruzi verər. O, yenilməz qüvvət, qüdrət sahibidir!"**[1323]

Allah qüvvətlidir. Yəni kamil və sonsuz qüvvət sahibi olan Allah-taala işlərini edərkən Onda heç bir zəiflik olmur və O, heç kimdən yardım almır.[1324] Məxluqlarda isə bunun əksidir. Məxluq qüvvətli olsa da, onun qüvvəti məhduddur, zəiflik və acizliklə xarekterizə edilir.

**97. əl-Qəyyum.**

Allah-taala buyurur: **"Həyy (diri) və qəyyum olan Allahdan başqa heç bir tanrı yoxdur..."**[1325]

---

[1319] Bəqərə surəsi, ayə 186.

[1320] Şeyx Səduq, ət-Tövhid, s. 204, 205.

[1321] Həmin mənbə.

[1322] Hud surəsi, ayə 66.

[1323] Şura surəsi, ayə 19.

[1324] Şeyx Səduq, ət-Tövhid, s. 205; Muhsin Kaşani, c. 1, s. 136.

[1325] Bəqərə surəsi, ayə 255.

**Qəyyumluq mənası:**

**1.** Qəyyumluq bir şeyi qorumaq, işlərini idarə etmək və ona nəzarət etmək mənasındadır.[1326] Allah-taala qəyyumdur. Yəni hər şeyi qoruyan və onun varlığını davam etdirməsi üçün hər şeyi bəxş edən.[1327]

**2.** Allah qəyyumdur. Yəni Allah zatı ilə var olan və başqasını isə var edəndir. Onun varlığı heç bir şeyə möhtac deyil. Başqası isə var olmasında, işlərinin idarə olunmasında Ona möhtacdır.[1328]

**98. əl-Kaşif.**

Allah-taala buyurur: **"Əgər Allah sənə bir sıxıntı versə, (səni ondan) Allahdan başqa heç kəs qurtara bilməz..."**[1329]

Allah-taala sıxıntı və bəladan xilas edəndir. O, bəndələrinə nicat verir, onları sıxıntıdan, pisliklərdən, bəladan, dərd və qəmdən qurtarır.[1330]

**99. əl-Kafi.**

Allah-taala buyurur: **"Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?!**[1331]

Allah kifayət edəndir. Yəni Allah bəndələrinin bütün ehtiyaclarını ödəməyə qadirdir. Bəndələri Ondan başqasına möhtac deyidirlər. Əksinə Allah onlara kifayət edir, onların ehtiyaclarını ödəyir, onları başqasına möhtac etmədən bütün istəklərini kamil surətdə həyata keçirir.[1332]

---

[1326] Şeyx Səduq, ət-Tövhid, s. 205.

[1327] Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 691.

[1328] Əllamə Hilli, Kəşful-murad, s. 416.

[1329] Ənam surəsi, ayə 17.

[1330] Şeyx Səduq, ət-Tövhid, s. 208.

[1331] Zümər surəsi, ayə 36.

[1332] Şeyx Səduq, ət-Tövhid, s. 208.

**100. əl-Kəbir.**

Allah-taala buyurur: **"... Həqiqətən, Allah (hər şeydən) ucadır, böyükdür!.."**[1333]

**"O, qeybi də, aşkarı da biləndir, (hər şeydən) böyükdür, ucadır!"**[1334]

**əl-Kəbir isminin mənaları:**

**1.** Şəni böyük olan, ağa; qövmün ağasına onların böyüyü deyilir.[1335]

İmam Əli (ə) buyurub: "Sonu olan böyük deyil ki, böyüklüyü cismani olsun... Onun böyüklüyü şəni baxımındandır".[1336]

**2.** Kibriya (böyüklük) sahibi. Kibriya ilahi zat və sifətin kamilliyi və əzəmətini əks etdirir.[1337]

**3.** Hiss üzvlərinin müşahidə etməsindən və ağılın həqiqətini dərk etməsindən uca və pak olan.

**Hədisi şərifdə belə buyurulur:**

Bir nəfər İmam Cəfər Sadiqin (ə) yanında "Allahu əkbər" dedi. İmam (ə) ona: "Allah nədən böyükdür" –deyə soruşdu. Həmin adam dedi: "Allah hər bir şeydən böyükdür". İmam (ə) ona dedi: "Sən Allahı məhdudlaşdırdın". Həmin adam dedi: "Bəs necə deyim?". İmam (ə) buyurdu: "Belə de: "Allah vəsf olunmaqdan böyükdür".[1338]

**101. əl-Kərim.**

Allah-taala buyurur: **"...Kim (Rəbbimin nemətinə) şükür etsə, yalnız özü üçün (öz xeyrinə) şükür edər; kim nankor olsa, (bilsin ki)**

[1333] Həcc surəsi, ayə 62.

[1334] Rəd surəsi, ayə 9.

[1335] Şeyx Səduq, ət-Tövhid, s. 207.

[1336] Şərif Rəzi, Nəhcül-bəlağə, 185-ci xütbə.

[1337] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 126.

[1338] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 305, 306.

**həqiqətən, Rəbbim (onun şükürünə) möhtac deyildir, kərəm sahibidir!”**[1339]

**“Ey (kafir) insan! Səni kərim olan Rəbbinə qarşı aldadan (və ya: məğrur edən) nədir?”**[1340]

**əl-Kərim isminin mənaları:**

**1.** Əziz olan. “فلان أكرم علي من فلان” deyildikdə onun digərindən daha əziz olması nəzərdə tutulur.[1341]

**2.** Səxavətli, yaxşılıq edən, nemət lütf edən. Filankəs kərimdir deyildikdə onun səxavətli olması nəzərdə tutulur.[1342]

**3.** Şərəfli. Allah-taala aşkar olan gözəl əməlləri müqabilində bu sifətlə vəsf olunur.[1343]

**102. əl-Kəfil.**

Allah-taala buyurur: **“...Allahı özünüzə zamin edib möhkəm and içdikdən sonra onu pozmayın...”**[1344]

Kəfil olmaq zamin olmaqdır. Allah kəfildir, zamindir. Çünki Allah-taala bəzi şərtlərə əsasən bəndələrinin əməllərinə kəfildir və onların həmin əməlləri yerinə yetirmələrinə zamindir.[1345]

**103. əl-Lətif.**

Allah-taala buyurur: **“Allah Öz bəndələrinə çox lütfkardır; istədiyinə ruzi verər...”**[1346]

---

[1339] Nəml surəsi, ayə 40.

[1340] İnfitar surəsi, ayə 6.

[1341] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 207.

[1342] Həmin mənbə.

[1343] Məhəmməd Murtaza Zubeydi, Tacul-ərus, c. 9, s. 44.

[1344] Nəhl surəsi, ayə 91.

[1345] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 717.

**“Həqiqətən, Allah (gözlənilməyən yerdən ruzi yetirməklə bəndələrinə) lütfkardır, (onların hər işindən) xəbərdardır...”**[1347]

**əl-Lətif isminin mənaları:**

**1.** əl-Lutf varlıqların batininə və ən dəqiq işlərin gizlinliklərinə nüfuz etməkdən ibarətdir. Allah lətifdir. Yəni Onun elmi hər bir şeyin batinini və gizlinlikilərini əhatə etmişdir.[1348]

**2.** Bəndələrinin mənfəətlərini dəqiqliklə bilib onlar hiss etmədən həmin mənfəətləri yavaş-yavaş onlara çatdırandır.[1349] Başqa sözlə desək, əl-Lətif nemət bəxş edən və bəndələri hiss etmədən və gözləmədikləri yerdən həmin neməti onlara çatdırandır.[1350]

**3.** Allah-taalanın hiss olunan varlıq olmaması[1351] və zatının həqiqətinin tanınmamasıdır.[1352]

**104. əl-Məxxir.**

Allah-taala buyurur: **“(Ya Rəsulum!) Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma! (Allah) onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar”.**[1353]

Rəsulullah (s) belə buyurub: **“İlahi, önə keçirən və təxirə salan Sənsən!”**[1354]

---

[1346] Şura surəsi ,ayə 19.

[1347] Həcc surəsi, ayə 63.

[1348] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 740.

[1349] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 13, s. 283.

[1350] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 123.

[1351] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 122.

[1352] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 548.

[1353] İbrahim surəsi, ayə 42.

[1354] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 548.

əl-Muəxxir təxir sözündəndir. Təxir zaman, məkan, mənəvi məqamlarda baş verir. Allah-taala əl-Muəxxir adlanır. Çünki hikmətinə əsasən istədiyini təxirə salandır. Məsələn, Allah-taala düşmənlərini rəhmətindən uzaqlaşdıraraq onların cəzasını axirətədək təxirə salır.

**105. əl-Mumin.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi ... (bəndələrinə) salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan ... olan Allahdır".**[1355]

**əl-Mumin isminin mənaları:**

**1.** əl-Mumin təsdiq mənasında olan iman sözündəndir. Allah mömindir, yəni təsdiq edəndir. Onun təsdiqinin nümunələrindən bəzilər bunlardır:

**Birinci:** O, peyğəmbərlərinə möcizələr verməklə onları təsdiqləyir.

**İkinci:** O, bəndələrinə verilmiş vədini təsdiqləyir.[1356] Dünyada onlara verdiyi ruziyə zamin olmaqla və ya axirətdə əməllərinə görə veriləcək savab vədinə vəfa edəcəkdir.[1357]

**2.** əl-Mumin əmin-amanlıq sözündəndir.

Allah mömindir. Çünki əmin-amanlıq və salamatlıq Ona aiddir. Belə ki, dünyadakı bəlalardan və problemlərdən salamat qalmaq, axirətdə əzab və cəzalardan amanda olmaq yalnız Allah-taalanın bəndələri üçün yaratdığı və hazırladığı səbəblərlə mümkündür.[1358]

---

[1355] Həşr surəsi ,ayə 23.

[1356] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 200.

[1357] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 116.

[1358] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 112.

İmam Cəfər bin Muhəmməd əs-Sadiq (ə) belə buyurub: "Allah-taala mumin adlanmışdır. Çünki Ona itaət edənlərə əzabından əmin-amanlıqda olmağı bəxş etmişdir.[1359]

**106. Malikul-mulk.**

Allah-taala buyurur: **"(Ya Rəsulum!) De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan..."**[1360]

əl-Mulk məmləkət, səltənət, işlərin tədbiri və idarəçiliyi mənasındadır. əl-Malik isə kamil qüdrətə sahib olan qadir deməkdir. Allah-taala mülk sahibidir. Çünki O, kamil qüdrətə sahib olduğu kimi mülkündə istədiyi kimi hökm edəndir.[1361]

**107. Maliku yəumiddin.**

Allah-taala buyurur: "**Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha) – aləmlərin Rəbbinə,**

**(Bu dünyada hamıya) mərhəmətli , (axirətdə isə ancaq möminlərə) rəhmli olana,**

**Haqq-hesab (qiyamət) gününün sahibinə!"**[1362]

**Qeyd:**

Allah-taala dünya və axirətin sahibidir. Lakin Onun axirətdə mülkünə sahib olması təkid edilir. Çünki insanlar axirət günü dünyada sahib olduqları şərti mülkiyyətlərini itirəcəklər. Onların dünyada mülklərinin üzərində qərar vermə hüququ və qüdrəti əllərindən alınacaq.

[1359] Şeyx Səduq, ət-Tövhid, s. 200.

[1360] Ali İmran surəsi, ayə 26.

[1361] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 144.

[1362] Fatihə surəsi, ayə 2, 3, 4.

Bununla da Allah-taalanın malik olması onlar üçün dünyadakından daha artıq surətdə təcəlli edəcəkdir.

### 108. əl-Manii.

Rəsulullah (s) belə buyurub: **"İlahi, sənin bəxş etdiyinə mane olan və Sənin mane olduğunu bəxş edən yoxdur".**[1363]

**əl-Manii isminin mənaları:**

**1.** Allah-taalanın varlıqları qoruması bəla və həlak edici səbəblərin onlara yetmişməsinin qarşısını alması, həmin səbəblərə mane olmaqla baş verir. Əgər Allah həmin məhv edici səbəblərə mane olmazsa, varlıqlar fəsada uğrayar və varlıq nizamı pozular.[1364]

**2.** Bəzi bəndələrin layiq olmamaları və ya müəyyən bir hikmətə görə Allah onlara ruzinin yetişməsinə mane olur.[1365]

**3.** Allah-taala yardım edəndir. O, düşmənlərinin şərrinin övliyalarına (sevdiyi bəndələrinə) toxunmalarının qarşısını almaqla onlara yardım edir.[1366]

### 109. əl-Mubdi.

Allah-taala buyurur: **"Həqiqətən, (insanı) yoxdan var edən və (öldükdən sonra) təkrar dirildən Odur!"**[1367]

**əl-Mubdi isminin mənaları:**

**1.** əl-Mubdiu bir şeyi ibtidadan, əvvəldən etmək mənasındadır. Allah-taala ibtidadan (heç bir nümunə olmadan) varlıqları yaratdığı üçün əl-Mubdiu adlanır.[1368]

---

[1363] Şeyx Mufid, əl-Əmali, s. 91.

[1364] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 146.

[1365] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 137.

[1366] Həmin mənbə.

[1367] Buruc surəsi, ayə 13.

**2.** əl-Mubdi aşkar etmək mənasını bildirən "أبدى" sözündəndir. Allah-taala heç bir şey olmadan varlıqları aşkar etdiyi üçün əl-Mubdi adlanır.

**3.** əl-Mubdi icad edən mənasındadır. Həmçinin əl-Muid isminin mənası da icad etməkdir. əl-Mubdi və əl-Muid isimlərinin arasındakı fərq budur: əl-Mubdi heç bir nümunə olmadan əvvəlcədən icad edəndir. əl-Muid isə təkrar icad mənasındadır.[1369]

### 110. əl-Mubin.

Allah-taala buyurur: **"...Allahın açıq-aşkar bir haqq olduğunu biləcəklər!"**[1370]

əl-Mubin ismi aşkar olma, aydın olma mənasını bildirən "الابانة" sözündəndir. Allah-taala mubindir. Yəni O, nişanələri və yaratdıqlarının əlamətləri ilə aşkar və aydındır. Hətta O, zatı ilə zahir və aşkar olandır. Lakin bu aşkar və birbaşa zahir olmanı ziyalı bəsirət sahiblərindən başqa heç kim dərk etmir. Buna əsasən də İmam Hüseyn (ə) buyurub: "Var olmasında Sənə möhtac olan biri ilə necə Sənin varlığına dəlil gətirmək olar? Səndən qeyrisi Səndən daha aşkar ola bilərmi ki, hətta səni aşkar etsin? Nə vaxt olmamısan ki, sənə dəlalət edən bir dəlilə möhtac olasan? Nə vaxt uzaqlaşmısan ki, hətta izlər Sənə apararıb çıxartsın? Səni üzərində nəzarətçi görməyən gözlər kordur".[1371]

### 111. əl-Mutəal.

Allah-taala buyurur: **"O, qeybi də, aşkarı da biləndir, (hər şeydən) böyükdür, ucadır!"**[1372]

---

[1368] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 1, s. 333.

[1369] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 137.

[1370] Nur surəsi, ayə 25.

[1371] Həmin mənbə, c. 64, s. 142.

[1372] Rəd surəsi, ayə 9.

əl-Mutəal ismi ucalıq və yüksəklik mənasında olan "التعالي" sözündəndir.

**əl-Mutəal isminin mənaları:**

1. Hər bir nöqsandan, eybdən, şərikdən və kafirlərin vəsflərindən uca və pak olan.[1373] Allah-taala buyurur: **"...Allah isə onların Ona aid etdikləri sifətlərdən uzaqdır (pakdır) və yüksəkdə durur."[1374]**, **"...Allah isə Ona qoşulan şəriklərdən ucadır!"**[1375], **"Allah onların dediklərindən çox uca (pak) və çox yüksəkdir!"**[1376]

**2.** Hər bir şeyə hakim olan. Heç bir şey isə ona hakim ola bilməz.

**112. əl-Mutəkəbbir.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi ... (hamını istədiyi hər hansı bir şeyə) məcbur etməyə qadir olan, (hər şeydən) böyük (hər şeyin fövqündə) olan Allahdır".**[1377]

əl-Mutəkəbbir əzəmət və böyüklük mənasını bildirən "الكبر" sözündəndir. Allah-taala əzəmət və böyüklük "libasına" bürünmüşdür. Əzəmət və böyüklük yalnız Ona məxsusdur.[1378] Çünki Allah-taala zatı ilə əzəmətli olan yeganə varlıqdır. Başqa varlıqların sahib olduqları əzəmət məhz Allah-taaladandır, Allahın ona lütfüdür. Buna əsasən də əzəmət və böyüklük həqiqi mənada başqasına deyil, Allaha məxsusdur.

[1373] İbn Mənzur, Lisanul-ərəb, c. 9, s. 378.

[1374] Ənam surəsi, ayə 100.

[1375] Əraf surəsi, ayə 190.

[1376] əl-İsra surəsi, ayə 43.

[1377] Həşr surəsi, ayə 23.

[1378] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 136.

**Qeyd:**

Qeyd olunan həqiqətlər təkəbbür sifətinin Allah-taala üçün kamillik sifəti olsa da, başqa varlıqlar üçün nöqsandır. Çünki Allahdan başqasının zatı ilə böyüklük və əzəmətə sahib olmasını iddia etməsi yalan iddiadır.

İmam Əli (ə) belə buyurub: "İzzət və böyüklük libası geyinib bu sifətləri yalnız Özü üçün seçən və bu sifətləri başqalarına haram edən Allaha həmd olsun!.."[1379]

### 113. əl-Mətin.

Allah-taala buyurur: **"Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!"**[1380]

Mətanət qüvvətin şiddətinə dəlalət edir. Mətanət mütləq qüvvətdən daha əhatəlidir. Çünki yenilməz qüdrət və gücə dəlalət edir. Allah-taala mətindir dedikdə Onun elə bir qüvvətə sahib olması nəzərdə tutulur ki, heç kim Ona qarşı çıxa bilməz və ona bənzər qüvvətə sahib ola bilməz. Həmçinin Allah-taalanın əl-Mətin adlanmasının mənalarında biri də fellərində heç bir çətinlik, məşəqqət və yorğunluqla qarşılaşmayan yenilməz güc və qüvvət sahibi olandır.[1381]

### 114. əl-Mucib.

Allah-taala buyurur: **"(Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm..."**[1382]

---

[1379] Şərif Rəzi, Nəhcül-bəlağə, 192-ci xütbə, s. 284, 285.

[1380] Zariyat surəsi, ayə 58.

[1381] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 13, s. 18.

[1382] Bəqərə surəsi, ayə 186.

**“(Bütlər yaxşıdır) yaxud əli hər yerdən üzülüb darda qalan birisi Ona dua etdiyi zaman onun duasını qəbul buyuran, (sizdən) şəri sovuşduran, sizi yer üzünün varisləri edən kimsə?”**[1383]

**“Həqiqətən, Rəbbim yaxındır, (duaları) qəbul edəndir!”**[1384]

əl-Mucib tələb və istəkləri qəbul edəndir. Allah-taalanın adlarından biri də əl-Mucibdir. Çünki dua edən bəndənin duasını müstəcab və qəbul edəndir.[1385]

### 115. əl-Mucid.

Allah-taala buyurur: **“... Allah tərifl ənib şükür olunmağa, öyünüb mədh edilməyə layiqdir!”**[1386]

**əl-Məcid isminin mənaları:**

**1.** əl-Mucid şərəf, kamil sifətlərin və xeyirli işlərin çoxluğuna dəlalət edən “məcd” sözündən götürülmüşdür.[1387] Başqa sözlə desək, “məcd” zatla gözəl əməllər arasında müqayisə etdikdə zatın şərəfli olmasına deyilir.[1388] Bu sifət əzəmətli olmağı gərəkdirir. Məsələn, “خلقهمجدته ” deyildikdə, Ona təzim etdi, böyük tutdu mənasındadır.[1389]

**2.** əl-Mucid “المجد” sözündəndir. Ərəb dilində məcd genişlik mənasındadır. Məsələn, “رجل ماجد” deyildikdə geniş bəxşiş edən, səxavətli olan nəzərdə tutulur.[1390] Allah-taalanın adlarından biri də əl-Məciddir. Yəni Allah kərəm və səxavətdə geniş olandır.[1391]

---

[1383] Nəml surəsi, ayə 62.

[1384] Hud surəsi, ayə 61.

[1385] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 130.

[1386] Hud surəsi, ayə 73.

[1387] Bax; İbn Mənzur, Lisanul-ərəb, c. 13, s. 28.

[1388] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 132.

[1389] Şeyx Səduq, ət-Tövhid, s. 206.

[1390] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 80.

[1391] Bax; Rağib İsfəhani, Mufrədatu əlfazil-Quran, s. 720.

Allah-taalanın zatının ucalığı, sifətlərinin kamiliyyi, kərəmi və bol səxavətinə əsasən bu ad Allah-taalaya nisbət verilmişdir.

**116. əl-Muhsi.**

Allah-taala buyurur: **"...O, hər şeyi bir-bir sayıb yazmışdır (təsbit etmişdir)!"**[1392]

əl-Muhsi varlıqların ölçülərini, hesabını və sayını bilən mənasındadır. Bu ad Allah-taalanın elminin kamilliyi və əhatəli olmasına işarə edir.[1393]

**117. əl-Muhit.**

Allah-taala buyurur: **"...Və yenə bil ki, O (Öz elmi və qüdrəti ilə) hər şeyi ehtiva edəndir!"**[1394]

**"Halbuki Allah kafirləri (Öz elmi, qüdrəti ilə) ehtiva edəndir (Onun əlindən əsla qaçıb qurtara bilməzlər)".**[1395]

**əl-Muhit isminin mənaları:**

**1.** Elmi geniş və əhatəli olan.[1396] Elmi ilə bir şeyi əhatə edən həmin şeyə nisbətdə elminin ən son həddə çatmasıdır.[1397]

**2.** İqtidar sahibi olan hakim.[1398] Çünki Allah-taalanın qüdrəti bütün yaratdıqlarını əhatə etmişdir.[1399]

---

[1392] Cinn surəsi, ayə 28.

[1393] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 137.

[1394] Fussilət surəsi, ayə 54.

[1395] Bəqərə surəsi ,ayə 19.

[1396] Məhəmməd bin Məkki Amuli, əl-Qəvaidu vəl-fəvaid, c. 1, s. 174.

[1397] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 207.

[1398] Həmin mənbə.

[1399] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 81.

**118. əl-Muhyi.**

Allah-taala buyurur: **“(Ya Peyğəmbər!) De: “Allah sizi dirildir …”**[1400]

**“(Ya Rəsulum!) Sən Allahın rəhmətinin (yağışının) əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir. Doğrudan da, O, ölüləri dirildəndir. O (Allah) hər şeyə qadirdir!”**[1401]

Allah-taala dirildəndir. Çünki həyatı var edən və yaratdıqlarından istədiyinə həyat bəxş edən Odur.[1402]

**119. əl-Mudəbbir.**

Allah-taala buyurur: **“… hər işi yerinə qoyan (səhmana salan) Allahdır…”**[1403]

əl-Mudəbbir isminin mənası işləri gözəl sonluqla tamamlayacaq surətdə idarə etməkdir.[1404]

**120. əl-Muzill.**

Allah-taala buyurur: **“…istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan…”**[1405]

əl-Muzill şənini azaltmaq, şəxsiyyətini kiçiltmək və alçatmaq mənasını ifadə edən “اذلال” sözündən yaranmış feli sifətdir.[1406] Allah-taala hikmət sahibi olduğu üçün yalnız layiq olan varlıqları alçaldır.

---

[1400] Casiyə surəsi, ayə 26.

[1401] Rum surəsi, ayə 50.

[1402] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 133.

[1403] Yunis surəsi, ayə 3.

[1404] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 133.

[1405] Ali İmran surəsi, ayə 26.

[1406] Beyhəqi, əl-Əsmau vəs-sifət, c. 1, s. 152.

**121. əl-Mustəan.**

Allah-tala buyurur: **“...ancaq Allahdan kömək diləmək lazımdır!”**[1407]

**“Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!”**[1408]

**“... kömək dilənilməsi kimsə yalnız Rəhman olan Rəbbimizdir!”**[1409]

əl-Müstəan “استعان” (istianə) felindən yaranan feli sifətdir. “İstianə” kömək istəmək mənasındadır.[1410] Buna əsasən əl-Mustəan isminin mənası kömək dilənilməsi gərəkən varlıq anlamındadır. Allah-taala həqiqi mənada kömək dilinilməsi gərəkən varlıqdır. Allah-taaladan qeyrisindən kömək diləməyə gəlincə, yanız həmin başqasının müstəqil surətdə deyil, Allahın izni ilə kömək edə biləcəyinə etiqad bəsləməklə icazəlidir. Əks təqdirdə isə icazəli deyil. Allah-taala Zulqərneynin dili ilə belə buyurur: **“O (Zülqərneyn) dedi: “Rəbbimin mənə verdiyi (qüdrət və sərvət sizin mənə verəcəyiniz məbləğdən) daha yaxşıdır. Gəlin öz qüvvənizlə (bənna, fəhlə, dülgər və s.) mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd düzəldim!”**[1411]

Həmçinin Allah-taala buyurur: **“Ey iman gətirənlər! Səbir və dua ilə (namazla Allahdan) kömək diləyin”.**[1412]

---

[1407] Yusif surəsi, ayə 18.

[1408] Fatihə surəsi, ayə 4.

[1409] Ənbiya surəsi, ayə 112.

[1410] Bax; əl-Muncid fil-luğəti, s. 539.

[1411] Kəhf surəsi, ayə 95.

[1412] Bəqərə surəsi, ayə 153.

**122. əl-Musəvvir.**

Allah-taala buyurur: **“O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır. Ən gözəl adlar (əsmayi-hüsna) ancaq Ona məxsusdur...”**[1413]

əl-Musəvvir ismi planlaşdırma, tərtib etmə və zinətləndirmə mənasın ifadə edən təsvir sözündən yaranıb.[1414]

Allah-taalanın əl-Musəvir adlanmasının səbəbi Onun surəti yaratması, zinətləndirməsidir. Məhz O, istər birbaşa, istərsə də maddi səbəblərə verdyi qüdrət sayəsində varlıq aləmində yaranmış müxtəlif surətlərin həqiqi yaradıcısıdır.

**123. əl-Muizz.**

Allah-taala buyurub: **“De: “Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!”**[1415]

əl-Muizz şəni ucaltmaq, hörmət etmək, gücləndirmək mənasını ifadə edən “əl-izaz” sözündən yaranıb.[1416] Allah-taala buyurur: **“... Yenilməz izzət (qüvvət) bütövlükdə yalnız Allaha məxsusdur”.**[1417]

**124. əl-Muti.**

Allah-taala buyurur: **“Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (istər dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir”.**[1418]

---

[1413] Həşr surəsi, ayə 24.

[1414] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 62.

[1415] Ali İmran surəsi, ayə 26.

[1416] əl-Muncid fil-luğəti, s. 503.

[1417] Yunis surəsi, ayə 65.

Allahın verdiyi nemətlər itaətkar, asi, mömin və kafir olan bütün bəndələrinə şamil olur. Allah-taala bol nemətlərini bütün yaranmışlara lütf edir.[1419]

**125. əl-Muid.**

Allah-taala buyurur: **"Həqiqətən, (insanı) yoxdan var edən və (öldükdən sonra) təkrar dirildən Odur!"**[1420]

əl-Muid ismi bir şeyi əvvəlki halına qaytarmaq mənasını bildirən "الاعادة" (əl-iadə) sözündən götürülüb. Allah-taala varlıqları həyatdan sonra ölümə qaytarır sonra da ölümdən həyata qaytarır.[1421] Bütün varlıqlar Allahdan başlamış və Ona qayıdır.[1422]

Allah-taala buyurur: **"Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikcə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də dirildəcək və daha sonra siz (əməllərinizin haqq-hesabı çəkilmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız".**[1423]

**126. əl-Muğni.**

Allah-taala buyurur: **"...Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir!"**[1424]

**"...Allah istəsə, öz nemətindən (verib) sizi mütləq dövlətli edəcəkdir..."**[1425]

---

[1418] İsra surəsi, ayə 20.

[1419] Şeyx Təbərsi, Məcməul-bəyan, c. 6, s. 628. İsra surəsinin 20-ci ayəsinin təfsiri.

[1420] Buruc surəsi, ayə 13.

[1421] Beyhəqi, əl-Əsmau vəs-sifat, 1, s. 133.

[1422] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 137.

[1423] Bəqərə surəsi, ayə 28.

[1424] Nur surəsi, ayə 32.

əl-Muğni ismi ehtiyacı aradan aparmaq, kifayətlənmək mənasını ifadə edən "الغنى" sözündən yaranıb. Allah-taala zənginləşdirən, ehtiyacları ödəyəndir. Çünki Allah-taala varlıq aləminin ehtiyaclarını ödəyir, ruzilərini onlara çatdırır, hikmətin tələb etməsinə əsasən onlara yetəcək qədər ruzi əta edir.[1426]

### 127. əl-Muğis.

Allah-taala buyurur: **"O zaman siz (dua edərək) Rəbbinizdən kömək diləyirdiniz. (Allah: ) "Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!" – deyə duanızı qəbul buyurmuşdu".**[1427]

əl-Muğis ismi dərd-qəmi aradan aparan, çətinlikləri dəf edən mənasını bildirən "الغوث" sözündən düzəlmiş feli sifətdir. Allah-taala dərd-qəmi aradan aparan və çətinlikləri dəf edəndir. Çünki Allah-taala dərdli və çarəsizə yardım edir, onu dərd və çətinliyindən qurtarır. Bəndələr çətinliklərə, məşəqqətlərə və dərd-qəmə düşdükdə onların işini asanlaşdıran məhz Odur.[1428]

Allah-taala buyurur: **"(İnsanlar) ümidsizliyə qapılandan sonra, yağmur göndərən, nemətini (yağışını) açıb paylayan Odur. İxtiyar sahibi Odur. Tərifə (şükrə) layiq olan da Odur".**[1429]

### 128. əl-Muqtədir.

Allah-taala buyurur: **"...Allah hər şeyə (hər şeyi yaratmağa və məhv etməyə) qadirdir!"**[1430]

---

[1425] Tövbə surəsi, ayə 28.

[1426] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 154, 155.

[1427] Ənfal surəsi, ayə 9.

[1428] İbn Qəyyim Covziyyə, əl-Əsmaul-husna, s. 249.

[1429] Şura surəsi, ayə 28.

əl-Muqtədir kamil və geniş qüdrət sahibi olan deməkdir. əl-Muqtədir sözü qüdrətli sözündən daha geniş anlamdadır. Çünki bu söz mütləqlik mənasını daşıyır. Allah-taala muqtədirdir. Çünki Allah-taala geniş və sonsuz qüdrətə sahibdir və hər şeyə qadirdir.[1431]

**129. əl-Muqəddim.**

Rəsulullah (s) belə buyurub: **"İlahi, önə keçirən və təxirə salan Sənsən".**[1432]

əl-Muqəddim təqdim (önə keçirmək) sözündəndir. Təqdim zaman, məkan və mənəvi məqamlarda baş verir. Allah-taala əl-Muqəddim adlanır. Çünki hikmətinə əsasən istədiyini önə keçirəndir. Məsələn, Allah-taala dostlarını önə keçirər, onları Özünə yaxınlaşdırar və onları hidayət edər.

**130. əl-Muqsit.**

Allah-taala buyurur: **"Allah ədalətə əsaslanaraq Ondan başqa bir tanrının olmamamsına şəhadət verdi. Həmçinin mələklər və elm sahibləri də (şəhadət verdilər)..."**[1433]

əl-Muqsit zalımdan məzlumun haqqını alandır.[1434] Allah-taala yaratdıqları arasında baş verən zülmlərdən dolayı ədaləti icra edəndir.

**131. əl-Muqit.**

Allah-taala buyuru: **"...Əlbəttə, Allah hər şeyə qadirdir. (Hər şeyin əvəzini verəndir)".**[1435]

**əl-Muqit isminin mənaları:**

---

[1430] Kəhf surəsi, ayə 45.

[1431] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 63.

[1432] Şeyx Kuleyni, əl-Kafi, c. 2, s. 548.

[1433] Ali İmran surəsi, ayə 18.

[1434] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 145.

[1435] Nisa surəsi, ayə 85.

**1.** Qoruyan və nəzarət edən.[1436]

**2.** Ruziləri xəlq edən.[1437]

**3.** Hər şeyə hakim və qadir olan. əl-Muqit sözünün mənası hər şeydən xəbərdar olan və hər şeyə qadir olandır.[1438]

**132. əl-Məlik.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi ... olan Allahdır".**[1439]

**"Həqiqi hökmdar olan Allah (hər şeydən) ucadır!.."**[1440]

əl-Məlik bəndələrinə əmr vermək və qadağa etmək ixtiyarında olan, bəndələrin vəzifələrinin təyin olunması əlində olan hakimdir. Bu isim Allah-taalanın mümkün varlıqlar üzərində olan mütləq qüdrətinə qayıdır. Allah-taala əmr edir, qadağa edir, məqam yüksəldir, kiçildir, savab verir, cəzalandırır, bəxş edir, əsirgəyir, izzətli və zəlil edir. Məhz buna əsasən də Allah-taala əl-Məlik ismini daşıyır.[1441]

**133. əl-Mumit.**

Allah-taala buyurur: **"...Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür..."**[1442]

**"Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikcə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də**

---

[1436] Şeyx Səduq, ət-Tövhid, s. 207.

[1437] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 128.

[1438] Həmin mənbə.

[1439] Həşr surəsi, ayə 23.

[1440] Taha surəsi, ayə 114.

[1441] İbn Qəyyim Covziyyə, Əsmaullahil-husna, s. 93.

[1442] Əraf surəsi, ayə 158.

**dirildəcək və daha sonra siz (əməllərinizin haqq-hesabı çəkilmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız".**[1443]

Allah-taala ölüm felini icra etdiyi üçün mumit – öldürən adlanır.[1444] Allah diri varlıqlardan həyatı alar və onlarda ölüm yaradar".[1445]

**134. əl-Mənnan.**

Allah-taala buyurur: **"...Allah Öz bəndələrindən dilədiyinə nemət (peyğəmbərlik) bəxş edər..."**[1446]

əl-Mənnan nemət bəxş edən mənasındadır. [1447] Allah-taala ən gözəl tərzdə bəxşiş etdiyi və bol nemətlər verdiyi üçün Mənnan adlanır.[1448]

Allah-taala buyurur: **"(Allah) sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz".**[1449]

**135. əl-Muntəqim.**

Allah-taala buyurur: **"...Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!"**[1450]

**"...Biz, şübhəsiz ki, onlardan intiqam alacağıq!"**[1451]

İnsanlar arasındakı intiqam sənə acı daddıran birinə bənzər və ya daha artıq acı daddırmaqdır.[1452] Ümumiyyətlə intiqamın səbəbi insanın içində təsəlli tapmasındır.

---

[1443] Bəqərə surəsi, ayə 28.

[1444] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 137.

[1445] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 133.

[1446] İbrahim surəsi, ayə 11.

[1447] Şeyx Səduq, ət-Tövhid, s. 206.

[1448] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 120.

[1449] İbrahim surəsi, ayə 34.

[1450] İbrahim surəsi, ayə 47.

[1451] Səcdə surəsi, ayə 22.

Allah-taala şərrə məruz qalmaqdan uca və pak olduğu üçün Onun intiqam alması ədalət və hikmətin tələbinə müvafiq olaraq günahkarlara şərr dadızdırmaqdır.

**Qeyd:**

Allah-taala xəbərdarlıq və höccət tamamlanmadan günahkar, asi və həddini aşmış bəndələrindən intiqam almaz. Allahın intiqamı onların günah əmələ israrları və günahdan əl çəkməmələrindən sonra gerçəkləşir.[1453]

**136. əl-Muhəymin.**

Allah-taala buyurur: **"O Özündən başqa heç bir tanrı (məbud) olmayan ... (hər şeydən) göz-qulaq olub (onu) qoruyan, yenilməz qüdrət (qüvvət) sahibi, (hamını istədiyi hər hansı bir şeyə) məcbur etməyə qadir olan ... olan Allahdır".**[1454]

əl-Muhəymin ismi hakim olmaq, əhatə etmək mənasını bildirən "الهيمنة" (əl-həymənə) sözündən yaranıb.[1455]

Bu hakim olma və əhatə etmək digər iki sifətin də olmasını gərəkdirir:

**1. Şahid.**[1456] Çünki bir şeyə hakim olan, ona nəzarət edən kəs həmin şeyin bütün xırdalıqlarından xəbərdar olur. Bununla da onu tamamilə, kamil surətdə əhatə etmiş olur. Bununla da onu kamil surətdə muşahidə edir.

---

[1452] Əllamə Təbatəbai, əl-Mizan fi təfsiril-Quran, c. 13, s. 86. İbrahim surəsinin 47-ci ayəsinin təfsiri.

[1453] Bax; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 143.

[1454] Həşr surəsi, ayə 23.

[1455] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 113.

[1456] Şeyx Səduq, ət-Tövhid, s. 200.

**2. Hafiz (qoruyan).**[1457] Buna əsasən də "هیمن طائر" dedikdə, qanadlarını açaraq öz yumurtalarını qoruyan quş nəzərdə tutulur. Buna əsasən də "həymənə" qorumaq və nəzarət etmək mənasını bildirir.[1458]

**Qeyd:**

Əslində "həymənə" sözü "əmn" sözündən yaranıb. Sonra "həmzə" hərifi "hə" hərifinə çevrilmişdir. Muhəymin sözünün əsli "əl-Muəymin" sözüdür.[1459] Yəni kənardan gələn təhlükələrdən qoruduğu üçün əmin-amanlıq icad edən deməkdir.

**138. əl-Movla.**

Allah-taala buyurur: **"...Allah sizin havadarınızdır. O ən gözəl havadar, ən yaxşı imdada çatandır!"**[1460]

**"Ona görə ki, Allah iman gətirənlərin dostudur (himayədarıdır). Kafirlərin isə dostu (himayədarı) yoxdur!"**[1461]

**əl-Movla isminin mənaları:**

**1. Yardım edən.**[1462] Allah iman gətirənlərin mövlasıdır. Yəni iman gətirənlərin düşmənlərinə qalib gəlmələrini öhdəsinə götürən, çətin və şiddətli anlarda onlara yardım edən.

**2. Daha üstün olan.**[1463] Allah mövladır dedikdə Onun bəndələrə onların canlarından daha dəyərlidir. Allah bəndələrinin işlərinin islahını öhdəsinə götürür. Bəndələr Onun əmrlərini yerinə yetirməli və qadağalarından çəkinməlidirlər.

---

[1457] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 113.

[1458] Şeyx Səduq, ət-Tövhid, s. 200.

[1459] əl-Muncid fil-luğəti, s. 882.

[1460] Ənfal surəsi, ayə 40.

[1461] Muhəmməd surəsi, ayə 11.

[1462] Şeyx Səduq, ət-Tövhid, s. 206.

[1463] Həmin mənbə.

**138. ən-Nasir, ən-Nəsir.**

Allah-taala buyurur: **“Xeyr, Allah sizin ixtiyar sahibinizdir. O, yardım edənlərin ən yaxşısıdır”.**[1464]

**“Allah sizin düşmənlərinizi (sizdən) daha yaxşı tanıyır. Bir dost və yardımçı kimi Allah (sizə) kifayət edər!”**[1465]

ən-Nasir yardım və kömək mənasında olan “ən-nusrə” sözündən düzəlib. Deməli Allahın ən-Nasir isminin mənası yardım və kömək edəndir.[1466]

**139. ən-Nafi.**

Allah-taala buyurur: **“...(Onlara) de: “Əgər Allah sizə bir zərər, yaxud bir xeyir vermək istəsə, bu işdə Allaha bir şeylə kim mane ola bilər?!” Bəli, Allah sizin nə etdiyinizdən xəbərdardır!”**[1467]

Allah mənfəət verəndir.[1468] Ruzi, var-dövlətin artması kimi bütün mənfəətlərin mənbəyi Odur.

**140. ən-Nur.**

Allah-taala buyurur: **“Allah göylərin və yerin nurudur...”**[1469]

**Allahın nur olmasının mənaları:**

**1.** Hidayət edən. İnsanlar yol gedərkən nur və işıq sayəsində yollarını gördükləri kimi Allahın vasitəsilə onlara mənfəət verəcək şeylərə yol tapırlar.[1470]

---

[1464] Ali İmran surəsi, ayə 150.

[1465] Nisa surəsi, ayə 45.

[1466] Şeyx Səduq, ət-Tövhid, s. 208.

[1467] Fəth surəsi, ayə 11.

[1468] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 146.

[1469] Nur surəsi, ayə 35.

[1470] Şeyx Səduq, ət-Tövhid, s. 208.

İmam Əli bin Musa ər-Rza (ə) "Allah göylərin və yerin nurudur" ayəsi barədə belə buyurub: "Göylərin və yerin sakinlərini hidayət edəndir".[1471]

**2.** Zatı ilə aşkar olub başqasını aşkar edən.[1472]

**İzah:**

İnsanın gözü əşyaları göstərən nur vasitəsi olmadan həmin əşyaları görə bilməz. Lakin nurun özünü görmək üçün gözün başqa bir vasitəyə ehtiyacı yoxdur. Çünki nur özlüyündə aşkardır. Onun aşkar olması üçün başqa bir şeyə ehtiyac yoxdur. Nur sözü Allah-taala üçün işlədilməsi Allahın zatı ilə aşkar olub başqa varlıqları aşkar etməsi həqiqətinə dəlalət etmək üçündür. İmam Hüseyn (ə) Ərəfə duasında belə buyurub: "Başqası Səndən daha aşkar ola bilərmi ki, hətta Səni aşkar etsin?!"[1473]

**Qeyd:**

Allah-taalanın hiss olunan nur kimi olmasını güman etmək lazım deyil. Çünki hiss olunan nurun əksi zülmətdir və zülmət nuru aradan aparır. Lakin Allah-taala ziddinin və bənzərinin olmasından uca və pakdır.[1474]

**141. əl-Vacid.**

İmam Cəfər bin Muhəmməd əs-Sadiq (ə) belə buyurub: **"İlahi, sənin adların xatirinə Səndən diləyirəm... Sən Macid və Vacidsən..."**[1475]

**əl-Vacid isminin mənaları:**

**1.** Zəngin olan. Bu isimin əksi yoxsul mənasıdır.[1476]

---

[1471] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 1155.

[1472] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 147.

[1473] Əllamə Məclisi, Biharul-ənvar, c. 67, s. 142.

[1474] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 144.

[1475] Əllamə Məclisi, Biharul-ənvar, c. 67 ,s. 142.

[1476] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 139

Allah-taala Vaciddir. Yəni istəklərinin baş verməsi üçün bir şeyə möhtac olmayan zəngindir.[1477] Çünki hər şey Onun yanında hazırdır və Onun mülkiyyətidir. Heç bir şey Ondan ayrı və kənar ola bilməz.

2. əl-Vacid ismi "əl-vucdan" sözündən götürülübsə, alim mənasını bildirir. Aşağıdakı ayə qeyd etdiyimiz mənadadır. Allah-taala buyurur: ***"...O öz əməlinin yanında ancaq Allahın cəzasını olduğunu bilər..."[1478]***

### 142. əl-Vahid

Allah-taala buyurur: ***"Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir".[1479]***

***"Allah belə buyurdu: "İki tanrı qəbul etməyin. O (Allah) yalnız tək bir tanrıdır. Ancaq Məndən qorxun!"[1480]***

***"Ey mənim iki zindan yoldaşım! (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) ayrı-ayrı tanrılar daha yaxşıdır (ibadət olunmağa daha layiqdir), yoxsa bir olan, (hər şeyə) qadir (qalib) olan Allah?!"[1481]***

***"Allah üçün (üç ilahinin) üçüncüsüdür!" – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur..."[1482]***

**əl-Vahid isminin mənaları:**

1. Vahid ədəd baxımından çoxluğun inkar olunmasıdır.[1483]

2. Əzəldən vahid olan və onunla birgə başqa bir şey olmayan.[1484]

3. Zatı ilə yeganə olan və heç bir şeyin bənzəmədiyi.[1485]

---

[1477] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 84

[1478] Nur, 39

[1479] Bəqərə, 163

[1480] Nəhl, 51

[1481] Yusif, 39

[1482] Maidə, 73

[1483] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 190

[1484] Bax; Şeyx Təbərsi, Məcməul-bəyan, c. 6, s. 438. Rəd surəsinin 16-cı ayəsinin təfsiri.

İmam Əli bin Musa ər-Rza (ə) belə buyurub: "İnsan isimdə vahiddir, mənada isə vahid deyil. Allah-taala isə Ondan başqa həqiqi mənada vahid olmayan yeganə vahiddir. Onda ixtilaf, fərq, artıqlıq, naqislik ... olmaz".[1486]

### 143. əl-Varis

Allah-taala buyurur: ***"(O gün bütün) yer üzünə və onun üzərində olan hər şeyə yalnız biz varis olacağıq. (Bizdən başqa heç kəs və heç nə qalmayacaq). Onlar (əməllərinin cəzasını almaq üçün) Bizim hüzurumuza qaytarılacaqlar".[1487]***

***"Həqiqətən, dirildən də, öldürən də Bizik, (hər şeyə) varis olan da Biz".[1488]***

Varis malik fəna olduqdan sonra onun mülkiyyətində olanlar ixtiyarına keçən kəsdir. Allah-taala varisdir. Çünki bütün (şərti) maliklər fənaya uğradıqdan sonra onların bütün mülkiyyətlərində olan hər şey əbədi qalan Allaha qayıdır.[1489]

### 144. əl-Vasi

Allah-taala buyurur: **"...Şübhəsiz ki, Allah (öz mərhəməti ilə) genişdir, (O, hər şeyi) biləndir!"**[1490]

**əl-Vasi isminin mənaları:**

**1.** Zəngin. Ərəb dilində "سعة" sözü zənginlik mənasını ifadə edir.[1491]

---

[1485] Məhəmməd bin Məkki Amuli, əl-Fəvaid bəl-qəvaid, c. 2, s. 171.

[1486] Şeyx Kuleyni, əl-Kafi, c. 1, s. 119. Daha ətraflı məlumat üçün bu kitabın altıncı fəsli, Allah-taalanın vəhdaniyyəti mövzusuna muraciət et.

[1487] Məryəm surəsi, ayə 40.

[1488] Hicr surəsi, ayə 23.

[1489] Bax; Şeyx Səduq, ət-Tövhid, s. 208; Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 149.

[1490] Bəqərə surəsi, ayə 115.

[1491] Şeyx Səduq, ət-Tövhid, s. 208.

**2.** Elm və bilgidə geniş və əhatəli olan.[1492] Buna əsasən də əl-Vasi isminin mənası bütün məlumatları ehtiva edəndir.

**3.** Lütf, ehsan və nemət bəxş etməkdə geniş olan.[1493] Buna əsasən əl-Vasi isminin mənası yaxşı və ya pis olan hər bir kəsə nemət bəxş edən səxavətlidir. Onun ruzisi mömin və ya qeyri-mömin olan bütün yaratdıqlarına şamildir.

**4.** Qüdrətdə geniş və sonsuz olan.[1494] Buna əsasən də əl-Vasi isminin mənası heç bir şeyin qarşısında aciz olmayandır.

**5.** Allah-taalanın sifətləri və əzəmətinin sonsuz olması.

### 145. əl-Vafi, əl-Vəfi

Allah-taala buyurur: **"...buyurduğumu yerinə yetirin ki, Mən də sizinlə (sizi Cənnətə varid etmək barəsində) olan əhdə vəfa edim..."**[1495]

**"İman gətirib yaxşı işlər görənlərə gəldikdə isə, (Allah) onların mükafatlarını tamamilə verəcəkdir..."**[1496]

əl-Vafi isminin mənası yaxşılıq edənlərin mükafatını verməkdə aciz olmayan. Heç bir şey ona mane ola bilməz. Zərurət onun qüdrətində nöqsan yarada bilməz.[1497]

### 146. əl-Vali

Allah-taala buyurur: **"...Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz".**[1498]

---

[1492] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, əsh. 131.

[1493] Həmin mənbə.

[1494] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 83.

[1495] Bəqərə surəsi, ayə 40.

[1496] Ali İmran surəsi, ayə 57.

[1497] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 83.

əl-Vali ismi idarə etmək, tədbir tökmək mənasını ifadə edən "الولاية" sözündən yaranıb. Allah bizim vəlimizdir. Yəni işlərimizin idarəsi və ixtiyarımız əlində olandır.[1499]

### 147. əl-Vitr

İmam Muhəmməd bin Əli əl-Baqir (ə) belə buyurub: **"Allah-taala vitrdir və vitri sevir".**[1500]

Vitr fərd, tək mənasıdır. Allah-taala təkdir.[1501] Çünki O, ibadətə layiq olan yeganə varlıqdır. Heç kimi ibadətdə Ona şərik qoşmaq olmaz ki, ikilik olsun. Əksinə Allh-taala ibadət olunmağa layiq olmaqda vahid və yeganədir.[1502]

### 148. əl-Vədud

Allah-taala buyurur: **"...Həqiqətən, Rəbbim (bəndələrinə) rəhm edəndir, (onları çox) sevəndir!"**[1503]

**"(Bəndələrini) çox bağışlayan, çox sevən də Odur".**[1504]

əl-Vədud ismi məhəbbət və sevgi mənasını ifadə edən əl-vudd sözündən yaranıb.

**əl-Vədud isminin mənaları:**

**1. Sevən.** Allah-taala bütün bəndələrini sevir. Buna görə də onlar üçün xeyir və təkamül yolunu istəyir. Hidayət olunmaları, doğru yola yönəlmələri üçün onlara peyğəmbərlər göndərmişdir. Allah-taala

---

[1498] Rəd surəsi, ayə 11.

[1499] Bax; Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 124: Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 142.

[1500] Şeyx Kuleyni, əl-Kafi, c. 3, s. 25.

[1501] əl-Muncid fil-luğə, s. 885.

[1502] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 43.

[1503] Hud surəsi, ayə 90.

[1504] Buruc surəsi, ayə 14.

əməlisaleh bəndələrini daha çox sevir. Çünki əməlisaleh bəndələri Allaha itaət və ibadət edirlər. Buna əsasən də Allah onların dərəcəsini ucaldır və onları Özünə yaxın olanlardan qərar verir.

**2. Sevilən.** Allah-taala zatı, sifətləri və bütün felləri müqabilində sevilməyə layiq olandır.[1505] Buna əsasən də övliyalar və möminlər Allahı sevirlər. Onun xeyir, xoşbəxtlik və nicatın yeganə mənbəyi olduğunu bildikləri üçün Ona məftundurlar.

149. **əl-Vəkil**

Allah-taala buyurur: **"... O, hər şeyə vəkildir!"**[1506]

**"...Təkcə Allahın vəkil olması kifayət edər"**.[1507]

**"əl-Vəkil"** isminin mənaları:

1. Bəndələrin işlərini öhdəsinə götürən, onların işlərini idarə edən.[1508]

2. Pənah yeri, etimad edilən.[1509]

150. **əl-Vəli**

Allah-taala buyrub: **"Allah (Ona) iman gətirənlərin dostudur..."**[1510]

**"Allah sizin düşmənlərinizi (sizdən) daha yaxşı tanıyır. Bir dost və yardımçı kimi Allah (sizə) kifayət edər!"**[1511]

**əl-Vəli isminin mənaları:**

1. İşlərin ixtiyarı əlində olan[1512], bütün varlıqların işləri öhdəsində olan.

2. Dostlarının düşmənləri üzərində qələbə çalmasına kömək edən.[1513]

---

[1505] Beyhəqi, əl-Əsma vəs-sifat, c. 1, s. 141.

[1506] Ənam surəsi, ayə 102.

[1507] Nisa surəsi ,ayə 132.

[1508] Şeyx Səduq, ət-Tövhid, s. 209.

[1509] Həmin mənbə.

[1510] Bəqərə surəsi, ayə 257.

[1511] Nisa surəsi, ayə 45.

[1512] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 123.

3. Dost, sevən.[1514]

151. **əl-Vəhhab**

Allah-taala buyurur: **"...Həqiqətən, Sən böyük ehsan (kərəm) sahibisən!.."**[1515]

"əl-Vəhhab" ismi "الواهب" sözünün mübaliğə formasıdır. Bu söz əvəzzsiz hədiyə edən, bəxş edən mənasını ifadə edən "الهة" sözündən yaranıb.

Allah-taala əvəzsiz olaraq çoxlu bəxşişlər edən,[1516] qarşı tərəfin ləyaqəti olmadan belə onlara nemət verərək lütf edəndir.[1517]

**152. əl-Hadi**

Allah-taala buyurur: **"(Musa) belə cavab verdi: "Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!"**[1518]

**"Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər!"**[1519]

"əl-Hadi" ismi hidayət sözündən düzəlib dəlalət, yol göstərmək və irşad etmək mənalarını bildirir.

**İlahi hidayətin növləri:**

1. Təkvini hidayət: Allah-taala hər bir varlığın zatında onu yaratdı məqsədə çatmaq üçün hidayət edəcək səbəblər yaratmışdır.

2. Təşrii hidayət: Allah-taala peyğəmbərlər göndərmək, səmavi kitablar nazil etmək və şəriətlər vasitəsilə insanları haqq yola hidayət edir.

---

[1513] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 136.

[1514] Həmin mənbə.

[1515] Sad surəsi, ayə 35.

[1516] Muhsin Kaşani, Elmul-yəqin, c. 1, s. 116.

[1517] Beyhəqi, əl-Əsmau vəs-sifat, c. 1, s. 136.

[1518] Taha surəsi, ayə 50.

[1519] Həcc surəsi, ayə 54.

3. Xüsusi hidayət: Allah-taala ləyaqəti olan bəndələrinə mənəvi yardım və müvəffəqiyyətlərlə haqq yolda mətin olmaları üçün onları xüsusi hidayət edir.[1520]

[1520] Daha ətraflı məlumat üçün Əla Həssunun "əl-Ədl ində Məzhəbi Əhlil-Beyt (ə)" kitabının on ikinci fəslinə, "hidayət və zəlalət" mövzusuna müraciət edə bilərsiniz.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Qurani-kərim.

2. Əbulhəsən Əli bin İsmail Əşəri, “əl-İbanə ən usuliddiyanə”, Abbas Səbbağın tədqiqi ilə. Beyrut.

3. Əllamə Hilli, “əl-Əbhasul-mufidə”.

4. Əbu Mənsur Əhməd bin Əli Təbərsi, əl-İhticac”.

5. Cəmaləddin Miqdad bin Abdullah Səyuri, “İrşadut-talibin ilə nəhcil-mustərşidin”.

6. Şeyx Mufid, “əl-İrşad fi mərifəti hucəcillahi aləl-ibad”.

7. Şeyx Əbu Cəfər Məhəmməd bin Əli bin Hüdeyn bin Babaveyh Qummi Səduq, “əl-Etiqadat fi dinil-imamiyyə”.

8. Miqdad bin Abdullah Səyuri, “əl-İtimad fi şərhil-itiqad”.

9. Əllamə Hilli, “əl-Əsrarul-xəfiyyə fi ulumil-əqliyyə”.

10. Şəmsəddin Əbu Abdullah Məhəmməd bin Əbu Bəkr Zuri Diməşqi, “Əsmaullahil-husna”.

11. Cəfər Subhani, “əl-Əsmaus-səlasə; əl-İlah, ər-Rəbb vəl ibadə”.

12. Hafiz Əbu Bəkr Əhməd bin Hüseyn Beyhəqi, “əl-Əsmau vəs-sifat”.

13. Əbu Əli bin Sina, “əl-İşarat vət-tənbihat”, Xacə Nəsrəddin Tusinin şərhi ilə.

14. Seyyid Əmiduddin Əbu Abdullah Əbdulmuttəlib bin Məcduddin Hüseyn əl-Ubeydli, “İşraqul-lahut fi şərhil-yaqut”.

15. Seyyid Rəziyuddin əli bin Musa bin Cəfər bin Tavus, “əl-İqbal bil-əmal fimə yuməl mərrətən fis-sənəti”.

16. Şeyx Məhəmməd, bin Həsən Tusi, “əl-İqtisad fimə yətəlləq bil-etiqad”.

17. Şeyx Cəfər Subhani, “əl-İlahiyyat alə hudal-kitabi vəs-sunnəti vəl-əql”.

18. Şeyx Səduq, “əl-Əmali”.

19. Şeyx Əbu Cəfər Məhəmməd bin Həsən Tusi, “əl-Əmali”.

20. Şərif Murtaza, “Əmali Murtaza, ğurərul-fəvaid və durərul-qəlaid”.

21. Şeyx Mufid, “əl-Əmali”.

22. Şeyx Səduq, “əl-İmamətu vət-təbsirə minəl-hiyrə”.

23. Miqdad bin Abdullah Səyuri, “əl-Ənvarul-cəlaliyyə fi şərhil-fusulun-nuseyriyyə”.

24. Şeyx Mufid, “Əvailul-maqalat”.

25. Əli Rəbbani Gulpeyqani, “İuzahul-murad fi şərhi Kəşful-murad”.

26. Əllamə Hilli, “əl-Babu əl-hadi əşərə” Miqdad Səyurinin şərhi ilə.

27. Məhəmməd Ramazan Abdullah, “əl-Baqillani arauhul-kəlamiyyə”.

28. Əllamə Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”.

29. Əbu Talib ət-Təclil, “Bərahinu usulil-məarifil-ilahiyyə vəl-əqaidil-haqqatil-imamiyyə”.

30. Məhəmməd Murtaza Zubeydi ,”Tacul-ərus min cəvahiril-qamus”.

31. Əbu Cəfər Məhəmməd bin Cərir Təbəri, Tarixi Təbəri; Tarixul-uməmi vəl-muluk”.

32. Şeyxut-taifə Əbu Cəfər Məhəmməd bin Həsən Tusi, “ət-Tibyan fi təfsiril-Quran”.

33. Şeyx Nəsrəddin Tusi, “Təcridul-itiqad”.

34. Şeyx Mufid , Təshihu itiqadil-imamiyyə”.

35. Əbu Nəsr Məhəmməd bin Məsud bin Abbas Səmərqəndi, “ət-Təfsir”.

36. Əbussalah təqiyuddin bin Nəcm Hələbi, “Təqribul-məarif”.

37. Xacə Nəsrəddin Tusi, “Təlxisul-muhəssəl”.

38 Şeyx Səduq, “ət-Tövhid”.

39. Murtaza Mutəhhəri, “ət-Tövhid”.

40. Seyyid Kamal Heydəri, “ət-Tövhid buhusun fi məratibihi və mutiyatihi”.

41. Əbu Əli Fəzl bin Həsən Təbərsi, “Camiul-bəyan fi təfsiril-Quran”.

42. Əbu Abdullah Məhəmməd bin Əhməd Qurtubi, “əl-Camiu li əhkamil-Quran”.

43. Seyyid Abdullah Şubbər, “Həqqul-yəqin”

44. Şərif Murtaza, “Həqaiqut-təvil fi mutəşabihit-tənzil”.

45. Şeyx Əbu Cəfər bin Həsən Tusi, “Kitabul-xilaf”.

46. Şeyx Məhəmməd Həsən Muzəffər, “Dəlailus-sidq”.

47. Şərif Murtaza, “əz-Zəxirətu fi elmil-kəlam”.

48. Şeyx Tusi, “ər-Rəsailul-əşərə”.

49. Əllamə Əbu Mənsur Cəmaləddin Həsən bin Yusif Hilli, “ər-Risalətus-sədiyyə”.

50. Zeynuddin bin Əli Amuli, “ər-Rovzətul-bəhiyyə”.

51. Əllamə Hadi Səbzəvari, “Şərhul-əsmail-husna”.

52. Qazil-quzat Əbdulcəbbar bin Əhməd, “Şərhu usulil-xəmsə”

53. Şərif Əli bin Həsən Murtaza Ələmul-huda, “Şərhu cumələil-ilmi vəl-əməl”.

54. Səduddin Təftəzani, “Şərhul-məqasid”.

55. İsmail bin Həmmad Covhəri, “əs-Sihah”.

56. Əbu Abdullah Məhəmməd bin İsmail Buxari, “Səhihi Buxari”.

57. Əbulhüseyn Muslim bin Həccac Nişapuri, “Səhihi Muslim”.

58. Şeyx Məhəmməd Asifi Muhsini, “Siratul-haqqi fil-məarifil-islamiyyə”.

59. Məhəmməd Səid Ravəndi, “Ucalətul-mərifəti fi usuliddin”.

60. Şeyx Tusi, “Uddətul-usul”. Məhəmməd Rza Ənsarinin tədqiqi ilə.

61. Əbdürrəhman Cənkə Meydani, “əl-Əqidətul-islamiyyə və ususuha”.

62. Şeyx Səduq ,”İləluş-şərai”.

63. Şeyx Məhəmməd bin Murtaza; Movla Muhsin Kaşani, “Elml-yəqin fi usuliddin”.

64. Şeyx Əbu Cəfər Məhəmməd bin Əli Hüseyn bin Babaveyh Qummi; Şeyx Səduq, “Uyunu əxbarir-Rza”.

65. Seyyid Həmzə bin Əli bin Zöhrə Hələbi, “Ğunyətun-nuzu ilə elmeyyil-usuli vəl-furu”.

66. Şeyx Tusi, “əl-Ğeybə”.

67. Doktor Əhməd Mahmud Subhi, “Dirasətun fəlsəfiyyətun li arail-firəqil-islamiyyə”.

68. əs-Səhifətus-Səccadiyyə.

69. Xacə Nəsirəddin Tusi, “Qəvaidul-əqaid”.

70. Kəmaləddin Meysəm bin Əli Bəhrani, “Qəvaidul-məram fi elmil-kəlam”.

71. Məhəmməd bin Məkki Amuli, “əl-Qəvaid vəl-fəvaid”.

72. Şeyx Əbu Cəfər Məhəmməd bin Yaqub Kuleyni, “əl-Kafi”.

73. əl-Xəlil Fərahidi, “Kitabul-eyn”.

74. Əllamə Hilli, “Kəşful-fəvaid fi şərhi qəvaidil-əqaid”. Şeyx Həsən Məkki Amulinin tədqiqi və haşiyəsi ilə.

75. Əllamə Hilli, “Kəşful-murad fi şərhi təcridil-itiqad”.

76. Əbulfəth Şeyx Məhəmməd bin Əli Kəracki, “Kənzul-fəvaid”.

77. İbn Mənzur, “Lisunul-ərəb”.

78. Cəmaləddin Miqdad bin Abdullah Səyuri, “əl-Ləvamiul-ilahiyyə fil-məbahisil-kəlamiyyə”.

79. Rəşid Şərtuni, “Məbadiul-ərəbiyyə”.

80. Məhəmməd bin Əli bin Şəhr Aşub, “Mutəşabihul-Quran və muxtələfih”.

81. Şeyx Fəxrəddin Tureyhi, “Məcməul-bəhreyn”.

82. Şeyx Əbu Əli əl-Fəzl bin Həsən Tusi, “Məcməul-bəyan fi təfsiril-Quran”.

83. Əbu Cəfər Əhməd bin Məhəmməd Burqi, “əl-Məhasin”.

84. Əhməd Bəhadili, “Muhaziratun fil-əqidətil-islamiyyə”.

85. Fəxrəddin Razi, “Muhəssəlu əfkaril-mutəqəddiminə vəl-mutəəxxirinə minəl-ulmai vəl-hukəmai vəl-mutəkəllimin”.

86. Əbu Hilal əl-Əskəri, “Məcməul-furuqul-luğəviyyə”.

87. Şeyx Mufid, “əl-Məsailul-əkbəriyyə.

88. Nəcməddin Əbulqasim Cəfər bin Həsən bin Səid Hilli, “əl-Məslək fi usuliddin”.

89. Şeyx Təqiyuddin İbrahim bin Əli Amuli Kəfəmi, “Misbahul-kəfəmi”.

90. Şeyx Tusi, “Misbahul-mutəhəccid”.

91. Seyyid Murtaza əl-Əskəri, “əl-Mustəlihatul-islamiyyə”.

92. Fəxrəddin Razi, “əl-Mətalibul-aliyə minəl-ilmil-ilahi”.

93. Məhəmməd Təqi Misbah Yəzdi, “Məariful-Quran fi mərifətil-laah”.

94. İbrahim Mustafa, Əhməd Həsən Zeyyat, Hamid Əbdülqadir, Məhəmməd Əli Nəccar tərəfindən tərtib olunmuş, əl-Mucəmul-vəsit”.

95. Şeyx Abbas Qummi, “Məfatihul-cinan”.

96. Şeyx Cəfər Subhani, “Məfahimul-Quran”.

97. Raqib İsfəhani, “Mufrədatu əlfazil-Quran”.

98. Şərif Murtaza, “əl-Muləxxəs fi usulid-din”.

99. Əbulfəth Məhəmməd bin Əbdülkərim Şəhristani, “əl-Miləl vən-nihəl”.

100. Əllamə Hilli, “Mənahicul-yəqin fi usuliddin”.

101. əl-Muncid fil-luğtil-ərəbiyyə.

102. Şeyx Sədiduddin Himsi, “əl-Munqiz minət-təqlid”.

103. Qazi Əzudduddin Əbdürrəhman bin Əhməd İyci, “Kitabul-məvaqif”.

104. Əllamə Seyyid Məhəmməd Hüseyn Təbətəbai, “əl-Mizan fi təfsiril-Quran”.

105. Əllamə Hilli, “ən-Nafi yəumil-həşr fi şərhi babil-hadi əşərə”, Miqdad Səyurinin şərhi ilə.

106. Məhəmməd Təqi Misbah Yəzdi, “Nəzrətun haulə durusun fil-əqidətil-islamiyyə”.

107. Şeyx Mufid, “ən-Nukətul-itiqadiyyə”.

108. Əllamə Seyid Məhəmməd Hüseyn Təbətəbai, “Nihayətul-hikmə”.

109. Şərif Rəzi, “Nəhcül-bəlağə”.

110. Əllamə Hilli, “Nəhcul-həqq və kəşfus-sidq”.

111. Feyzul-Kaşani, “Kitabul-vafi”.

112. Məhəmməd bin Həsən Hurr Amuli, “Vəsailuş-şiə ilə təhsil məsailiş-şəriə”.

113. Əbu İshaq İbrahim bin Novbəxt, əl-Yaqut fi ilmil-kəlam”.